AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİ

FƏRHAD CABBAROV

H. Z. A. TAĞIYEVİN QIZ MƏKTƏBİNİN TARİXİNDƏN

BAKI - 2011

Milli Azərbaycan Tarixi Muzeyinin
Elmi Şurasının qərarı ilə nəşr edilir.

Elmi redaktor:
akademik Nailə Vəlixanlı

Fərhad Cabbarov.
H. Z. A. Tağıyevin qız məktəbinin tarixindən.
Bakı, «Ziya», 2011. 392 səh.

Kitab Azərbaycanın görkəmli ictimai xadimi, sahibkar, xeyriyyəçi, "millətin atası" Hacı Zeynal Abdin Tağıyevin təsis etdiyi müsəlman dünyasında ilk dünyəvi qız məktəbinin yaranma tarixinə həsr olunub. Kitabda toplanan arxiv sənədləri, o illərin dövrü mətbuatının materialları, xatirələr, fotoşəkillər bu tədris müəssisəsinin müsəlman dünyasında qadın təhsilinin inkişafı üçün əhəmiyyəti barədə geniş təsəvvür yaradır.

E-mail:farhadcabbarov@mail.ru

Mündəricat

GİRİŞ..... 5

I BÖLMƏ.
H. Z. A. Tağıyevin qız məktəbinin
tarixinə dair sənədlər və materiallar 23

II BÖLMƏ.
Qız məktəbi xatirələrdə 128

ŞƏRHLƏR 148

İXTİSARLARIN SİYAHISI

ARDTA – Azərbaycan Respublikasının Dövlət Tarix Arxivi
ARDƏİA – Azərbaycan Respublikasının S. Mümtaz adına
Dövlət Ədəbiyyat və İncəsənət Arxivi
ARTNTM – Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təhsil Muzeyi
f. – fond
MATMNF – Milli Azərbaycan Tarixi Muzeyinin Neqativ fondu
MATMSMF – Milli Azərbaycan Tarixi Muzeyinin
Sənədli mənbələr fondu
s. v. – saxlama vahidi
siy. – siyahı
v. – vərəq

GİRİŞ

XIX əsr Azərbaycan* tarixində yeni eranın başlanğıcını qoydu. Rusiya yerli xanlıqlarla, İran və Osmanlı imperiyası ilə apardığı uzun müharibələrdən sonra ölkəni öz hakimiyyəti altına keçirdi. Gülüstan (1813-cü il) və Türkmənçay (1828-ci il) müqavilələri Azərbaycanın müstəqilliyinə son qoyaraq, onun torpaqlarının Rusiya ilə İran arasında bölüşdürülməsini rəsmiləşdirdi. Eyni zamanda, Azərbaycanın Rusiyanın tərkibinə daxil olunması burada bəzi feodal qaydaların ləğvinə, onun yeni, daha mütərəqqi quruluşa cəlb olunmasına təsir etdi. Diyarın XIX əsrin ikinci yarısında inkişafın sənaye mərhələsinə daxil olması yeni ictimai-iqtisadi münasibətlərin təşəkkülü, yeni sosial qrupların yaranması, millətin formalaşması, milli özünüdərkin artması ilə müşayiət olunurdu. Bununla yanaşı, Rusiya işğalından sonra Azərbaycan Avropa mədəniyyətinə yiyələnməyə başladı. XIX əsrdə ənənəvi müsəlman və qabaqcıl Avropa sivilizasiyalarının elementlərini özündə birləşdirən yeni mədəniyyət təşəkkül tapdı. Dini təhsildən tədricən dünyəvi təhsilə keçilməsi bu yeniliyin mühüm xüsusiyyəti idi. Həmin xüsusiyyətlə sıx əlaqədə olaraq qadın təhsilinin və bütövlükdə Azərbaycan qadınının cəmiyyətdəki vəziyyətinə baxışların transformasiyası baş verirdi.

Azərbaycanda arxeoloji qazıntılar zamanı bolluq, artım rəmzi olan çoxsaylı qadın heykəlciklərinin tapılması hələ qədim dövrdə qadının ictimai mühitdə yüksək mövqeyindən xəbər verir. İslamaqədərki xalq eposlarında qadınlara xüsusi hörmətdən, onların kişilərlə bərabər hərbi işlərdə iştirakından bəhs olunur. Azərbaycanın ümummüsəlman sivilizasiyası çərçivəsinə daxil olması, islam dəyərlərinin və ənənələrin möhkəmlənməsi qadına müvafiq münasibəti şərtləndirirdi. Məhəmməd peyğəmbərin "cənnət anaların ayaqları altındadır" kimi sözləri, Xədicə, Aişə, Fatimə kimi peyğəmbər xanədanı nümayəndələrinin nüfuzları ilə hesablaşma, sözsüz ki, qadına olan böyük hörməti və inamı təsdiqləyir.[1] Müsəlman dünyasında hüquqi cəhətdən kişiyə üstünlük verilsə

* Burada və mətn boyu «Azərbaycan» adı altında Şimali Azərbaycan – indiki Azərbaycan Respublikası nəzərdə tutulur.

[1] N. Vəlixanlı. Eldənizlər xanədanı qadınlarının bölgənin və Naxçıvanın ictimai-siyasi həyatında rolu. // "Naxçıvan bu gün: islahatlar və perspektivlər". Naxçıvan, 2008, s. 53.

də, bu, qadının cəmiyyətdə özünəməxsus yer tutmasına mane ola bilməmişdir. Həyatın bir çox sahələrində o, əks cinsin nümayəndələri ilə eyni hüquqlara, o cümlədən, təhsil almaq hüququna malik idi.

İslam dini bütün ardıcıllarından Quranı oxumaq və anlamaq bacarığı tələb etdiyindən müsəlman ölkələrində, o cümlədən qadınlar arasında heç olmazsa ibtidai savad həmişə yüksək səviyyədə olmuşdur. Müsəlman xalqlarının, o cümlədən, azərbaycanlıların tarixində öz təhsili və müdrikliyi ilə məşhurlaşan bir çox qadın hökmdarlarının, ictimai xadimlərin, alimlərin, şairlərin adları qorunur. Bu, bəzi qeyri-müsəlman ilahiyyatçıların və sosioloqların, guya islamın qadını aşağı səviyyəli məxluq, kişilərin kobud istəklərinin və əyləncələrinin oyuncağı olması barədə bir sıra arqumentlərini köklü şəkildə təkzib edir. Digər tərəfdən, müsəlman ruhaniliyinin mühafizəkar hissəsinin tez-tez istifadə etdiyi digər mülahizə - dinin müsəlman qadınının təhsil almaq hüququna məhdudiyyət qoyması barədə fikri də doğru deyil.

Başqa bir məsələdir ki, müsəlmanlar arasında qadın təhsili XIX əsrdə sürətlə dəyişən zamanın tələblərinə nə dərəcədə cavab verirdi? Etiraf etmək lazımdır ki, bu dövrdə müsəlman ölkələrində, o cümlədən, Azərbaycanda qadın təhsili dövrün yeni ab-havasına uyğun deyildi. Gənc azərbaycanlı qızların məktəblərdə, mədrəsələrdə və ya ev şəraitində dinin əsaslarını, evdarlığın qaydalarını və s. öyrənmələri üçün tətbiq olunan ənənəvi sistem artıq köhnəlmişdi. Qadın məktəblərinin köklü islahatına, onların daha mütərəqqi dünyəvi xarakter daşımasına ehtiyac var idi. Bu istiqamətdə ilk addımlar XIX əsrin birinci yarısından atılmağa başladı. Belə ki, 1848-ci ildə Şamaxıda sonralar Bakıya köçürülən Müqəddəs Nina rus dünyəvi qadın tədris müəssisəsi açıldı. 1874-cü ildə Bakıda orta təhsil verən ilk qadın gimnaziyası fəaliyyət göstərməyə başladı. Lakin azərbaycanlıların bu yeni məktəblərə cəlb olunma səviyyəsi olduqca zəif idi. O illərin statistikası acı reallığı əks etdirir: 1897-ci ildə Müqəddəs Nina tədris müəssisəsində 320 nəfər təhsil alırdı, onlardan: ruslar – 153 (48,42 %), ermənilər – 109 (31,64 %), yəhudilər – 19 (6,01 %), almanlar - 17 (5,38 %), gürcülər – 11 (3,11 %), polyaklar – 5 (1,58 %), digər əcnəbilər – 9, müsəlmanlar – 3 (0,95 %) nəfər idi.[2] Yüzilliyin sonunda Azərbaycanın bütün orta məktəblərində (progimnaziyalar da daxil olmaqla) 1283 nəfər qız oxuyurdu ki, onlardan da yalnız 6-sı (0,4 %) azərbaycanlı idi.[3]

Bu cür vəziyyətin əsas səbəbi yerli cəmiyyətin qapalılıqdan və savadlılıq dərəcəsinin aşağı olmasından irəli gələn rus məktəbinə etimadsızlığı idi. Həmin

[2] "Kaspi" (rus dilində), 16 yanvar 1898-ci il.

[3] Н. Таирзаде. Из истории азербайджанской интеллигенции. Баку, 2009, с.163.

etimadsızlıq mövhümatçı müsəlman ruhaniləri tərəfindən dəstəklənirdi. Onlar nəinki uşaqların dünyəvi məktəblərə cəlb olunmasına qarşı çıxır, eyni zamanda bu təhsil ocaqlarını "islamın ruhuna zidd" hesab edir, orada dərs deyən müəllimləri lənətləyirdilər.[4]

Bu dövrdə mütərəqqi ictimaiyyətin nümayəndələri qadın təhsilinin genişləndirilməsi və Azərbaycan qadınlarının ictimai həyata cəlb olunması uğrunda daha fəal çıxış etməyə başladılar. Onlar qadın emansipasiyasına tərəqqiyə, sivilizasiyaya doğru bir hərəkat kimi baxırdılar. Xalqın rifahı və təhsil səviyyəsi qadınların azad olması ilə əlaqələndirilirdi. Bu məsələlərin həllini Azərbaycan ictimaiyyəti qızların təhsilində və tərbiyəsində görürdü. Pedaqoq və publisist Firudin bəy Köçərli yazırdı ki, yalnız təhsil müsəlman qadınına ailəni dolandıran, tərbiyəçi və evdar xanım kimi layiqli yer tutmağa imkan verə bilər.[5] Publisist və ictimai xadim Məmmədağa Şahtaxtinski deyirdi: "Qadın təhsili... elementar ümumtəhsil bilikləri verər və islam dünyasını əsaslı sosial xəstəlikdən xilas edər, çünki qadınlar qapalı həyat sürürlər. Bu həyatda fiziki və əqli sağlamlıq üçün zəruri olan hərəkətlərin, sərbəstliyin olmamağı onları ərköyün və aciz, arıq, qanı aşağı və cansız edir. Özlərinin bu çatışmazlıqlarını, əlbəttə ki, analar irsən nəinki qızlarına, hətta oğlanlarına da keçirirlər".[6]

Göründüyü kimi, müsəlman qadınlarının təhsili ziyalılar tərəfindən mühüm şərt, millətin gələcəyinin rəhni kimi başa düşülürdü. Bu cəhətdən müsəlmanların dünyanın qabaqcıl xalqlarından geri qalmalarının əsas səbəblərindən birini olduqca dəqiq açıqlayan tatar yazıçısı və din xadimi Rzaəddin ibn Fəxrəddinin (1858-1936) fikri maraq doğurur: "Bu gün müsəlmanlar arasında Fərabi, İbn Sina, əl-Buxari, İbn Xaldun, Əhməd ibn Məhəmməd ibn Hənbəl, Şəfəi, Əbu Hənifə, İbn Rüşd kimi şöhrətli, böyük alimləri görməməyimiz bizi məyus etməməlidir. Biz fikirləşməməliyik ki, guya Allah öz xəzinəsindən bizə sərf etməli olduğunun hamısını xərcləmişdir, indi biz islam aləminin yeni dahilərinin dünyaya gəlməsinə ümid bəsləyə bilmərik! Bu ən böyük yalan olardı! Ola bilsin ki, keçmişin dahiləri ilə müqayisə ediləcək böyük insanları son zamanlar müsəlmanlar arasında görməməyimizin səbəblərindən biri bu gün böyük insanları tərbiyələndirə biləcək anaların çox az olmasıdır".[7]

Azərbaycan ziyalıları təkcə dünyəvi müsəlman qız məktəbinin açılması

---

[4] Azərbaycan tarixi: 7 cilddə. Cild V. Bakı, 2001, s. 193.

[5] Н. Таирзаде. Göst. əsəri, с.138.

[6] Т. Алигейдар. Женская эмансипация: азербайджанский опыт. // www.1news.az.

[7] «Аллах еще не потратил на нас из своих сокровищ все…» // «Каспий», 19 марта 2010.

məsələsini qaldırmır, eyni zamanda bu istiqamətdə müəyyən addımlar da atırdılar. Belə ki, görkəmli pedaqoq, maarifçi Həsən bəy Zərdabi 1896-cı il yanvarın 19-da müsəlman qızlar üçün birsinifli məktəbin açılması xahişi ilə Bakı qubernatoruna müraciət etmişdi. Qubernator jandarm idarəsinin rəisinə H. Zərdabi haqqında polis məlumatlarını toplamağı tapşırmışdı. Həsən bəyə verilən mənfi xasiyyətnamə işin nəticəsini həll etmişdi.[8]

Lakin tarix belə gətirdi ki, məhz həmin 1896-cı ildə azərbaycanlı qızlar üçün dünyəvi məktəbin yaradılması ideyası meydana gəldi və onu Azərbaycan xalqının böyük oğlu Hacı Zeynal Abdin Tağıyev gerçəkləşdirdi. O, həqiqətən də XIX yüzilliyin sonu – XX yüzilliyin əvvəlləri dövrü Azərbaycan tarixinin ən parlaq şəxsiyyətlərindən biri sayıla bilər. H. Z. A. Tağıyev (1838-1924) Bakıda, kasıb ailədə dünyaya gəlmişdi. O, əmək fəaliyyətinə bənnalıqdan başlamışdı. İlkin kapital toplayan H. Z. A. Tağıyev bu vəsaiti XIX əsrin 70-90-cı illərinin ən gəlirli biznesinə - neft işinə yatırmışdı. H. Z. A. Tağıyev bu gün ölkəmizdə xüsusi önəm verilən bir işin – neftdən əldə olunan vəsaitlər hesabına qeyri-neft sektorunun inkişafının təməlini qoyan ilk Azərbaycan neft sahibkarı idi. Öz şirkətinin ingilislərə satışından qazandığı kapitalı o, Bakıda toxuculuq fabrikinin yaradılmasına sərf etdi. Hacının maraqları Azərbaycan iqtisadiyyatının bütün sahələrini əhatə edirdi; o, gəmiçilik, gəmiqayırma, enerji sektoru, pambıq, balıq, şərabçılıq sənayesinə, rabitəyə kapital qoymuş, böyük meşə massivlərinin sahibi, Bakı Tacir Bankının təsisçisi olmuş, torpaq sahələrinin alqı-satqısı üzrə əməliyyatlar aparmışdı.

H. Z. A. Tağıyev təkcə uğurlu sahibkar deyil, həm də görkəmli ictimai xadim idi. O, dəfələrlə Bakı dumasının üzvü seçilərək, şəhərin infrastukturunun inkişafına yönələn bir çox layihələrin hazırlanmasında və həyata keçirilməsində iştirak etmişdir. Onun şəhərdə at-dəmir yolunun (konkanın), Bakı-Şollar su kəmərinin tikintisinin maliyyələşdirilməsində yaxından iştirakı faktı xüsusi önəm daşıyır. 1883-cü ildə Bakıda ilk teatr binası inşa etdirən də H. Z. A. Tağıyev oldu.

H. Z. A. Tağıyevin savad və təhsili olmasa da, o, həmişə öz xalqının maariflənməsinə xüsusi diqqət vermişdir. Hacının bu sahədə fəaliyyətini "Kaspi" qəzetinin redaktoru Əlimərdan bəy Topçubaşov gözəl xarakterizə etmişdi: "Təhsilin qatı tərəfdarı olan H. Z. A. Tağıyev onunla maarif məsələləri ilə əlaqədar təmasda olanların hamısını təəccübləndirir. Heç bir təhsil almayan bu şəxsin fitri ağlı maarifin böyük qüdrətinə inamla və əminlik enerjisi ilə doludur. Müasir ziyalı insanın dilindən eşidilə bilən fikirləri söyləyərkən, təhsilin ehtiyac və tələbatlarını

[8] Г. Зардаби. Избранные статьи и письма. / Составление, предисловие, комментарии и примечания З. Б. Геюшева. Баку, 1962, с. 8.

çox vaxt ödəyən Hacı Zeynal Abdin Tağıyev məktəbə bu qədər pərəstiş etməklə, onu həqiqətən ilahiləşdirməklə öz həmsöhbətini heyrətə gətirir".[9] Hacının daha çox məktəb açmaq və onlara sponsorluq köməyi göstərmək təşəbbüsü gələcək barədə qayğıdan irəli gəlirdi. O, Bakıda, Gəncədə, Şamaxıda, Naxçıvanda, habelə Azərbaycandan kənarda – Tiflisdə, Dərbənddə, Vladiqafqazda və digər şəhərlərdə təhsil müəssisələrinin təsis edilməsinə maddi yardım göstərirdi. H. Z. A. Tağıyev Bakıdakı Orta texniki, Kommerisya məktəblərinin, Mariinski qadın gimnaziyasının fəxri hamisi, Tiflisdəki müsəlman məktəbinin fəxri nəzarətçisi vəzifələrini daşıyırdı.

Böyük azərbaycanlının cəmiyyətdəki nüfuzu hələ onun sağlığında heyranlıq doğururdu. Bir daha Ə. Topçubaşovun bu nüfuzun əhəmiyyətini səciyyələndirən fikrini misal gətirmək istərdim: "H. Z. A. Tağıyevin xeyriyyəçilik, o cümlədən, maarif sahəsində gördüyü işlər ona bizim diyarın əhalisi arasında layiqli hörmət, müsəlmanlar arasında isə əsl pərəstiş qazandırmışdı. Bunun sayəsində H. Z. A. Tağıyev yaxşı və xeyirxah işlərə həssas yanaşan insan kimi digər varlı müsəlmanlardan çox seçilir. Ona görə də bizim diyarda, habelə Rusiyanın daxili quberniyalarında yaşayan müsəlmanlar üçün nadir və ictimai xarakterli xeyirli işlər H. Z. A. Tağıyevin bu və ya digər şəkildə iştirakı olmadan baş tutmur. Bu baxımdan bizim müsəlmanlar cənab Tağıyevi digər dindaşlarına nümunə göstərməyi çoxdan adət ediblər. Sonuncular bəlkə də bakılı xeyriyyəçidən varlıdırlar, lakin insanın özündən sonra qoyub getdiyi ən yaxşı xatirə olan mənəvi keyfiyyətlər, xeyrə və nura məhəbbət cəhətdən çox kasıbdırlar".[10]

Güman etmək olar ki, Bakı quberniyası və Dağıstan vilayəti Xalq məktəblərinin müdiri A. S. Txorjevskinin İmperator II Nikolayın tacqoyma mərasimi şərəfinə Bakıda müsəlman qızlar üçün məktəb yaratmaq təklifi ilə məhz H. Z. A. Tağıyevə müraciət etməsi heç də təsadüfi deyildi. A. S. Txorjevskinin məktubuna cavab özünü çox gözlətmədi. Bir aydan sonra – 1896-cı il aprelin 24-də (məktub martın 22-də yazılmışdı) H. Z. A. Tağıyev öz vəsaiti hesabına dünyəvi rus-müsəlman qız məktəbini yaratmağa hazır olması barədə ərizə ilə Qafqaz Tədris Dairəsinin hamisi K. P. Yanovskiyə müraciət etdi.

Burada haşiyə çıxıb bir məsələyə aydınlıq gətirmək istərdim. Publisistik və elmi ədəbiyyatda belə bir fikir mövcuddur ki, guya H. Z. A. Tağıyev qız məktəbini açmaq xahişi ilə hələ imperator III Aleksandra müraciət etmiş, o isə bu xahişi rədd etmişdi. III Aleksandrın ölümündən sonra H. Z. A. Tağıyev yeni imperator II Nikolayın həyat yoldaşı Aleksandra Fyodorovnaya bahalı hədiyyə göndərmiş və

[9] "Kaspi", 22 sentyabr 1901-ci il.
[10] "Kaspi", 23 sentyabr 1901-ci il.

ondan qız məktəbinin açılmasına kömək göstərməsini xahiş etmişdi. İmperatriçəni razı salmaq üçün isə məktəbə Aleksandra Fyodorovnanın adının verilməsi barədə vəsatət qaldırmışdı.[11] Əvvəlcədən qeyd edim ki, sadalanan faktlardan heç biri nə arxiv, nə də sənədli mənbələrlə təsdiqlənmir və yalnız professor Hadı Əliyevin bir xatirəsinə əsaslanır. Qeyd edim ki, həmin professor nəinki H. Z. A. Tağıyevin müasiri olmamış, hətta bu tarixçəni öz dayısının sözlərindən nəql etmişdir. Digər tərəfdən, arxiv materialları təsdiqləyir ki, H. Z. A. Tağıyev heç vaxt şəxsən məktəblə əlaqədar imperator ailəsinə müraciət etməyib. Məktəbə Aleksandra Fyodorovnanın adının verilməsi təşəbbüsü isə həqiqətən ona məxsus idi (A. S. Txorjevskinin məktubunda məktəbə II Nikolayın qızı Olqanın adının verilməsi nəzərdə tutulurdu), lakin o, bunu imperatriçəyə deyil, K. P. Yanovskiyə məktubunda bildirmişdi.

H. Z. A. Tağıyevin K. P. Yanovskiyə məktubunu böyük mesenatın qız məktəbi haqqında ideyasının fundamental əsası hesab etmək olar. Yuxarıda göstərildiyi kimi, onun açılması təşəbbüsü hökumət orqanlarından gəlsə də, Hacı həmin təşəbbüsü özünəməxsus novatorluqla, uzaqgörənliklə dəstəkləmiş və inkişaf etdirmişdir. O, məktəb binasının tikintisinə 25 min rubl ianə etməyi, 125 min rublu isə toxunulmaz kapital kimi banka qoymağı (həmin kapitaldan əldə olunan faizlər təhsil müəssisəsinin cari xərclərini təmin etməli idi) öhdəsinə götürürdü. Hacı məktəbin təşkilati strukturunu, tədris prosesini nə cür gördüyünü ətraflı təsvir etmiş, burada Azərbaycan dilinin icbari tədrisi məsələsini qoymuşdur. Məktubun məzmunundan görünür ki, H. Z. A. Tağıyev Azərbaycanda və bütün Rusiyada ilk dünyəvi qız müsəlman təhsil ocağının açılması ideyası ilə dərindən ilhamlanmış və onun gələcək quruluşunu bütün xırdalıqları ilə nəzərdən keçirmişdir.

Lakin H. Z. A. Tağıyevin planına K. P. Yanovskinin razılıq verməsinə baxmayaraq, məktəbin açılışı bir neçə il uzanır. XIX əsrin sonu Azərbaycan cəmiyyətində qadın təhsili məsələsinin birmənalı qarşılanmadığı üçün bu işdə böyük ehtiyat və incəlik tələb olunurdu. Özünün M. Şahtaxtinskiyə məktubunda H. Z. A. Tağıyev yazırdı: "...bir yerli kimi mən müsəlman ailə həyatını və onun bütün çatışmazlıqlarını əla bilirəm. Müsəlman qadınını indi düşdüyü qapalı, fanatik həyatdan tədricən çıxarmaqdan ötrü yeganə yol var – məktəb və yenə də məktəb. Lakin həmin məktəbi elə bacarıqla yaratmaq və qurmaq lazımdır ki, müsəlmanlar heç bir kənar fikirlər olmadan ona rəğbətlə yanaşsınlar və öz qızlarını etibar edib ora göndərsinlər".[12] Çoxsaylı faktlar H. Z. A. Tağıyevin,

---

[11] M. Süleymanov. Eşitdiklərim, oxuduqlarım, gördüklərim. Bakı, 1987, s. 85-86; M. İsmayıl, M. İbrahimov. El atası. Bakı, 1994, s. 20.

[12] ARDƏİA: f. 675, siy. 2, s. v. 97, v. 1.

onun həmfikirlərinin, tərəqqipərvər ruhanilərin mürtəce din xadimlərini, cahil kütləni məktəbin açılması zəruriliyinə, islam dininin qızların oxumasına qadağa qoymadığına böyük çətinliklərlə inandırmağa çalışdıqlarını sübut edir.

H. Z. A. Tağıyev təkcə öz həmvətənlərinin müxalifəti ilə qarşılaşmadı. Hökumət dairələri tərəfindən də müəyyən maneələr törədildi. Məktəbin açılması məsələsi ən yüksək səviyyədə uzun sürən müzakirələrin, yazışmaların mövzusu oldu. Nizamnamə layihəsində məktəbin gələcəkdə progimnaziyaya, yəni orta təhsil müəssisəsinə çevrilməsinin mümkünlüyünə olan işarə Rusiyanın Xalq maarif naziri İ. D. Delyanovun narazılığına səbəb oldu. Bakı şəhər dumasının üç azərbaycanlı üzvünün Hamilər Şurasının tərkibinə daxil edilməsini nəzərdə tutan bənd də tənqidə səbəb olmuşdur.

Arxiv materialları ilə iş zamanı mən əvvəllər heç bir yerdə dərc olunmayan bir sənəd aşkarladım. Bu, Bakıda Ülyahəzrət İmperatriçə Aleksandra Fyodorovna adına müsəlman qız məktəbinin layihəsidir (bax: sənəd № 5). Layihənin tarixi və müəllifinin imzası yoxdur. Məzmunundan görünür ki, onu ya Xalq Maarif Nazirliyinin və ya Qafqaz Tədris Dairəsinin nümayəndəsi (və ya nümayəndələri) tərtib etmişdir. Bu layihə təsdiq olunduğu təqdirdə, H. Z. A. Tağıyevin bütün təşəbbüsü heç olar, məktəb isə Tədris Dairəsinə deyil, İmperatriçə Mariyanın İdarəsinə tabe olan sıravi təhsil müəssisəsinə çevrilərdi. Bu cür tabeçilik məktəbin fəaliyyətini xeyli məhdudlaşdıra bilərdi; belə ki, hər dəfə icazə almaq üçün Peterburqa müraciət etmək, bütün kadr məsələlərini ən yüksək dairələrdə razılaşdırmaq lazım olacaqdı. Bu isə uzun bürokratik əngəllərlə müşayiət edələcəkdi. H. Z. A. Tağıyevin fikrincə isə, məktəbin Bakı-Dağıstan Xalq Məktəbləri Müdiriyyətinin tabeliyində olması daha məqsədəuyğun idi. Adı çəkilən layihəyə görə məktəbin hamisi H. Z. A. Tağıyev Hamilər Şurasının sıravi üzvü, şəhər hakimi isə onun sədri olacaqdı.

Arxiv sənədləri H. Z. A. Tağıyevlə çar administrasiyasının məmurları arasında qız məktəbinin nizamnaməsinə və quruluşuna dair mübahisələrin olmasını təsdiqləyir. Hətta A. S. Txorjevski etiraf etmişdir: "Mənim etirazlarımın heç bir nəticəsi olmadı, çünki özünün çoxsaylı məsləhətçiləri tərəfindən dəstəklənən Tağıyev dediyinin üstündə dayandı və mən onun əlavələrilə razılaşmaq məcburiyyətində qaldım".[13] H. Z. A. Tağıyev də müəyyən güzəştlərə getməyə məcbur oldu. Nəticədə 1898-ci il mayın 16-da məktəbin nizamnaməsi təsdiq olunmuş, mayın 24-də isə imperatriçə təhsil müəssisəsinə onun adı ilə adlandırılmasına razılıq vermişdi.

Beləliklə, Hacı Zeynal Abdin Tağıyevin ianə etdiyi kapital hesabına təsis

[13] ARDTA: f. 309, siy. 1, s. v. 780, v. 58.

olunan İmperatriçə Aleksandra Fyodorovna adına rus-müsəlman qız məktəbinin yaranması prosesi hüquqi əsasını almış və həlledici mərhələyə qədəm qoymuşdu.

1898-ci ilin iyununda qız məktəbinin binasının inşasına başlanıldı. Yuxarıda deyildiyi kimi, H. Z. A. Tağıyev tikintiyə 25 min rubl ianə etməyi üzərinə götürmüşdü. Lakin xərclər hesablamalardan artıq çıxdığından əlavə vəsait tələb olunurdu. Beləliklə, Hacının ianələrinin ümumi məbləği 308,5 min, o cümlədən, inşaat işlərinə 183,5 min rubl təşkil etdi. H. Z. A. Tağıyevin özünün dediyi kimi, o, məktəbi miniatür şəklində qurmaq fikrində deyildi, məktəb öz təyinatına tam müvafiq olmalı idi.

Bina Bakının mərkəzi küçəsində - Nikolayevski küçəsində tikilmişdi. Tikinti üçün yerin seçilməsi tarixçəsi maraq doğurur. Belə ki, bu yerdə məscid bina olunmalı idi. Hələ 1893-cü ildə Bakıda İstanbul, Təbriz, İsfahan şəhərlərindəki məscidlərə oxşar əzəmətli Cümə məscidinin ucaldılması məqsədilə Nikolayevski küçəsində sahə ayrılmışdı. Lakin yaxınlıqda Aleksandr Nevski pravoslav kilsəsinin tikintisi ilə əlaqədar hökumət məscidin orada yerləşməsini məqsədəuyğun saymamışdı. Ona görə də sahə Tağıyevin qız məktəbinə verilmişdi.[14]

Binanın baş memarı polyak əsilli görkəmli memar İosif Qoslavski idi. O, Azərbaycan memarlığının milli-romantik ənənələrindən bacarıqla istifadə edərək, plastik və koloritli incəsənət əsəri yarada bilmişdi. П-şəkilli planı olan məktəb, binanın cənub tərəfində olan qala divarı hesabına yaranan qapalı həyətə malik idi. Bu, müsəlman şəhərinin iqlim və məişət şəraitinə tam uyğun gəlirdi. Bir-birini əvəzləyən ağ və sarı daşlardan ibarət zolaqlar daş üzərində filiqran oyma ilə birlikdə binaya xüsusi orijinallıq verirdi.[15]

Məktəb binasını layihələşdirərkən H. Z. A. Tağıyev bir daha öz uzaqgörənliyini və işgüzarlığını nümayiş etdirdi. Xalq Maarif Nazirliyinin qadağasına baxmayaraq Hacı öz məktəbini gimnaziyaya çevirmək ideyasından imtina etməmiş və bilərəkdən geniş və rahat bina tikdirmişdi. Buna görə gələcəkdə qız məktəbini ali ibtidai məktəbə çevirmək mümkün oldu. İşə bacarıqlı sahibkar kimi yanaşan H. Z. A. Tağıyev binadakı zirzəmiləri icarəyə verməyə başlamış, bu isə 1901-ci ildə məktəbin gəlirlərini təqribən 30 min rubladək artırmağa imkan vermişdi. Zirzəmilərin tikintisi zamanı xoşagəlməz nəticələrdən qaçmaqdan ötrü onları tamamilə təcrid olunmuş vəziyyətdə qurdular ki, icarədarlar binaya və məktəbin həyətinə daxil ola bilməsinlər.

---

[14] Ş. Mehdiyev. İlk qız məktəbi. // "Kommunist" qəzeti. 1 oktyabr 1988-ci il.

[15] Ş. Fətullayev-Fiqarov. Polyak memarların Bakı yaradıcılığı. Nəşr yeri və ili göstərilməyib, s. 8; F. Axundov. Savadlı millətin təməli – savadlı qadın. H. Z. Tağıyevin Bakıdakı qız məktəbi. Bakı, 2007, s. 71.

Qız məktəbinin təsisçisi qarşısında Hamilər Şurasının formalaşdırılması kimi mühüm məsələ dururdu. Yeni tədris müəssisəsinin xüsusi ictimai əhəmiyyəti bir tərəfdən nüfuzlu, digər tərəfdən isə təhsil işinə həqiqətən can yandıran adamların seçilməsini tələb edirdi. Əgər nizamnamədə şəhər hakiminin, quberniya qazısının, H. Z. A. Tağıyevin həyat yoldaşının, qadın gimnaziyasının müdirəsinin, kişi gimnaziyasının direktorunun, habelə Bakı-Dağıstan Xalq Məktəbləri Müdiriyyətinin nümayəndəsinin Hamilər Şurasının üzvü olmaları dəqiq qeyd olunmuşdusa da, Şuranın üç nəfər azərbaycanlı üzvünün seçimi şəhər dumasından və H. Z. A. Tağıyevdən asılı idi. Bu vəzifələrə seçilən Həsən bəy Zərdabi, Fərrux bəy Vəzirov və Əlimərdan bəy Topçubaşov qız məktəbinin sonrakı fəaliyyətində böyük rol oynadılar.

1901-ci ildən şagird və pedaqoji personalının formalaşdırılmasına başlanıldı. Məktəbə 7 yaşından yuxarı (sonralar yaş həddi 8-ə artırıldı) müsəlman qızlar qəbul olunurdu. İlk vaxtlarda 50 şagirdin qəbulu nəzərdə tutulurdu ki, onlardan 20 kasıb qız H. Z. A. Tağıyevin ianələri hesabına, 30 qız isə öz hesablarına oxuyur və məktəbin pansionunda qalırdılar. Lakin ödənişsiz təhsil almaq istəyənlərin sayı daha çox oldu. Vakansiyaların olmadığına baxmayaraq, Hamilər Şurası H. Z. A. Tağıyevin təklifi ilə əlavə 13 kasıb qızın qəbul olunmasına qərar verdi. Qız məktəbinin açılışı ərəfəsində pulsuz oxuyan şagirdlərin sayı 35 nəfərədək artdı, cəmi qəbul olunanların sayı isə 58-ə çatdı. Beləliklə, əvvəlcədən nəzərdə tutulan plana rəğmən pulsuz oxuyan şagirdlərin sayı öz hesabına təhsil alanları üstələdi. Şagirdlər Şuşadan, Tiflisdən, Şimali Qafqazdan gəlmişdilər, Bakı sakinlərinin sayı isə az idi.

Pedaqoji personalın seçilməsi məsələsi daha mürəkkəb oldu. Arxiv sənədlərinin təhlili Hamilər Şurasının və şəxsən H. Z. A. Tağıyevin namizədləri necə diqqətlə seçmələrini sübut edir. Pedaqoqlar qadın orta təhsil müəssisələrinin müdavimlərindən, habelə Azərbaycan dilini və müsəlman şəriətini tədris etmək hüququnu verən xüsusi imtahandan keçən şəxslərdən komplektləşdirilirdi. Nəticədə, müəllim personalının ilk tərkibini Hənifə xanım Məlikova (Zərdabi), Məryəm xanım Sulkeviç, Əsmət xanım Məmməd Əmin Əfəndi qızı və Səkinə xanım Axundova təşkil etdilər.

Nəhayət, 1901-ci il oktyabrın 7-də, günorta saat 12-də Nikolayevski küçəsindəki binada İmperatriçə Aleksandra Fyodorovna adına Bakı rus-müsəlman qız məktəbinin təntənəli açılışı oldu. "Kaspi" qəzeti bu hadisəni belə səciyyələndirdi: "Yeddi oktyabr günü Zaqafqaziyanın müsəlman əhalisinin ən mütərəqqi təbəqəsinin çoxdan arzuladığı qadın təhsili ideyasının nəhayət ki, gerçəkləşdiyi gün kimi yadda qalacaq. Və təkcə Zaqafqaziya üçün deyil, Rusiyanın qadın təhsili məsələsinin çoxdan həyati əhəmiyyət kəsb etdiyi

müsəlmanlar yaşayan bütün bölgələrinin əhalisi üçün. Bunun özü bugünkü təntənəni ümummüsəlman əhəmiyyətli edir və ona Rusiyanın bütün müsəlmanları səs verməlidir".[16] Mərasim böyük təntənə ilə keçdi. Müsəlman və pravoslav ruhaniliyinin, Azərbaycan ziyalılarının nümayəndələrinin təbrikləri, Tiflisdən, Kazandan gələn təbrik ünvanları səsləndi. Bu ünvanların hamısında bayram edilən hadisənin böyük tarixi əhəmiyyəti qeyd olunmaqla yanaşı müsəlmanların maariflənməsi naminə yeni fədakarlıq göstərən H. Z. A. Tağıyevin rolu xüsusi vurğulanırdı.[17] Ona verilən bu qiyməti tam doğruldan Hacı mərasim zamanı uzun müddət düşündüyü ideyanı səsləndirdi: "Bugünkü təntənə böyük planın yalnız başlanğıcıdır. Siz binanın üst mərtəbəsini görürsünüz: mən onu belə hesabla tikdirmişəm ki, üstündə bir mərtəbə də inşa etdirmək mümkün olsun. Mən bunu edəcəyəm, çünki məktəb müsəlman qız gimnaziyasına çevrilməlidir. İndi mənim arzum budur".[18]

Aleksandrinski rus-müsəlman qız məktəbi qapalı pansion idi. Kişilərin oraya daxil olması qadağan edilmişdi. Şagirdlər forma, yemək, tədris vəsaitləri ilə bütövlüklə H. Z. A. Tağıyevin hesabına təmin edilirdilər. Ümumi fənlərlə yanaşı məktəbdə əl işi və evdarlıq üzrə təcrübi məşğələlər də keçirilirdi. Arxiv sənədlərində məktəbdə tədris prosesinin təşkilinə, dərs cədvəlinə və şagirdlərin saxlanılmasına dair maraqlı məlumatlar vardır. Məhz bu detallar əsasında təlim-tərbiyə prosesinin qurulması, günün rejiminə, şagirdlərin yeməyinə nə cür diqqətlə yanaşılması barədə təsəvvür yaratmaq mümkün olur. Düşünürəm ki, bu məlumatların bəzilərinin verilməsi onalrın bu gün Azərbaycan məktəblərində tətbiqi baxımından faydalı olardı.

Şagirdlər səhər saat 7-də yuxudan dururdular. Saat 8-də onları yeməkxanaya, çay içməyə aparırdılar. 8.30-da dərslər başlanırdı. Dərslər I və II şöbələrdə (siniflərdə) 13.20-dək, III və IV şöbələrdə isə 14.20-dək davam edirdi. Hər dərs 50 dəqiqə olurdu. Səhər yeməyi üçüncü dərsdən sonra – 11.20-də verilirdi. 14.20-də başa çatan sonuncu - beşinci dərsdən sonra nahar, ondan sonra isə tənəffüs idi. Şagirdlər məktəbin geniş həyətinə çıxır, bir-biri ilə oynayır, istirahət edirdilər. 17.00-da onlar dərslərə hazırlaşmaq üçün siniflərə gedirdilər. Saat 19-da çay verilirdi. Saat 20-də aşağı, 21.30-da isə yuxarı şöbələrin şagirdləri yatmağa gedirdilər. Tədris həftəsi şənbə günü başlayır və cümə axşamınadək davam edirdi. İstirahət cümə günü idi.[19]

---

[16] "Kaspi", 7 oktyabr 1901-ci il.

[17] "Kaspi", 9 oktyabr 1901-ci il.

[18] Yenə orada.

[19] ARDTA: f. 309, siy.1, s. v. 805, vv. 12-14.

Məktəbin bədxahları guya şagirdlərin yeməyinin pis olması və doyunca yemədiklərinə görə onların bəzilərinin vəfat etməsi barədə yalançı şayiələr yaymağa başlamışdılar. Bu cür uydurmaları sonralar H. Z. A. Tağıyevi ləkələməyə çalışan bəzi sovet tədqiqatçıları da davam etdirdilər. Lakim məktəbin məzunlarının çoxsaylı xatirələri tam əksini sübut edir. Şagirdlərin yeməyi yüksək keyfiyyətli, kalorili və bol idi. Zəif qızlara səhhətlərini möhkəmləndirmək üçün balıq yağı verilirdi. Yeri gəlmişkən, bir faktı da qeyd etmə yerinə düşər: belə ki, H. Z. A. Tağıyevi Birinci Dünya müharibəsi illərində məktəbdə dərsləri vaxtından əvvəl dayandırmağa vadar edən səbəblərdən biri də şagirdlər üçün təzə ərzaq məhsullarının gətirilməsinin mümkünsüzlüyü idi. Bu, uşaqların qidalanmasına Hacının necə diqqətlə yanaşdığını təsdiq edir. Qız məktəbi şagirdlərinin ac qalması barədə yalanı təkzib edən tutarlı sübut kimi bir maraqlı arxiv sənədini göstərmək olar. Bu, məktəbin 1913-cü il aprelin 5-dən 11-dək menyusudur. Onu bütövlüklə təqdim edirəm:

Səhər çayı pendirlə. Səhər yeməkləri: rulet, bifşteks kartofla, bişmiş kartof yağla, xırda küftə, qırmızı turp pendirlə, qızartma lobya ilə (günlər üzrə). Nahar: gürcü şorbası, borş, kartof kotletləri, əriştəli şorba, kotletlər püre ilə, bozbaş, qutablar, düyü şorbası, dolma, yaşıl şi, plov qarnirlə. Axşam çayı pendirlə.[20] Fikrimcə, bu cür qidalanma H. Z. A. Tağıyevin ünvanına söylənilən böhtançı yalanın əsassızlığına şübhə oyatmaya bilməz.

Aleksandrinski məktəbində tədris ili sentyabrın 1-də başlayır, martın 14-də isə sona çatırdı. Fəaliyyət göstərdiyi müddət ərzində təhsil müəssisəsinin şagirdlərinin, pedaqoqlarının sayı xeyli artmış, maddi təchizatı yaxşılaşmışdı. Əgər 1907-ci ildə burada 86 qız oxuyurdusa, 1908-ci ildə onların sayı 100, 1915-ci ildə 89, 1916-cı ildə 104 nəfər oldu və həmin ildə 125-ə çatdı. 1901-ci ildə məktəb açılanda müdirə ilə birgə müəllimələrin sayı 4 nəfər idi. 1908-ci ildə onların sayı 7, 1912-1913-cü illərdə 8, 1915-ci ildə 11 nəfər oldu.[21] Çoxu H. Z. A. Tağıyevin dəvəti ilə Rusiyadan, o cümlədən, Gürcüstandan, Litvadan, Özbəkistandan, Dağıstandan, Tatarıstandan Bakıya gəlmiş, öz talelərini onun məktəbi ilə və Azərbaycanla bağlamışlar.

Azərbaycanın özündə qadın pedaqoji kadrların çatışmazlığı Hamilər Şurasını məktəbin nizamnaməsində düzəlişlər etmək məcburiyyətində qoydu. Nəticədə qeyri-müsəlman müəllimələr də işə qəbul olundu, bir kişi pedaqoq – Süleyman Əbdurəhmanov Azərbaycan dili müəllimi vəzifəsinə dəvət edildi.

1915-ci ildə məktəb binasının təqribi qiyməti 250 min rubladək artdı. Əsaslı

---

[20] ARDTA: f. 309, siy. 1, sax. v. 805, v. 19.

[21] Yenə orada, vv. 21-22; s. v. 780, vv. 136-143; s. v. 947, v. 98.

kitabxanada 314, şagird kitabxanasında isə 852 adda kitab var idi. Məktəbdə müsəlman şəriətinə, tarixə, coğrafiyaya, riyaziyyata, təbiət elmlərinə, hüsnxəttə, rəsmə, musiqiyə və digər fənlərə aid 595 tədris vəsaiti vardı; onlardan 100-ü əyani vəsait idi.[22]

Aleksandrinski məktəbi şagirdlərin uzunmüddətli yaşaması üçün bütün şəraitə, o cümlədən, xəstəxana, mətbəx, camaşırxana, hamam otaqları, sanitar xidmətlərinə malik idi. Məktəbdə xüsusi həkim, feldşer ştatı vardı, pansionda qalan qızların səhhəti daimi nəzarət altında saxlanılırdı.

Geniş, işıqlı sinif otaqlarından, rahat yataq otaqlarından və yeməkxanadan başqa Tağıyev məktəbində Azərbaycan klassiklərinin əsərlərinin tamaşaya qoyulduğu gözəl səhnə var idi. Ümumiyyətlə, qeyd olunmalıdır ki, məktəbdə qızların estetik tərbiyəsinə xüsusi diqqət yetirilirdi. Onları mütəmadi olaraq Tağıyev teatrına, kinoya aparırdılar, məktəbdə xor, ədəbiyyat və rəqs dərnəkləri fəaliyyət göstərirdi.

O illərin mətbuatı, məktəblə yaxından tanış olan çar administrasiyasının yüksək rütbəli nümayəndələri burada təlim-tərbiyə prosesinin qurulmasını yüksək qiymətləndirirdilər. Həqiqətən də məktəb müsəlman ənənələrini Avropa modernizmi ilə bacarıqla özündə birləşdirərək, Azərbaycanda dünyəvi qadın təhsilinin bariz nümunəsi rolunda çıxış edirdi. Bu, sözsüz ki, ilk növbədə məktəbin təsisçisi və hamisi H. Z. A. Tağıyevin xidməti idi. Lakin o, əlbəttə ki, təkbaşına bu ağır yükün öhdəsindən gələ bilməzdi. H. Z. A. Tağıyevin ətrafında Bakı ziyalılarının ən yaxşı nümayəndələri, qabaqcıl din xadimləri toplaşmışdı. Onların içərisində H. Zərdabini xüsusi qeyd etmək lazımdır. Məhz o, məktəb nizamnaməsini tərtib etmiş, məktəb avadanlığının alınmasına yardımçı olmuş, başqa yerlərdən Bakıya gələn və məktəbin açılışını gözləyən şagirdlərə öz evində yer vermişdir. Bakı-Dağıstan Müdiriyyətinin müfəttişi Soltan Məcid Qənizadə də daim məktəbə qayğı göstərirdi. Şeyxülislam Axund Əbdüssəlam Axundzadə, müfti Mirzə Hüseyn Əfəndi Qayıbov, Bakı qazısı Hacı Molla Cavad Axund Məhəmməd Əlizadə, axund Əbu Turab və digər din xadimləri öz çıxışları, mətbuatda yazıları ilə xalq arasında qadın təhsili ideyasını təbliğ edirdilər.

H. Z. A. Tağıyevin yaxın silahdaşı onun həyat yoldaşı, Hamilər Şurası sədrinin müavini, sonralar Hacı ilə bərabər məktəbin fəxri hamisi olan Sona xanım idi. 1915-ci ildə o, Aleksandrinski məktəbinin imkansız şagirdlərinə yardım Cəmiyyətinin təsisçilərindən biri və sədri oldu. Məzunların xatirələrinə görə Hacı və Sona xanım məktəbə gələrkən özləri ilə cürbəcür şirni gətirər, qızları öz evlərində qonaq edərdilər. Tədqiqatçı Fuad Axundovun yerində

[22] ARDTA: f. 309, siy.1, s. v. 780, vv. 136-143.

deyilmiş haqlı qeydinə görə, Aleksandrinski məktəbi bu cütlüyün altıncı övladı idi (Tağıyevlərin beş övladı var idi).

Məktəbin müəllimələri – Rəhilə Terequlova (Hacıbababəyova), Səidə Şeyxzadə, Sara Vəzrova, Nabat Nərimanova, Məryəm Gimbitskaya, Gövhər Qazıyeva və başqaları işə böyük məsuliyyətlə və ən başlıcası, sevgi ilə yanaşırdılar. Onların bəziləri ilk pedaqoji təcrübələrini məhz Aleksandrinski məktəbində aldılar, bir qismi isə doğma tədris müəssisəsinin müdavimləri idilər. Hənifə Məlikova, Məryəm Sulkeviç, Gülbahar Axrıyeva, Ədilə Şahtaxtinskaya, Səlimə Yaqubova müxtəlif illərdə məktəbin müdirələri olmuşlar. Bu müəllimlərin əksər hissəsi sonralar pedaqoji fəaliyyətlərini Azərbaycanın orta və ali tədris müəssisələrində davam etdirdilər.

1906-cı ildə məktəbin ilk buraxılışı oldu. Həmin buraxılışın 15 müdavimi, o cümlədən, Sona Axundova, Nabat Nərimanova, Səidə Şeyxzadə, Ayna Musabəyova (Sultanova), Maral Bayraməlibəyova gələcəkdə tanınmış pedaqoq, həkim və başqa sahələrin mütəxəssisləri oldular.

H. Z. A. Tağıyevin Aleksandrinski qız məktəbinə sponsorluq yardımı və hamiliyi təkcə onun təsisi və saxlanılması ilə məhdudlaşmırdı. O, 1909-cu ildə qrafinya Y. A. Vorontsova-Daşkova adına təqaüdün təsis edilməsinə 25 min rubl ayırdı. H. Z. A. Tağıyev 1913-cü ildə növbəti dəfə məktəbin ibtidaidən Mariinski məktəbləri tipli orta tədris müəssisəsinə çevrilməsi məsələsini qaldırdı. O, yenidən qurulacaq məktəbdə mütləq Azərbaycan dili tədrisinin mütləq olmasını xüsusi qeyd edirdi. Həmin ildə H. Z. A. Tağıyev Aleksandrinski məktəbi nəzdində ikiillik müsəlman qadın pedaqoji kurslarının təsis edilməsi haqqında vəsatət qaldırdı. Kurslarda ibtidai məktəb müəllimələri hazırlanmalı idi. Bu məqsədlə Hacı 100 min rubl ianə ayırdı. 1913-cü ilin aprelində hər iki məsələ müsbət həllini tapdı. Nizamnamədə belə bir dəyişiklik edildi: lazımi sayda hazırlıq siniflərinə malik olan Aleksandrinski qız məktəbi proqramına görə Mariinski qız məktəblərinə müvafiqdir. Pedaqoji kurslar isə 1915-ci ildən fəaliyyətə başladı. Kursların, habelə məktəbin özünün məzunları Azərbaycanın məktəblərində işləmək üçün pedaqoq hazırlanmasının, azərbaycanlı qadınların peşə təhsilinin formalaşmasının əsasını qoydular.

1916-cı ildə məktəbin tarixində daha bir mühüm hadisə baş verdi: onun statusu ali ibtidai məktəblərə bərabərləşdirildi. 1912-ci ildə yaranan bu tipli məktəblər dördillik tədris müddəti olan orta təhsil pillələrindən birini təşkil edirdilər. Buraya daxil olmaq üçün ibtidai məktəbi bitirmək zəruri idi.

Tağıyev məktəbi doğrudan da, müsəlman qızlar arasında dünyəvi təhsilin ilk qaranquşu oldu. 1901-ci ildə İrəvanda, 1902-ci ildə Gəncədə, 1907-ci ildə Nuxada və Ərəşdə, 1909-cu ildə Bakıda rus-Azərbaycan qız məktəbləri

açıldı. Onların ardınca Qubada, Naxçıvanda, Ağdamda, Şuşada, Şamaxıda, hətta bir çox kəndlərdə - Zəyəmdə (Göyçay qəzası), Salahlıda (Qazax qəzası), Balaxanıda (Bakı qəzası) və s. məktəblər yaranmağa başladı.[23] Bu məktəblərin müəllimələrinin çoxu Tağıyev məktəbinin və ya ikiillik pedaqoji kursların məzunları idi.

XX əsrin əvvəllərində baş verən ictimai-siyasi hadisələr qız məktəbinin fəaliyyətinə təsir göstərdi. Birinci Dünya müharibəsinin başlanması ilə əlaqədar başqa şəhərlərdən şagirdlərin gəlişi, ərzağın gətirilməsi ilə bağlı çətinliklər ortaya çıxdı. H. Z. A. Tağıyev şagirdlərin nəzərdə tutulmuş müddətdən əvvəl buraxılmasına icazə verilməsi barədə dəfələrlə Bakı-Dağıstan Xalq Məktəbləri Müdiriyyətinə müraciət etmişdi. Kənardan gələn şagirdlərin və müəllimələrin sayının azalması ilə bağlı dərslərin başlanması tez-tez təxirə salınırdı. 1917-ci il mayın 2-də məktəbin Hamilər Şurası ərzaq məhsullarının çatdırılmasında yaranan çətinliklərlə əlaqədar 1917-ci tədris ilinin sentyabrından pansionun bağlanması və yalnız dərsə gedib-gələ bilən şagirdlərin qalması haqqında qərar çıxardı.

Aleksandrinski məktəbi faktiki olaraq 1918-ci ilin əvvəlində öz fəaliyyətini dayandırdı. Bu dövr Azərbaycan tarixinə ən dramatik və qanlı dövr kimi yazıldı. Bakıda bolşeviklərin və daşnakların törətdikləri dinc azərbaycanlı əhalisinin mart soyqırımı məktəbin bağlanmasına gətirib çıxardı. Bu qanlı hadisə ərəfəsində H. Z. A. Tağıyevin ailəsində də faciə baş verdi: onun oğlu Məmmədtağı həlak oldu. Tədqiq etdiyimiz mövzu üzrə araşdırmalar məktəbin, onun pedaqoqlarının, şagirdlərinin sonrakı taleyi haqqında hər hansı müfəssəl məlumatın qalmadığını göstərir. Doğrudur, yazıların birində mənə olduqca maraqlı bir fakt rast gəldi, təəssüf ki, onu arxiv mənbələri ilə tutşdurmaq mümkün olmadı. 1918-ci ildə H. Z. A. Tağıyev şəhərdən çıxarılan qız məktəbinin və nəzdindəki pedaqoji kursların saxlanılması üçün nəzərdə tutulan toxunulmaz kapitalın – 262 min rubl dövlət rentasının axtarıb tapılması xahişi ilə Bakının andlı müvəkkillərinin birinə müraciət etmişdi. Hacı yazırdı: "...məktəbin öz mövcudluğu üçün yeganə möhkəm fonddan məhrum olunması onun fəaliyyətini dayandırır, maarifin yayılmasını ləngidir və beləliklə işıq gələn mənbəni dağıdır. Bu barədə müsəlman üçün, xüsusən də mənim üçün düşünmək çətindir, çünki bu maarif mənbəyi mənim uzun illər zəhmətimin və vəsaitlərim hesabına qurulub".[24]

1918-ci ilin mayında Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə

---

[23] Azərbaycan tarixi: c. V, s. 199.

[24] Л. Ахундова. Тагиев был чрезвычайно любознательный и жадный до знаний человек. // «Зеркало», 12 февраля 2005 г.

ölkədə sabitlik bərqərar oldu. Məktəb artıq fəaliyyət göstərməsə də, o, müstəqil Azərbaycanın tarix salnaməsinə öz rəmzi töhfəsini verdi. Məhz Nikolayevski küçəsində yerləşən binada 1918-ci il dekabrın 7-də AXC parlamentinin təntənəli açılışı oldu. Arxivdə ayrı-ayrı şəxslərin məktəbi və ya nəzdindəki pedaqoji kursları bitirmələri, lakin mart hadisələrinə görə bu barədə şəhadətnamə ala bilməmələri haqqında həmin illərə aid bir çox vəsiqələr saxlanılmışdır.[25]

AXC-nin süqutundan və Azərbaycanda sovet hakimiyyətinin qurulmasından sonra da Tağıyev məktəbinin binası özünün ictimai əhəmiyyətini itirmədi. Burada Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi, daha sonra Ali Soveti yerləşirdi. Binanın bir hissəsində böyük şair-dramaturq Hüseyn Cavid yaşamışdır. 1970-ci illərin ortalarınadək Bakı Dövlət Universitetinin bəzi fakültələri də keçmiş Aleksandrinski məktəbində fəaliyyət göstərirdi. Hal-hazırda binada üç mühüm elmi-mədəni müəssisə - Azərbaycan Milli Elmlər Akademiyasının M. Füzuli adına Əlyazmalar İnstitutu, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası və Hüseyn Cavidin ev-muzeyi yerləşir.

1924-cü ildə rus-müsəlman qız məktəbinin banisi, Azərbaycanda qadın təhsilinin pioneri Hacı Zeynal Abdin Tağıyev vəfat etdi. Ölümündən 28 il əvvəl, məktəbin təsis olunması barədə xahişlə müraciət edəndə, o demişdi: "Məktəb təhsili yolu ilə müsəlmanları öz ayrılmaz insan hüquqlarını dərk etdirməyə çatdırmaq lazımdır". İllər keçdi və qadın təhsili Şərq dünyasında adi hala çevrildi, oğlanlarla qızların birgə oxuması baş tutdu, təhsilli qadınlar kişilərlə bərabər ictimai həyata fəal qoşulmağa başladılar. Azərbaycan Şərqdə (və hətta bəzi Avropa dövlətləri arasında) qadınlara seçki hüququnu verən ilk ölkə oldu. H. Z. A. Tağıyevə bunların çoxunu görmək nəsib olmadı. Lakin qədirbilən nəsillər məhz Hacı Zeynal Abdin Tağıyevin Azərbaycan xalqına savadlı ana bəxş etməsini, ilk ziyalı qadın kadrlarını formalaşdırmasını, habelə Azərbaycanın müsəlman qadın təhsilinin istinad məntəqəsi və təkanvericisi olmasını[26] həmişə xatırlayıblar və xatırlayacaqlar.

H. Z. A. Tağıyevin şəxsiyyəti və onun millət naminə gördüyü xeyirxah işləri tədqiqatçıların daimi diqqət obyekti olub. Ona həsr edilən hər bir kitabda, mətbuatdakı məqalələrdə, televiziya verilişlərində Hacının ən vacib xidmətlərindən biri, onun mesenatlıq fəaliyyətinin zirvəsi – dünyəvi qız məktəbi xüsusi qeyd olunur. Təqdim edilən kitab həmin məktəbin tarixinə dair materiallar

[25] ARDTA: f. 309, siy. 1, s. v. 1049.
[26] ARDƏİA: f. 675, siy. 2, s. v. 114, v. 7.

toplusudur. Onların nəşr edilməsi ideyası 2009-cu ildə, Dövlət Ədəbiyyat və İncəsənət Arxivinin materialları ilə tanışlıq zamanı meydana gəlmişdir. Yeni mənbələrin aşkarlanması, əlavə ədəbiyyatla tanışlıq göstərdi ki, Aleksandrinski məktəbinin tarixi məlum oduğu qədər də naməlumdur*. Əksər sənədlər bu kitabda ilk dəfə işıq üzü görür, bəziləri isə əvvəllər nəşr olunub. Müəllif məktəbin tarixini tam əks etdirməsinə iddialı deyil. Azərbaycanın, Rusiyanın, Gürcüstanın arxivlərində onun tarixinin müxtəlif sahələrinə işıq saça biləcək hələ çox sənədlər var. Ümidvaram ki, bu istiqamətdə iş davam etdiriləcək.

Materialların tərtibi zamanı sənədlərin üslubunun və dilinin ilkin variantda, dəyişikliklərsiz saxlanılmasına cəhd edilmişdir. Yalnız bəzi hallarda sənədlərin ümumi məzmununa toxunmadan mətndə orfoqrafik və stilistik dəyişikliklərin aparılmasına yol verilmişdir. Şəhər və yer adları müasir transkripsiyada təqdim olunmuşdur. Sənəd və materialların əksəriyyəti rus dilindədir. Sənədlərin Azərbaycan dilinə tərcüməsi mətnin əsas məzmununa toxunulmadan sərbəst, bəzi ixtisarlarla edilib. Qeydlər və şərhlər müəllif tərəfindən tərtib olunub.

Kitab iki bölmədən ibarətdir. Birinci bölmə Tağıyev məktəbinin** tarixinə həsr olunub. Buradakı sənədlər və materiallar xronoloji ardıcıllıqla verilib. Onlar Azərbaycanda ilk dünyəvi müsəlman qız məktəbinin təşəkkülü haqqında oxucuda tam, bədii təxəyyüldən və əsassız arqumentlərdən uzaq təsəvvürün yaranmasına imkan verəcəklər. Oxucu təfərrüatlara daha yaxşı varmaq, qız məktəbinin fəaliyyəti ilə yaxından tanış olmaq imkanını qazanacaqdır. Düşünürəm ki, Tağıyev məktəbinin təcrübəsi Azərbaycanın müasir məktəblərinin fəaliyyəti üçün nümunə ola bilər. Təhsildə mesenatlıq, Hamilər Şuralarının yaradılması, nümunəvi təlim-tərbiyə prosesinin təşkili, məktəb binasının tikintisi – bunlar qız məktəbinin qoyduğu müsbət irsin hələ natamam siyahısıdır.

Kitabın ikinci bölməsini Aleksandrinski məktəbi haqqında xatirələr təşkil edir. Bakının yaşlı sakinləri şəhərin küçələrində əlində sənədlərdə dolu böyük bir portfellə gedən qadını yəqin ki, xatırlayırlar. O, bu sənədlərlə partiya məmurlarının, alimlərin, ədiblərin qapılarına düşərək, həqiqətə nail olmağa və ədaləti bərpa etməyə çalışırdı. Bu, Hacının və Sona xanımın qızı Sara xanım Tağıyeva-Sarayeva idi. Kapitalist H. Z. A. Tağıyev sovet ideologiysına yad

---

* 1904-cü ildə Bakıda Azərbaycan dilində Aleksandrinski məktəbinin açılmasına həsr edilimiş sənədlər toplusu çap olunmuşdur. Burada həmçinin H. Z. A. Tağıyevə ünvanlanan teleqramlar və təbriklər yer almışdır («Kitabi-himəm ər-rical təqlə əl-cibal» / Hacı Zeynalabdin Tağıyev. Tərtib edənlər: Ə. Haşimoğlu, Ə. Bağırov, P. Əlioğlu. Bakı, 1993).

** Fikrimcə, bu adın belə tez-tez təkrarlanması və hətta onun kitabın başlığına çıxarılması mübahisələrə və tənqidə səbəb olmaz. Hacının bu tədris müəssisəsinə sərf etdiyi o titanik zəhmət məktəbin məhz onun təsisçisi və hamisinin adı ilə adlandırılmasına layiq oduğuna dəlalət edir.

idi, onun adını, əməllərini ləkələməyə, saxtalaşdırmağa, onların üzərindən xətt çəkməyə çalışırdılar. Sara xanım atasının müdafiəsinə qalxdı. O, demək olar ki, bütün ömrünü arxivlərdə, kitabxanalarda işləyib, H. Z. A. Tağıyevin maarifçilik və xeyriyyəçilik fəaliyyəti haqqında zərrə-zərrə məlumat topladı. 1950-ci illərin ortalarında, "Xruşşov mülayimləşməsi" dövründə o, Hacını yaxından tanıyan adamlarla görüşməyə, onalrın xatirələrini yazıya almağa başladı. Xatirələr müxtəlif idi və onların arasında Tağıyevin qız məktəbinə aid olanlar da vardı. S. Tağıyeva-Sarayevanın özünün dediyi kimi, arxiv sənədlərinin itməsi və zaman keçdikcə tarixi yaddaşın silinməsi müsəlman qız məktəbinin banisi haqqında məsələyə qeyri-aydınlıq gətirirdi. Buna görə də o, məktəbin müəllimələri və şagirdləri ilə birgə bu qeyri-müəyyənliyi aradan qaldırmaq qərarına gəldi. Məsələ burasındadır ki, bəzi Azərbaycan müəllifləri tarixi həqiqəti təhrif edərək, Aleksandrinski məktəbinin yaradılması təşəbbüsünü Həsən bəy Zərdabinin adına çıxarırdılar. Sara xanım xatirələr əsasında H. Z. A. Tağıyevin nəinki məktəbin təsis olunmasında həlledici rolunu əsaslandırır, eyni zamanda böyük mesenatın maarifçilik fəaliyyətinin mütərəqqi əhəmiyyətini də göstərirdi. Məhz bu xatirələr hesabına qarşımızda H. Z. A. Tağıyevin şəxsiyyəti, cəmiyyətin qadın təhsili ideyasına münasibəti, Aleksandrinski məktəbinin fəaliyyəti ilə bağlı maraqlı detallar canlanır. Biz, öz həmvətənlərini müsəlman qızların təhsil almalarının zəruriliyinə inandıra bilməyən H. Z. A. Tağıyevi ümidsizlikdən ağlayan görürük: "Qızlarınızı oxutdurun, niyə onları oxutdurmursunuz? Bir baxın: oxuyan qızlar içərisində bakılı uşaqlar yoxdur. Qızlarınızı oxutdurdun. Onlar gələcəkdə ana olacaqlar və öz övladlarını tərbiyə etməyi bacarmalıdırlar. Cahil ananın böyütdüyü övlad necə olar?" – deyə dad edərək, o, cahil kütləyə müraciət edirdi. Digər sənəddə qocaman pedaqoq Səməd Acalov H. Z. A. Tağıyevin öz məktəbinin şagirdlərinə necə həssaslıqla yanaşdığını təsdiqləyən epizod haqqında məlumat verir: "Bu milyonçunun səbrlə bizi gözləməyini, imtahanlarda həmişə iştirak etdiyini və qızların cavablarından necə sevindiyini görmək xoş idi".

Aleksandrinski qız məktəbi haqqında xatirələr heç bir təhsil almayan, lakin həyatda ən böyük sərvəti – biliyi dəyərləndirən sahibkar və xeyriyyəçi H. Z. A. Tağıyevin parlaq obrazını canlandırır. O, öz məktəbinin şagirdlərinə müraciət edərək deyirdi: "Qızlar, oxumaq lazım deyil deyənlərə qulaq asmayın, əksinə, mənim sizə ata nəsihətim budur: oxuyun, bilik əldə edin, insanın həyatında bilik ən böyük sərvətdir. Bax, mən varlıyam, amma savadsızam. Ancaq savadlı olsaydım, mənim həyatım tamam başqa cür olardı. Oxuyun, övladlarım, sizə uğurlar və həyatda xoşbəxtlik arzulayıram". Onların çoxu öz himayədarlarının ümidlərini doğrultdu, layiqli həyat yoldaşı, ana oldular və doğma məktəbləri

haqqında xoş xatirələri yaşadaraq Azərbaycan ziyalılarının sıralarını artırdılar.

Sonda bu kitabın hazırlanmasında və nəşrində kömək göstərmiş insanlara təşəkkür etməyi özümə borc bilirəm. Dəyərli məsləhətlərinə və hərtərəfli dəstəyə görə elmi redaktor, akademik Nailə Vəlixanlıya xüsusi minnətdarlığımı bildirirəm.

Azərbaycan Respublikasının Dövlət Tarix Arxivinin, Azərbaycan Respublikasının S. Mümtaz adına Dövlət Ədəbiyyat və İncəsənət Arxivinin, Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin kitabxanasının, Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təhsil Muzeyinin əməkdaşlarına, şəxsən Arif Axundova, Maarif Teymurova, Mais Bağırova, Lalə Bayramovaya təşəkkürümü bildirirəm.

Vaxtilə Sara xanım Tağıyeva-Sarayeva tərəfindən toplanan bir çox sənədlərin və materialların qorunub saxlanılmasında xidməti olmuş Azərbaycanın görkəmli ictimai xadimi, mərhum Vəli Məmmədovun xatirəsini yad etməyi özümə borc bilirəm.

H. Z. A. Tağıyevin qız məktəbi haqqında materialların toplanması üzrə çoxillik əməyi kitabın yazılmasında mənə kömək etmiş Azərbaycanın təhsil tarixinin iki gözəl bilicisinə – Nərmin Tahirzadəyə və Aliyə Abbasovaya minnətdaram.

Milli Azərbaycan Tarixi Muzeyinin əməkdaşları Musa Nəsirova, Solmaz Hüseynovaya, Mehriban Əliyevaya, Aygün Babayevaya kitab üçün sənədlərin və fotoşəkillərin seçilməsində köməyə görə təşəkkür edirəm.

Kitabın hazırlanmasında göstərdikləri texniki köməyə görə Muzeyin gənc əməkdaşları Bənövşə Salamovaya, Nərmin Güləliyevaya, Emin Dadaşova minnətdarlığımı bildirirəm.

I BÖLMƏ.
H. Z. A. TAĞIYEVİN QIZ MƏKTƏBİNİN TARİXİNƏ DAİR SƏNƏDLƏR VƏ MATERİALLAR

№ 1
Bakı quberniyası və Dağıstan vilayəti Xalq məktəblərinin müdiri [1] **A. S. Txorjevskinin** [2] **H. Z. A. Tağıyevə məktubu**
22 mart 1896-cı il

Zati-aliləri cənab Qafqaz Tədris Dairəsinin hamisi [3] mənə təklif etdi ki, xalq təhsilinə biganə qalmayan şəxslərdən İmperator Həzrətlərinin müqəddəs tacqoyma mərasimi ilə əlaqədar [4] pul və ya torpaq ianələri şəklində yeni məktəblər yaratmağı, yaxud da mövcud məktəbləri genişləndirməyi xahiş edim.

Bunu nəzərə alaraq, böyük xeyriyyəçiliyi və xalq təhsilinin yayılmasında təəssübkeşliyi hamıya məlum olan bir şəxs kimi, Sizə aşağıdakı xahişlə müraciət edirəm: 1) bütün Rusiya üçün qarşıdan gələn sevincli hadisənin şərəfinə Bakıda müsəlman qızlar üçün məktəb təsis edəsiniz. Həmin məktəb Xalq Maarif Nazirliyinin bir və ya ikisinifli məktəblərinin [5] kursuna müvafiq olmalı, burada müsəlman ailəsinin ehtiyaclarına uyğun əl işi və evdarlıq tədris olunmalıdır. 2) İmperiyada hələlik yeganə olacaq Bakı müsəlman qız məktəbinin təsisinə razılığınız alındığı təqdirdə, o, İmperatorun qızı, Ülyahəzrət Böyük Knyaginya Olqa Nikolayevnanın şərəfinə "Olginski" adlandırılsın.

Cənab Qafqaz Tədris Dairəsinin hamisinə vaxtında məlumat verməyim üçün Sizdən mümkün qədər tez öz fikrinizi bildirməyi xahiş edirəm [6].

ARDTA: f. 309, siy. 1, s. v. 779, v. 6.

№ 2
Birinci gildiya Bakı taciri [7] **H. Z. A. Tağıyevin Qafqaz Tədris Dairəsinin hamisi K. P. Yanovskiyə** [8] **məktubu**
24 aprel 1896-cı il

Əlahəzrət İmperatora dərin sədaqət hisslərindən irəli gələrək, mən istəkli monarxlarını ruhən və cismən sevən əsl rus adamlarının həmişə etdiyi və etməli

olduqları kimi, İmperator həzrətlərinin gələcək müqəddəs tacqoyma mərasimini xeyriyyə işi ilə qeyd edərək, öz vəsaitim hesabına Bakıda rus–müsəlman qız məktəbini yaratmaq qərarına gəldim. Mən, nəzdində lazımi xidmətləri və şəraiti olan məktəb binasının tikintisinə iyirmi beş min rubl və ayrıca olaraq yüz iyirmi beş min rubl ianə ayırıram ki, sonuncu məbləğdən əldə olunan beş min rublluq faiz məktəbin saxlanılmasını təmin edəcəkdir. Özümə belə bir ümid verirəm ki, müvafiq rəhbər qurumlar həmin məktəbə İmperatriçə Aleksandra Fyodorovnanın [9] adının verilməsi barədə lazımi qaydada Ali icazəni ala biləcəklər.

Təsis etdiyim rus məktəbi Qafqaz Tədris Dairəsinin yerli birsinifli məktəblərinin nümunəsində olmalı, eləcə də nəzdində müsəlman ailəsinin tələbatlarına uyğun əl işinin və evdarlığın tədris olunduğu əlavə dördüncü sinif açılmalıdır.

Məktəbin nəzdində ən azı 20 şagirdlik pansion olmalıdır. Bütün şagirdlər, eləcə də müdirə, Azərbaycan dili [10], şəriət, rus dili və digər fənn müəllimələri mütləq müsəlmanlardan ibarət olmalıdır. Hamilər Şurasına daxildir: məktəbin təsisçisi (o, Şuranın üzvü və məktəbin fəxri hamisi qismində ömürlük qalır, vəfat etdiyi halda isə bu hüquqlar irsən onun böyük oğluna, ondan isə enən qohumluq xətti ilə yaşca böyük varislərə keçir); şəhər başçısı [11]; quberniya qazısı [12]; Xalq məktəblərinin müdiri; yerli Mariinski qadın gimnaziyasının müdirəsi [13]; Bakı şəhər dumasının [14] üç fəxri müsəlman üzvü və ya şəhər sakinlərindən digər fəxri müsəlmanlar.

Məktəb personalının ştatı və məktəbin saxlanılmasına tələb olunan xərclər əlavə olunur.

Müsəlmanların rus mədəni həyatından təcrid olunması islamın ehkamçı prinsipləri ilə möhkəmlənir. İslamın özü isə, hal–hazırda nəinki şərqşünas–filosofların, habelə xristian dinşünas–yazıçıların da etiraf etdiyi kimi, əslində şəriətə bəzi Asiya xalqlarının adət və ənənələrinin əlavə olunduğu incil–yevangelik təkallahlığının xüsusi formasından başqa bir şey deyil. Bu uydurma dini adət-ənənələrin istinadgahı isə müsəlman qadınının qapalılığı və onun öz insani hüquqlarını dərk etməməsidir [15].

Müsəlmanları rus sivilizasiyasına yiyələndirmək üçün onları məktəb təhsili vasitəsilə öz ayrılmaz insan hüquqlarını dərk etdirməyə çatdırmaq lazımdır. Gələcəkdə burada böyük mədəni vəzifəni yerinə yetirməli olacaq mənim təsis etdiyim məktəb məhz bu məqsədi güdür. Lakin o, müsəlman cəmiyyətinə aşılansın və minlərlə belə məktəbi həyata gətirsin deyə, gərək rəhbərlik bu məktəblərdə dövlət dilinə lazımi yer ayırmaqla yanaşı, xalqa əyani və aşkar faktlarla sübut etsin ki, həmin məktəbin şagirdlərinə doğma dili səviyyəli, fanatizmdən azad şəkildə tədrisini dəstəkləyir.

Mənim qəti qənaətimə görə (bunu müsəlman həyatı ilə yaxşı tanış olan

bütün savadlı rus və müsəlman dostlarım bölüşür), məktəbimin yalnız nəzərdə tutduğum plana uyğun yaradılması bu cür faktlardan biri ola bilər. Planlaşdırılan qız məktəbinin təsisinə icazə alınan kimi, mən həmin anda bütün lazımi xidmətlər və avadanlıqla təchiz olunmuş məktəbin tikintisi üçün Bakı şəhər idarəsinə [16] 25 min rubl köçürəcəm və tikinti ilə şəxsən məşğul olacağam. Tikinti işləri tam başa çatdıqdan və məktəb açıldıqdan sonra dərhal şəhər idarəsinə dövlət faiz kağızları və ya nağd pulla 125 min rubl köçürəcəyimi öhdəmə götürürəm.

Bu fikirlərimi ehtiramla Zati–alinizin diqqətinə çatdıraraq xahiş etməyi özümə şərəf bilirəm ki, əgər adı çəkilən məktəbin dediyim əsaslarla yaradılması planını bəyənsəniz, onda onun nəzərdə tutulan qaydada təsis olunması və məktəbə İmperatriçə Aleksandra Fyodorovnanın adının verilməsi barədə vəsatət qaldırasınız.

Dərin və yüksək ehtiramla, Zati–alinizin tam sadiq, acizanə qulluqçusu H. Z. A. Tağıyev.

ARDƏİA: f. 675, siy.2, s. v. 97, vv. 34-37.

№ 3
Qafqaz Tədris Dairəsinin müfəttişi M. R. Zavadskinin [17]
H. Z. A. Tağıyevə məktubu
25 aprel 1896-cı il

Zati–aliləri Hacı Zeynal Abdin!

Sizin 24 aprel tarixli məktubunuza cavab olaraq bildirirəm ki, cənab Dairə hamisi məktubunuzda irəli sürülən fikirləri tam bölüşərək və məktəbin açılması üçün təklif edilən planın tatar [18] qadınlarının təhsili üçün xeyirli olduğunu nəzərə alaraq, məni Zati–alinizə bildirməyi müvəkkil etmişdi ki, hami Sizin tərəfinizdən məktəbin saxlanılmasına 150000 rublun köçürülməsi haqqında məlumat aldıqdan dərhal sonra xahiş etdiyiniz vəsatəti qaldıracaq.

İşin təxirəsalınmaz olduğunu və İmperator Həzrətlərinin müqəddəs tacqoyma gününün [19] yaxınlaşdığını nəzərə alaraq, cavabı tezləşdirməyi xahiş edirəm.

Dərin ehtiram və sədaqətlə, acizanə qulluqçunuz M. Zavadski.

ARDTA: f. 309, siy. 1, s. v. 780, v.29.

№ 4
H. Z. A. Tağıyevin Bakı şəhər idarəsinə ərizəsi
29 aprel 1896-cı il

Mən, İmperator Həzrətlərinə dərin sədaqət hisslərindən çıxış edərək, onların müqəddəs tacqoyma mərasimini xeyriyyə işi – Bakıda öz vəsaitlərim hesabına nəzdində 20 nəfərlik pansionu olan rus–müsəlman qız məktəbinin təsisi ilə qeyd etmək qərarına gəldim. Həmin məqsədlə mən bütün xidmətlərlə və avadanlıqla təchiz olunan məktəb binasının tikintisinə iyirmi beş min (25000) rubl və ayrıca toxunulmaz kapital kimi yüz iyirmi beş min (125000) rubl ianə ayırıram ki, sonuncu məbləğdən gələn faizlər məktəblə pansionun saxlanılmasını təmin etməlidir.

Adı çəkilən məktəbin hansı məqsədlər üçün və hansı əsaslarda təsis olunmasını cənab Qafqaz Tədris Dairəsinin hamisinə aprelin 24-də yazdığım məktubda izah etmişəm (surəti əlavə olunur). Dairə müfəttişi cənab Zavadskinin 25 aprel tarixli 199 №-li məktubundan göründüyü kimi, Zati–aliləri öz razılığını bildirmiş və tərəfimdən təsis olunan məktəbin planını bəyənmişdir. Hazırda yalnız bir məsələ – mənim tərəfimdən məbləğ ödənildikdən sonra məktəbə İmperatriçə Aleksandra Fyodorovnanın adının verilməsinə ali icazəni almaq qalır.

Məktəbə İmperatriçə Aleksandra Fyodorovnanın adının verilməsinə icazənin alınması mütləq İmperator Həzrətlərinin müqəddəs tacqoyma mərasiminə qədər baş verməli olduğunu nəzərə alaraq, mən Bakı Şəhər İdarəsinə yüz əlli min (150000) rubl məbləğində faizli dövlət kağızları köçürürəm ki (reyestr əlavə olunur), yuxarıda deyildiyi kimi, onlardan 25000 rubl xidmətlərlə və avadanlıqla tam təchiz olunmuş məktəb binasının inşası üçün, digər 125000 rubl isə toxunulmaz kapital kimi (bu məbləğdən əldə olunmuş faizlər məktəblə pansionun saxlanılmasını təmin etməlidir) nəzərdə tutulur. Həmin kapitalı qəbul edib mənə bu barədə qəbz vermənizi, eləcə də reyestrin bir nüsxəsində faiz kağızlarının xüsusi qəbzlə qəbul olunduğu barədə qeyd olunmasını xahiş edirəm. Bununla yanaşı aşağıdakıları əlavə etməyi vacib bilirəm: 1) adı çəkilən faiz kağızlarının bir hissəsini - 25000 rublu mən məktəbin tikintisi başlayanda nağd pula çevirəcəyəm və təsdiqlənmiş planla aparılan tikintiyə özüm rəhbərlik edəcəyəm. 2) 125000 rubl həcmində kapital toxunulmaz qalmalı və yuxarıda deyildiyi kimi, ondan gələn faizlər Hamilər Şurasının sərəncamı ilə məktəblə pansionun saxlanılmasına xərclənməlidir. 3) Məktəb cənab Qafqaz Tədris Dairəsinin hamisinə göndərdiyim 24 aprel tarixli məktubda qeyd olunan şərtlər əsasında fəaliyyət göstərməlidir. Həmin şərtlərdə məndən və xələflərimdən xəbərsiz hər hansı dəyişiklik olunduğu təqdirdə, biz adı çəkilən kapitalı geri götürmək hüququnu özümüzdə saxlayırıq.

ARDTA: f. 389, siy. 6, s. v. 62, vv. 43-45.

29 aprel 1896-cı il.

Bakı şəhər idarəsi H. Z. A. Tağıyevin ərizəsinə baxaraq qərara aldı: H. Z. A. Tağıyevin açdırdığı qız məktəbinin təminatı üçün köçürülən 150000 rubl həcmində faizli kağızlar qəbul edilsin və saxlanılmaq üçün Dövlət Bankının şöbəsinə köçürülsün.

Şəhər başçısı v. i. e. – A. Saparov (imza).

İdarənin üzvləri: imza aydın deyil.

B. Əlibəyov (imza).

Arayış:

Pullar 769 №-li qəbzlə qəbul olunub.

Saxlanılmaq üçün 5325 №-li qəbzlə təhvil verilib.

Baş mühasib: (imza).

ARDTA: f. 389, siy. 6, s. v. 62, v. 45.

№ 5

Bakıda Ülyahəzrət İmperatriçə Aleksandra Fyodorovna adına müsəlman qız məktəbinin layihəsi [20]

Məqsəd və vəsaitlər

1. Müsəlman qız məktəbi İmperatriçə Mariyanın müəssisələrinə [21] bərabər tutulur və İmperator Həzrətlərinin himayəsi altındadır.
2. Bu məktəbə bilavasitə hamilik şəhər başçısının simasında Bakı şəhərinə məxsusdur: o, tədris müəssisəsinin hamisi qismində ali icazəni tələb edən işlərlə əlaqədar İmperatriçə Mariyanın müəssisələri üzrə İmperator Həzrətləri Dəftərxanasının Baş rəisinə təqdimatla müraciət edir.
3. Bu təhsil müəssisəsinin məqsədi müsəlman qızlarını tərbiyə edərək, onları gələcək vəzifələrini vicdanla və ciddi yerinə yetirməyə hazırlamaqdır. Həmin vəzifələrə daxildir:

a) uşaqları təhsil müəssisələrinə hazırlaşdırmağı bacarmaq;

b) kənd təsərrüfatı haqqında elementar biliklərlə birgə təsərrüfatın bütün sahələrini bilmək;

c) ev məişətində faydalı olan əl işləri ilə tanış olmaq.

4. Müsəlman qız məktəbi qapalı təhsil müəssisələri tipinə aiddir, lakin ora-

da daimi qalmayan pansioner qızlar [22] da oxuya bilər.

5. Bu təhsil müəssisəsinin vəsaitlərini: a) Tağıyevin ianə ayırdığı kapitaldan gələn faizlər; b) öz hesabına oxuyan şagirdlərin ödədiyi təhsil haqqı; c) şəhərin ayırdığı maliyyə yardımı təşkil edir.
6. Müsəlman qız məktəbi fəaliyyətini öz vəsaitlərindən asılı olaraq təşkil edir və heç bir halda İmperatriçə Mariyanın müəssisələrindən subsidiyalar istəmir. Bu səbəbdən də təhsil müəssisəsinin maliyyə hissəsinə İdarə nəzarət etmir.
7. Maliyyə vəsaitləri çatmadıqda şəhər bu kəsiri ödəyir və təhsil müəssisəsinin maliyyə vəsaiti üçün cavabdehlik daşıyır.

Hamilər Şurası

8. Müsəlman qız məktəbinin idarə olunması sədr, sədrin müavini, qubernator, dörd üzv, katib və xəzinədardan ibarət Hamilər Şurasına həvalə edilir.
9. Hamilər Şurasının sədri – şəhərin başçısı bu vəzifəyə İmperatriçə tərəfindən təyin olunur.
10. Sədrin müavini və üzvlər şəhər duması tərəfindən seçilir və Baş rəis tərəfindən təsdiq olunurlar.
11. Qubernator Hamilər Şurasının mütləq üzvüdür.

Müsəlman qız məktəbinin hüquqları

12. Müsəlman qız məktəbini bitirən şagirdlər xüsusi imtahan vermədən Xalq Maarif Nazirliyindən ibtidai siniflərdə, habelə kənd və şəhər məktəblərində dərs demək hüququnu verən şəhadətnaməni ala bilərlər.

Şagirdlərin komplektləşdirilməsi, qəbulu, saxlanılması və təhsili (təsisçinin istəyinə və onun göstərişlərinə müvafiq olaraq)

Müəssisənin saxlanılması vəsaitləri və hesabatlar haqqında (pansioner və daimi qalmayan qızların saxlanılması və tərbiyəsi üçün ödəniş məbləği Hamilər Şurası tərəfindən müəyyən olunur)

Öz hesabına oxuyanlar üçün açılmış vakansiyalar barədə dəqiq məlumatlar əvvəlcədən yerli qəzetlərdə dərc olunur və bu yerlər dolduqda yeni qəbul olunan şagirdlərin adı və soyadı həmin qəzetlərdə elan edilir.

Pulsuz oxuyan şagirdlərin sayı təhsil müəssisəsinin vəsaitlərinə uyğun olaraq Hamilər Şurası tərəfindən müəyyən edilir.

Məktəbə daxil olan pansionerdən illik ödənişdən əlavə ilkin tələbatlar üçün

40, daimi qalmayan pansionerdən isə 25 rubl birdəfəlik məbləğ alınır.

Ödənilən məbləğ heç bir təqdirdə geri qaytarılmır. Pansionerlər məktəbin hesabına saxlanılır, daimi qalmayanlar isə səhər və nahar yeməyi ilə təmin olunurlar.

Daimi qalmayan pansionerlər məktəbdə tətbiq olunan geyim formasına riayət etməyə borcludurlar.

Hamilər Şurası fevralın 1-i üçün Baş rəis vasitəsilə İmperatriçə Mariya Fyodorovna və Ülyahəzrət İmperatriçə Aleksandra Fyodorovnaya illik hesabat təqdim edir.

İllik hesabat həmçinin qubernator vasitəsilə Baş hakimə [23] təqdim edilir.

Fəxri hami

Məktəbin təsisçisi Hacı Zeynal Abdin Tağıyev ömürlük fəxri hami hesab olunur. Fəxri hami Hamilər Şurasının üzvüdür və məktəbin işlərinə rəhbərlik edir.

Qulluqçuların hüquqları, onların təyinatı və azad olunması

Bu tədris müəssisəsində qulluq edən şəxslər İmperatriçə Mariyanın İdarəsinin mundiri ilə təmin olunurlar.

Qeyd. Başqa idarədə qulluq edən şəxslər muzdla işə qəbul oluna bilərlər.

Müsəlman qız məktəbinin müfəttişinin seçilməsi və işdən azad olunması fəxri haminin göstərişi və razılığı ilə Hamilər Şurasında həll edilir və Ülyahəzrət İmperatriçənin icazəsi alındıqdan sonra Baş rəis tərəfindən təsdiq olunur.

Müdirəni Hamilər Şurası ilə razılaşdırdıqdan və İmperatriçədən icazə alındıqdan sonra fəxri hami seçir və azad edir. Müdirəni Ülyahəzrət İmperatriçə təsdiq edir.

İşə qəbul üçün sınaq müddəti 4 aydır. İşə qəbul olunduğu təqdirdə, sınaq müddəti həqiqi xidmət kimi qəbul edilir.

Müfəttiş vəzifəsi 7-ci, tədris hissə müdiri isə 8-ci dərəcədə tətbiq olunur.

1868-ci ildə təsdiq olunan "Müəllim vəzifəsini tutmaq üçün xüsusi sınaqlar haqqında Qaydalar"a müvafiq sınaqdan keçmə haqqında şəhadətnamə təqdim edən fənn və dil müəllimləri xidmət üzrə 8-ci dərəcənin hüquqlarından, bu cür şəhadətnaməni təqdim etməyən, lakin qadın təhsil müəssisələrinin nizamnaməsinə görə müəllim vəzifəsini tutmaq hüququna malik olan şəxslər isə xidmət üzrə 9-cu dərəcənin hüquqlarından istifadə edirlər.

Gimnaziya müəllimləri, ev müəlliməsi və ya müəllimi şəhadətnaməsinə malik şəxslər fənn və dil müəllimləri kimi işə qəbul oluna bilərlər.

Fənn və dil müəllimləri vəzifələrinə uyğun dərəcədə dörd il qulluq etdikdən sonra bu dərəcəyə müvafiq rütbədə təsdiq olunurlar, sonra isə vəzifələrinə uyğun

dərəcədən üç rütbə artıq qaldırıla bilərlər.

Rəsm və musiqi müəllimləri 10-cu, nəğmə, rəqs və hüsnxət müəllimləri isə 12-ci dərəcəyə bərabər tutulur. Onlar ev müəllimləri üçün qoyulan müddətdə həqiqi xidmət keçdikdən sonra dərəcələrinə uyğun və ondan iki rütbə artıq alırlar.

Bu təhsil müəssisəsində qulluq edənlər mülki xidmətdə olan şəxslər üçün müəyyən olunmuş qaydalara uyğun İmperiya ərazisində və xaricə məzuniyyətə buraxılırlar.

Təhsil müəssisəsində çalışan qadınlar fərqlənmə və qüsursuz xidmətə görə Mariinski nişanı ilə təltif oluna bilər, lakin onlar illik əməkhaqqı miqdarında pul mükafatı ala bilməzlər.

ARDTA: f. 309, siy. 1, s. v. 780, vv. 33-37.

№ 6
H. Z. A. Tağıyevin Məmmədağa Şahtaxtinskiyə [24] **məktubu**
4 may 1896-cı il

Əziz Məmmədağa!

Sizə şəxsən məlumdur ki, məni Bakıda rus–müsəlman qız məktəbini yaratmağa vadar edən mülahizələr hansılar idi. Bunların hamısını mən qısa, lakin olduqca aydın şəkildə Zati–aliləri Kiril Petroviçə yazdığım 24 aprel tarixli məktubda izah etmişəm. Fikrimcə, həmin mülahizələri təkrarlamağa ehtiyac yoxdur, lakin bircə bunu əlavə edim ki, bir yerli kimi mən müsəlman ailə həyatını və onun bütün çatışmazlıqlarını əla bilirəm. Müsəlman qadınını indi düşdüyü qapalı, fanatik həyatdan tədricən çıxarmaqdan ötrü yeganə yol var – məktəb və yenə də məktəb. Lakin həmin məktəbi elə bacarıqla yaratmaq və qurmaq lazımdır ki, müsəlmanlar heç bir kənar fikirlər olmadan ona rəğbətlə yanaşsınlar və öz qızlarını etibar edib ora göndərsinlər. Məhz buna görə mən bildirmişdim ki, həm şagirdlər, həm məktəbin müdirəsi, eləcə də müəllimələr müsəlman olmalı, əks təqdirdə, oraya şagirdləri cəlb etmək qeyri–mümkündür. Məktəb müsəlmanların etibarını qazanandan sonra isə tədricən, hiss olunmadan orada rus mədəni həyatının uyğun elementlərini tətbiq etmək olar, lakin indi bu barədə söhbət gedə bilməz, çünki zaman özü nə etməyin lazım olduğunu göstərər. Mən məhz bu əsaslara söykənir və arzulayıram ki, qeyd etdiyim məktubda göstərilən plana əsasən məktəbin təşkilinə icazə verilsin, çünki müsəlmanların tam etibarla öz qızlarını məktəbə göndərməyinə başqa yolla nail olmaq mümkün deyil. Bu məktəbə süpürgəçidən başqa, kişilərin daxil olmasına qəti qadağa qoyulacaq, həm də süpürgəçi ailəli olmalıdır. Beləliklə, əgər məktəbdə işləyən qadınlardan

kimsə ərdə olarsa, onda sonuncunun da məktəbə daxil olması qəti qadağandır. Mənim bu fikirlərimi, habelə nacib niyyətlərimi Zati–aliləri Kiril Petroviçə və Mixail Romuleviçə çatdırmağınızı xahiş edirəm. Bununla bərabər mənim 150 min rubl ayırmağım barədə Bakı şəhər idarəsinə ərizəmin və həmin məbləğin qəbul olunması haqqında idarənin qərarının sürətlərini Sizə göndərir və xahiş edirəm ki, onları müvafiq yerlərə şəxsən çardırasınız. Böyük istəyimə baxmayaraq, mən özüm Tiflisə gedə bilmirəm, çünki xəstəyəm, xəstəlik isə kənd məktəblərinin təşkilində iştirak etdiyim Maştağa kəndində ehtiyatsızlığım ucbatından daha da şiddətlənib. Adı çəkilən qız məktəbi üçün 150 min rubl ayırarkən, mən onlardan 25 min rublu məktəbin tikintisi üçün nəzərdə tutmuşdum. İndi məlum olur ki, yaxşı hesablamamışam: məktəbi miniatür şəkildə təşkil etmək niyyətində deyiləm, o, öz təyinatına tam müvafiq olmalıdır. Bu isə memarın tərtib etdiyi çertyojlara və smetaya görə 60000 rubladək başa gələcək, ona görə əlavə 35000 rubl verməliyəm. Məbləğ olduqca böyükdür, lakin Allah mərhəmətlidir. Ən əsası məqsədə çatmaqdır. Çünki bütün bu işlər cəmiyyətin və hökumətin xeyrinədir.

Yeri gəlmişkən, qeyd etməyi özümə borc bilirəm ki, qız məktəbinin saxlanılmasına adı çəkilən kapital ayırarkən, bildirdiyim məqsədlərdən başqa bir şey güdməmişəm. Buna görə, yazdığınız məktubda işarə etdiyiniz kimi, əgər Maarif Nazirliyi addımımı həvəsləndirərək, məni Müqəddəs Vladimir ordeni [25] ilə təltif edərsə, onda mən bu mükafatı yüksək qiymətləndirməyi özümün mənəvi borcu sayıb, Bakı realnı məktəbinin tikintisinə 10 min rubladək ianə ayırmağı söz verirəm, çünki həmin məktəbin tikintisinə həqiqətən də hamı təəssübkeşliklə yanaşır.

Bunu da əlavə etməyi lazım bilirəm ki, Bakı şəhər dumasının qız məktəbini təsis etmək haqqında xahişimi nə vaxt müzakirə edəcəyi məlum olmadığından, mən dumanın qərarının surətini hələlik göndərə bilmirəm. Hər halda hesab edirəm ki, bu qərarın olmamağı işi ləngitməməlidir. Yuxarıda deyilənlərdən asılı olmayaraq, Sizdən onu da məruzə etməyi xahiş edirəm ki, qız məktəbinin tikintisi layihəsi və çertyojlar başa çatan kimi mən onları Zati–aliləri Kiril Petroviçin nəzərinə çatdıracağam. Qoy o, bu məktəbin nümunəvi olacağına əmin olsun. Sizə öz hörmətini və dərin ehtiramını ifadə edən H. Z. A. Tağıyev.

ARDƏİA: f. 675, siy. 2, s. v. 97, vv. 1-4.

№ 7
"Kaspi" qəzetində [26] **dərc edilən məqalə**
5 iyun 1896-cı il

Artıq "Kaspi"nin oxucularına məlum olduğu kimi, öz dindaşları arasında maarifin yayılması yolunda əzmkar fəaliyyəti hamıya yaxşı bələd olan "H. Z. A. Tağıyev və oğulları" ticarət evinin [27] başçısı Hacı Zeynal Abdin Tağıyev yalnız öz vəsaitinə Bakıda rus–müsəlman qız məktəbini açdırmaq fikrinə düşüb. Müsəlman qızları üçün məktəbin açılması bütün diyarda, bəlkə də imperiyada birinci olduğundan, təhsilin möhtərəm təəssübkeşinin bu böyük işdə ölçüyə gəlməz xidmətlərini nəzərə almaqla yanaşı, biz oxucuları gələcək təhsil müəssisəsinin təşkili və onun açılmasına səbəb olan motivlərlə tanış etmək istərdik. Cənab Tağıyevin Qafqaz Tədris Dairəsinin hamisinə göndərdiyi məktubda göstərildiyi kimi...*

Qafqaz Tədris Dairəsinin hamisi öz cavabında bildirmişdir ki, o, məktubda səslənən fikirlərlə tam razıdır, məktəbin açılmasına dair planları tatar qadınlarının təhsili üçün faydalı olduğu qənaətindədir və cənab Tağıyevin məktəbin saxlanılmasına lazım olan pul vəsaitini köçürməsi haqqında bildiriş aldıqdan sonra onun – Tağıyevin xahişi ilə bağlı vəsatət qaldırılacaq. Beləliklə, Bakıda ilk müsəlman məktəbinin təsis edilməsi kimi mühüm məsələ bir tərəfdən, ianəçinin xeyirxahlığı, digər tərəfdən isə geniş maarifpərvər qayğıkeşliyi Qafqazdan xeyli uzaqda olan məşhur möhtərəm hami K. P. Yanovskinin təşəbbüskarın planlarına canıyananlıqla yanaşması nəticəsində tez və ənənəvi formal bürokratik əngəllərsiz əsasən həll olunub.

ARDƏİA: f. 675, siy. 2, s. v. 106, vv. 68-70.

№ 8
K. P. Yanovskinin A. S. Txorjevskiyə məktubu
14 yanvar 1897-ci il

Bununla cənab Tağıyevin mənə ünvanladığı 24 aprel tarixli məktubunun surətini, eləcə də birsinifli ibtidai rus–tatar qız məktəbinin (nəzdində əlavə təcrübə sinfi ilə) saxlanılmasına kapitalın ianə edilməsi haqqında ərizəsini göndərərək, Bakı şəhərində həmin məktəbin açılmasına icazə verirəm. Məktəbə 1867-ci il Əsasnaməsi şamil olunmalıdır. Bununla yanaşı, cənab

* Arxivdə saxlanılan qəzetin surətində məqalənin mətni yarımçıqdır.

Xalq Maarif nazirinin təsdiqinə vermək üçün cənab Tağıyevlə razılaşdırılmış məktəb nizamnaməsini sonuncu redaksiyada hazırlamağı Sizdən xahiş edirəm.

ARDTA: f. 309, siy. 1, s. v. 780, v. 28.

№ 9
K. P. Yanovskinin H. Z. A. Tağıyevə məktubu
8 aprel 1897-ci il

Zati–aliləri Hacı Zeynal Abdin!

Vəsatətimə cavab olaraq cənab Xalq Maarif naziri mənə bildirmişdir ki, Nazirliyin Sizin təklif etdiyiniz şərtlər əsasında...* Bakı şəhərində rus–tatar qız məktəbinin təşkil olunmasına etirazı yoxdur.

Məktəbə İmperatriçə Aleksandra Fyodorovnanın adının verilməsi ilə bağlı vəsatətə gəldikdə isə, bu cür vəsatət yalnız ianə edilən kapitalın dövlət qiymətli kağızları və ya dövlətin təminat verdiyi kağızlar şəklində Xalq Maarif Nazirliyinin xüsusi vəsaitlərinə köçürülməsi haqqında bildirişin alınmasından sonra İmperatriçənin Ali nəzər-diqqətinə çatdırıla bilər.

Bunları bildirərək, sonrakılar barədə məni məlumatlandırmağınızı xahiş edirəm.

Əsl hörmət və etibarla acizanə qulluqçunuz K. Yanovski.

ARDTA: f. 309, siy. 1, s. v. 780, v. 38-39.

№ 10
A. S. Txorjevskinin Qafqaz Tədris Dairəsi hamisinin Dəftərxanasına məktubu
27 sentyabr 1897-ci il

Nəzərinizə çatdırıram ki, cənab Tağıyev olmadığından mən onun işlər müdiri K. A. İretskiyə [28] müraciət etdim. O, mənə bildirdi ki, cənab Tağıyev cari il iyulun 18-də müsəlman qız məktəbinin nizamnaməsinin layihəsini** və məktəbin təminatı, onun "Aleksandrinski" adlanmasına icazənin alınması üçün 25000 rublun Dövlət Bankının Bakı şöbəsinə köçürməsi haqqında qəbzi cənab

---

* H. Z. A. Tağıyevin K. P. Yanovskiyə və şəhər idarəsinə yazdığı məktublarda sadalanan təkliflər təkrarlanır (bax: sənəd № 2 və № 4].

** Bax: sənəd № 15.

hamiyə təqdim edib. Nizamnamənin layihəsi təsdiq olunduqdan sonra cənab Tağıyev dərhal məktəb binasının tikintisinə başlayacaq.

ARDTA: f. 309, siy. 1, s. v. 780, v. 56.

№ 11
Rusiya imperiyasının Xalq Maarif naziri İ. D. Delyanovun [29]
K. P. Yanovskiyə məktubu
9 noyabr 1897-ci il

Zati–alinizin Xalq Maarif Nazirliyinə göndərdiyiniz Bakı şəhərində tacir Tağıyevin vəsaitinə təsis olunan Ülyahəzrət İmperatriçə Aleksandra Fyodorovna adına rus–tatar qız məktəbinin nizamnaməsinin layihəsinə* baxaraq, orada aşağıdakı düzəlişləri etməyi vacib hesab edirəm:

Adı çəkilən məktəbin Qafqaz Tədris Dairəsinin ibtidai məktəbləri haqqında 25 iyun 1867-ci il tarixli Əsasnaməyə [30] tabe olacağından və nizamnamənin məktəbə Ülyahəzrət İmperatriçənin adının verilməsinə ali icazənin alınmasından sonra təsdiq ediləcəyindən, həmin nizamnamənin ilk iki paraqrafı aşağıdakı kimi olmalıdır:

1. İmperatriçə Aleksandra Fyodorovna adına Bakı rus-müsəlman qız məktəbi Qafqaz Tədris Dairəsinin ibtidai məktəbləri haqqında 25 iyun 1867-ci il tarixli Əsasnaməyə (Qanunlar toplusu, c. XI, I hissə, 1893-cü ilin nəşri, sütun 3550-3567) tabedir, həmçinin aşağıdakı qaydaları özünə rəhbər tutur:
2. Məktəb I gildiya Bakı taciri Hacı Zeynal Abdin Tağıyevin İmperator Əlahəzrətləri Nikolay Aleksandroviç və Aleksandra Fyodorovnanın müqəddəs tacqoyma mərasimi münasibətilə ianə ayırdığı kapital əsasında müsəlman qızlara elementar təhsil vermək məqsədilə Bakı şəhərində təsis olunur.

Nizamnamə layihəsinin 3-cü paraqrafındakı qeyddə məktəbin dördsinifli progimnaziyaya [31] "çevrilməyinin" mümkünlüyü göstərilir, bu isə yersizdir, çünki təsis olunan məktəb ibtidai məktəbdir, progimnaziya isə orta təhsil müəssisələri növünə aiddir. Əgər cənab Tağıyev gələcəkdə, ehtiyac olarsa, müsəlman qızlar üçün progimnaziya təsis etmək istəsə, o, bununla bağlı ayrıca vəsatətlə müraciət etməlidir. Açılacaq məktəbdə tədris kursunun genişləndirilməsinə gəldikdə isə, bu, ehtiyac yarandığı təqdirdə, xüsusi icazə ilə, Qanunlar toplusunun 3553-cü və 3558-ci maddələrinə əsasən (XI cild, I

* Bax: sənəd № 15.

hissə, 1893-cü il) məktəbin birsiniflidən ikisinifliyə çevrilməsi şəklində baş tuta bilər. Zati–aliniz bunu cənab Tağıyevə izah etməlidir. Göstərilən mülahizələrə görə, həmin qeyd nizamnamədən çıxarılmalıdır.

7-ci paraqrafda məktəbin vəsaitləri haqqında danışılır və c) bəndində "Bakı şəhərindən subsidiyalar" və "konsert, tamaşa, gəzinti və s. əldə olunan gəlir" xatırlanır. Əgər Bakı Şəhər Duması məktəbin saxlanılmasına illik müavinətin verilməsi haqqında qərar qəbul edibsə, bu barədə daha aydın demək və dumanın qərarına istinad etmək lazımdır. Qərarın surətini isə məlumat üçün Xalq Maarif Nazirliyinə təqdim etmək vacibdir. Belə qərar yoxdursa və söhbət dumanın şəhər büdcəsindən ayıracağı müvəqqəti müavinətlərdən gedirsə, onları, habelə təsadüfi gəlirləri birdəfəlik ianə olduğu üçün məktəbin vəsaitləri sırasında xüsusi qeyd etməyə ehtiyac yoxdur. Konsertlərdən, tamaşalardan və s. əldə olunan gəlirlər isə nizamnamədən çıxarılmalıdır, çünki tədris müəssisələrinə öz xeyirlərinə kütləvi pullu tədbirlər keçirmək hüququ verilmədiyindən onlara məktəbin saxlanılması vasitələri kimi baxmaq olmaz.

8-ci paraqrafdakı qeyddə deyilir ki, cənab Tağıyevin tikdirdiyi bina məktəbə verildikdən sonra məktəb öz vəsaitləri ilə onun saxlanılmasını təmin etməlidir. Fikrimcə, bu qeyd artıqdır, çünki məktəbin ştatında artıq bunun üçün müəyyən məbləğ nəzərdə tutulub. 9-cu paraqrafa (Hamilər Şurasının tərkibi) aşağıdakı iradlar var: 1) 1-ci bəndi bu cür dəyişdirmək lazımdır: "əgər yaşı azdırsa və ya həddi–buluğa çatmayıbsa, onda qəyyumu və ya hamisi onun nümayəndəsi hesab edilir". 2) 7-ci bənddə deyilir: "Bakı şəhər dumasının seçiminə görə şəhərin fəxri müsəlmanlarından üç nəfər Hamilər Şurasına daxildir". Əgər duma cənab Tağıyevin təsis etdiyi məktəbin saxlanılmasına şəhər büdcəsindən xeyli vəsait ayırsaydı, onda onun məktəbin idarəetməsində belə geniş iştirakı əsaslı olardı. Bu səbəbdən də Hamilər Şurasında şəhər adından bir nəfərin üzv qalması kifayətdir, özü də həmin paraqrafın 2-ci bəndində üzvlər sırasında şəhər başçısı da göstərilib. 3) 9-cu bəndə görə, Hamilər Şurasının mütləq üzvü kimi Xalq məktəblərinin müdiri göstərilib, lakin bu o qədər də düz deyil, çünki 3-cü paraqrafa əsasən məktəb Müdiriyyətin bilavasitə rəhbərliyi altındadır. Əslində olmalıdır: "mütləq üzv - Tədris Dairəsi Hamisinin təyinatına əsasən tədris idarəsindən bir nəfər". 4) Bu paraqrafa olunan qeyddən "sədrin – fəxri haminin göstərişi ilə" sözləri çıxarılmalıdır, çünki onlar əvvəl gələn "seçilir" sözünə ziddir. Ümumiyyətlə isə, aydınlıq üçün bu qeydi aşağıdakı redaksiyada vermək lazımdır: "Hamilər Şurası sədrinin müavini şura tərəfindən üzvlərdən seçilir və sədr olmadıqda, onun vəzifələrini icra edir". 10-cu paraqrafın a) bəndində "təqdim etmək" sözlərindən sonra "Xalq məktəblərinin müdiri" əlavə

olunmalıdır. 18-ci paraqraf belə olmalıdır: "İşlərə dair bütün yazışma Hamilər Şurası sədrinin imzası ilə aparılır".

Beləliklə, nizamnamənin layihəsini geri qaytararaq, cənab Tağıyevlə əlaqə saxlamağınızı və qeyd olunan əlavə və düzəlişləri aparıb layihəni yenidən təsdiq olunmaq üçün Xalq Maarif Nazirliyinə təqdim etmənizi Zati-alinizdən xahiş edirəm.

ARDTA: f. 309, siy. 1, s. v. 780, vv. 41-43.

№ 12
K. P. Yanovskinin A. S. Txorjevskiyə məktubu
(Tarix göstərilməyib)

Cənab Tağıyevi Xalq Maarif nazirinin rəyi ilə* tanış etməyi Zati–alinizdən xahiş edirəm.

Mənim fikrimcə, məktəb nizamnaməsinin layihəsində paraqrafların dəyişdirilməsi və onların cənab nazirin göstərişlərinə uyğun razılaşdırılması yalnız məktəbin möhkəmləndirilməsinə və gələcək inkişafına kömək edəcək.

Cənab nazirin bu təklifini, Tağıyevin 15 iyul tarixli məktubunu, Tağıyevin adından nizamnamənin layihəsini geri qaytarıb sonrakılar barədə məni məlumatlandırmağınızı xahiş edirəm.

ARDTA: f. 309, siy. 1, s. v. 780, v. 44.

№ 13
A. S. Txorjevskinin K. P. Yanovskiyə məktubu [32]
(Tarix göstərilməyib)

Çox böyük əziyyətlə, K. A. İretskinin köməyi ilə cənab Tağıyevi müsəlman qız məktəbinin nizamnamə layihəsini dəyişdirməyə razı salmaq mümkün oldu. 9-cu paraqrafın 8-ci bəndindən və məktəbin ştatında 2 №-li qeyddən başqa bütün dəyişikliklər Nazirliyin göstərişlərinə əsasən edilmişdir. Həmin bənd nizamnamədə belə səslənirdi: "8) yerli şəhər sakinlərindən bir nəfər". Lakin Xalq Maarif Nazirliyinin təsdiq etdiyi nizamnamədə həmin bənd aşağıdakı redaksiyada verilmişdi: "8) fəxri haminin seçiminə görə şəhər müsəlmanlarından iki nəfər – bir kişi və bir qadın". Qeyd isə o qədər də savadlı redaktə olunmayıb**.

---

* Bax: sənəd № 11.

** Bax: məktəbin ştatı, sənəd № 16.

Mənim etirazlarımın heç bir nəticəsi olmadı, çünki özünün çoxsaylı məsləhətçiləri tərəfindən dəstəklənən Tağıyev dediyinin üstündə dayandı və mən onun əlavələrilə razılaşmaq məcburiyyətində qaldım. Əslində bu əlavələr xüsusi əhəmiyyət daşımır.

ARDTA: f. 309, siy. 1, s. v. 780, v. 58.

№ 14
A. S. Txorjevskinin K. P. Yanovskiyə məktubu
12 yanvar 1898-ci il

12233 №-li təlimatın* icrası məqsədilə cənab Xalq Maarif nazirinin 29595 №-li təklifi və cənab Tağıyevin 15 iyul tarixli məktubu nəzərə alınaraq, Xalq Maarif Nazirliyinin göstərişlərinə müvafiq düzəliş olunan Bakı müsəlman qız məktəbinin nizamnaməsinin layihəsini Zati–alinizə göndərirəm.

ARDTA: f. 309, siy. 1, s. v. 780, v. 49.

№ 15
Bakı rus- müsəlman qız məktəbinin nizamnaməsi [33]

1. İmperatriçə Aleksandra Fyodorovna adına Bakı rus-müsəlman qız məktəbi Qafqaz Tədris Dairəsinin ibtidai məktəbləri haqqında 25 iyun 1867-ci il tarixli Əsasnaməyə (Qanunlar toplusu, c. XI, I hissə, 1893-cü ilin nəşri, sütun 3550-3567) tabedir, həmçinin aşağıdakı qaydaları özünə rəhbər tutur:
2. Məktəb I gildiya Bakı taciri Hacı Zeynal Abdin Tağıyevin İmperator Əlahəzrətləri Nikolay Aleksandroviç və Aleksandra Fyodorovnanın müqəddəs tacqoyma mərasimi münasibətilə ianə ayırdığı kapital əsasında müsəlman qızlara elementar təhsil vermək məqsədilə Bakı şəhərində təsis olunur.
3. Məktəb Qafqaz Tədris Dairəsi hamisinin nəzarəti və yerli Xalq Məktəbləri Müdiriyyətinin birbaşa rəhbərliyi altındadır.
4. Məktəb qapalı təlim–tədris müəssisəsidir, burada daimi qalmayan şagirdlərin oxumasına icazə verilir.
5. Məktəbə yalnız 7 yaşından yuxarı müsəlman qızlar qəbul olunur.
6. Məktəbin proqramı Qafqaz Tədris Dairəsinin ibtidai məktəblərinin proqramına müvafiqdir (1867-ci il Əsasnaməsinə görə), bundan başqa

* Bax: sənəd № 12.

məktəbdə müsəlman ailəsinin ehtiyaclarına uyğun əl işini və evdarlığı öyrənmək üçün peşə sinfi də əlavə olunur. Məktəbdə təhsil müddəti dörd ildir, sonuncu il əlavə sinif üçün nəzərdə tutulur.

7. Məktəbin vəsaitlərini: a) təsisçi Hacı Zeynal Abdin Tağıyevin ianə ayırdığı yüz iyirmi beş min rubldan gələn faizlər, b) öz hesabına oxuyan və daimi qalmayan şagirdlərdən alınan təhsil haqqı təşkil edir.
8. Məktəb ona şəhər idarəsi tərəfindən əvəzsiz verilən torpaq sahəsində təsisçinin vəsaiti hesabına tikilən, bütün təlim–tərbiyə və təsərrüfat ləvazimatları ilə təchiz olunan mülkə sahibdir.
9. Məktəbin nəzdində Hamilər Şurası mövcuddur. O, aşağıdakı tərkibdən ibarətdir: 1) fəxri hami və Hamilər Şurasının sədri – məktəbin təsisçisi, I gildiya Bakı taciri Hacı Zeynal Abdin Tağıyev. Onun ölümündən sonra isə fəxri hami adı birbaşa varislərindən yaşca böyüyünə məxsus olacaqdır. Əgər həmin varisin yaşı azdırsa və ya həddi–buluğa çatmayıbsa, onda qəyyumu, yaxud hamisi onun nümayəndəsi hesab edilir. 2) Bakı şəhərinin başçısı, 3) quberniya qazısı, 4) fəxri haminin – məktəb təsisçisinin həyat yoldaşı, 5) Bakı qadın gimnaziyasının müdirəsi, 6) Bakı kişi gimnaziyasının direktoru, 7) Bakı dumasının seçiminə görə şəhərin fəxri müsəlmanlarından bir nəfər, 8) fəxri haminin seçiminə görə şəhər müsəlmanlarından iki nəfər – bir kişi və bir qadın, 9) mütləq üzv - Tədris Dairəsi hamisinin təyinatına əsasən tədris idarəsindən bir nəfər.

Qeyd: Hamilər Şurası sədrinin müavini şura tərəfindən üzvlərdən seçilir və sədr olmadıqda, onun vəzifələrini icra edir.

10. Hamilər Şurasının səlahiyyətlərinə daxildir: a) məktəbin müdirəsini, müəllimələrini, nəzarətçilərini seçib, onları Xalq məktəblərinin müdiri vasitəsilə Tədris Dairəsi hamisinin təsdiqinə təqdim etmək; b) gəlirlər və xərclər haqqında illik smetanı tutmaq və məktəbin vəsaitlərinin düzgün xərclənməsinə nəzarət etmək; c) məktəbin maddi rifahı üçün çalışmaq; ç) lazım bildiyi sayda məktəbin pansionerləri sırasına daxil olmaq istəyən namizədləri seçmək; d) öz hesabına oxuyan pansionerlərin təhsil haqqını müəyyənləşdirmək; e) daimi qalmayan şagirdlərin təhsil haqqını müəyyənləşdirmək və kasıbları təhsil haqqından azad etmək; ə) məktəbin xidməti personalına müavinətlər vermək.
11. Hamilər Şurasında müzakirə olunan məsələlər sadə səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər bölünərsə, sədrin səsi üstün hesab olunur. Əgər Hamilər Şurasının qərarlarına dair daimi üzvün fikri çoxluğun fikri ilə üst–üstə düşmürsə, onda qərarlar Tədris Dairəsi hamisinin təsdiqi ilə icra edilir.
12. Müdirə, həmçinin rus və Azərbaycan dilləri, şəriət müəllimələri

müsəlman dininə mənsub olmalıdır.

13. Məktəbin təsisçisi, I gildiya Bakı taciri Hacı Zeynal Abdin Tağıyevin ianə ayırdığı və İmperatriçə Aleksandra Fyodorovna adına Bakı rus–müsəlman qız məktəbinin Hamilər Şurasının adına Dövlət bankının Bakı şöbəsinə dövlət faiz kağızları şəklində qoyduğu 125000 rubl məktəbin toxunulmaz fondunu təşkil edir və heç bir halda istifadə oluna bilməz. Məktəb bu kapitaldan gələn faizlərə saxlanılır, buna görə də faizlərin alınması və onların məktəbin ehtiyacları üçün xərclənməsi hüququ Hamilər Şurasına məxsusdur.
14. Hamilər şurasının sərəncamında olan bütün vəsaitlər (§ 7) Dövlət bankının yerli şöbəsinə faiz artımı məqsədilə müddətli və ya cari hesaba köçürülməli, Şuranın sərəncamında isə yalnız cari aylıq xərclərin ödənilməsi üçün lazım olan məbləğ qalmalıdır.
15. Məktəb personalının şəxsi heyətinin ştatı əlavə olunur.
16. Hamilər Şurası hər ilin sonunda və yanvarın 15-dən gec olmayaraq, tədris, habelə mədaxil–məxaric haqqında hesabatı tərtib edib Bakı quberniyası və Dağıstan vilayəti Xalq məktəblərinin müdiri vasitəsilə Qafqaz Tədris Dairəsinin hamisinə təqdim edir.
17. İmperatriçə Aleksandra Fyodorovna adına Bakı rus–müsəlman qız məktəbi Bakı quberniyasının gerbi həkk olunan möhürə malikdir.
18. İşlərə dair bütün yazışma Hamilər Şurası sədrinin imzası ilə aparılır.

ARDTA: f. 309, siy. 1, s. v. 31, vv. 63-65.

№ 16
İmperatriçə Aleksandra Fyodorovna adına Bakı rus–müsəlman qız məktəbinin ştatı

Vəzifənin adı	**İşçilərin sayı**	**Bir nəfərin əməkhaqqı (rublla)**	**Ümumi əməkhaqqı (rublla)**
Müdirə, özü də müəllimə	1	700	700
Müdirənin köməkçisi, özü də müəllimə- nəzarətçi	1	500	500
Şəriət və tatar dili müəlliməsi və nəzarətçi	2	500	500
Əl işi və evdarlıq müəlliməsi	1	300	300

Kitabxana və dərs vəsaitləri üçün		150	150
20 nəfər pansioner qızın saxlanılması üçün	-	1710	1710
Aşbaz	1	180	180
Xadimələr	2	120	140
Çamaşırçı	1	180	180
Süpürgəçi	1	240	240
İsitmə, işıqlandırma və digər təsərrüfat xərcləri	-	300	300
Cəmi:			5000

Qeyd: 1) Məktəbin vəsaitləri artarsa, Hamilər Şurasına personalın tərkibini artırmaq və ya ona yuxarıda göstərilən hesablamalardan əlavə məvacib ödəmək ixtiyarı verilir ki, bu barədə Qafqaz Tədris Dairəsinin hamisinin nəzərinə çatdırılmalıdır. Hamilər Şurası həmçinin qalan sərbəst vəsaitdən məktəbin nəzdindəki qulluqçulara, eləcə də geyim və dərs ləvazimatı almaqdan ötrü imkansız şagirdlərə müavinət vermək hüququna malikdir. 2) Pulsuz təhsil alan 20 nəfər pansioner qızların sırasına bütün rütbələrdən olan yalnız kasıb müsəlmanların övladları növbəsiz qəbul edilir. Müstəsna hüquq məktəb mövcud olduğu müddətdə yalnız onun təsisçisi Tağıyevin nəslindən olan kasıb qızlara verilir.

ARDTA: f. 309, siy. 1, s. v. 780, v. 55.

№ 17
K. P. Yanovskinin A. S. Txorjevskiyə məktubu
24 may 1898-ci il

Aprelin 24-də edilən məruzədən sonra Ali izn alan Xalq Maarif Nazirliyinin işlər müdiri, gizli müşavir Boqolepov [34] Mariinski qadın gimnaziyasının fəxri hamisi, I gildiya Bakı taciri Hacı Zeynal Abdin Tağıyevin İmperator Həzrətlərinin müqəddəs tacqoyma mərasimi şərəfinə ianə ayırdığı vəsaitə (185000 rubladək) Bakı şəhərində açılan rus–tatar qız məktəbinin "Aleksandrinski" adlandırılmasına icazə verib.

Xalq Maarif Nazirliyinin işlər müdiri həmçinin 16 may tarixli 12140 №-li məktubda mənə bildirdi ki, səxavətli hədiyyəsinə görə Ülyahəzrət İmperatriçə Aleksandra Fyodorovna Tağıyevə təşəkkür elan etmişdir.

Sizi bu barədə məlumatlandıraraq, adı çəkilən məktəbin mayın 16-da təsdiq olunmuş nizamnaməsini göndərirəm.

ARDTA: f. 309, siy. 1, s. v. 780, v. 50.

№ 18
"Kaspi" qəzetində dərc edilən məlumat
2 iyun 1898-ci il

Qafqaz Tədris Dairəsinin hamisi K. P. Yanovski Bakı quberniyası və Dağıstan vilayətinin Xalq məktəbləri müdirinin nəzərinə çatdırmışdır ki, Bakı Mariinski qadın gimnaziyasının fəxri hamisi, I gildiya Bakı taciri Hacı Zeynal Abdin Tağıyevin İmperator Həzrətlərinin müqəddəs tacqoyma mərasimi şərəfinə ianə ayırdığı vəsaitə (185000 rubladək) Bakıda açılan rus–tatar qız məktəbinə "Aleksandrinski" adının verilməsinə Ali icazə alınıb.

Bununla yanaşı, Xalq Maarif Nazirliyinin işlər müdirinin cənab Tağıyevin etdiyi ianə barədə məruzəsinə cavab olaraq, Ülyahəzrət İmperatriçə Aleksandra Fyodorovna gizli müşavir Boqolepov vasitəsilə H. Z. A. Tağıyevə səxavətli hədiyyəsinə görə təşəkkür bildirib.

İmperatriçənin bu cür alicənablığı ilk rus–tatar qız məktəbinin təsisçisi cənab Tağıyev üçün ən gözəl mükafat olmaqla yanaşı, müsəlman qızlarının təhsil almasının əsl tərəfdarlarını sevindirəcək. Nizamnaməsi artıq təsdiqlənən məktəbin İmperatriçə Aleksandra Fyodorovnanın himayəsi altına keçməsini müsəlman qızları arasında savad yayan bu ocağın gələcək uğurunun təməli hesab etmək olar.

№ 19
Qafqaz Tədris Dairəsi hamisinin Dəftərxanasının A. S. Txorjevskiyə göstərişi
19/20 oktyabr 1898-ci il

Təcili

10 oktyabr tarixli 1376 №-li təqdimata əlavə olaraq, Dəftərxana I gildiya Bakı taciri H. Z. A. Tağıyevin xalq təhsilinə ayırdığı bütün ianələr haqqında məlumatları çatdırmağı Sizdən xahiş edir. Bu məlumatları Tağıyevin kontorundan

əldə etmək olardı. Onlar cənab Dairə hamisinə Tağıyevin təltif edilməsi haqqında yeni vəsatətin qaldırılması üçün lazımdır [35].

ARDTA: f. 309, siy. 1, s. v. 780, v. 66.

№ 20
A. S. Txorjevskinin K. P. Yanovskiyə məktubu
27 oktyabr 1898-ci il

I gildiya Bakı taciri Hacı Zeynal Abdin Tağıyevin İmperator Həzrətlərinin müqəddəs tacqoyma mərasimi şərəfinə ianə ayırdığı vəsaitə təsis olunan Ülyahəzrət İmperatriçə Aleksandra Fyodorovna adına Bakı rus-müsəlman qız məktəbinin binasının layihəsini Zati-alinizə təqdim edirəm.

Binanın inşası cari ilin iyununda başlamış, hazırda zirzəminin və birinci mərtəbənin tikintisi üzrə daş işləri başa çatmışdır. Havalar yaxşı olduğundan tikinti uğurla gedir və növbəti ilin sentyabr ayı üçün başa çatdırılacaq.

ARDTA: f. 309, siy. 1, s. v. 780, vv. 68-69.

№ 21
Xalq Maarif Nazirliyinin Xalq məktəbləri üzrə Departamentinin
K. P. Yanovskiyə məktubu
16 oktyabr 1899-cu il

Xalq Maarif Nazirliyinin 12140 №-li təqdimatına əlavə olaraq, Xalq Maarif Departamenti Zati–alinizin 30 iyul 1897-ci il tarixli 6963 №-li məktubunuza əlavə edilən I gildiya Bakı taciri Hacı Zeynal Abdin Tağıyevin Dövlət Bankının Bakı şöbəsinə köçürdüyü, İmperatriçə Aleksandra Fyodorovna adına Bakı rus-müsəlman qız məktəbinə məxsus 125000 rubl məbləğinə 17 vərəqlik 4% rentanın qəbul olunması barədə ərizəni (18 iyul, № 6291) Sizə göndərir.

ARDTA: f. 309, siy. 1, s. v. 780, v. 70.

№ 22
H. Z. A. Tağıyevin A. S. Txorjevskiyə məktubu
5 yanvar 1900-cü il

Əziz Aleksandr Semyonoviç!

1899-cu il 31 oktyabr tarixli 1932 №-li təklifə cavab olaraq, Sizin nəzərinizə çatdırıram ki, şəhər başçısının mənə verdiyi məlumata görə, Bakı şəhər duması ötən il noyabrın 9-da keçirdiyi iclasda mənim təsis etdiyim rus-müsəlman qız məktəbinin Hamilər Şurasının tərkibinə dumanın üzvü Həsən bəy Məlikovu [36] seçmişdi. Mən isə öz tərəfimdən, adı çəkilən məktəbin nizamnaməsinin 9-cu paraqrafına (8-ci bənd) uyğun olaraq, Hamilər Şurasına dağ mühəndisi Fərrux bəy Vəzirovu [37] və Bakı dairə məhkəməsinin andlı iclasçısı Əlimərdan bəy Topçubaşovu seçdim [38].

Böyük ehtiram və tam sədaqətlə H. Z. A. Tağıyev [39].

ARDTA: f. 309, siy. 1, s. v. 780, v. 76.

№ 23
Rus-müsəlman qız məktəbi Hamilər Şurasının iclasının üzvlərinin imzaladığı akt
24 aprel 1900-cü il

Biz, İmperatriçə Aleksandra Fyodorovna adına Bakı rus-müsəlman qız məktəbi Hamilər Şurasının aşağıda imza edən üzvləri, Bakı quberniyası və Dağıstan vilayəti Xalq məktəblərinin müdiri Aleksandr Semyonoviç Txorjevskidən I gildiya Bakı taciri Hacı Zeynal Abdin Tağıyevin İmperatriçə Aleksandra Fyodorovna adına rus- müsəlman qız məktəbinin toxunulmaz fondunu təşkil edən 125000 rubl məbləğinə 17 vərəqlik 4% rentanın Dövlət Bankının Bakı şöbəsinə köçürdüyü barədə Bankın arayışını qəbul etdik.

İmzalar: Hamilər Şurasının sədri H. Z. A. Tağıyev, Şuranın üzvləri: S. Tağıyeva [40], M. Latkina [41], A. Pobedonostsev [42], H. Məlikov, fon der Nonne [43], Ağa Əlizadə [44], F. Vəzirov, Ə. Topçubaşov.

ARDTA: f. 309, siy. 1, s. v. 780, v. 32.

№ 24
Bakı ibtidai texniki məktəbinin fəxri hamisi [45]**, nəsli fəxri vətəndaş** [46]**,**
I gildiya Bakı taciri H. Z. A. Tağıyevin xidməti siyahısından
iyul 1900-cü il

...Tağıyevin İmperator Həzrətlərinin müqəddəs tacqoyma mərasimi şərəfinə sədaqət hisslərini və təbriklərini izhar etməsi və bu hadisə ilə əlaqədar yüz əlli min (150000) rubl sərf edərək, Bakıda rus-müsəlman qız məktəbini açmaq niyyətinin olması barədə Daxili İşlər nazirinin məruzəsinə əsasən Əlahəzrət İmperator şəxsən öz əli ilə buyuraraq yazmışdı: "təşəkkür etmək, özü də məmnuniyyətlə". Bu barədə Bakı qubernatorunun 12 avqust 1896-cı il tarixli 2343 №-li rəyində bildirilib.

ARDTA: f. 314, siy. 2, s. v. 115, v. 6.

№ 25
Nəriman Nərimanovun [47] **H. Z. A. Tağıyevə həsr etdiyi kitabdan**
1900-cü il

...İkincisi millətə qiymətsiz bəxşiş təzə açılan qız məktəbidir ki, orada müsəlman qızları tərbiyə tapacaqlar. Bu məktəbin barəsində bir az söhbət edərik. Filosoflar tifil uşağı yumşaq çubuğa oxşadıblar, yəni çubuğu hər tərəfə əymək olar; elə də tifilə ibtida nə tövr tərbiyə verilsə, böyüyəndə o tərbiyədə olacaqdır, çünki tifilin qüvveyi-hafizəsi çox iti olur: nə görsə götürür, nə eşitsə hafizəsində saxlar. Bunu hər şəxs özündə mülahizə edə bilər. O şeirlər ki, şəxs uşaq vaxtında əzbər edir, qocalanadək həmin şeirlər hafizəsində qalır. Amma 20-30 yaşında və dəxi gec öyrəndiyi şeirlər gündə təkrar etməsə unudulur. Pəs belə olan surətdə, məlum olur ki, uşağın ibtidai tərbiyəsi ilə gərəkdir üsullu rəftar etmək, çünki ibtidadan uşağa nə yol göstərsən o yol ilə gedər. 8 yaşınadək uşağa tərbiyə verən anadır. İndi insaf nəzəri ilə baxaq bizim anaların tərbiyəsinə: mədəniyyətli tayfalarda uşaqların dili açılanda əvvəlinci sözləri – dualardır, bizimkilərinki söyünc! Oların uşaqları şəkilli kitablar ilə oynayırlar, bizimkilər palçıqda, tozda, torpaqda bələnirlər! Oların uşaqları nahardan qabaq əllərini yuyub dua oxuyurlar və bir yerdə nahar edirlər, bizimkilər əlləri çirkli əllərində bir parça çörək və pənir küçələrdə kövşəyirlər. Oların ata və anaları uşaqların yanında gözəl söhbətlər edirlər. Bizimkilər uşaqların yanında bir-birinə pis sözlər deyib qarğış edirlər və çox vaxt ağac alıb bir-birini döyürlər! Olarda evə qonaq gələndə övrət ilə qeybət edəndə, uşaqları qeyri otaqda saxlayırlar, bizimkilər qeybət edəndə

uşaqları dizlərinin dibində otuzdururlar! Belə analardan bizim bizim biçarə tifillər nə tərbiyə alsınlar? Belə tərbiyədən sonra bu uşaqlardan nə gözləmək? Əlbəttə, analarımız tərbiyəli olsalar, uşaqlarımız da tərbiyəli olarlar. Heç ata və ana uşağının bədbəxtliyini onun ağlının naqisliyində görməsin, öz tərbiyəsində gərəkdir görsün... Övlad yaman dərdə mübtəla olanda, onun əvvəlinci düşmənini öz tərbiyəsində görsün. Doğrudur, heç ata və ana övladının bədbəxtliyini istəməz, amma çifayda işin günhinə diqqət edəndə görürük ki, övladın bədbəxt olmağına əvvəlinci səbəb özümüzük...

Bundan əlavə axır zamanda oğlanlarımız mədəniyyət dalınca gedib mərifətdə tərəqqi edirlər: buların nəzərləri zindəganlığa və məişətə dəyişilir... Pəs bu mədəniyyətli, mərifətli cavanlarımıza mədəniyyətli, mərifətli övrətlər lazım gəlmiyirmi? Günbəgün tərbiyəli cavanların hesabı artır, amma çifayda həmin cavanlar evlənməkdən əsla fikir etmirlər, çünki tərbiyəli qızlarımız yoxdur və tərbiyəsiz qızları özlərinə ömürlük yoldaş etmək məzkurlar üçün böyük məsələdir. Bular gələcəkdə uşaqlarının fikrinə qalırlar... Həmin bu məsələ Badkubədə ataların və anaların ürəklərində gərəkdir yer etsin. Bir nəzər et, gör ərə gedən qızlarımızdan nə qədər bədbəxt olan var... Biinsaf, bimürvət cavanlar biçarə pakizə qızları alıb sonra yaman yollara düşürlər. Məgər övrətin xoşbəxtliyi yemək içməkdə zər-ziba içində olmaqdadır? Doğrudur, bu cavanların əksəri lazım olan tərbiyə dadmayıbsa da və çoxusunun əqlini dövlət paslandırıbsa da, amma yəqin ki, qızlarımız tərbiyəli və mərifətli olsaydılar oğlanlarımız bəhər hal ağla gəlməyən işləri etməzdilər, çünki əqilli övrət pis kişini həmişə yaman yoldan saxlar. Zamanı-hazırda evli cavanlarımız pis yollarda, biçarə qızlarımız qanlı yaşlar tökürlər, atalarımız olara səbr edin deyib ah-vay edirlər... Haçanadək dilsiz qızlarımız səbr edəcəklər? Haçanadək bular əqlsiz, insafsız cavanlarımızın zülmlərinə davam etsinlər? Hörmətli Hacının bu məsələlərdə bizimlə həməfkar olmağına şübhəmiz yoxdur. Hərçənd bir neçə nadan, dünyadan xəbərdar olmayan əşxas həmin məktəbin düşməni hesab olunurlarsa da, ancaq oları biz millətə quyu qazanlardan hesab edirik. Olar üçün də tarixin səhifələri açıqdır... Doğrudur, hərgah bu məktəbdə dinə və ya məzhəbə rəxnə salan bir şey olsaydı və yainki həmin məktəb bir özgə dona girsə əvvəlinci düşməni biz olarıq: halbuki bu məktəbdə qızlarımız dörd il dərs oxuyacaqlar: üç il müsəlmanca və dördüncü il bir az rusca və əl işi oxuyan qızlardan 20 nəfər yetim cənab Hacının xərcinə tərbiyə alacaqlar və bulara ildə 8 min manat sərf olunacaqdır. Evin binasına hörmətli Hacı 3 yüz min manata qədər xərc edibdir!..

Nəriman Nərimanov. Hacı Zeynalabdın Tağıyevin 50 illiyi. Məişətə və cəmaətə xidmətləri. Bakı, 1994, s. 27-31.

№ 26
“Kaspi” qəzetində dərc edilən məlumat
22 aprel 1901-ci il

Bu gün axşam Bakı Aleksandrinski rus-müsəlman qız məktəbi Hamilər Şurasının sədri H. Z. A. Tağıyevin mənzilində həmin məktəbin tədris personalının seçilməsi, şagirdlərin geyim forması, təhsil haqqı və başqa məsələlərin müzakirəsi məqsədilə Hamilər Şurasının iclası keçiriləcək.

№ 27
Bakı Aleksandra rus-müsəlman qız məktəbi Hamilər Şurasının iclasının protokolu
22 aprel 1901-ci il

Nəsli fəxri vətəndaş H. Z. A. Tağıyevin təsis etdiyi və öz vəsaiti ilə tikdirdiyi İmperatriçə Aleksandra Fyodorovna adına Bakı rus-müsəlman qız məktəbinin (nəzdindəki pansionla birlikdə) binasının inşası başa çatdığından məktəbin Hamilər Şurasının sədri Şuranın müzakirəsinə və həllinə aşağıdakı məsələləri təqdim etdi:

1. Adı çəkilən məktəbin qarşıdan gələn 1901-1902-ci tədris ilində açılmasının mümkünlüyü haqqında.
2. Məktəbə ödənişli və ödənişsiz əsaslarla qəbul olunan şagirdlərin normasının, habelə ödənişin, onun vaxtının və qəbul olunanlar üçün yaş həddinin müəyyən edilməsi haqqında.
3. Məktəblə pansionun lazımi şəraitlə, sinif vəsaitləri və bütövlükdə təsərrüfat ləvazimatları ilə təmin edilməsi haqqında.
4. Məktəb müdavimləri üçün geyim formasının müəyyən edilməsi, habelə formanın, ayaqqabıların, geyim və yataq dəstlərinin hazırlanması haqqında.
5. Məktəbin nizamnaməsinə əlavə edilmiş ştatdan asılı olmayaraq əlavə tədris personalının, eləcə də xidmətçilərin təyin olunması və onların sayının müəyyən edilməsi haqqında.

Hamilər Şurasının nəzərinə bu məktəbin büdcəsi haqqında arayış təqdim olundu. Həmin arayışdan görünür ki, məktəbin təsisçisi cənab Tağıyev tərəfindən ayrılan və dörd faizli dövlət rentası şəklində saxlanılan 125000 rubl toxunulmaz kapitaldan başqa hal–hazırda aşağıdakı mənbələrdən ibarət olan sərbəst kredit mövcuddur: a) yuxarıda adı çəkilən kapitaldan cari ilin yanvarına qədər yığılan faizlər - 21910 rubl 31 qəpik; b) cari ilin aprelinə qədər müxtəlif əşyaların saxlanılması üçün icarəyə verilən, yanğın və sanitar–gigiyenik təhlükəsizliyi

qaydalarına cavab verən anbarlardan - məktəb binasının zirzəmilərindən yığılan 5911 rubl 25 qəpik. Cəmi – 27821 rubl 56 qəpik. Hamilər Şurası sədrinin izahatına görə, qeyd olunan zirzəmilər məhz məktəbin gəlirlərini artırmaq məqsədilə qurulub; onlar elə təcrid olunublar ki, icarədarların nəinki məktəbin binasına, hətta onun həyətinə də çıxışı yoxdur.

Yuxarıda adı çəkilən məsələləri müzakirə edən Bakı Aleksandrinski rus-müsəlman qız məktəbinin Hamilər Şurası aşağıdakı nəticələrə gəlmişdir:

Qarşıdan gələn tədris ilində məktəbin açılmasının mümkünlüyü haqqında birinci məsələyə dair. Məktəb cari ilin sentyabrında fəaliyyətə başlasın, bu barədə, habelə məktəbə qəbul ediləcək yalnız müsəlman qızların yaşı, tələb olunan sənədlər, öz hesabına oxuyan şagirdlərin təhsil haqqı barədə yerli qəzetlərdə məlumat dərc edilsin.

Məktəbə qəbul olunan şagird normasının, təhsil haqqının müəyyən edilməsi və s. haqqında ikinci məsələyə dair. Hamilər Şurası bu təhsil müəssisəsinin təsisçisi cənab Tağıyevin ianə ayırdığı vəsaitə ştatda nəzərdə tutulan 20 nəfər pulsuz oxuyan pansioner qızlardan əlavə daha 30 nəfər şagirdin qəbulunu mümkün sayır və öz hesabına oxuyanlar üçün ilk müddətdə illik 100 rubl təhsil haqqı müəyyən edir ki, o da hər yarımilin əvvəlində - yanvar və iyul aylarında ödənilməlidir. Təxmini hesablamalara görə öz hesabına oxuyan bu qədər şagirdin saxlanılması və tərbiyə olunması baha başa gəlsə də, Hamilər Şurası dövlət məktəbində öz qızlarını oxutdurmaq arzusunda olanları cəlb etmək məqsədilə yuxarıda göstərilən məbləğlə kifayətlənməyi, xərcləri ödəmək üçün çatışmayan məbləği isə məktəbin vəsaitlərinə aid etməyi qərarlaşdırdı. İlkin hesablamalara görə, həmin vəsaitlər ilk üç–dörd ildə bu xərcləri ödəyə bilər. Məktəbə qəbul olunan şagirdlərin yaş həddinə gəldikdə isə, Hamilər Şurası məktəb nizamnaməsinin 5-ci paraqrafına müvafiq olaraq 7 yaşından yuxarı qızların qəbulunu nəzərdə tutur, bu şərtlə ki, onlar doğum şəhadətnamələrini, ən azından isə doğum tarixi barədə molla tərəfindən verilən şəhadətnaməni və çiçək əleyhinə peyvəndin vurulması barədə arayışı təqdim etsinlər. Yaxşı olardı ki, 20 nəfər pulsuz təhsil alan şagirdlər arasında oxumağı arzulayanlar kasıb olmaları barədə yerli polis və ya ictimai orqanlardan şəhadətnamə təqdim etsinlər. Sərbəst gəlib–gedənlər haqqında məsələ müvəqqəti açıq saxlanılsın.

Məktəb–pansionun lazımi şəraitlə, o cümlədən, mebel, sinif və tədris ləvazimatları, yataq, döşək, yastıq, mətbəx, yemək dəstləri və digər təsərrüfat avadanlığı ilə təmin olunması haqqında üçüncü məsələyə dair. Hamilər Şurası məktəbin təsisçisi kimi şuranın sədrindən yuxarıda adı çəkilən bütün avadanlığın alınması üzrə zəhməti öz üzərinə götürməyi xahiş etmiş və bütün lazımi xərcləri 27821 rubl 56 qəpik məbləğində olan sərbəst kreditin hesabına ödənilməsini qərara almışdır. Buna öz razılığını bildirən cənab Tağıyev Şura üzvlərindən bir

nəfərin ona köməkçi təyin olunmasını xahiş etdi. Seçim təhsil müəssisələrinin ehtiyaclarına yaxşı bələd olan keçmiş pedaqoq cənab Həsən bəy Məlikovun üzərinə düşdü. Cənab Məlikov bu işdə iştirak etməyə razı olduğunu bildirdi.

Məktəb müdavimləri üçün geyim formasının müəyyənləşdirilməsi, habelə formanın, ayaqqabıların və bütövlükdə paltarların hazırlanması haqqında dördüncü məsələyə dair. Hamilər Şurası adı çəkilən tədris müəssisəsinin yalnız müsəlman qızlar üçün təsis olunduğunu nəzərə alaraq, daha ədəbli və Avropa geyiminə cavab verən Dağıstan milli qadın geyiminin tətbiq olunmasını məqsədəuyğun hesab edir. Bununla belə, qış paltarlarının qəhvəyi rəngdə olması, geyim və gecə paltarlarının hər şagirdə dörddən artıq, mətbəx və yemək paltarlarının isə üçdən az olmaması nəzərdə tutulsun. Hamilər Şurası üzvlərdən Sofya Vladimirovna Tağıyeva [48] və Maqdalina Mixaylovna Latkinadan şagirdlərin lazımi geyim, ayaqqabı və bütövlükdə pal-paltarla təmin olunması üzrə zəhməti öz üzərilərinə götürməyi xahiş etmiş və onlar da razılıqlarını bildirmişlər. Lazım olan məbləğin 27821 rubl 56 qəpik həcmində sərbəst kreditin hesabına ödənilməsi nəzərdə tutulsun və həmin məbləğin tələb olunan həcmdə ayrılması Hamilər Şurası sədrinin ixtiyarına verilsin.

Məktəbin nizamnaməsinə əlavə edilmiş ştatdan asılı olmayaraq tədris personalının seçilməsi və xidmətçilərin sayının müəyyən olunması, habelə onların məvaciblərinin təyin edilməsi ilə əlaqədar beşinci məsələyə dair. Hamilər Şurası şagirdlərin indiki sayını nəzərə alaraq, tədris personalını bir nəfər tatar dili və şəriət müəlliməsi hesabına artırmağı, habelə xidmətçilərin sayını çoxaltmağı vacib hesab edir. Tədris personalının, xidmətçilərin say tərkibi, onların əməkhaqları, pansionla, bütün şəraitlə təmin olunan məktəbin saxlanılması üçün zəruri vəsaitin cədvəli əlavə edilir.

Adı çəkilən cədvəldəki* hesablamalar məktəb nizamnaməsinə əlavə edilən ştatdakı xərclərdən artıq olsa da, həmin xərclər ilk üç–dörd il ərzində sərbəst kredit hesabına ödənilə bilər və bu barədə cədvəldəki hesablamalarda izahat verilib. Məktəbin cari ilin sentyabrında açılmasını və tədris personalının bu vaxtadək formalaşmasını vacib sayan Hamilər Şurası sədrdən xahiş etdi ki, o, qeyd olunan vəzifələri tutmaq istəyənləri şəxsən və ya yerli qəzetlər vasitəsilə dəvət etsin. Onların təyinatı məktəb nizamnaməsinin 10-cu paraqrafının birinci bəndində göstərilən qaydada aparılmalı və iddiaçılar məktəbdə müəllim vəzifəsini tutmaq hüququnu verən sənədləri təqdim etməlidirlər. Qulluqçulara və bütövlükdə xidməti personala gəldikdə isə, onların işə qəbulu və işdən azad edilməsi ilk vaxtlarda Hamilər Şurasının sədrindən asılı olacaq. Məktəbin binasındakı zirzəmilərin yanğın təhlükəsizliyi qaydaları baxımında və sanitar–gigiyenik

* Bax: sənəd № 28.

şərtlərə uyğun mallar və digər əşyalar üçün anbar kimi icarəyə verilməsi də onun sərəncamındadır.

Sonda Hamilər Şurası qərara aldı:

1) Şuranın sədrinə inşası başa çatmış məktəb binası ilə tanış olmaq üçün öz adından yerli quberniya rəhbərliyinə müraciət etmək hüququ verilsin.
2) Bu protokolun surəti cənab Bakı quberniyası və Dağıstan vilayəti Xalq məktəblərinin müdiri vasitəsilə cənab Qafqaz Tədris Dairəsinin hamisinə təqdim olunsun.

Əslini imzaladılar: Hamilər Şurasının sədri H. Z. A. Tağıyev, üzvlər: S. Tağıyeva, M. Latkina, F. Vəzirov, H. Məlikov, A. Pobedonostsev, Ə. Topçubaşov, A. Txorjevski.

ARDTA: f. 309, siy. 1, s. v. 780, vv. 84-87.

№ 28

Bakı Aleksandrinski rus–müsəlman qız məktəbinin tədris personalının, qulluqçularının şəxsi tərkibinin cədvəli (onların saxlanılması və məktəbin digər ehtiyacları üçün zəruri olan məbləğ göstərilməklə)

№ №	**Vəzifələrin adı və xərclərin predmeti**	**Şəxslərin sayı**	**İl ərzində saxlanılmaq üçün tələb olunan vəsait (rublla)**	
	Tədris personalı		Bir nəfərə	Hamıya
1.	Müdirə, özü də müəllimə	1	700	700
2.	Müdirənin köməkçisi, özü də müəllimə	1	500	500
3.	Şəriət və Azərbaycan (tatar) dili müəllimələri, özləri də nəzarətçilər	2	500	1000
4.	Əl işi və evdarlıq müəlliməsi	1	360	360
5.	Kitabxana və tədris vəsaitləri üçün	-	500	500
6.	50 şagirdin və tədris personalının ərzağı (sutkada 20 qəpikdən)	-	73	4015
7.	Qadın həkimin məktəbə gəlişinə və xəstələrə baxdığına görə	-	-	360
8.	Xidməti personala müavinətlərin verilməsi və dava-dərman üçün	-	-	300

		-	Cəmi – 7735	
	Qulluqçular			
1.	Xadimə	1	360	360
2.	Qadın aşbaz (böyük) (kiçik)	1 1	240 180	240 180
3.	Mətbəxdə qabların yuyulması və təmizlənməzi üçün qulluqçu	1	120	120
4.	Siniflərdə və pansionda yığışdıranlar	5	120	600
5.	Xəstəxanada feldşer	1	300	300
6.	Xəstəxanada dayələr	2	120	240
7.	Süpürgəçilər (böyük) (kiçik)	1 1	240 180	240 180
8.	Xidmətçilərin ərzağı	-	60	840
9.	Binanın isidilməsi və işıqlandırılması, habelə digər təsərrüfat ehtiyacları üçün	-	-	1500
			Cəmi -12535	

Qeyd: 1) Xidmətçilər ehtiyac yarandığı zaman göstərilən sayda götürülə bilər. 2) Süpürgəçinin vəzifəsi həyəti və səkini təmiz saxlamaq, həmçinin quyudan içməli suyu vurmaqdır.

İzah: yuxarıda göstərilən xərcləri ödəmək üçün aşağıdakı vəsaitlər mövcuddur:

a) 125000 rublluq toxunulmaz kapitaldan əldə olunan faizlər (5%-lik dövlət rüsumu istisna olmaqla) – 4750 rubl; b) məktəb binasındakı zirzəmilərdən yığılan icarə haqqı – 2500 rubl. Cəmi – 7250 rubl. Beləliklə, göstərilən xərclər üçün 5285 rubl çatmır, lakin bu kəsir, aşağıda deyildiyi kimi, 15821 rubl 65 qəpik məbləğində nağd sərbəst kreditin hesabına ödənilə bilər.

Protokolda deyildiyi kimi, hazırkı nağd sərbəst kredit aşağıdakılardan bunlardan təşkil olunmuşdur: 1) 1901-ci ilə qədər 125000 rubl toxunulmaz kapitaldan əldə olunan faizlər – 21910 rubl 31 qəpik; 2) məktəb binasında icarəyə verilən zirzəmilərdən cari ilin aprelinə qədər yığılan 5911 rubl 25 qəpik. Bu da 27821 rubl 56 qəpik sərbəst kredit təşkil edəcək ki, ondan da 21700 rubl 4%−lik

dövlət renta sənədləri, qalan 6121 rubl 56 qəpik isə - nağd vəsaitdir.

Həmin kreditdən (27821 rubl 56 qəpik) 12000 rublu məktəb–pansion üçün lazım olan şəraitin yaradılması, müxtəlif əşyaların, o cümlədən, geyimlərin, ayaqqabıların və təsərrüfat ləvazimatının alınmasına sərf etmək nəzərdə tutulub. Sonuncu məbləğ istisna olunduqda, 15821 rubl 56 qəpik sərbəst nağd kredit qalır. Məhz bu məbləğ yuxarıda göstərilən 5285 rublluq kəsiri ödəmək üçün nəzərdə tutulub, əlbəttə ki, əgər buna başqa vəsait tapılmazsa.

Bundan başqa 1901-ci ildə göstərilən toxunulmaz kapitalın faizləri 4700 rubl və cari ilin aprelindən 1902-ci ilin yanvarından məktəb binasındakı zirzəmilərin icarəyə verilməsindən əldə olunan vəsait 1800 rubl, cəmi - 6500 rubl sərbəst kredit təşkil edəcək. Lakin bu məbləğ açılışından (yəni cari ilin sentyabrından) 1902-ci ilin yanvarınadək məktəbin saxlanılması üçün tələb olunan ümumi xərcləri ödəməyə nəzərdə tutulub.

Əslini imzaladılar: Hamilər Şurasının sədri H. Z. A. Tağıyev, Hamilər Şurasının üzvləri: S. Tağıyeva, M. Latkina, F. Vəzirov, H. Məlikov, A. Pobedonostsev, Ə. Topçubaşov, A. Txorjevski.

ARDTA: f. 309, siy. 1, s. v. 780, vv. 88-90.

№ 29
"Kaspi" qəzetində dərc edilən məlumat
25 aprel 1901-ci il

Bakı Aleksandrinski rus–müsəlman qız məktəbinin Hamilər Şurası özünün 22 aprel tarixli iclasında hazırlıq işlərini müzakirə edərək, məktəbin cari ilin sentyabrında açılmasını mümkün saymış və bu barədə elan verməyi qərarlaşdırmışdı. Elanda bildirilməlidir ki, məktəbin təsisçisi H. Z. A. Tağıyevin ianə etdiyi vəsait hesabına pansiona qəbul olunan 20 nəfər imkansız müsəlman qızlardan başqa 100 rubl illik təhsil haqqı ilə daha 30 nəfər qız qəbul oluna bilər.

Həmin iclasda ilk vaxtlarda 50 şagirdlik məktəbin saxlanılmasına zəruri olan xərclər smetası hesablanmış və təxmini hesablamalara görə, bunun üçün 16 min rubl gərəkdir. Bundan başqa ilkin işlər üçün 12 min rubl lazım olacaq. Hamilər Şurası məktəbin ilkin hazırlıq işləri üzrə bütün vəzifələri öz üzərinə götürməyi, növbəti iclasda müdirə, müəllimə və şəriət müəlliməsi vəzifələrini tutmaq istəyən namizədlər haqqında məlumat verməyi H. Z. A. Tağıyevdən xahiş etməyi qərarlaşdırdı. İclasın sonunda Hamilər Şurası şagirdlərin geyim formasını müzakirə edərək, təcrübə kimi hələlik Dağıstan müsəlman qadın geyimini məqbul saymışdı.

№ 30
"Kaspi" qəzetində dərc edilən elan
4 may 1901-ci il

Bakı Aleksandrinski rus–müsəlman qız məktəbinin Hamilər Şurası nəzərə çatdırır ki, məktəb 1901-ci ilin sentyabrında açılacaq. Nizamnamənin 7-ci paraqrafına və Hamilər Şurasının qərarına əsasən 20 nəfər pulsuz təhsil alacaq pansioner qızlardan əlavə birinci ildə yaşı 8-dən yuxarı, təhsil haqqı ildə 100 rubl olan daha 30 nəfər öz hesabına oxuyan müsəlman şagird qəbul oluna bilər.

Öz qızlarını adı çəkilən məktəbə vermək istəyənlər öz müraciətlərini, övladlarının doğum şəhadətnamələrini və çiçək əleyhinə peyvəndin vurulması haqqında arayışı Bakı şəhərinə, Hamilər Şurasının sədri və Bakı Aleksandrinski rus–müsəlman qız məktəbinin təsisçisi H. Z. A. Tağıyevə ünvanlaya bilərlər [49].

№ 31
"Kaspi" qəzetində dərc edilən məlumat
24 iyun 1901-ci il

Bakı rus–müsəlman qız məktəbinin Hamilər Şurası özünün 22 aprel tarixli iclasında Şuranın sədri H. Z. A. Tağıyevə məktəbin müdirəsi, rus və tatar dilləri, şəriət müəllimələri vəzifəsini tutmaq üçün namizədləri seçməyi həvalə etmişdi.

Hazırda H. Z. A. Tağıyevin təqdimatı əsasında Şura tərəfindən həmin vəzifələrə aşağıdakı şəxslər tövsiyə olunur: rus–müsəlman qız məktəbinin müdirəsi vəzifəsinə – Hənifə xanım Məlikova [50] - Tiflisdəki Müqəddəs Nina tədris müəssisəsinin məzunu; müdirənin köməkçisi və müəllimə vəzifəsinə - Məryəm xanım Sulkeviç [51] (Litva tatarı), şəriət və tatar dili müəlliməsi vəzifəsinə – Əsmət xanım Məmməd Əmin Əfəndi qızı (əslən Ahalsıx şəhərindən). Məktəbin nizamnaməsinə uyğun olaraq, bu şəxslərin vəzifədə təsdiqi Qafqaz Tədris Dairəsinin hamisindən asılıdır.

Bundan başqa daha bir şəriət və tatar dili, həmçinin əl işi və evdarlıq müəllimələri vəzifəsi boş qalır. Bunlardan birinci vəzifəyə əslən Quba şəhərindən olan Səkinə xanım Hacı Mir Heybət qızı Axundovadan [52] ərizə daxil olub.

№ 32
H. Z. A. Tağıyevin A. S. Txorjevskiyə məktubu
17 avqust 1901-ci il

Bakı Aleksandrainski rus–müsəlman qız məktəbinin nizamnaməsinin 10-cu paraqrafına uyğun olaraq, üç nəfər müəllimənin – Hənifə Məlikovanın, Məryəm Sulkeviçin və Əsmət xanım Məmməd Əmin Əfəndi qızının seçilməsi haqqında Hamilər Şurasının 25 iyun tarixli qərarının surətini, həmçinin Müqəddəs Nina adına Tiflis qadın tədris müəssisəsində 6 sinif bitirməsi haqqında Hənifə Məlikovaya verilən 810 №-li (8 iyul 1900-cü il tarixli) şəhadətnaməni, Vilno qadın gimnaziyasını bitirməsi haqqında Məryəm Sulkeviçə verilən 299 №-li attestatı və molla (müəllimə) adını almaqdan ötrü imtahan keçməsi haqqında Əsmət Soltan xanım Məmməd Əmin Əfəndi qızına Zaqafqaziya Sünni Ruhani İdarəsi tərəfindən verilən 1490 №-li attestatı (11 dekabr 1900-cü il tarixli) göndərərək, bu şəxsləri həmin vəzifələrə təyin etmək barədə vəsatət qaldırmağı Zati-alinizdən xahiş edirəm. Təqdim olunan sənədləri sonra məktəbin Hamilər Şurasına qaytarmağı rica edirəm.

ARDTA: f. 309, siy. 1, s. v. 780, v. 91.

№ 33
Baron de Bayın [53] **“Обозрение России” (“Rusiyanın icmalı”)** [54]
jurnalında dərc edilən məqaləsindən

“Tatarlar arasında. Dərbənddən Yelizavetpola” fəsli.

...Nikolayevski küçəsində [55] şərq modern üslubunda tikilən bir bina ucalır. Bu bina oralarda çox baha satılan torpağın qiyməti nəzərə alınmazsa, beş yüz min rubla [56] başa gəlmişdi.

Səxavətli xeyriyyəçinin ilhamlandığı ideya və onun apardığı mübarizə əbədi xatırlanmağa layiqdir.

Neft hesabına varlanan tatar cənab Tağıyev o bölgələrdə nadir hallarda rast gəlinən səxavətli zənginlərdəndir.

O müsəlman digər şanlı işlərlə yanaşı Bakıda gənc müsəlman qızlar üçün məktəb açdırmaq istədi.

Bu ideya çox müasir, maraqlı və genişdir. O, heç də çətinliksiz həyata keçməmişdi. Müsəlman ictimai fikri məktəbə yalnız pansioner qızların qəbul olunmasını, kişilərə girişin qadağan edilməsini, qızların məktəbdən çadrada

çıxmasını, müəllim ştatının qadınlardan ibarət olmasını tələb etmişdi. Pedaqoqlar müxtəlif dinlərə, müxtəlif millətlərə mənsub ola bilərdi.

ARDƏİA: f. 675, siy. 2, s. v. 106, v. 50.

№ 34
Bakı rus – müsəlman qız məktəbi

Növbəti tədris ilində Bakımızda mahiyyətinə görə yeganə və bütün Rusiya imperiyasında ilk müsəlman qadın təhsil müəssisəsi açılacaq.

Məktəbin bizim müsəlmanların gələcək əqli–mənəvi inkişafında mühüm rolunu nəzərə alaraq, oxucularımızı bu məktəbin nizamnaməsi ilə tanış etməyi borc bilirik.

Rusiyada müsəlman qızlar üçün ilk məktəb İmperator Həzrətləri Nikolay Aleksandroviç və İmperatriçə Həzrətləri Aleksandra Fyodorovnanın müqəddəs tacqoyma mərasimi şərəfinə Bakıda təsis edilir və "Bakı İmperatriçə Aleksandra Fyodorovna adına rus–müsəlman qız məktəbi" adlanır [57].

Nizamnamənin təsdiqindən sonra təsisçi Hacı Zeynal Abdin Tağıyev məktəbin tezliklə açılması üçün bütün zəruri tədbirləri görmüşdü.

O, ilk növbədə Dövlət bankının yerli şöbəsinə 125 min rubl köçürdü və məktəb binasının inşasına başlanıldı.

Bu vaxtadək toxunulmaz kapitalın üstünə gələn faizlər 20 min rubla çatmışdır ki, həmin məbləğ məktəbin ehtiyaclarına sərf edilə bilər. İki il ərzində Nikolayevski küçəsində tikilən məktəb binası isə artıq hazırdır.

Bakının ən yaxşı küçələrinin birində yerləşən rus–müsəlman qız məktəbinin binası memarlıq cəhətdən gözəl tikili kimi şəhərimizi bəzəyəcək. Binada heç bir artıq element yoxdur, əksinə, zərif sadəlik və hər hissəsində harmoniya hiss olunur. Binanın planı Hacı Zeynal Abdin Tağıyev tərəfindən elə geniş götürülüb ki, onun daxili açılacaq məktəbin tələbatlarından qat–qat artıqdır: bina o qədər geniş və rahatdır ki, burada təkcə dördillik məktəbi deyil, şagirdlərin sayı çox olan qadın progimnaziya–pansionunu, hətta qadın gimnaziyasını yerləşdirmək mümkündür.

Məktəbin gələcəkdə genişləndirilməsi üçün olduqca əlverişli olan bu amilə görə bütün aşağı (zirzəmi) mərtəbəni icarəyə vermək imkanı yarandı ki, bu isə məktəbin saxlanılmasına ildə bir neçə min rubl əlavə vəsait deməkdir.

Məktəb binasına sərf olunan dəqiq rəqəmi hələ müəyyən etmək mümkünsüzdür, lakin Hacı Zeynal Abdin Tağıyevin binanın tikintisini belə geniş aparmasından görünür ki, ianə edilən kapitalla birgə inşaat işlərinə 200 min rubldan artıq xərclənib.

Bu vaxt ərzində Hamilər Şurasının tərkibi də formalaşmışdır. Fəxri təsisçi Hacı Zeynal Abdin Tağıyevin sədrlik etdiyi Şuraya hazırda Bakı quberniya qazısı Hacı Molla Cavad Axund Məmməd Əlizadə, Bakı şəhərinin başçısı vəzifəsini icra edən M. A. Belyavski, təsisçinin həyat yoldaşı S. Tağıyeva, Bakı qadın gimnaziyasının müdirəsi M. M. Latkina, Bakı kişi gimnaziyasının direktoru A. İ. Pobedonostsev, Bakı şəhər dumasının üzvü Həsən bəy Məlikov, "Kaspi" qəzetinin redaktoru və naşiri Əlimərdan bəy Topçubaşov, dağ-mədən mühəndisi Fərrux bəy Vəzirov və tədris müəssisəsindən daimi üzv – Bakı quberniyası Xalq məktəblərinin müdiri A. S. Txorjevski.

Bu ilin yazında keçirilən iclaslarda Hamilər Şurası məktəbin açılması ilə əlaqədar bir sıra təşkilati məsələləri müzakirə və həll etdi [58]. Lakin gözlənildiyi kimi, ən vacib və eyni zamanda ən mürəkkəb məsələ rus–müsəlman qız məktəbinin müdirəsi və müəllimələri vəzifələrinə uyğun şəxsləri seçmək oldu [59].

Təlim–tərbiyə personalının seçilməsində qarşıya çıxan çətinlikləri, habelə bizim müsəlmanlar üçün yeni və mühüm olan bu addımın atılmasında ehtiyatlı olmağın zəruriliyini nəzərə alan Hamilər Şurası rus–müsəlman qız məktəbinin dəqiq açılış gününü təyin etməyib. Hazırlıq işləri tam başa çatdıqdan sonra bütün Rusiya müsəlmanlarının maraqla gözlədiyi müsəlman qız məktəbinin rəsmi açılışı barədə xüsusi elan ediləcək.

T. [60].

"Kaspi", 21 avqust 1901-ci il.

№ 35
"Kaspi" qəzetində dərc edilən məlumat
19 sentyabr 1901-ci il

Sentyabrın 16-da keçirilən Bakı Aleksandrinski rus–müsəlman qız məktəbinin Hamilər Şurasının iclasında ərizə vermiş şagirdlərin qəbulu və məktəbin açılma vaxtı məsələləri müzakirə olunmuşdu. Məlum oldu ki, məktəbə Zaqafqaziya, habelə Şimali Qafqaz quberniyalarından müxtəlif silklərə (o cümlədən, xan) və dərəcələrə (ruhani, hərbi və s.) mənsub müsəlman valideynlərdən 52 ərizə daxil olub. Bunlardan qəbul olunub: məktəbin təsisçisi H. Z. A. Tağıyevin vəsaiti hesabına – 21 nəfər pansioner qız, öz hesabına oxuyan - 14 pansioner qız. 17 nəfərə rədd cavabı verilib (4 nəfərə yaş həddinə uyğun gəlmədiyinə (12-14 yaş), 13 nəfərə pulsuz pansioner yerinə vakansiya qalmadığına görə).

Həmin 13 nəfər müsəlman qıza təhsil vermək arzusunda olan məktəbin təsisçisi H. Z. A. Tağıyev Şuraya təklif etdi ki, məktəb zirzəmilərinin anbar kimi istifadə olunması nəticəsində toplanan gəlir – onun təsis etdiyi 20 yerdən başqa,

əlavə pulsuz pansioner yerinin açılmasına sərf edilsin.

Binanın özü isə, demək olar ki, hazırdır və indi elektrik naqillərinin çəkilməsi, Hamilər Şurasının üzvü Həsən bəy Məlikovun rəhbərliyi altında məktəb üçün alınan mebel və digər təsərrüfat əşyalarının quraşdırılması üzrə fəal işlər gedir. Artıq məktəbə qəbul olunan və Bakıya gələn və şagirdlər Həsən bəy Məlikovun evində qalırlar.

Məktəbin təntənəli açılışı bu ayın sonunda nəzərdə tutulub, açılış günü barədə yaxın vaxtlarda xüsusi elan veriləcək.

№ 36
Bakıda rus–müsəlman qız məktəbinin açılması haqqında

Maarifin inkişafına bizdə o qədər böyük ehtiyac var və eyni zamanda, gəncliyimizin təlim–tərbiyəsi ilə məşğul olan əsl təhsil ocaqlarımız o qədər azdır ki, məqsədindən asılı olmayaraq istənilən məktəbin açılması öz ölkəsinə xeyir arzulayan hər kəsin qəlbini xüsusi sevinclə doldurur. Hər bir məktəbə ölkənin maarif müəssisələrindən biri kimi baxarkən, biz yeni təhsil ocağının yaranmasını alqışlayır və hiss edirik ki, məktəblərin sayının artması, bununla əlaqədar maarifin yayılması bizi işığın zülmət, xeyrin şər üzərində qələbəsinə yaxınlaşdırır.

Əgər hər məktəbin açılması cəmiyyətin qabaqcıl hissəsini bu qədər sevindirirsə, onda bərabəri olmayan və ilk dəfə yaranaraq, nəinki Qafqaz diyarı, eləcə də bütün Rusiya, hətta bütün dünya müsəlmanlarının rəzil həyatına işıq saçacaq məktəb haqqında nə demək olar!

Bizim müsəlmanların əqli–mənəvi inkişafında yeni dövrün başlanmasını təcəssüm etdirən bu cür məktəb rolunda nəsli fəxri vətəndaş Hacı Zeynal Abdin Tağıyevin Bakıda yaratdığı İmperatriçə Aleksandra Fyodorovna adına rus-müsəlman qız məktəbi çıxış edir. Bu səxavətli xeyriyyəçinin adı o qədər populyardır ki, o, xeyriyyə işlərində yaxından iştirak edən ən varlı müsəlman kimi öz vətənindən çox uzaqlarda tanınır.

Milliyyətindən və dinindən asılı olmayaraq, imkansızlara maddi yardım göstərən, milyonçu kasıblara qarşı səxavətli olmalıdır kimi dar və şəxsiyyətə toxunan düşüncədən tam uzaq olan H. Z. A. Tağıyev həqiqətən də ehtiyacı olanlara kömək etməyin vacibliyini və zəruriliyini anlayır.

Lakin cənab Tağıyev özünü xalq maarifinin köməyinə xüsusi həvəs və inadla yetir. Təhsilin qatı tərəfdarı olan H. Z. A. Tağıyev onunla maarif məsələləri ilə əlaqədar təmasda olanların hamısını təəccübləndirir. Heç bir təhsil almayan bu şəxsin fitri ağlı maarifin böyük qüdrətinə inamla və əminlik enerjisi ilə doludur.

Müasir ziyalı insanın dilindən eşidilə bilən fikirləri söyləyərkən, təhsilin ehtiyac və tələbatlarını çox vaxt ödəyən Hacı Zeynal Abdin Tağıyev məktəbə bu qədər pərəstiş etməklə, onu həqiqətən ilahiləşdirməklə öz həmsöhbətini heyrətə gətirir.

Cənab Tağıyevin hər il müəyyən məbləğ xərcləyərək fəxri hamisi olduğu və ya onlarla təqaüdçü şagirdi saxladığı bütün tədris müəssisələrini sadalamaq qeyri–mümkündür. Şagirdlərə birdəfəlik müavinətlər şəklində dəfələrlə yardım göstərən cənab Tağıyev ümumdövlət və yerli əhəmiyyət daşıyan böyük hadisələrdən maarifin xeyrinə işlər görmək üçün istifadə edir. Onun Bakıda Aleksandr Nevski kilsəsinin açılması [61] və Gürcüstan ekzarxının Bakıda olması [62] şərəfinə 10 min rublu ianə etməsini xatırlatmaq olar. Həmin vəsaitdən 3 min rubl Bakıda pravoslav kilsəsi nəzdində məktəbin xeyrinə, 7 min rubl isə Bakı qəzası xalq məktəblərinin vəsaitlərinin artırılmasına ayrılmışdı. H. Z. A. Tağıyevin Bakı qəzasının Mərdəkan kəndində açdırdığı xüsusi bağçılıq məktəbi, məktəb üçün gözəl bina tikdirməsi, geniş bağ saldırması və məktəbin saxlanılmasına on minlərlə rubl vəsait ayırması, əlbəttə, çoxlarının yadındadır [63]. Xeyriyyəçi bu yaxınlarda Qafqaz islah koloniyaları və azyaşlı cinayətkarlar üçün sənətkarlıq sığınacaqlar cəmiyyətinin xeyrinə 20 min, Peterburq Xeyriyyə Cəmiyyətinin [64] xeyrinə 10 min, açılacaq Bakı Kommersiya məktəbinin [65] xeyrinə 50 min rubl ianə etmişdir.

H. Z. A. Tağıyevin xeyriyyəçilik, o cümlədən, maarif sahəsində gördüyü işlər ona bizim diyarın əhalisi arasında layiqli hörmət, müsəlmanlar arasında isə əsl pərəstiş qazandırmışdı. Bunun sayəsində H. Z. A. Tağıyev yaxşı və xeyirli işlərə həssas yanaşan insan kimi digər varlı müsəlmanlardan çox seçilir. Ona görə də bizim diyarda, habelə Rusiyanın daxili quberniyalarında yaşayan müsəlmanlar üçün nadir və ictimai xarakterli xeyirli işlər H. Z. A. Tağıyevin bu və ya digər şəkildə iştirakı olmadan baş tutmur. Bu baxımdan bizim müsəlmanlar cənab Tağıyevi digər dindaşlarına nümunə göstərməyi çoxdan adət ediblər. Sonuncular bəlkə də bakılı xeyriyyəçidən varlıdırlar, lakin insanın özündən sonra qoyub getdiyi ən yaxşı xatirə olan mənəvi keyfiyyətlər, xeyrə və nura məhəbbət cəhətdən çox kasıbdırlar.

Lakin H. Z. A. Tağıyevin bu vaxtadək gördüyü maarifçi–xeyriyyə işlərinin zirvəsi onun Bakıda açdırdığı rus–müsəlman qız məktəbidir. Təkcə ona görə yox ki, cənab Tağıyev bu məqsədlə 200 min rubldan artıq vəsait xərcləyib, əsasən ona görə ki, təsisçi özü məktəbə böyük əhəmiyyət verir və həmin ilk məktəb müsəlmanların gələcək mənəvi inkişafına önəmli təsir göstərəcək.

Müsəlmanların ümumi cahilliyindən irəli gələn müsəlman qadınının olduqca ağır vəziyyəti, onun işıqdan və havadan məhrum edilməsi, rahat oxunan əlifbanın, savadlı Quran və şəriət təfsirçilərini hazırlayan və düzgün təşkil edilən

ruhani məktəbinin olmaması islam etiqadına mənsub xalqların ümumi geriliyinin əsl səbəbidir. Müsəlman xalqlarının gələcəyi məhz bu kimi vacib məsələlərin, düzgün və tez həllindən asılıdır.

Ümummüsəlman həyatının bu təxirəsalınmaz ehtiyacları ödənilmədən müsəlmanların gələcək mövcudluğunu, xüsusən də, onların müasir xalqların mədəni–iqtisadi arenasında mübarizəsini, təsəvvür etmək çətindir. Bizim müsəlmanların da şüuru nadan ömür sürdükləri o ağır şəraitin ziyanını daha çox anlamağa başlayır.

Məhz buna görə Bakıda qızlar üçün təhsil müəssisəsinin yaradılması xəbəri bütün müsəlman dünyasını həyəcanlandırdı: imperiyanın müsəlmanlar yaşayan, demək olar ki, bütün bölgələrindən, o cümlədən, bizim redaksiyaya narahatlıqla dolu suallar gəlirdi: bu nə məktəbdir, onun proqramı necə olacaq, təlim–tərbiyə personalı kimlərdən ibarət olacaq və i.a. Sualların çoxunda müsəlman qız məktəbinin özünün təşəbbüsünə bir növ qorxulu etimadsızlıq müşahidə olunurdu: H. Z. A. Tağıyev "belə" işə tez başlamayıbmı? Müsəlman əhalisinin cahil hissəsi, xüsusilə də, ruhanilər buna necə yanaşacaqlar?..

Etiraf etmək lazımdır ki, bu cür sualların indi də mövcud olmağa ixtiyarı var və onlar nəinki təhsilli kütlənin, həmçinin etiqad etdikləri dindən və şəriətlərin az başı çıxan və bundan xəcalət çəkməyən müsəlmanların Məhəmmədin dininə olan fikir və baxışlarından irəli gəlir.

Müsəlmanlıq haqqında yanlış təsəvvürlər arasında qadının mövqeyinə dair formalaşan baxışı xüsusi qeyd etmək lazımdır. Məhəmməd peyğəmbərə və onun yaratdığı Qurana yalnız mənfi, hətta düşmən mövqedən yanaşanlar, əlbəttə ki, müsəlman qadının bədbəxtliyini də birbaşa Məhəmmədin dininin nəticəsi kimi görməli idilər: "müsəlmanların peyğəmbəri və onun şəriəti qadını dilsiz-ağızsız ev heyvanı səviyyəsinə çatdırmış, öz davamçılarına aşılamışdır ki, qadın kişinin köləsidir, onun əyləncələri və evdə qulluq üçün yaranıb!"

Bu "təlimi" Məhəmmədin adına çıxaranlar unudurlar ki, dünyada nizamlı ümumbəşər həyat yaratmağa çalışan islamın qurucusu təbiətin özünün birgə, həmrəy və bərabər yaşamaq üçün yaratdığı iki cinsdən olan insanlar arasında bərabərsizliyi din tərəfindən qanuniləşdirə, belə mənəviyyatsız və antisosial fikri təbliğ edə və onun tərəfdarı ola bilməzdi.

Ölümə məhkum belə din yaranarkən məhv olmalı idi, çünki öz tərəfdarlarına bəşər əleyhinə ideyalar təlqin edirdi. Lakin bütün Yer kürəsinə səpələnmiş ərəb peyğəmbərlərinin davamçıları yüz milyonlardı və onların sayı getdikcə çoxalır...

Qəzetimizin səhifələrində yer alan bir sıra məqalələrdə ətraflı bəhs edilən bu mövzuya toxunmayaraq yalnız bunu deyək ki, islamın peyğəmbəri kişi və qadının bir maddədən yarandığını (Quran: Qadınlar haqqında fəsil) təbliğ edərək,

qadına bütün şəxsi, ailə və əmlak hüquqlarını aid etmiş və bununla da, qadına kişi ilə eyni hüquqi vəziyyət yaradaraq onu sonuncu ilə bərabər ictimai–mənəvi səviyyəyə yüksəltmişdir.

Lakin əgər müsəlman qadını kişilərlə bərabər hüquqlu olmasına baxmayaraq, hüquqsuz məxluq kimi çıxılmaz vəziyyətə düşüb və indi də belə haldadır, bunun günahı heç də Məhəmmədin dinində deyil. Günah müsəlman xalqlarının yaşadığı sosial–məişət münasibətlərinin tarixində və əsrlər boyu peyğəmbər təlimini cahil, lakin böyük qüdrətə malik, şəriət qanunlarından öz maraqları və şərq hökmdarlarının istəkləri naminə istifadə edən ruhanilər tərəfindən təhrif olunmasındadır...

İstər ayrı–ayrı şəxslərin, istərsə də bütöv cəmiyyətlərin, xalqların real həyatı heç vaxt qanunla və dinlə müəyyən edilən normalara sığışa bilməz. Özündə mütərəqqi başlanğıcı ehtiva edən bəşər həyatı ətraf mühitin, məkan və zamanın təsiri altında bu və ya digər formalar ala bilər. Konkret cəmiyyətdəki "faktiki" vəziyyət onun adət-ənənələrini təşkil edən və əsrlərlə formalaşan həyat şəraitinin nəticəsidir. Həmin şərait nə qədər mənfi və ziyanlı olsa da, o, keçmişin ağır yükü kimi tezliklə unudula bilməz; onun öz tərəfdarları olub və olacaqdır ki, bunlardan da kimisi nadanlıqdan, kimisi qərəzçilikdən və başqa şeylərdən köhnəliyin "pozulan haqlarının" müdafiəsinə qalxacaq.

Təəssüf ki, müsəlman qadınının faktiki vəziyyəti bu cürdür: o, indi hüquqsuzdur, daha güclü cinsin zülmü altındadır, öz ağlını və təbii bacarıqlarını inkişaf etdirmək imkanından məhrumdur. Bir sözlə, "Allahın və peyğəmbərin bəxş etdiyi" hər şey onun əlindən alınıb!

Müsəlman qadınını bu cür kədərli vəziyyətdən yalnız məktəb xilas edə bilər.

Bakıda açılan və müasir anlamda ilk məktəb olan İmperatriçə Aleksandra Fyodorovna adına rus–müsəlman qız məktəbi müsəlman qadınının əqli və mənəvi inkişafının başlanğıcını qoyacaqdır. Bu, əlbəttə, o demək deyil ki, müsəlmanlar indiyədək qadın məktəbi bilməyiblər və öz qızlarını oxutdurmayıblar. Yüksək təhsilli və savadlı, hətta Bağdad, Qahirə, Kordova və Şərq dövlətlərinin digər elm mərkəzlərinin akademiyalarında professor vəzifəsini tutan müsəlman qadınlarının adları qızların oxuduğu məktəblərin çoxsaylı olmasına dəlalət edir. Bağdad mədrəsələrində ədəbiyyatdan mühazirələr oxumuş məşhur Fəhrum–Nisə, qadınlara və kişilərə ilahiyyatdan dərs keçmiş Ümmül–Xeyr Fatimə və Ümmül–İbrahim əl–Yeldani, Kordovada qrammatika üzrə professor əl–Əruziyyə və başqaları öz dövrünün çox savadlı adamları hesab olunublar.

Lakin müsəlman qadınının şüurlu bəndə kimi azadlıqdan bəhrələndiyi dövr təəssüf ki, tarixdə qaldı. Bununla belə, tarix sübut etdi ki, islam maarifə

düşmənçiliklə yanaşmır, o, əgər qanunları təhrif edilməzsə, müsəlman xalqlarını tərəqqiyə aparan güclü stimuldur. Müsəlman qadınını indi düşdüyü səviyyəyə endirən qapalılığın tərəfdarları yuxarıda adı çəkilən qadınların adları qarşısında utanmalıdırlar! Və yalnız İstanbulda, Qahirədə, Bombeydə, Kəlküttədə yaşayan qabaqcıl müsəlmanların qadınların əqli–mənəvi vəziyyətinin yüksəldilməsi məqsədilə gördüyü tədbirlər onlara qarşı edilən "günahın" qismən yuyulmasına kömək ola bilər.

Qafqaz diyarına və ümumiyyətlə, rusiyalı müsəlmanlara gəldikdə isə, onlarda müsəlman qızların oxuması üçün düzgün təşkil edilmiş məktəbin mövcudluğundan bixəbərik. Bizə yalnız diyarın zəngin müsəlmanlardan yığılacaq ianələr və dövlət xəzinəsindən subsidiyalar hesabına 80-ci illərdə Tiflisdə müsəlman qızlar üçün xüsusi institutun açılması cəhdi məlumdur.

Keçmiş Qafqaz Canişini Baş idarəsinin rəisi, mərhum general Staroselskinin tərəfdarı olduğu bu fikir müsəlman qızlar üçün xüsusi tədris müəssisəsinin açılmasının narahat və hətta təhlükəli olmasını deyənlərin ucbatından öz həllini tapmadı.

Həmin Tiflisdə 80-ci illərin əvvəllərində qızlar üçün ibtidai məktəb açdıran müsəlman xeyriyyə cəmiyyəti təsis olundu. Lakin həm cəmiyyət, həm də məktəb vəsait çatışmazlığı səbəbindən tezliklə bağlandı.

Sadalananlardan başqa bizdə müsəlman qızların təhsili ilə əlaqədar ciddi cəhdlər və qayğılar olmamışdır.

Doğrudur, Qafqaz diyarının şəhərlərində və hətta bir çox kəndlərində yaşayan müsəlmanlarda qızların ev və ya məktəb təhsili var: qızlar savadlı və Quranı oxuyan qadının, nadir hallarda mollanın yanında toplaşır, adətən müsəlman məktəblərində keçilən, əsasən də mənasını anlamadan Quranı oxumağı, habelə toxuma və ya tikmə kimi əl işlərindən birini öyrənir. Hazırda bizim bir neçə bu cür qadın məktəbi var.

Məktəblərin müsəlmanların həyatında tutduğu məlum mövqeyi, onların populyarlığını inkar etmədən deməliyik ki, burada çox vaxt hökm sürən sxolastik təlim üsulları və qaydalar onları müasir mənada məktəb adlandırmağa imkan vermir. Buna görə də Bakıda açılan rus–müsəlman qız məktəbini tam ixtiyarla Rusiyada müsəlman qızların təhsili üçün nəzərdə tutulan ilk tədris müəssisəsi adlandırmaq olar. Lakin bu məktəb təkcə say baxımından deyil, həm də nümunəvi quruluşuna görə birincidir. Həmin quruluş müsəlmanların indiki həyat şəraiti və qadına olan kütləvi münasibətin fonunda çox gərəklidir. Oxucularımızı "Kaspi"nin 183-cü nömrəsində* tanış etdiyimiz Bakı rus–müsəlman qız məktəbinin nizamnaməsinin məzmunundan göründüyü kimi, məktəbin təşkili,

* Bax: sənəd № 34.

təlim–tərbiyə işinin quruluşu qadın təhsilinin əleyhdarlarını da razı salmalıdır. Onlar bilməməzlik ucbatından istənilən maarif müəssisəsinə qarşı çıxır, belə bir cəfəng fikrin üstündə dururlar ki, bütün "yeniliklər" yalnız dini, ictimai, ailə əsaslarının, köhnə ənənələrin pozulmasına gətirib çıxarır…

Bu məktəbin təsisçisi müsəlman əhalisinin təəssüf ki, mühüm hissəsini təşkil edən bu köhnəliyin tərəfdarları ilə hesablaşmaya bilməzdi, ona görə də məktəbin nizamnaməsi tərtib olunarkən müsəlmanların ümumiyyətlə qadın təhsilinə olan təsəvvürləri mütləq saya alınmalı idi. Bu yalnız güzəşt deyil, həmçinin bizim müsəlmanların hazırkı əqli–mənəvi vəziyyəti şəraitində maarifçilik xarakterli işdən nəticələr əldə etmək üçün zəruri olan addım idi. Müsəlmanları inandırmaq lazım idi ki, Bakıda təsis edilən rus–müsəlman məktəbi qızlara gələcəyin qadını, həyat yoldaşı və anası olarkən lazım olan bilikləri vermək məqsədini güdür, həmin biliklər onu ailədən təcrid etməyəcək, öz dinindən və dilindən uzaqlaşdırmayacaq. Onları əmin etmək lazım idi ki, müsəlman qadınına təhsil vermək onu təkcə rusca danışmağı öyrətmək, doğma dilini unutmaq, dəblə geyinmək, ətrafdakıların adətlərini lağa qoymaq, qadın və ana borcundan imtina edərək ballara və teatrlara getmək demək deyil, əksinə, rus–müsəlman məktəbi elə təhsil vermək niyyətindədir ki, müsəlman qadını həm rusca danışmağı, həm ədəbli geyinməyi, həm ərinin əsl xanımı və övladlarının əsl anası qalmaq şərtilə ağılla əylənməyi bacarsın. Doğrudur, bu bütün qadın məktəbləri qarşısında qoyulan tələblərdir, lakin müsəlman qızlara təhsil verən ilk məktəb üçün onlar daha vacibdir, çünki bu bütün müsəlman cəmiyyətinin rəğbətini qazanmaqdan və xüsusən də, qadını zülmətdə saxlamağın tərəfdarı olanların bəd arzularını puça çıxarmaqdan ötrü lazımdır.

Biz şübhə etmirik ki, Bakı rus–müsəlman qız məktəbi bizim arzuladığımız tələblərə cavab verəcək. Nizamnamə ilə təsbit olunan, müsəlman nöqteyi-nəzərindən bütün tələbatları ödəyən məktəbin quruluşu buna zəmanət verir.

Bu baxımdan xüsusi diqqət çəkən məqamları qeyd edək: məktəb öz xüsusiyyətinə görə qapalı təlim–tərbiyə müəssisəsidir və buraya yalnız müsəlman qızlar qəbul olunur; birsinifli ibtidai məktəblərin proqramına uyğun ümumtəhsil fənlərdən başqa bu məktəbdə həmçinin şəriət və tatar dili tədris olunacaq; müdirə, rus və tatar dilləri, şəriət müəllimələri, həmçinin məktəbin bütün xidməti personalı müsəlman olmalıdır: nəhayət, Hamilər Şurasının tərkibində müsəlmanların nümayəndələrindən (hər iki cinsdən) başqa ruhaniliyin təmsilçisi – Bakı quberniya qazısı da var.

Bu şərtlərdən görünür ki, qız məktəbinin təşkili zamanı müsəlman cəmiyyətinin tələblərinə mümkün qədər riayət olunub. Həmin şərtlər necə həyata keçiriləcəksə, bu artıq təlim–tərbiyə personalının və məktəbin Hamilər Şurasının işidir. İlk rus–müsəlman qız məktəbinin bütün gələcək uğuru ələlxüsus təlim–

tərbiyə işinin vicdanla və bacarıqla aparılmasından, enerji və təmkinlikdən asılıdır. Əlbəttə, biz hər bir yeni, xüsusilə də, müsəlman qız məktəbi kimi işdə mümkün olan çətinliklərdən və səhvlərdən danışmırıq. Biz nizamnamədə qeyd olunan istiqamətin yaradılmasını və ona riayət edilməsini nəzərdə tuturuq, çünki yalnız o, məktəbi müsəlman qızların təhsil və tərbiyəsinin əsl ocağına çevirə bilər.

Bu baxımdan biz məktəb personalının və Hamilər Şurasının tərkibinə çox inanırıq: məktəbin müdirəsi, müəllimələri, nəzarətçisi, habelə Hamilər Şurasının müsəlman üzvləri ziyalı müsəlman təbəqəsinə aiddir. Bu bizdə məktəbin işlərinin uğurla aparılmasına, təlim–tərbiyə personalının və Hamilər Şurasının çətin olmasa da, lakin çox məsuliyyətli vəzifələrinə sevgi və enerji ilə yanaşacaqlarına inam yaradır. Gələcək üçün çox mühüm bir işin onlara həvalə edilməsi həmin insanlarda müsəlman cəmiyyəti qarşısında etimadı doğrultmağa stimul olmalıdır.

Nəhayət, Hamilər Şurasının tərkibində Bakı şəhərinin başçısının, yerli qadın gimnaziyasının müdirəsinin, kişi gimnaziyasının direktorunun və Xalq məktəbləri müdirinin olmasını da qeyd etmək lazımdır.

Rus–müsəlman qız məktəbinin maraqlarını məktəbə pulsuz olaraq torpaq sahəsi ayırmış Bakı ictimai idarəsi, həmçinin digər tədris müəssisələri ilə uzaqlaşdıran həmin insanlar məktəbin təsərrüfat və xüsusən də, pedaqoji cəhətdən düzgün işləməsinə fayda verəcəklər.

Yuxarıda sadalanan rus–müsəlman qız məktəbinin təşkili şərtləri o qədər məqsədəuyğundur ki, fikrimizcə, onların düzgün tətbiqi nəinki məktəbin uğurlu gələcəyini təmin edər, habelə digər bu cür tədris müəssisələrinin yaranmasına nümunə olar. Belə ki, bizim müsəlmanlar arasında artıq iki il mövcud olan Bakı rus–müsəlman məktəbi ideyasının təsiri altında yaxın vaxtlarda ona bənzər qız məktəbi İrəvan şəhərində açılacaqdır. Biz şübhə etmirik ki, bu yeganə nümunə olmayacaq, çünki müsəlman qızlarının təhsili ideyası bərəkətli torpağa atılan toxum kimi gələcəkdə öz bəhrəsini verməlidir.

Fikrimizcə, bu ideya inkişaf etdirilərək, rus–müsəlman qız məktəbinin proqramının gələcəkdə genişləndirilməsinə gətirib çıxarmalıdır. Sözsüz ki, birsinifli məktəb öz təhsilini davam etdirmək istəyən müsəlman qızlar üçün kifayət etməyəcək. Həyatın bu cür təbii ehtiyacı rus–müsəlman qız progimnaziyasının, sonra isə gimnaziyanın da yaradılması məsələsini ortaya qoyacaq.

Yəqin ki, həmin məsələ yenə də Bakıda, qadın təhsili istiqamətində ilk addımlar atan şəxslər tərəfindən həll ediləcək... Təsadüfi deyil ki, rus–müsəlman məktəbinin təsisçisi Hacı Zeynal Abdin Tağıyev bu məktəb üçün elə bina tikdirib ki, burada pansionla birgə qadın progimnaziyası və hətta gimnaziya yerləşə bilər. Məhz Ülyahəzrət İmperatriçənin adını daşıyan ilk rus–müsəlman məktəbi qızlara verilən biliklərin genişləndirilməsinə çalışmalıdır. Bu ona görə lazımdır

ki, həmin biliklər vaxt keçdikdən sonra digər xalqlara mənsub savadlı qızların əqli–mənəvi təsəvvürləri ilə bir səviyyədə dura bilsinlər.

Lakin bu gələcəyin işidir! Hələlik isə müsəlmanların əqli–mənəvi və iqtisadi yüksəlişinin və inkişafının təməl daşlarından biri sayılan qadın təhsilinin möhkəm başlanğıcı qoyulub.

Öz dindaşlarının köməyinə vaxtında gələn Hacı Zeynal Abdin Tağıyev ailədə qadının rolunu yüksək dəyərləndirən və "Cənnət anaların ayaqları altındadır" deyən Məhəmməd peyğəmbərin sözlərinə tam əməl edir.

Ailənin təməli olan ağıllı ana onun cəmiyyət və dövlət üçün əhəmiyyətini anlaya, öz övladlarına – gələcəyin vətəndaşlarına əqli–mənəvi qüvvələrinin inkişafında ilk addım atmağa kömək edə bilər.

Lakin ağıllı ana olmaq üçün ilk növbədə insan, qadın hüquqlarına malik olmaq lazımdır, o hüquqlar ki, müəyyən səbəblər üzündən müsəlman qadınından alınmışdır... O, öz hüquqlarını yalnız məktəbin köməyi ilə geri qaytara bilər. Məktəb ona nikah bağlanarkən müsəlman qadınlarının hüquqlarını məhdudlaşdırmaq istəyən xəlifə Ömərə bir qadının hamının yanında dediyi sözləri həmişə yadda saxlamağı öyrədəcək: "Möminlərin əmiri, Sizin biz qadınlara Allahın və onun peyğəmbərinin verdiyini almağa ixtiyarınız yoxdur".

T.

"Kaspi", 22, 23 sentyabr 1901-ci il.

№ 37
H. Z. A. Tağıyevin A. S. Txorjevskiyə məktubu
30 sentyabr 1901-ci il

Bakı Aleksandrinski rus–müsəlman qız məktəbinin nizamnaməsinin 10-cu paraqrafına əsasən, bununla nəsli fəxri vətəndaş Səkinə xanım Hacı Mirzə Heybət bəy qızı Axundovanın şəriət və tatar dili üzrə ikinci müəllimə təyin edilməsi haqqında Hamilər Şurasının 15 sentyabr tarixli qərarının surətini, habelə Axundovanın şəriət qaydalarını və tatar–Azərbaycan dilini bilməsi üzrə keçirilən sınaq haqqında şiə məzhəbli Quba qəza məhkəməsinin cari il mayın 30-da verdiyi şəhadətnamənin əslini Zati–alinizə göndərərək, Sizin cənab Qafqaz Tədris Dairəsinin hamisi qarşısında Hamilər Şurasının adı çəkilən qərarının təsdiq edilməsi barədə vəsatət qaldırmağınızı və təqdim olunan şəhadətnaməni geri qaytarmaqla sonrakılar haqqında məni məlumatlandırmağınızı xahiş edirəm.

ARDTA: f. 309, siy. 1, s. v. 780, v. 95.

№ 38
"Qafqaz" qəzetində [66] **dərc edilən məqalədən**
№ 261, 1901-ci il

...Şəhərdə təlim–tərbiyə işində ilk belə mühüm addım İmperatriçə Aleksandra Fyodorovna adına rus–müsəlman qız məktəbinin açılmasıdır. Özünün təyinatına və quruluşuna görə məktəb qarşısına müsəlman qızlara ən elementar təhsilin düzgün əsaslarını öyrətmək və bununla da indiyədək müsəlman qadınını zəmanəmizin bütün nailiyyətlərindən qoruyan "Çin səddini" məhv etmək məqsədini qoyan ilk təhsil müəssisəsidir. Məktəbin vəzifəsi olduqca yüksəkdir və təsisçi Hacı Zeynal Abdin Tağıyevin maarifpərvər təşəbbüsünə şərəf gətirə bilər. Məktəbin yaraşıqlı binası, daxili tərtibatı, mebeli tam hazırdır, xidməti personal, eləcə də şagird kontingenti seçilib. Onun açılışı gələn həftə baş tutacaq.

ARDƏİA: f. 675, siy. 2, s. v. 97, v. 14.

№ 39
Əhməd bəy Ağayevin [67] **"Müsəlmanlarda qadın təhsili" məqaləsindən**

Bazar günü, oktyabrın 7-də, Hacı Zeynal Abdin Tağıyevin vəsaiti hesabına təsis olunan İmperatriçə Aleksandra Fyodorovna adına rus–müsəlman qız məktəbinin açılışı baş tutacaq. Bu, səxavətli xeyriyyəçinin səyi ilə sivilizasiyanın diyarımızdakı müsəlman ailəsinə açdığı ilk pəncərədir. Müsəlman ailələrinə nur gətirəcək, onları elmin, biliyin, şüurlu insani münasibətlərin canlı şüaları ilə isidəcək həmin maarif pəncərəsinin bütün faydaları üzərində ətraflı dayanmağı artıq sayırıq. Biz hətta düşünürük ki, müsəlmanların dirçəlişi, onların əqli–mənəvi yüksəlişi üçün əhəmiyyətinə və zəruriliyinə görə heç bir müəssisə, heç bir tədbir (hələ ki mövcud olmayan və müsəlmanların səbirsizliklə gözlədiyi ruhani seminariyasından başqa) yeni açılan məktəblə rəqabət apara bilməz. Onun xeyri o qədər geniş və dərindir ki, onları sadalamaqdansa, hiss etmək daha asandır. Bununla belə, diyarımızdakı müsəlmanların geriliyinə, qadın məsələsində həddən artıq ehtiyatlı yanaşmalarına baxmayaraq, onlar məktəbin əhəmiyyətini dərhal hiss etdilər. Cənab Tağıyevin təşəbbüsü təkrarlanmağa başladı: İrəvanda özəl rus–müsəlman qız məktəbi artıq fəaliyyət göstərir, Naxçıvanda isə bu cür məktəbin layihəsi hazırlanır. Tağıyevin məktəbinə isə o qədər ərizə daxil olub ki, Hamilər Şurası şagird qəbuluna dair hesablamalarını dəyişdirməli oldu. Həmin

maraq, qadın təhsilinə meyl digər müsəlman ölkələrində - Hindistanda, Misirdə, xüsusən Türkiyədə də müşahidə olunur. Bütün bu ölkələrdə qadını müsəlmanların məişətinə və ailə həyatına illər boyu zərər vuran zülmət və cəhalət buxovlarından azad etmək meyli açıq–aydın hiss olunur.

"Kaspi", 5 oktyabr 1901-ci il.

№ 40
"Kaspi" qəzetində dərc edilən elan
6 oktyabr 1901-ci il

İmperatriçə Aleksandra Fyodorovna adına Bakı rus–müsəlman qız məktəbi Hamilər Şurasının sədri və həmin məktəbin təsisçisi Hacı Zeynal Abdin Tağıyev bununla bildirir ki, məktəbin açılışı Nikolayevski küçəsindəki binasında, bazar günü, oktyabrın 7-si, günorta saat 12-də olacaq.

№ 41
"Kaspi" qəzetində dərc edilən elan
7 oktyabr 1901-ci il

İmperatriçə Aleksandra Fyodorovna adına Bakı rus–müsəlman qız məktəbi Hamilər Şurasının sədri və həmin məktəbin təsisçisi Hacı Zeynal Abdin Tağıyev hər hansı səbəbdən dəvət almayan və qadın təhsilinə biganə qalmayanları bu gün, oktyabrın 7-də, günorta saat 12-də məktəbin Nikolayevski küçəsindəki binasında baş tutacaq açılış mərasiminə dəvət edir.

№ 42
Bakıda müsəlman qızlar üçün açılan məktəb haqqında bir neçə söz

Keçən il "Qafqaz" qəzetinin 239-cu nömrəsində biz müsəlmanların qəlbində İmperator Həzrətlərinin müqəddəs tacqoyma mərasimini əbədiləşdirəcək məşhur xeyriyyəçi Hacı Zeynal Abdin Tağıyevin vəsaitinə Bakıda açılan İmperatriçə Aleksandra Fyodorovna adına rus–müsəlman qız məktəbinin əhəmiyyəti haqqında artıq yazmışdıq. Həmin məqalədə biz məktəbin bütün xeyirlərini, onun gələcək nəsillər üçün tərbiyəli və savadlı anaların hazırlanması işində böyük əqli–mənəvi əhəmiyyətini sadalamışdıq. Məqalənin sonunda biz həyata, insanların dünyəvi və dini ehtiyaclarına şüurlu və açıq fikirli nəzərlə baxan din xadimlərini

hazırlayan ruhani müsəlman seminariyasının yaradılmasının vacibliyinə diqqəti çəkmişdik.

Yaxın günlərdə qız məktəbinin açılışı nəzərdə tutulduğundan dediklərimizə bir də qayıtmağı və məktəbə xeyir–dua verməklə, ona Allahdan xeyir göndərməsini istəməyi lazım bildik.

Şübhə yoxdur ki, tərbiyə işində əsas rol anaya məxsusdur: o, nə qədər yaxşı və ciddi tərbiyə olunubsa, övladlarının da tərbiyəsi bir o qədər səmərəli olar. Bundan başqa ananın gözəl nümunəsi, xeyirxah keyfiyyətləri, mülayim xasiyyəti övladlara keçəcək və sonuncular məktəbə artıq getməzdən əvvəl xoş rəftar və yaxşı davranış qaydaları, habelə dinin əsasları ilə tanış olacaqlar.

Qızlar üçün belə analar daha vacib və qiymətlidir, çünki gələcəyin anaları və xanımları onlardan evdarlığı da öyrənər, onların yanında həyat şəraiti ilə tanış olar, əməkdə və ailədə vacib sayılan hər şeydən əvvəlcədən xəbərdar ola bilərlər.

Müsəlmanların dini nöqteyi-nəzərinə görə tərbiyə və təhsil məsələlərində kişi ilə qadın arasında heç bir fərq yoxdur. Məhəmməd peyğəmbər demişdir: *"elm öyrənmək hər bir müsəlman və müslimə üçün vacibdir"*. Məhz buna görə Zaqafqaziyada məktəb olmadığından gənc müsəlman qızlar çox vaxt Quranı və dinin əsaslarını fərdi qaydada müəllimələrdən öyrənirdilər. Bu cür özəl məktəblərdə dərs alan qızlardan bizə iki-üç şairə məlumdur.

İndi islamın keçmişinə nəzər saldıqda, müsəlman sivilizasiyasının Bağdad, Qahirə, Kordova kimi mərkəzlərində çoxlu sayda yüksək bilikli və istedadlı qadınların yaşaması məlum olur ki, onların da tərcümeyi-halı cildlərə bərabərdir.

Tibbin atası sayılan Əbu Əli ibn Sinanın anası Sitarə öz zəmanəsinin təhsilli qadını idi. Onun oğlu məhz anasının təsiri və qayğısı sayəsində 18 yaşında elmlərə yiyələnə və sonradan bu qədər şöhrət qazana bildi. Abbasi xəlifəsi Harun ər–Rəşidin vaxtında Bağdadda Hüsniyyə adlı bir qadın yaşayırdı. O, tez–tez xəlifənin hüzurunda kişi alimlərlə disputlar aparar və qalib çıxardı.

Bu tarixi faktları sadalamaqdan məqsəd nə dinin, nə də şəriətin qadının təhsil və tərbiyə hüquqlarını məhdudlaşdırmağını göstərməkdir. Əks halda islam dünyasında bu qədər məşhur qadınlar olmazdı.

Əgər bu vaxta kimi Zaqafqaziya müsəlmanları öz qızlarına təhsil verməyiblərsə, bunun səbəbi təkcə məktəbin olmaması deyil, həmçinin onların qız məktəblərinə yad ünsür kimi baxmasıdır. Halbuki bu məktəblərdə əsas diqqət qızların xoş xasiyyətinə və davranışına yönəldilib. Bakıda açılan məktəb isə, onun nizamnaməsindən göründüyü kimi, hər mənada qüsursuz təşkil olunub və sözsüz ki, çoxlu sayda şagird cəlb edəcək.

Bu gözəl müəssisəyə sidq ürəkdən xeyir–dua veririk. Biz tam əminik ki, bu məktəbdə oxuyan qızlar davranışlarına, xoş xasiyyətlərinə və ağıllarına görə

özlərinin digər bacıları üçün nümunə olacaqlar.

Bu sözlərimi belə bir arzu ilə bitirirəm ki, qadın təhsilinin qayğısını çəkmiş Hacı Zeynal Abdin Tağıyev müsəlman din xadimlərinin təhsilinə də diqqət yetirsin. Müsəlmanların həyatında böyük rol oynayan ruhaniləri hazırlamaq üçün rasional əsaslarla təşkil edilən seminariyanın olması vacibdir.

Qadın və ruhani məktəblərinin mövcudluğu, onların qarşılıqlı əlaqəsi tezliklə cəmiyyətimizə də təsir edəcək və bizim diyarın müsəlmanları onları hər tərəfdən cənginə alan nadanlıqdan nəhayət ki, azad olacaqlar.

Zaqafqaziya şeyxülislamı Axundzadə [68].

"Kaspi", 5 oktyabr 1901-ci il.

№ 43
Günün hadisəsinə dair

Bu gündən etibarən mühüm boşluğun və islama etiqad edən xalqların mədəni cəhətdən geri qalmasının əsas səbəblərindən biri olan qadın savadsızlığının aradan qalxmasının başlanğıcı qoyuldu.

Əksər müsəlman ölkələrinin aparıcı alimləri, publisistləri və ictimai xadimləri əvvəllər də, indi də bu böyük çatışmazlığı qeyd ediblər. Müsəlman ailəsinin acınacaqlı şəraitini, onun bünövrəsi olan qadının hüquqsuz vəziyyətini təsvir edən həmin insanlar müsəlman qadınının emansipasiyası üçün təməl qururdular.

Cəmiyyətin xəstəliklərinin "loğmanları" olan bu insanlar hökm sürən və xüsusilə qadını öz buxovlarında saxlayan nadanlığı müsəlman ictimai orqanizminin ən qorxulu xəstəliklərindən biri kimi təyin etmişlər.

Məhz buna görə qadının əzabkeş vəziyyətinin yaxşılaşdırılması istiqamətində atılan hər bir addım qadın təhsilinin vacibliyini anlayan bəzi müsəlmanların ruh yüksəkliyi və cəfakeşliklə dolu xeyirli fəaliyyətinin nəticəsidir.

Bugünkü təntənə həmin insanların kollektiv işinin görünən və daha çox hiss olunan məhsuludur. Onlardan hər biri ya iti qələmi, ya çılğın nəsihəti, ya şəxsi nümunəsi və maddi xərcləri ilə əsas məqsədə - müsəlmanları qadın təhsilinin zəruriliyinə inandırmağa doğru gedirdi.

Usta öz məhsuluna heyran qaldığı kimi, bu xeyirli ideyanın xalq arasında rəğbətlə qarşılanmasına çalışanlar H. Z. A. Tağıyevin bu gün açdırdığı qız məktəbində öz arzularının gerçəkləşməsini görürlər. Məktəbin binası ətrafında vaxtilə qadın təhsilinin carçısı olmuş insanların ruhu dolaşır və onlar təhsil

ocağına göylərdən xeyir–dua diləyirlər. İnsanların tərəqqisinə çalışanların hamısı bu hadisəni işığın zülmət üzərində qələbəsi kimi qeyd edir və bir səslə deyirlər: bu gün müsəlmanlar üçün əsl bayramdır!

Həqiqətən də, bu gün müsəlmanların bayramıdır, özü də nadir, görünməmiş bayram. Yeddi oktyabr günü Zaqafqaziyanın müsəlman əhalisinin ən mütərəqqi təbəqəsinin çoxdan arzuladığı qadın təhsili ideyasının nəhayət ki, gerçəkləşdiyi gün kimi yadda qalacaq. Və təkcə Zaqafqaziya üçün deyil, Rusiyanın qadın təhsili məsələsinin çoxdan həyati əhəmiyyət kəsb etdiyi müsəlmanlar yaşayan bütün bölgələrinin əhalisi üçün. Bunun özü bugünkü təntənəni ümummüsəlman əhəmiyyətli edir və ona Rusiyanın bütün müsəlmanları səs verməlidir.

Bizim Bakı fəxr edə bilər ki, bu gün bütün maarifpərvərlərin xoşbəxt nəzərləri ona yönəlib, müsəlmanların mədəni–mənəvi tərəqqisi üçün vacib olan qadın təhsili məsələsi burada öz həllini tapır.

Bakı şəhərinin salnaməsində bu gün ən şad günlərdən biri, Rusiyada müsəlman qızlar üçün ilk məktəbin açılması kimi yüksək mədəni hadisə olaraq qalacaq.

Hamin məktəbin açılmasını ürəkdən alqışlayaraq əminik ki, biz məktəbə uğurlar və çiçəklənmə arzulayan Bakının, bütün Qafqaz əhalisinin və Rusiya müsəlmanlarının istəklərini ifadə edirik.

T.

"Kaspi", 7 oktyabr 1901-ci il.

№ 44
İlk rus – müsəlman qız məktəbinin açılışı

Oktyabrın 7-də nəsli fəxri vətəndaş H. Z. A. Tağıyevin vəsaitinə təsis edilən İmperatriçə Aleksandra Fyodorovna adına Bakı rus–müsəlman qız məktəbinin təntənəli açılışı oldu.

Nikolayevski küçəsində yerləşən məktəbin yaraşıqlı binası artıq səhər tezdən bayraqlarla bəzədilmişdi. Günorta saat 12-yə yaxın ikinci mərtəbədəki böyük zal qonaqlarla dolmuşdu. Onların sırasında qubernator, həqiqi mülki müşavir P. A. Lileyev, general-adyutant, knyaz İ. Q. Amilaxvari, general-leytenant A. V. Ərəblinski, kontr-admiral V. R. Fon Berq, Xəzinə palatasının rəisi A. V. Kostenski, Dairə məhkəməsinin sədri K. P. Kolbasin, sədrin müavini P. F. Sanbayev, məhkəmə prokuroru M. E. Şults, balıq vətəgələrinin rəisi A. T. Marşev, gömrük dairəsinin rəisi A. A. Arsenyev, jandarma polkovniki N. V. Poroşin, İran konsulu Fahi – Mülk Mehdi xan, Bakı polismeysteri P. Q. Oxitsinski və başqaları, həmçinin Bakının dövlət və özəl kişi və qadın təhsil müəssisələrinin

rəhbərləri: İ. V. Denfer, A. İ. Pobedonostsev, F. Q. Karpoviç, S. L. Stepanov, P.A. Fedorovski, A. N. Lavrov, M. M. Latkina, A. A. Salkova, S. İ. Valde və başqaları; din xadimlərindən – Bakı quberniya yeparxiyasının başçısı A. İ. Yunitski, Bakı quberniyasının qazısı Axund Hacı Cavad Molla Ağa Əlizadə, erməni–qriqorian keşişləri Xoren Mirzabekyants, Qriqori Qriqoriyants, habelə şəhər başçısı M. A. Belyavski başda olmaqla dumanın və şəhər idarəsinin üzvləri, yerli bəylər, müsəlman və digər millətlərdən olan tacirlər, neft sənayeçiləri var idi.

Mərasim pravoslav və müsəlman ruhaniləri tərəfindən İmperator və İmperatriçə Həzrətlərinin, bütövlükdə imperator ailəsinin sağlığına oxunan dua ilə açıldı. Sonra A. Yunitski toplaşanlara müraciət edərək dedi:

"İcazə verin, bugünkü təntənə ilə bağlı bir neçə söz deyim. Hacı! Siz ömrünüzdə çox xeyirli işlər görmüsünüz: çoxdan onlardan başınıza gözəl çələng toxumusunuz. Lakin Sizin Bakıda açdırdığınız rus–müsəlman qız məktəbi bu çələngdə qiymətli brilyant kimi parıldayacaq. Lakin qızılgül olan yerdə tikanlar da olur. Bəlkə də elə insanlar tapılacaq ki, Sizi bu müqəddəs işə görə pisləyəcək. Möhkəm olun: həqiqət Sizin tərəfinizdədir. Kişi və qadın eynən Allahın yaratdığı bəndələrdir. İnsanın ruhu onun cismindən üstündür. Deməli, hər bir kişi, hər bir qadın ilk növbədə, cismini inkişaf etdirərək, öz ağlını və ürəyini "qidalandırmalıdır". Bunu yalnız məktəb, elm və təhsil təmin edə bilər. O da aydındır ki, bağda yaxşı gübrə alan alma ağacı yaxşı bar verdiyi kimi, həyatda da tam savadlı qadın əsl "bar" gətirə bilər. İnanın, Hacı, tezliklə, lap tezliklə bu körpə şagirdlər sonradan öz övladlarına ana və tərbiyəçi olacaqlar. Onda onlar öz uşaqlarına söyləyəcəklər: "Bakı şəhərində məşhur cənab H. Z. A. Tağıyev yaşayır. O, İbrahim kimi ağıllı və varlıdır. Lakin o, bir çox gənc kişilərə, qadınlara tərbiyə və təhsil verdiyinə görə xüsusən məşhurdur. Bax, mən də - sənin anan onun köməyi ilə təhsil almışam. O, bizim müdrik adamlarımız arasında ilk dəfə "müsəlman qadınına daha çox işıq verin", demişdir. Gəlin hamımızın xeyirxahı və atası üçün Allaha dua edək. Qoy Tanrı ona uzun ömür bəxş etsin, ailəsi xoşbəxt olsun".

Qoy Allahın xeyir-duası sizə də qismət olsun, sevimli övladlar! Siz artıq ona görə xoşbəxtsiniz ki, müsəlman həmyaşıdlarınız içərisində savadlı qadınlar sırasında duran birincilərsiniz. Bu gündən etibarən siz hamımızın anası – Ülyahəzrət İmperatriçə Aleksandra Fyodorovnanın xüsusi himayəsi altındasınız. Gəlin, özümüzü uca tutaq: məktəbdə yaxşı oxuyun ki, həyatda insanlara əsl xeyir gətirəsiniz! Bundan ötrü sizdən yaxınlarınıza qarşı sevgi, başqa insanlarla münasibətdə doğruluq və sülh tələb olunur. Yalnız belə həyat yolu ilə siz Ülyahəzrət Himayəçinizin xeyirxah diqqətini və haminiz H. Z. A. Tağıyevin sizdən ötrü çəkdiyi əziyyəti doğrulda bilərsiniz. Allah köməyiniz olsun!"

Öz çıxışında bugünkü təntənəyə xüsusi əhəmiyyət verən Bakı quberniya qazısı

Məhəmməd peyğəmbərin "elm öyrənmək hər bir müsəlman və müslimə üçün vacibdir" kəlamına istinad etdi. Qazı bu məktəbdə, nizamnaməsində göstərildiyi kimi, müsəlman şəriətinin tələblərinə əməl ediləcəyinə ümidvar olduğunu bildirdi. Şübhəsiz ki, qadın təhsilinin ocağı olan bu məktəb elmə və idraka böyük ehtiyac duyan müsəlman ailəsinin rəğbətini qazanacaq. Qazı müsəlmanların təhsili üçün gördüyü xeyirli işlərə görə onların adından H. Z. A. Tağıyevə təşəkkür bildirməklə və məktəbə firəvanlıq arzulamaqla öz sözlərini bitirdi.

Bundan sonra məktəbin təsis edilməsi haqqında formal akt oxundu və ondan məlum oldu ki, məktəbin nizamnaməsi 1898-ci il mayın 16-da təsdiq edilib və elə həmin vaxt ona İmperatriçə Aleksandra Fyodorovna adının verilməsi və "Aleksandrinski" adlandırılmasına icazə alınıb. Sonra təsisçi - cənab Tağıyev 183533 rubla başa gələn məktəb binasının tikintisinə başlamış və banka əlavə 125 min rubl toxunulmaz kapital qoymuşdur ki, ondan gələn faizlər hal-hazırda məktəbin və pansionun saxlanılması üçün yeganə mənbədir. Məktəb nəzdindəki pansion əvvəl 20 nəfər pulsuz oxuyan pansioner üçün nəzərdə tutulmuşdu, lakin binadakı zirzəmilərin icarəyə verilməsi nəticəsində yığılan vəsait hesabına onların sayı daha 15 nəfərə artırıldı. Həmin 35 nəfərdən əlavə Hamilər Şurası öz hesabına oxuyan pansioner qızların da qəbulunu məqbul saymışdır ki, onların təhsil və pansionda qalma xərci ildə 100 rubla bərabər olacaq. Cari ildə qəbul olunan şagirdlərin ümumi sayı 50 nəfər müəyyən edilmişdi, lakin məktəbdə oxumaq istəyənlər daha çox olduğundan şagirdlərin sayını artırmaq zərurəti yarandı. Hal–hazırda 58 müsəlman qız qəbul edilib, onlardan 49 nəfər artıq məktəbin şagirdləridir. Daxil olanların əksəriyyəti Zaqafqaziya, bir qismi isə Şimali Qafqaz sakinləridir. Daha çox şagird Şuşadan və Tiflis şəhərlərindəndir. Qızların yaşı 8–11 arasındadır, 8–9 yaş arasında olanlar üstünlük təşkil edir. Təlim–tərbiyə personalı hələlik müdirə, onun köməkçisi (o, həmçinin nəzarətçidir) və iki nəfər müəllimə-nəzarətçidən ibarətdir. Onların hamısı pansionun nəzdində yaşayırlar, ayrıca mənzillərə malikdirlər və nizamnaməyə müvafiq olaraq, müsəlmandırlar və təhsillidirlər. Şagirdlərin forması kimi Dağıstan qadınlarının paltarı (papaqla) qəbul olunub. Qızlar başlarını tül şərflə örtür. Həmin kostyumu müəllimlər də geyinir. Pansionun nəzdində xəstəxana mövcuddur və ştata görə onun xüsusi nəzarətçisi var. Məktəbin Hamilər Şurasına fəxri hami (məktəbin təsisçisi), Bakı quberniya qazısı, Xalq Məktəblərinin müdiri, Bakı şəhərinin başçısı, kişi gimnaziyasının direktoru, qadın gimnaziyasının müdirəsi, təsisçinin həyat yoldaşı və fəxri müsəlmanlardan üç nəfər – dumanın üzvü Həsən bəy Məlikov, "Kaspi" qəzetinin redaktor-naşiri Əlimərdan bəy Topçubaşov və dağ mühəndisi Fərrux bəy Vəzirov daxildir.

Akt oxunduqdan və imzalandıqdan sonra şagirdlərdən ibarət xor məxsusi

bu tədbir münasibətilə Bakı rus–tatar məktəblərinin müəllimi Mirzə Yaqub Əlizadənin bəstələdiyi bir neçə mahnını ifa etdi. "Çara dua" və "Oxumağa tərif" mahnıları toplaşanların sürəkli alqışları ilə qarşılandı.

Sonra məktəbin təsisçisi H. Z. A. Tağıyevə ünvanlanan təbriklərin oxunması başlandı. Birinci olaraq Ə. Topçubaşov ziyalı müsəlmanların təbrikini səsləndirdi:

"Çox hörmətli Hacı Zeynal Abdin! Bakıda müsəlman qızlar üçün ilk məktəbin açıldığı bu əlamətdar gündə biz – ziyalı müsəlmanlar – Sizə sonsuz minnətdarlığımızı və ürəkdən təşəkkürümüzü izhar etməyi lazım bilirik. Bunu ona görə böyük məmnuniyyətlə edirik ki, bizim və bütün müsəlmanların yaddaşında qalacaq, onların həyatında qeyri – adi bir hadisə olacaq bugünkü təntənə müsəlmanların həyatında yeni eranın başlanğıcını qoyacaq. Gələcəyin tarixçisi bu gün yaşadığımız hadisəni müsəlman qadınının – bütün xalqlarda olduğu kimi, ictimai, dövlət və beynəlxalq ittifaqlara həyat verən ailə ocağının təməli olan bu gözəl məxluqun intibah dövrünün başlanğıcı kimi qeyd edəcək. Və müsəlman qadınının hazırda yaşadığı intibahının ən parlaq səbəbkarlarından biri Sizsiniz, çox möhtərəm Hacı Zeynal Abdin!

Hələ məktəb yaşlarından biz Sizin simanızda hər bir yaxşı və xeyirli işə can yandıran müsəlmanı görməyə adət etmişik. Hələ o vaxtlar Sizin xeyriyyə işlərinə, o cümlədən, maarifə səxavətlə ayırdığınız ianələri sevincli həyəcanla qarşılayırdıq. Daha kamil yaşlarımızda yorulmadan müsəlman şagirdlərinə etdiyiniz maddi kömək və dəstəyi görərkən, biz əmin olduq ki, onlar Sizin simanızda etibarlı himayədara malikdirlər. Siz öz həyatınızın əsas vəzifələrindən birini, təəssüf ki, əhalinin ən nadan hissəsini təşkil edən müsəlmanlar arasında maarifin yayılmasında görürsünüz. İmperiyanın orta və ələlxüsus, ali məktəblərində onlarla gənc müsəlmanı oxutdurmaqla, Siz, çox hörmətli Hacı Zeynal Abdin, bununla təkcə təqaüdçülərinizə təhsil almaq imkanını vermədiniz, eləcə də xeyrini get-gedə anlamağa və məktəbi sevməyə başlayan müsəlman əhalisinin bütün təbəqələri arasında maarif işıqlarının yayılmasına kömək etdiniz.

Bu işdə bütün müsəlmanlar qarşısında böyük xidmətiniz var və onlar da şəxsiyyətinizə qarşı sonsuz minnətdarlıqdan irəli gələrək ürəklərində Sizə müsəlmanların əqli–mənəvi inkişafı və maariflənməsi işinin yorulmaz müdafiəçisi kimi fəxri yer ayırmışlar.

Bu xeyirxah işdə fəaliyyətinizi davam etdirərək, Siz qadın təhsilində də müsəlmanlar arasında ilk pioner oldunuz. Müsəlman qadınını indi əhatə edən əlverişsiz həyat şəraiti Sizi belə bir doğru fikirdə qətiləşdirdi ki, qadını nadanlıq zülmətindən çıxarmaq vaxtı çatıb və yalnız təhsil onu həyat yoldaşı və ana vəzifələrini şüurla yerinə yetirməyə öyrədə bilər. Qadının təlim və tərbiyəsi bir təməl daşıdır ki, onsuz müsəlmanların mədəni, mənəvi və iqtisadi cəhətdən tərəqqisi mümkün deyil.

Müsəlmanların maariflənməsi naminə göstərdiyiniz, bu gün hamımızın bayram etdiyi yeni fədakarlıqla Siz, çox hörmətli Hacı Zeynal Abdin, dindaşlarınız arasında əbədi heykəl ucaltdınız və onları özünüzə daha da borclu etdiniz.

Ziyalı müsəlman cəmiyyətinin səmimi sevincinə və canıyananlığına səbəb olan, böyük əhəmiyyətə malik bugünkü mərasim onların Sizə qarşı dərin minnətdarlığının zahiri təcəssümüdür, təsis etdiyiniz məktəbdə təhsil və tərbiyə alacaq onlarla, yüzlərlə savadlı müsəlman qız isə Sizin zəhmət və maddi xərclərinizin əvəzidir!

Bu bizim ürəklərimizi dolduran səmimi hisslərdir ki, onları qız məktəbinizin açılışı günündə qəbul etmənizi rica edirik: *Sağ olun, Hacı Zeynal Abdin, çox sağ olun!"*

Həmin ünvanın üzərində ilk imzanı qocaman müsəlman ziyalısı Həsən bəy Məlikov atmış və ona "Çox yaşa, Hacı!" sözlərini əlavə etmişdi.

Bu ünvan uzun sürən alqışlarla qarşılandı. Bakı müsəlmanları adından tatar dilində növbəti ünvanı Ə. Ağayev oxudu. H. Z. A. Tağıyevi maarifin əsl cəfakeşi adlandıran müsəlmanlar hesab edirlər ki, bu işıqlı, sevincli gündə onlar üçün yeni üfüq saçıb: "Bundan sonra müsəlman qadınları ailəyə maarif gətirmək imkanını qazanırlar; onların zəkası və ürəyi, nəhayət ki, nadanlıq zəncirlərindən azad olur. Onlar savadlı analar kimi gələcək nəsillərə tərəqqiyə, ətrafdakılara, xeyirli işlərə sevgini aşılaya biləcəklər. Bunlarsız bütün cəmiyyətlər ölümə məhkumdur." Ünvan səxavətli ianəçiyə firəvanlıq, onun böyük işinə isə Allahdan xeyir arzulamaq duası ilə bitir.

Bu ünvan da gurultu ilə qarşılandı. Sonra ziyalı müsəlman qadınlarının, Tiflis şəhərinin müsəlman şagirdlərindən və Qazan şəhərinin müsəlmanlarından gələn ünvanlar oxundu.

Ziyalı müsəlman qadınları ünvanlarında bildirirlər ki, bu günü özləri üçün bayramların bayramı, təntənələrin təntənəsi hesab edirlər, çünki bununla qadının əqli–mənəvi inkişafı tarixində ilk işıqlı səhifə açılmış olur. "Biz özümüzdən, öz gələcəyimizdən, indiki və gələcək nəsillərimizdən, bütün müsəlmanlardan ötrü şadlanıb – sevinirik və məlum həyəcanla bu təntənənin səbəbkarı - H. Z. A. Tağıyevə öz səmimi hisslərimizi izhar etməyə tələsirik. Onun gördüyü böyük iş bizim həssas ürəklər üçün xüsusən doğmadır".

Tiflisdən göndərilən ünvan H. Z. A. Tağıyevin xeyriyyə işlərində, o cümlədən, maarif sahəsində xidmətlərinin sadalanmasından başlayır. Lakin qız məktəbinin açılması bunların içərisində ən parlağı kimi qeyd olunur. "Səxavətli ianəçi "Ən yaxşı xeyir və sərvət insanların ehtiyaclarına və təskinlik tapmasına sərf olunandır", deyən Məhəmməd peyğəmbərin sözlərinə tam əməl edir. Əqli-mənəvi inkişafdan vacib, təxirəsalınmaz başqa heç bir şey ola bilməz. Müsəlmanlar üçün çox zəruri olan bu ehtiyacı anlayan və onu aradan qaldıran

Hacı Zeynal Abdinə eşq olsun!"

H. Z. A. Tağıyevi ürəkdən salamlayan Kazan müsəlmanları öz ünvanlarında bu məktəbin işığının Rusiyanın başqa yerlərində yaşayan müsəlman qızlara saçmasını arzulayırlar. Bu ilk məktəbdir ki, şəriət tələblərinə riayət etməklə bərabər müsəlman qızlar Qərb sivilizasiyası ilə tanış olacaqlar. Təhsil ocağında oxuyan müsəlman əhalisinin müxtəlif təbəqələrinə sevgi və qardaşlıq kimi ümumbəşəri hisslər aşılanacaq. "Biz inanırıq və Allaha dua edirik ki, bu məktəb bir çox başqalarının anası olsun, digər müsəlman vilayətlərində də ona bənzər məktəblər təşkil edilsin". Kazan müsəlmanları öz ünvanlarını məktəbin təsisçisinə can sağlığı arzulamaqla bitirirlər.

Ünvanların oxunması başa çatdıqdan sonra qonaqlar məktəbin yeməkxanasına dəvət olundular. Burada onlar üçün Şərq şirniyyatları, peçenye və meyvələrlə bəzədilən masa açılmış, çay və qəhvə təklif olunmuşdu. Qonaqlar qrup-qrup nümunəvi şəkildə qurulan pansiona da baxdılar. Zalda qalan bir qrup müsəlmanlar məktəbin açılması ərəfəsində Zaqafqaziyanın başqa bölgələrindən və Rusiyanın quberniyalarından daxil olan təbrik teleqramlarını dinləyir və onları sürəkli alqışlarla qarşılayırdılar. Teleqramların oxunması başa çatdıqdan sonra olduqca həyəcanlı H. Z. A. Tağıyev ziyalı müsəlmanlara xitabən söylədi: "Bugünkü təntənə böyük planın yalnız başlanğıcıdır. Siz binanın üst mərtəbəsini görürsünüz: mən onu belə hesabla tikdirmişəm ki, üstündə bir mərtəbə də inşa etdirmək mümkün olsun. Mən bunu edəcəyəm, çünki məktəb müsəlman qız gimnaziyasına çevrilməlidir. İndi mənim arzum budur".

Toplaşanların gur səsləri, "Ura", "Çox yaşa", "Viva noster, Tagiyeff"* çağırışları müsəlmanların bugünkü bayramının səbəbkarı, şərəfli adını həqiqətən əbədiləşdirmək istəyən H. Z. A. Tağıyevin bu parlaq, alicənab və nəticə verəcək unudulmaz sözlərinə təbii cavab idi.

"Kaspi" 9 oktyabr 1901-ci il.

№ 45
Aleksandrinski rus–müsəlman qız məktəbi şagirdlərinin məktəbin açılışı günü H. Z. A. Tağıyevə ünvanladığı məktubu 7 oktyabr 1901-ci il

Möhtərəm, çox hörmətli və sevimli atamız Hacı Zeynal Abdin!

Biz, təhsil və tərbiyə işlərinə, məktəblərin təsis olunmasına və inkişafına

* Yaşa, bizim Tağıyev – *latınca.*

ayırdığınız hesaba gəlməz ianələrə, xalqımızın maddi və mənəvi ehtiyaclarının aradan qaldırılması və rifah halının yaxşılaşdırılması üçün göstərdiyiniz səylərə görə Sizə minnətdarlıq etməyə, habelə bizim üçün tikdirdiyiniz gözəl məktəb binasına, təcrübəli müəllimələrə, bacarıqlı və savadlı tərbiyəçilərə görə təşəkkür etməyə söz tapa bilmirik. Biz yalnız Sizin varlığınızla, insanpərvərliyinizlə daim qürrələnə, Sizi xalqımızın maarifpərvər və ilk xeyriyyəçisi kimi qəbul edə bilərik. Əlahəzrət İmperator Nikolay Aleksandroviçin tacqoyma mərasimi şərəfinə təsis etdiyiniz, yüz iyirmi beş min rubl ianə ayırdığınız, habelə gözəl və rahat binanın tikilməsi, avadanlığın alınması üçün iri məbləğ xərclədiyiniz müsəlman qız məktəbinin açılışı günündə Sizi bu xeyirxah işdə qazandığınız uğura görə sidq ürəkdən təbrik edir və bizə göstərdiyiniz böyük qayğıya görə dərin minnətdarlığımızı bildiririk. Biz - Sizin mənəvi övladlarınız digər qardaşlarımızla birgə indi və hər zaman Sizi, xeyirxah adı və gözəl əməlləri daim yaşayacaq insan kimi, xalqımızın sevimli mənəvi atası hesab edəcəyik. Bu cür gözəl maarif ocaqlarında tərbiyə almış uşaqlar heç vaxt öz mənəvi atalarını unutmayacaq, yorulmadan Sizə dua edəcək, bu cür səxavət və xeyirxahlıqla onlara sərf etdiyiniz vəsaitləri və zəhməti öz əməlləri doğruldacaqlar. Peyğəmbərimiz Məhəmməd Mustafa səlallahu vəsəlləm nəcib işlərə sərf olunan vəsaiti xeyirli, nəcib işlər görən insanları isə mömin hesab edirdi. O, həm də deyirdi ki, Allah–təala ehtiyacı olan bir nəfəri təmin edən şəxsi Məkkəyə ziyarətə gedəndən daha üstün tutur.

Xeyirxahımız Hacı! Siz öz əməllərinizlə bir yox, yüzlərlə və minlərlə adamın ehtiyaclarını təmin etmisiniz. Biz sidq ürəkdən böyük Allahdan Sizə uzun ömür və bütün işlərinizdə uğurlar diləyirik. Qoy can sağlığı və xoşbəxtlik Sizin həmdəminiz olsun. Amin.

ARDƏİA: f. 675, siy. 2, s. v. 97, vv. 5-6.

№ 46
İlk rus-müsəlman qız məktəbinin açılışı

Rus–müsəlman qız məktəbinin açılışı münasibətilə Rusiyanın bütün müsəlman bölgələrindən daxil olan çoxsaylı teleqramlar belə bir sevindirici fakta dəlalət edir ki, bizim müsəlmanlar qadın təhsili kimi böyük və əhəmiyyətli işə həssas yanaşaraq, onun mədəni–mənəvi inkişaf üçün vacibliyini anladılar. Ən əlamətdar odur ki, ruhanilərdən tutmuş adi alverçilərə qədər, eləcə də bəylər, ağalar, xanlar, mirzələr, knyazlar, hərbi və mülki idarələrin məmurları, tacirlər – bir sözlə, bütün müsəlmanlar Hacı Zeynal Abdin Tağıyevin bu xeyirxah addımına səs verdilər.

Bu fakt ona görə qeyd olunmağa layiqdir ki, o, maarifin parlaq şüalarının müsəlmanlara da gəlib çatdığını göstərir: adətən, "yuxulu, cahil, geridə qalmış, fanatik" kimi təsvir olunan müsəlmanlar özlərinin Şərq çılğınlığına baxmayaraq, həqiqətən də, maarif işığının onlara gəlib çatacağı anı səbirsizliklə gözləyirlər. Nəhayət ki, bu işıq saçdı və Rusiya müsəlmanları ona qibtə və pərəstiş edirlər!

Qadın təhsili ideyasının gerçəkləşməsi çoxdan gözlənilən məqam idi və ona görə də Bakıda ilk qız məktəbinin açılması 15 milyonluq Rusiya müsəlmanları arasında qələbə səsi kimi yayıldı. Onlar bu nadir maarif bayramına, işığın zülmət üzərində təntənəsinə tezliklə cavab verməyə tələsdilər.

Həmin fikir müəlliflərin kimliyindən asılı olmayaraq (ruhanilər, tacirlər və ya müsəlman tələbələr) H. Z. A. Tağıyevə ünvanlanan təbrik teleqramlarının hamısından keçir. Onların bəzilərini diqqətə çatdıraq.

Tiflisdən:

"Gəlməyə imkanım olmadı; dərslərin başlanması münasibətilə təbrik edirəm; səxavətli ianəçiyə şagirdlər adından səmimi təşəkkürümü bildirirəm. Allah Sizin xeyirli işinizi avand eləsin".

Qafqaz Tədris Dairəsinin hamisi Zavadski.

"Sizin maarifpərvərliyiniz və məşhur xeyriyyəçiliyiniz sayəsində təsis olunan Aleksandrinski rus-müsəlman qız məktəbinin açılışına dəvətə görə səmimi qəlbdən təşəkkür edirəm; çox təəssüflənirəm ki, xidməti işlərim mənə mərasimə qatılmağa imkan vermir; xeyirli işə uğurlar arzulayıram, məktəbə, müəllimlərə və şagirdlərə Allahdan xeyir diləyirəm."

Zaqafqaziya şeyxülislamı Axundzadə.

"Şəxsən öz adımdan və tabeliyimdə olan ruhanilər adından müsəlman qadınlarımız arasında maarif yayan ilk ocağın açılmasına ürəkdən şadam və onu alqışlayıram. Gələcəkdə bizə savadlı və kamallı həyat yoldaşları və analar verəcək böyük işin başlanğıcına xeyir–dua verirəm. Allah Sizə çoxlu şad günlər bəxş etsin, çünki həyatınız bizə doğma olan müsəlman bacılarımız üçün çox qiymətli və xeyirlidir. Təəssüflənirəm ki, xəstəliyimlə əlaqədar təntənəli mərasimdə şəxsən iştirak etmək imkanından məhrumam".

Zaqafqaziya müftisi Qayıbov [69].

Simferopoldan:

"Maarif bayramını ürəkdən təbrik edirəm, firəvanlıq arzulayıram".

Krım qıpçaq müftisi.

Şamaxıdan:

"Qız məktəbinin açılması münasibətilə təbrik edirəm; Siz insanilik və dini borcunu yerinə yetirən maarifin əsl dostusunuz".

Məclis sədri Hacı Məcid Əfəndi.

Riqadan:

"Çox hörmətli Hacı! İcazə verin, Aleksandrinski müsəlman qız məktəbinin açıldığı bu əlamətdar gündə Sizə cəmiyyət üçün gördüyünüz işlərə görə dərin minnətdarlığımızı bildirək. Allah eləsin ki, müsəlman qadınını mədəni tərəqqi yoluna cəlb etmək üçün yaradılan, zəhmətiniz sayəsində yandırılan qadın təhsilinin ilk ocağı böyüyərək Sizin ümidlərinizi doğrultsun! Allah Sizə xadimlər baxımından kasad olan müsəlman cəmiyyətinin xeyri naminə uzun ömür versin. Siz onların arasında öz adınızı əbədiləşdirdiniz. Başda təsisçisi olmaqla, Aleksandrinski məktəbinə, onun müəllimələrinə və şagirdlərinə eşq olsun!"

Riqada təhsil alan müsəlman tələbələrdən bir qrup.

Peterburqdan:

"Peterburq müsəlmanları işıqlı bayram, elm məbədinin açılışı münasibətilə təbrik edirlər. Siz hamının minnətdarlığını qazanmısınız".

Axund Babazitov.

Temirxanşuradan:

"Bu gün Sizin yorulmaz zəhmətiniz sayəsində ilk qız məktəbi açılır. Qadın təhsilinin bütün tərəfdarları adından Sizi ürəkdən təbrik edir, yeni maarif məbədinə firəvanlıq arzulayıram; tarix bugünkü təntənə üçün gələcək nəsillər qarşısında şahidlik edəcək; hər 7 oktyabr günü Sizin xeyirxah və insanpərvər adınıza dualar oxunacaq; məktəbdə təhsil alan məzunlar - gələcəyin anaları Sizin haqqınızda xoş xatirələrin daşıyıcısı olan bir nəsil formalaşdıracaqlar".

Talıbov.

Həştərxandan:

"Allah və adamlar xeyirli işlər görəni və insanları maarifləndirəni sevərlər; onun adı nəsillərdə qalır; Siz müsəlman uşaqları üçün maarifin qapısını açdınız; biz Sizə tərif, təşəkkür bildirir və Rusiyada yeganə qız məktəbinin şanlı günü münasibətilə təbrik edirik".

Kasıb müsəlmanlara himayə cəmiyyətinin sədri:
İshaq İsgəndərov və Fatih Tahirov.

Kazandan:

"Sizi və Bakı müsəlmanlarını islam dünyası üçün əlamətdar olan ilk qız məktəbinin açılışı günü münasibətilə salamlayır və ona uğurlar diləyirik. Allah bizə doğma olan maarif naminə Sizin ömrünüzü uzun eləsin. Amin!"

Terequlov, Tahirov, Alkinlər, Yunusov, Molla Apanayev, müəllim Sagitov, molla Musitdinov, Aytuqanov, İmamkulov, Hadi Maqsudov, molla Barudov.

"Sizi müsəlman qız məktəbinin açılışı münasibətilə təbrik edir və ona uğurlar arzulayırıq. Bravo, Tağıyev, bravo!"

Tatar müəllimlər seminariyasının şagirdləri.

Simferopoldan:

"Rusiyalı müsəlmanlar üçün əlamətdar olan bu gündə Krım müsəlmanlarına yardım cəmiyyəti Sizi - özünün fəxri üzvünü təbrik edərək, gələcəkdə layiqli müsəlman qadınlarının uğurlarını və öz zəhmətinizin bəhrələrini görməkdən ötrü Sizə Allahdan can sağlığı diləyir".

Qvardiya polkovniki Müftizadə, Mustafa Qıpçaqski, Asan Alanov, Musa Tayqanski, Səlamət Krımtayev, Asan Omerov, Seyid Məmməd Topuzov, Murad İbrahimov Abulçanski, Kence İsmayıl Karaşayski.

Bağçasaraydan:

"Şəriət müsəlman kişilərinə və qadınlarına oxumağı əmr edir. Siz bu gün xeyirli işin astanasındasınız, Allah Sizi mükafatlandıracaq, biz isə təşəkkür və təbrik edirik!"

Naib Xəlil Əfəndi, Şeyx Qazı Mənsur, İmam Səlamət Əfəndi, İmam Mahmud Əfəndi, Həsən Əfəndi.

Yevpatoriyadan:

"Biz, Yevpatoriya müsəlmanları, böyük sevinclə Rusiyada müsəlman qızlar üçün ilk maarif müəssisəsinin açılmasını salamlayır və ürəkdən arzulayırıq ki, o, cahil kütlələrə işıq və mənəviyyat gətirsin, müsəlman qadınlarının xeyrinə edilən bu iş vətənimizin 15 milyonluq müsəlman əhalisi üçün nümunə olsun; ümidvarıq ki, yaratdığınz məktəb bizə sözün əsl mənasında tərbiyəçi analar bəxş edəcək. Hörmətli Hacı Zeynal Abdin, Yevpatoriya müsəlmanları Sizə, göstərdiyiniz təşəbbüsə və qızların təhsili naminə ayırdığınız səxavətli ianəyə görə öz ehtiramlarını bildirirlər. Qadın təhsili tarixində Sizin adınız əbədi qalacaqdır".

Müdərris Həbibulla Əfəndi, knyaz Adilbəy Balatukov, Yevpatoriya zadəgan qəyyumluğunun üzvü, yerli qəzetlərin əməkdaşı İlyas Mirzə Ketarski, Osman Xatun Mustafa Əfəndi, Abdulla, İslam Kapaliyev, tacirlər Biliyalov, Əbülkərim Ramazanov, Cabbar Səlimov və Əbdüləlim Müslədinov.

Sadalananlardan başqa Port-Petrovskdan - Xalq məktəblərinin müdiri A. S. Txorjevskidən; Tiflisdən - podpolkovnik Kalxut bəy Qorçubaşevdən, poruçik Kərəm bəy Vəkilovdan; Əhəlkələkdən - Palivandov qardaşlarından; Şamaxıdan - Xəlil bəy Sadıxbəyovdan; Salyandan - qazı Canıbəyovdan, Allahyar Axundovdan; Nuxadan - şəhər başçısı Əmircanovdan; Vladiqafqazdan - dağlılar arasında təhsilin yayılması üzrə cəmiyyətin idarə heyətinin sədri podpolkovnik İdris Şanayevdən; Orenburqdan - Məhəmməd Şakir Rəmiyevdən, Məhəmməd Zahir Rəmiyevdən, Məhəmməd Fatih Karimovdan, Hamican Aramovdan; Orskdan - müəllim Sadayevdən, İsmayıl Qurkayevdən, Valeh Həsənovdan; Saratovdan - Axund Kiqalıçevdən, İzzətulla Takanayevdən; Buzluqdan -

Axund Salihovdan, İmam Qafurovdan, Vaqapovdan, Vaixullovdan; Kazandan - yoxsul müsəlmanlara yardım cəmiyyətinin idarə heyətindən və müəllimə Axmerskayadan; Ufadan - ruhani məclisinin üzvü Fəxrəddinovdan; Moskvadan - molla Alimovdan; Xarkovdan - Tuqeyevdən və molla Uzabayevdən; Kerçin - yerli müsəlmanları adından Osman Mirzə Şirinskidən; Bağçasaraydan - şəhər başçısı Mustafa Mirzə Davidoviçdən və "Tərcüman" qəzetinin redaktor-naşiri İsmayıl bəy Qasprinskidən [70]; Yaltadan - müsəlman cəmiyyətindən; Qarasubazarın yerli müsəlmanları adından - Çələbi Arçinskidən, Şatranskidən, Çələbiyevdən; Qasımovdan - Qasımov müsəlman cəmiyyətindən; Odessa müsəlmanları adından - molla Səfərovdan teleqramlar daxil olmuşdur.

"Kaspi", 11 oktyabr 1901-ci il.

№ 47
"Kaspi" qəzetində dərc edilən məlumat
11 oktyabr 1901-ci il

Bakı rus–müsəlman qız məktəbinin açılışı günü Hamilər Şurasının sədri və məktəbin təsisçisi H. Z. A. Tağıyev Qafqaz Tədris Dairəsinin hamisi M. R. Zavadskiyə teleqram göndərmişdi. Teleqramda cənab Tağıyev məktəbin açılışının baş tutduğu barədə xəbər verərək xahiş etmişdi ki, dairənin hamisi cənab Xalq maarif naziri vasitəsilə İmperatriçə Aleksandra Fyodorovnaya Rusiyada ilk müsəlman qız məktəbini öz himayəsi altına aldığına görə Hamilər Şurasının və təlim–tərbiyə personalının dərin ehtiram hisslərini izhar etsin.

Həmin gün Peterburqa Dövlət Şurasının üzvü Kiril Petroviç Yanovskiyə məktəb nizamnaməsinin təsdiqi işində göstərdiyi dəstəyə görə təşəkkür teleqramı göndərildi. Qafqaz Tədris Dairəsinin keçmiş hamisi H. Z. A. Tağıyevə ünvanladığı və dünən alınan cavab teleqramında yeni açılan qız məktəbinə uğurlar arzuladı.

№ 48
"Kaspi" qəzetində dərc edilən məlumatdan
14 oktyabr 1901-ci il

Cümə axşamı, oktyabrın 11-də, Biləcəri stansiyasında Bakı qubernatoru D. A. Odintsovun iştirakı ilə Bakının ticarət–sənaye dairələrinin nümayəndələri Böyük Knyaz Mixail Nikolayeviçə [71] təqdim olunurdular.

...Zati-aliləri təqdim olunanlarla bir–bir görüşür, onlardan Bakıdakı işlər

barədə maraqlanırdı...

Sonra Hacı Zeynal Abdin Tağıyevə müraciət edən Böyük Knyaz Mixail Nikolayeviç onu "köhnə tanış" adlandıraraq, bu günlərdə açılmış rus–müsəlman məktəbi haqqında sorğu–sual etdi və məktəbə uğurlar arzuladı.

№ 49
H. Z. A. Tağıyevin "Kaspi" qəzetinin redaksiyasına məktubu
14 oktyabr 1901-ci il

Hörmətli cənab redaktor! İmperatriçə Aleksandra Fyodorovna adına Bakı rus-müsəlman qız məktəbinin açılışı münasibətilə mənə, Hamilər Şurasının sədri kimi, imperiyanın müxtəlif bölgələrində yaşayan müsəlmanlardan və ümumiyyətlə, qadın təhsilinin təəssübkeşi olan şəxslərdən çoxlu sayda təbriklər gəlmişdir. İcazə verin, qız məktəbinin açılışı münasibətilə teleqrafla təbrik göndərənlərə, habelə təntənəli açılış mərasimini şəxsən ziyarət edənlərə redaktor olduğunuz qəzet vasitəsilə minnətdarlığımı bildirim.

Rus-müsəlman qız məktəbinin Hamilər Şurasının sədri və məktəbin təsisçisi Hacı Zeynal Abdin Tağıyev.

№ 50
"Qafqazın carçısı" jurnalında [72] **dərc edilən məqalədən**
№ 11, noyabr 1901-ci il

...Müsəlman məktəbi özünün yaranmasına görə bütövlüklə krez və xeyriyyəçi H. Z. A. Tağıyevə borcludur. Xalqın içindən çıxmış və təsadüfi xoşbəxtlik nəticəsində böyük var-dövlət qazanmış [73] bu filantrop-müsəlman özü heç bir təhsil almasa da, maarifə yüksək qiymət verir və onun qatı tərəfdarı kimi çıxış edir. O, müsəlman qadınlarını mədəniyyət və maarifin xeyirlərindən məhrum edən dustaqlığın əsl düşmənidir və onları cahilliyin qaranlığından çıxarmaq məqsədilə qız məktəbi üçün yüz minlik bina inşa etdirir və 125 min rubl ianə ayırır. Hələlik məktəbə 58 nəfər müsəlman şagird qəbul olunub. Onların arxasınca digərləri gələcək və tezliklə elə bir vaxt çatacaq ki, təhsil möminlərin arvadları və qızları arasında dərin kök salacaq, əvvəlki dustaqlığa qayıtmaq mümkün olmayacaq və müsəlman qadınları hüquqlarının müdafiəsi yolunu onlara göstərən H. Z. A. Tağıyevi minnətdarlıqla xatırlayacaqlar...

ARDƏİA: f. 675, siy. 2, s. v. 97, vv. 13-14.

№ 51
"Kaspi" qəzetində dərc edilən məlumat
18 dekabr 1901-ci il

Bakı Aleksandrinski rus–müsəlman qız məktəbinin təsisçisi Hacı Zeynal Abdin Tağıyev bu günlərdə cənab Qafqaz Tədris Dairəsinin hamisindən aşağıdakı məzmunda bildiriş almışdır:

"Ülyahəzrət İmperatriçə Aleksandra Fyodorovna Sizin vəsaitinizə təsis olunan İmperatriçə adına Bakı rus–müsəlman qız məktəbinin təntənəli açılışında sədaqət hisslərinin izhar edilməsi barədə özünün şəxsi katibi qraf Lamsdorfun məruzəsinə əsasən, noyabrın 13-də Sizə təşəkkür bildirməyi, məktəbə isə uğurlar və çiçəklənmə arzulamağı buyurmuşdu".

Cənab Xalq Maarif nazirinin məktubunda bildirilən Ülyahəzrət İmperatriçənin bu yüksək buyuruğu haqqında Sizi məlumatlandırmağı özümə şərəfli borc bilirəm. Hami Zavadski".

№ 52
Bakı Aleksandrinski rus–müsəlman qız məktəbinin
Hamilər Şurasının qərarı
9 may 1902-ci il

Hamilər Şurasına məlumat verilmişdir ki, bəzi şəxslər öz qızlarının və qohumlarının Bakı Aleksandrinski rus–müsəlman qız məktəbində pulsuz oxuyan şagirdlər sırasına qəbul olunması haqqında müraciət etmişlər. Bununla belə, hal–hazırda pulsuz vakansiyalar mövcud deyil, çünki məktəbin pansionunda qalmaq üçün nəzərdə tutulan 35 nəfərlik pulsuz oxuyan şagird yeri artıq 1901-ci ildə dolub və vakansiyalar yalnız təhsil kursu başa çatandan dörd il sonra, yəni 1905-ci ildə açıla bilər. Vakansiyalar bu müddətdən əvvəl yalnız təsadüfən, məsələn, pulsuz oxuyan şagirdlərdən kiminsə vaxtından əvvəl çıxması səbəbindən yarana bilər. Lakin bu təqdirdə də vakansiyalar əvvəl qəbul olunan namizədlər hesabına doldurulacaq. Ona görə Hamilər Şurası qərara aldı: müraciət edənlərin hamısına elan olunsun ki, cari ildə Bakı rus–müsəlman qız məktəbinə pulsuz oxuyan şagirdlərin qəbulu olmayacaq. Şuranın sədrinə icazə verilsin ki, o, vakansiyalar açıldığı təqdirdə, məktəbdə pulsuz oxumağa namizədlər sırasına müraciət edənlərin 9 yaşınadək uşaqlarını qəbul etsin. Öz hesabına oxumaq istəyən şagirdlərdən də məktəbə qəbul haqqında müraciətlərin gəlmə ehtimalını nəzərə alan Hamilər Şurası artıq mövcud olan 22 nəfərdən əlavə daha 25 nəfərin qəbulunu mümkün sayaraq, onların da təhsil haqqını indiki qaydaya müvafiq -

yarımilin əvvəlində, bərabər ödənilən illik 130 rubl həcmində müəyyən etmişdir. Öz hesabına oxuyan əlavə 25 şagirdin məktəbə daxil olacağı təqdirdə, onlar üçün geyimin, ayaqqabıların, paltarların, yataq ləvazimatlarının və s. hazırlanması Şura sədrinin sərəncamından asılı olacaq. Lazım olan vəsait cari xərclər üçün nəzərdə tutulan nağd kapital hesabına ödənilməli və bu məbləğ vaxtında ümumi xərclər smetasına salınmalıdır.

Əslini imzaladılar: Hamilər Şurasının sədri H. Z. A. Tağıyev, Hamilər Şurasının üzvləri: M. Latkina, Ə. Topçubaşov, H. Məlikov, S. Tağıyeva, A. S. Txorjevski və F. Vəzirov.

Əsli ilə düzdür: Hamilər Şurasının sədri Tağıyev.

ARDTA: f. 309, siy. 1, s. v. 780, v. 109.

№ 53
Bakı Aleksandrinski rus–müsəlman qız məktəbinin
Hamilər Şurasının qərarı
9 may 1902-ci il

Bakı Aleksandrinski rus–müsəlman qız məktəbinin Hamilər Şurası məktəbin yaranmasında xüsusi səyləri olan şəxslərin - onun təsisi üçün razılıq alınmasında fəal iştirak etmiş Qafqaz Tədris Dairəsinin keçmiş hamisi, həqiqi mülki müşavir Kiril Petroviç Yanovskinin, keçmiş müfəttiş, Dairənin indiki hamisi Mixail Romuleviç Zavadskinin, öz vəsaiti hesabına bu təhsil ocağını yaradan nəsli fəxri vətəndaş Hacı Zeynal Abdin Tağıyevin xatirələrini əbədiləşdirmək məqsədilə qərara alır: 1) Zati-aliləri Kiril Petroviçdən və Mixail Romuleviçdən məktəbin ümumi zalında onların portretlərinin asılmasına razılığın alınması Bakı quberniyası və Dağıstan vilayəti Xalq məktəblərinin müdirindən xahiş edilsin; 2) həmin zalda məktəbin təsisçisi Hacı Zeynal Abdin Tağıyevin portretinin asılması üçün cənab Qafqaz Tədris Dairəsinin hamisindən icazə alınsın.

Əslini imzaladılar: Hamilər Şurasının sədri H. Z. A. Tağıyev, Hamilər Şurasının üzvləri: M. Latkina, Ə. Topçubaşov, H. Məlikov, S. Tağıyeva, A. S. Txorjevski və F. Vəzirov.

Əsli ilə düzdür: Hamilər Şurasının sədri Tağıyev [74].

ARDTA: f. 309, siy. 1, s. v. 780, v. 107.

№ 54
Bakı Aleksandrinski rus–müsəlman qız məktəbinin
Hamilər Şurasının qərarı
9 may 1902-ci il

Bakı Aleksandrinski rus-müsəlman qız məktəbinin nizamnaməsinin 9-cu paraqrafına edilən qeydə əsasən Hamilər Şurasına öz sıralarından, sədr olmadıqda, onun vəzifələrini icra edən sədrin müavinini seçmək hüququ verilir. Hamilər Şurası qərara alır: sədrin həyat yoldaşı Sofya Vladimirovna Tağıyeva Şura sədrinin müavini seçilsin.

Əslini imzaladılar: Hamilər Şurasının sədri H. Z. A. Tağıyev, Hamilər Şurasının üzvləri: M. Latkina, Ə. Topçubaşov, H. Məlikov, S. Tağıyeva, A. S. Txorjevski və F. Vəzirov.

Əsli ilə düzdür: Hamilər Şurasının sədri Tağıyev.

ARDTA: f. 309, siy. 1, s. v. 780, v. 108.

№ 55
Bakı Aleksandrinski rus–müsəlman qız məktəbinin
Hamilər Şurasının qərarı
9 may 1902-ci il

Hal-hazırda Bakı Aleksandrinski rus-müsəlman qız məktəbində cəmi 57 şagird təhsil alır, onlardan 22 nəfər öz hesabına, 35 nəfər isə pulsuz oxuyanlardır. Sinif məşğələlərində onlar iki şöbəyə bölünüblər. Bu şöbələrdə rus dilini məktəbin müdirəsi Hənifə xanım Məlikova, riyaziyyatı isə müdirənin köməkçisi (özü də, müəllimə) Məryəm xanım Sulkeviç, şəriəti Səkinə xanım Hacı Mirzə Heybət bəy qızı, yerli tatar, yəni, Azərbaycan dilini isə Əsmət xanım Hafiz Əmin Əfəndi qızı tədris edirlər. Lakin təcrübə göstərdi ki, məktəb müdirəsinin siniflərdə dərs deməsi onun əsas vəzifəsinə uyğun gəlmir, çünki o, rəhbər kimi, məktəbdə bütün təsərrüfata, qayda-qanuna, nəinki şagirdlərə, habelə bütün işçilərə nəzarət etməlidir. Belə şəraitdə isə onun sinifdə dərs deməsinə vaxt qalmır və, ümumiyyətlə, bütün bu vəzifələrin öhdəsindən gəlmək onun iqtidarında deyil. Nəticədə hər hansı xidməti sahədə arzuolunmaz xətalar baş verə bilər. Buna görə məktəb müdirəsini tamamilə dərs deməkdən azad etmək, onun yerinə isə illik 500 rubl əməkhaqqı ilə müəllimə təyin etmək məqsədəuyğundur. Lakin Hamilər Şurasının öz hesabına oxuyan daha 25 nəfər şagirdin qəbulu barədə xüsusi qərar çıxardığını və bunun nəticəsində təhsil alanların sayının 82-yə çatdığını

nəzərə alaraq, sinif məşğələlərinin indiki kimi iki deyil, üç şöbəyə bölünməyinin və illik 500 rubl əməkhaqqı ilə əlavə üçüncü müəllimənin işə qəbulu zərurəti yaranır. Bununla əlaqədar Hamilər Şurası qərara aldı: məktəb müdirəsi sinif dərslərindən tamamilə azad edilsin, onun bütün inzibati məsələlər, o cümlədən, təsərrüfata rəhbərlik, məktəbdə qayda–qanuna, şagirdlərə, işçilərə nəzarət üzrə vəzifələri saxlanılsın. Müdirənin yerinə illik əməkhaqqı 500 rubl olan xüsusi müəllimə, əlavə 25 nəfər şagird qəbul olunduğu təqdirdə isə həmin əməkhaqqı ilə üçüncü müəllimə təyin edilsin. Ümumi qayda kimi müəyyən olunsun ki, hər iki müəllimə öz şöbələrində həm rus dilini, həm də riyaziyyatı və Qafqaz Tədris Dairəsinin birsinifli məktəblərinin proqramlarında nəzərdə tutulan (1867-ci il Əsasnaməsinə görə) digər fənləri tədris etsinlər, həmçinin başqa müəllimələr kimi, şagirdlərə nəzarət üçün növbətçilik aparsınlar. Müəllimələrdən biri xəstələndiyi və ya qısa müddətdə işdə olmadığı təqdirdə (şəriət və tatar dili müəllimələrindən başqa), onu digər müəllimələr, bu mümkün olmasa, məktəbin müdirəsi əvəz etməlidir. Gələcəkdə vəsait tapılanadək əlavə olunan bir və ya iki müəllimənin saxlanılması üzrə bütün xərclər cari xərclər üçün nəzərdə tutulan məktəbin sərbəst nağd kapitalı hesabına ödənilsin. Cari ilin ikinci yarısından hələlik bir müəllimənin xərcləri illik smetaya salınsın. Nizamnamədə deyildiyi kimi, məktəbdə müsəlman ailəsinin tələbatına uyğun əl işi və evdarlıq sinfi mövcud olmalıdır. Bununla əlaqədar Hamilər Şurası həmin sinfi növbəti tədris mövsümündə, yəni bu ilin sentyabrından açmağı və müəllimənin seçilməsini qərara aldı.

Əslini imzaladılar: Hamilər Şurasının sədri H. Z. A. Tağıyev, Hamilər Şurasının üzvləri: M. Latkina, Ə. Topçubaşov, H. Məlikov, S. Tağıyeva, A. S. Txorjevski və F. Vəzirov.

Əsli ilə düzdür: Hamilər Şurasının sədri Tağıyev.

ARDTA: f. 309, siy. 1, s. v. 780, vv. 110-111.

№ 56
Əlahəzrət İran şahının Bakının qadın təhsil müəssisələrini ziyarət etməsi [75]

…Həmin gün, saat üçə on beş dəqiqə qalmış Əlahəzrət İran şahı Atabəy Əzəmin, Peterburqdakı səfir Mirzə Həsən xanın, bütün nazirlərin və məiyyətin, habelə Əlahəzrətə təhkim olunmuş general-adyutant Nikolayevin, general-leytenant Zelyonının, Baş rəis yanında sərhəd məsələləri üzrə Xarici İşlər Nazirliyinin məmuru Koxanovskinin, Bakı qubernatoru general-leytenant

Odintsovun və başqalarının müşayiəti ilə rus-müsəlman qız məktəbini ziyarət etmişdir. Məktəbin girişi və bütün binası çox təmtəraqla bəzədilmişdi: giriş qapısı üzərindəki eyvandan bahalı xalçalar asılmış və rus-İran bayraqları içərisində İranın Şiri-Xurşid gerbinin əks olunduğu gözəl xalça xüsusilə seçilirdi. Qapıların hər iki tərəfində bahalı parçalar üzərində qızılı hərflərlə yazılmış "Şahənşah, çox yaşa" və "Xoş amadi, şah"* sözləri yazılmışdır.

Məktəbin girişindəki terrasda möhtərəm qonağı məktəbin təsisçisi və Hamilər Şurasının sədri Hacı Zeynal Abdin Tağıyev, Xalq məktəblərinin müdiri Txorjevski, şəhər başçısı və Hamilər Şurasının digər üzvləri gözləyirdilər. Məktəbin zalına aparan pilləkənlərin üstündə güllərlə dolu zənbillərlə duran şagirdlər düzülmüşdür; Əlahəzrət keçərkən onlar gülləri onun ayaqları altına atırdılar. Yuxarıda, zalın girişində şagirdlər düzülmüşdür. Əlahəzrət sonuncu pilləkənin üstünə çıxanda, şagirdlər əllərini yuxarı qaldırıb və müsəlmanlarda monarxları qarşılamaq adəti üzrə dua oxuyaraq, şaha təzim edib onu salamladılar.

Zalın içərisində bir tərəfdən, Əlahəzrətin şərəfinə güllər, meyvə və sərinləşdirici içkilər düzülmüş masa, digər tərəfdən isə üzərində şagirdlərin işləri qoyulmuş masa qoyulmuşdu. Əlahəzrət birinci masaya yaxınlaşıb məktəbin açılma vaxtı və onun indiki vəziyyəti barədə fəxri raportu oxumağa başladı. Bu zaman şagird xoru məxsusi həmin gün üçün yazılan himni oxumağa başladı. Əlahəzrət qeyri-ixtiyari başını yuxarı qaldırdı və onun üzündə aydın sezilən razılıq hiss olundu. Şagirdlər oxumağı bitirəndə, Əlahəzrət cənab Tağıyevi öz yanına çağırıb məktəb haqqında suallar verməyə başladı. Cənab Tağıyev şahın diqqətindən bəxtiyar olub həyəcanla bunları dedi: "Rusiyadakı 12 milyonluq müsəlman əhalisi arasında bu ilk qadın təhsil müəssisəsidir; mən onu müsəlmanlar üçün savadlı analar hazırlamaq ümidi ilə yaratdım. Fabrik nəzdində fəhlə uşaqları üçün təşkil etdiyim məktəbə [76] Siz Əlahəzrətin adının verilməsinə nəcib icazənizi xahiş edirəm." Əlahəzrət bu cür cavab verdi: "əla, məmnuniyyətlə". Daha sonra şah zalın yaxınlığında yerləşən məktəbin məscidinə daxil oldu. Əlahəzrət məscidə xeyli baxdı, onun səliqəsindən və dua üçün əşyaların qoyuluşundan razı qaldı; Əlahəzrət yenidən zala daxil olub burada düzülmüş qızlardan onların Quranı bilib-bilməmələri, namaz qılıb-qılmamaları barədə soruşdu. Uşaqlar çox tez müsbət cavab verirdilər. Onları tərifləyib Əlahəzrət şagird işlərinin düzüldüyü masaya yaxınlaşdı. O, habelə onun məiyyəti bu işlərdən heyran qaldılar. Masadan aralarkən o, əlinin ağrısına görə yüksək qonaqlar üçün kitabda imza atmağı Atabəy Əzəmə tapşırdı. Əlahəzrət yataq otağına baxarkən və hər yerdə hökm sürən səliqə-səhmanı tərifləyərkən, Atabəy Əzəm kitabda aşağıdakıları yazırdı:

* Xoş gəlmişsiniz, şah - *farsca.*

"Cümə günü, 1320-ci il Cəmiəl-axırın 23-də, Avropaya ikinci səyahətdən Bakıdan İrana dönərkən Əlahəzrət İran şahı Müzəffərəddin möhtərəm Hacı Zeynal Abdin Tağıyevin təsis etdiyi rus-müsəlman qız məktəbini ziyarət etmiş, şagirdlərdən və məktəbdən xeyli razı qalaraq, möhtərəm Tağıyevə müsəlmanların maariflənməsi üçün çəkdiyi qayğılara görə öz razılığını bildirmişdi. İmza: Mirzə Ələsgər xan". Atabəy Əzəm elə burada məktəbin müdirəsi Hənifə xanım Məlikovaya bahalı üzük bağışladı.

Əlahəzrət zaldan çıxarkən şagirdlərdən biri əlində Quranı tuturdu və Şah şərq ənənəsinə uyğun olaraq, Quranı öpüb onun altından keçdi.

Əlahəzrət və onun məiyyəti saat 2.50-də* məktəbi tərk etdilər. Cənab Tağıyevlə mehribanlıqla vidalaşan Əlahəzrət dedi: "Məktəbi ziyarət etməyim mənə böyük məmnunluq verdi, Sizə ən xoş arzularımı bildirirəm və ümidvaram ki, Siz həmişə şagirdlərin müsəlman qadınına xas olan təvazökarlığı qorumalarının qayğısına qalacasınız".

"Kaspi", 14 sentyabr 1902-ci il.

№ 57
Bakı Aleksandrinski rus-müsəlman qız məktəbinin Hamilər Şurasının qərarı 22 sentyabr 1902-ci il

Aleksandrinski qız məktəbinin Hamilər Şurasının cari il mayın 9-da verdiyi qərarlara əsasən: 1) məktəbin müdirəsi dərs deməkdən azad edilmiş, onun əvəzində illik əməkhaqqı 500 rubl olan yeni müəllimə təyin olunmuşdu; 2) öz hesabına oxuyan şagirdlərin sayı daha 25 nəfər artırılmış (illik ödəniş 130 rubl), nəticədə daha bir müəllimə əlavə olunmuşdu. Hazırda 14 nəfər öz hesabına oxuyan şagirdlər qəbul edilib və əvvəl qəbul olunanlarla birgə cəmi 71 nəfər şagird mövcuddur. Onlardan 36 nəfər öz hesabına, 35 nəfər isə pulsuz təhsil alanlardır. Məktəbdə müəllimə vəzifəsini tutmaq üçün Daşkənddə yaşayan, podpolkovnikin qızı Bibi Hacı Əbdurəhmanovadan, Tiflisdə yaşayan zadəgan Rəhilə Terequlovadan [77] və Vladiqafqazda yaşayan müəllimə Fatimə Terequlovadan müraciətlər daxil olmuşdu. Bu şəxslərin təqdim etdiyi sənədlərdən məlum oldu: 1) Əbdurəhmanova Daşkənd qadın gimnaziyasını bitirmiş və xüsusi sınaq imtahanını keçərək, müsəlman ailələrində dərs deməyə icazə verən ev tərbiyəçisi şəhadətnaməsi ala bilər; 2) Rəhilə Terequlova Tiflis Müqəddəs Nina

* Qəzetdə saat düzgün göstərilməyib.

qadın təhsil müəssisəsini bitirmiş və ev müəlliməsi adını almışdır; 3) Fatimə Terequlova Vladiqafqaz qadın progimnaziyasının üçüncü sinfini bitirmiş və həmin gimnaziyada hazırlıq sinfi müəlliməsinin köməkçisi vəzifəsində altı aylıq təcrübə keçəndən sonra ibtidai kənd məktəbinin müəlliməsi adını almışdır. Bibi Hacı Əbdurəhmanovanın və Rəhilə Terequlovanın qadın orta təhsil müəssisəsini ev tərbiyəçisi və ya müəlliməsi adı ilə bitirmələrini nəzərə alan Hamilər Şurası qərara aldı: hər ikisinin məktəbdə müəllimə vəzifəsinə təyin olunmasını, onların məvacibinin sentyabrın 20-dən illik 500 rubl müəyyən edilməsini qərarlaşdırdı. Bakı quberniyası və Dağıstan vilayəti Xalq məktəblərinin müdiri vasitəsilə Əbdurəhmanovanın və Terequlovanın bu vəzifələrdə təsdiq edilməsi barədə Qafqaz Tədris Dairəsinin hamisi qarşısında vəsatət qaldırılsın. Fatimə Terequlovaya bildirilsin ki, iki nəfər müəllimə vakansiyası dolduğu üçün onun xahişi qəbul edilə bilməz.

Hamilər Şurasının sədri H. Z. A. Tağıyev, üzvlər H. Məlikov, S. Tağıyeva, A. Txorjevski, Ə. Topçubaşov.

ARDTA: f. 309, siy. 1, s. v. 947, vv. 63-64.

№ 58
Senator Kuzminskinin hesabatından [78]

…Müsəlman qızların ibtidai təhsili məsələsi bir qədər başqa cürdür [79]. Hələ bu yaxınlaradək onlar üçün məktəb yox idi, qızlar ev təhsili alırdılar, daha doğrusu, heç bir təhsil almırdılar. 1901-ci ildə Bakıda müsəlman qızlar üçün nəzdinəki pansionla birgə ilk birsinifli məktəb açıldı. Bu ideyanın müəllifi yerli realnı məktəbinin keçmiş müəllimi Həsən bəy Məlikov, onu həyata keçirən isə məşhur milyonçu-xeyriyyəçi Hacı Zeynal Abdin Tağıyev olmuşdur. Tağıyev öz vəsaiti hesabına şəhərin ən yaxşı yerində məktəb gigiyenasının ən ciddi tələblərinə cavab verən, mavritan üslubunda olan böyük ikimərtəbəli bina inşa etdirmişdir. Hal-hazırda məktəbdə qızların ümumi sayı 50 nəfərdir. Onlardan Bakı sakinləri yalnız 5 nəfərdir. Məktəbdə tədris nümunəvi şəkildə qurulub. Müsəlman anası üçün öz qızının ictimai məktəbə getməsi qaydası nə qədər yeni olsa da, bu yeni baxışlar öz yerini tapmağa başlayır və 7-9 yaşlı müsəlman qızlarını hətta oğlanlarla qızların qarışıq oxuduğu məktəblərdə də görmək mümkündür. Ümumiyyətlə, müsəlman qız məktəbinin böyük mədəni təsirini inkar etmək olmaz; o, şübhəsiz, müsəlman dünyasının məişət şəraitinə təsir edəcək və bu baxımdan Tağıyev məktəbinin fəxri hamisi, onun təsisçisinin həyat yoldaşı, islam dininə mənsub və əslən dağlı tatar qızı, lakin Müqəddəs

Nina məktəbində təhsil almış xanım Tağıyevanın sözlərinə iqtibas gətirmək yerinə düşərdi: "kölelik yetər, mənim həyatımın ən xoşbəxt günü İmperatorun müsəlman qadınına çadranı atmaq buyuruğunu verəcəyi gün olacaq"…

Всеподданнейший отчет о произведенной в 1905 году, по Высочайшему повелению, сенатором Кузминским ревизии города Баку и Бакинской губернии. Без года и места издания. С. 410-411.

№ 59
H. Z. A. Tağıyevin N. Sultan Krım Gəraya məktubundan [80]

…Mən həmişə düşünmüşəm və indi də öz dəyişilməz fikrimdə qəti dururam ki, diyarımızın yalnız təhsilli və ciddi şəkildə maariflənmiş müsəlman anaları bizim müsəlmanları nadanlıq və gerilik azarından xilas edə bilərlər.

Mənim bu əminliyim islamın və onun Böyük Müəlliminin əsl ruhu ilə tam üst-üstə düşür. Buna hər zaman riayət edərək mən ömrüm boyu gücüm daxilində həm sözlə, həm də işlə bu əminliyi dindaşlarımın şüuruna yeritmişəm. Lakin islamın özü üçün əlverişsiz və düşmən olan tarixi şərait elə gətirirdi ki, bu istiqamətdə bir insanın zəhməti kifayət etmirdi. Hakimiyyətə malik, xalqın ehtiyaclarına cavab verən və onları ödəmək üçün işin xeyrinə formallığın üstündən keçməyə hazır olan şəxslərin təşəbbüsü lazım idi.

Müsəlmanlar arasında qadın təhsili işində birinci növbədə ümumi, məqsədəuyğun olmayan şablonlardan uzaqlaşmaq və işin xeyri naminə, heç olmasa ilk vaxtlarda, məktəbi öz quruluşuna və təşkilinə görə müsəlmanların çoxəsrlik düşüncələrini çox da qorxutmayan, onlar üçün əlverişli etmək, bir sözlə məktəbi islamlaşdırmaq lazım idi. Lakin heç kim buna cürət etmirdi və şablon hökm sürürdü. Hərdən hətta ayrı-ayrı şəxslərin bu istiqamətdə təşəbbüsü və çalışmaları həmin şablona rast gəlir və müsəlmanların və dövlətin ziyanına müsəlmanlar arasında xalq təhsili və mədəni inkişaf işi dondurulmuş halda qalırdı. Zati-aliniz üçün təsəvvür etmək çətin deyil ki, bunların hamısı mənim, xalqın xeyri, xüsusilə də müsəlmanlar arasında qadın təhsili məsələsi ilə bağlı hər bir şeyə can yandıran ürəyimə necə ağır təsir edirdi...

H. Z. A. Tağıyev.

"Kaspi", 12 aprel 1906-cı il.

№ 60
Bakı rus-müsəlman qız məktəbinin ilk buraxılışı

Bu il Hacı Zeynal Abdin Tağıyevin təsis etdiyi Bakı rus-müsəlman qız məktəbinin ilk buraxılışı olmuşdur.

Buraxılış imtahanları rus dili, tarix, coğrafiya və hesabdan mayın 9-u və 11-i, şəriətdən və tatar dilindən isə mayın 12-i keçirilmişdir. Bütün imtahanlarda məktəbin təsisçisi və Hamilər Şurasının sədri Hacı Zeynal Abdin Tağıyev, sədrin müavini, təsisçinin həyat yoldaşı S. x. Tağıyeva, Hamilər Şurasının üzvü Ə. Topçubaşov, məktəbin müdirəsi M. Sulkeviç, müəllimələr R. Terequlova və Z. Akimbetyeva, M. Məmmədbəyov iştirak edirdilər. Bundan başqa rus dili, tarix, coğrafiya və hesabdan aparılan imtahanlarda Bakı Mariinski qadın gimnaziyasının müdirəsi M. M. Latkina, xalq məktəblərinin müfəttişləri M. F. Koptelov və A. V. Qoryaçkin, kişi gimnaziyasının direktoru İ. Y. Kotılevski iştirak edirdilər.

Rus dilindən "Mən keçən yayı necə keçirmişəm" mövzusunda yazı işi verilmişdi. Buraxılış sinfinin 15 nəfər şagirdinin hamısı bu işi çox uğurla yerinə yetirmişdir, hətta stilistik və qramatik cəhətdən tam qüsursuz işlər də var idi. İmtahan götürənlər həm də şagirdlərin şifahi cavablarından da razı qaldılar. Oxuduqlarının nəql edilməsi, rus şairlərinin şeirlərinin səlist və çox vaxt ifadəli oxunması – bunlar müsəlman şagirdlərinin imtahanda nümayiş etdirdikləri xüsusiyyətlər idi. Buna görə də imtahan edilənlər yüksək ballarla mükafatlandırılmışlar: bir dənə də dörd yoxdur, hamı beş, üç nəfər şagird isə bütün fənlərdən 5 üstəgəllə almışdır.

Rus dilindən bu uğurlarla əlaqədar xalq məktəblərinin müfəttişi M. F. Koptelov imtahan başa çatdıqdan sonra imtahan komissiyası adından şagirdlərə kiçik nitqlə müraciət edərək onlara öz cavabları ilə zövq verdiklərinə görə təşəkkür bildirmişdir.

Şəriətdən və tatar dilindən dünən baş tutan imtahan da əla keçmişdir. Bu imtahana Bakı quberniya qazısı Mir Məhəmməd Kərim Mir Cəfərzadə [81], axundlar Hacı Mirzə Əbu Turab [82], Hacı Molla Ruhulla [83] və Yusif Talıbzadə [84] dəvət olunmuşdular. Şagirdlər öz müəllimələri S. x. Axundovanın və Ş. x. Şeyxzadənin iştirakı ilə olduqca cəld Quranı oxuyur, islamın ehkamlarına dair suallara cavab verir, tatarca oxuyur və yazırdılar. İştirak edən ruhanilər şagirdlərin cavablarından çox məmnun qaldılar, bu dəfə onların biliklərin ən yüksək balla – beşlə qiymətləndirildi.

Qazı Axund Mir Məhəmməd Kərim kursu bitirən şagirdlərə xeyir-

dua vermiş, məktəbin təsisçisi isə hər qıza gözəl cildlənmiş Quranı, habelə Puşkinin, Lermontovun və başqa yazıçıların əsərlərinin cildlərini xatirə olaraq bağışlamışdır.

Gənc müsəlman qızları gözləri yaşlı öz doğma məktəblərinin təsisçisinə ürəkdən minnətdarlıq etdilər və Hacı Zeynal Abdin Tağıyevə qovluqda ünvan və şagirdlərin özlərinin tikdiyi məxmər örtük bağışladılar. Gənc müsəlman qızları Hacı Zeynal Abdin Tağıyevi özlərinin xeyirxah ataları adlandıraraq Hacını ürəkdən əmin etdilər ki, onlar oxumağın sevincini daddıqları, müsəlman dininin və şəriətin əsasları ilə tanış olduqları, doğma tatar dilində oxumağı və yazmağı öyrəndikləri Bakıdakı rus-müsəlman qız məktəbini insanın hörmətlə xatırladığı bir məbəd kimi yaddaşlarında saxlayacaqlar.

"Siz, biz müsəlman qızları öz gözlərimizdə və müsəlman cəmiyyətimizin gözündə yüksəltdiniz, bizim də mənəvi borcumuz bütün xalqlarda təhsilli və tərbiyəli qızın adı ilə əlaqələndirilən yüksək əhəmiyyəti doğrultmaqdır".

Bu cür ünvanı və əl işini şagirdlər məktəbin təsisçisinin həyat yoldaşı S. x. Tağıyevaya da təqdim etdilər.

Həmin ünvanların oxunması iştirakçıları edənləri mütəəssir etdi, çoxlarının gözündə yaş göründü, bəzi şagirdlər hönkürüb ağlayırdılar.

Həqiqətən də olduqca təsirli mənzərə idi. İlk dəfə bu sayda kursu bitirən və axundların xeyir-duasını alan 15 gənc müsəlman qız müsəlman həyatında misli görünməmiş və buna görə də həddindən artıq sevincli hal idi.

Möhtərəm axundlardan biri bu mənzərəni görcək məktəbin təsisçisi H. Z. A. Tağıyevə müraciət edərək dedi: "Hacı, budur sənin zəhmətinin müküfatı".

Özümüzdən əlavə edək ki, H. Z. A. Tağıyev bu mükafata layiqdir.

Bakı Aleksandrinski rus-müsəlman qız məktəbinin ilk buraxılışının şagirdlərinin siyahısını təqdim edirik: Musabəyova Ayna [85], Sultanova Fatma, Bayraməlibəyova Maral, Axundova Xeyransa, Məmmədova Əminə, Axundova Sona [86], Nərimanova Nabat [87], Əfəndiyeva Türfə, Əhmədbəyova Tubu, Usmiyeva Sayat, Əlibəyova Gülşən, Nərimanova Qeysər, Şeyxzadə Səidə [88], Əlibəyova Münəvvər və Sultanova Nərgiz.

"Kaspi", 13 may 1906-cı il.

№ 61
H. Z. A. Tağıyevin "Tazə həyat" [89] **qəzetində dərc etdirdiyi**
"Mənim təcrübəmdən" məqaləsindən
12 fevral 1908-ci il [90]

...Kasıb olan vaxtımda mən ata-anamdan məhəbbət və nəvazişdən başqa heç nə almadım və hesab edirəm ki, indiki vəziyyətimə görə məhz bu məhəbbətə və nəvazişə borcluyam. Xoşbəxtliyimdirmi, yoxsa Allahın qismətidir – izah edə bilmirəm. Amma ən çox sevdiyim, ən qiymətli sandığım vaxtlarımda məni sənaye işlərim qədər, mən deyərdim, hətta onlardan daha artıq mənim xalqım, onun xoşbəxtliyi və gələcək mövcudluğu məsələləri məşğul edir. Bu məqsədə çatmaq üçün vacib bildiyim birinci şey xalqımın tərbiyəsi və təhsili məsələsidir. Xalqımın maarifə və tərbiyəyə hərtərəfli ehtiyacını görərək, mən gücüm çatdığı qədər köməkdən kənarda qalmamışam. Kiçikyaşlı uşaqların təhsil və tərbiyəsi üçün məktəblərin açılmasının, böyüklərin tərbiyəsi və inkişafı üçün isə kitab və qəzetlərin dərc olunmasının zəruriliyini anlayaraq, mən bu məsələlərin qeydinə qalmışam və qalacağam.

Deyilənlərə yekun vuraraq, mən həqiqətən anladım ki, xalqın gələcək xoşbəxtliyi, mətanəti və tərəqqisi ana qucağından başlayan tərbiyə ilə bağlıdır.

ARDƏİA: f. 675, siy. 2, s. v. 106, vv. 20-21.

№ 62
Dövlət Bankının Bakı şöbəsinin Qafqaz Tədris Dairəsinin
hamisinə 7641 №-li təliqəsinin surəti
7 mart 1909-cu il

Dövlət Bankının Bakı şöbəsi Zati-alinizin nəzərinə çatdırır ki, cari il 11 fevral tarixli 3120 №-li təliqə ilə göndərilən beş ədəd nominal dəyəri 25000 rubl olan 4%-lik dövlət renta şəhadətnamələri Bakı şöbəsinə toxunulmaz kapital kimi qoyula bilməz, çünki bu cür əmanətlərin qoyulması əməliyyatı yalnız Dövlət bankının Sankt-Peterburq, Moskva, Varşava, Xarkov kontorlarına icazə verilib. Sizi bu barədə məlumatlandıraraq xahiş edirik ki, göndərilən faiz məbləğləri ilə bağlı sərəncamınızı bildirəsiniz, yəni onlar bu kontorların birinə köçürülsün və ya Bakı şöbəsinə adi qayda ilə qəbul edilsin [91].

ARDTA: f. 309, siy. 1, s. v. 805, vv. 31-32.

№ 63
Qrafinya Y. A. Vorontsova-Daşkovanın [92] **məktəbi ziyarət etməsi barədə məktəbin müdirəsi M. Sulkeviçin hesabatı**
9 mart 1909-cu il

1909-cu il fevralın 27-də, gündüz saat 1-də, Zati-aliləri qrafinya Yelizaveta Andreyevna Vorontsova-Daşkova Bakı şəhər rəisinin xanımı Martınovanın müşayiəti ilə Aleksandrinski rus-müsəlman qız məktəbini ziyarət etdi.

Zati-alilərini məktəbin girişində Hamilər Şurasının sədri H. Z. A. Tağıyev, fəxri hami S. Tağıyeva və mən qarşıladıq.

Məktəbin zalında Zati-alilərini bütün şagirdlər və pedaqoji personal gözləyirdi. Ön sırada Zati-alilərinin üç təqaüdçü şagirdi dayanmışdı.

Zala daxil olan qrafinya uşaqlarla salamlaşdı, onlar da təzim etdilər.

Fəxri hami məktəbin işçilərini Zati-alilərinə təqdim etdi, müdirə isə məktəbin vəziyyəti və şagirdlərin sayı barədə məruzə etdi.

Daha sonra fəxri hami S. Tağıyeva aşağıdakı məzmunda ünvanı oxudu: "Zati-aliləri, möhtərəm Yelizaveta Andreyevna! Bu gün Bakı rus-müsəlman qız məktəbi üçün onun mövcud olduğu vaxtdan ən əlamətdar günlərdəndir.

Bu yaxınlarda məktəb Sizin üç təqaüdçünüzü qəbul etmək şərəfinə layiq görülmüş, indi isə Sizin şəxsən burada olmağınızdan məmnundur. Biz əminik ki, bugünkü gün şagirdlərin hər birinin yaddaşında əbədi həkk olunacaq, çünki onlara Zati-alinizin timsalında*... arzusunun gerçəkləşdirəni öz gözləri ilə görmək qisməti nəsib olub".

Şagirdlərdən biri – Məryəm Bayraməlibəyova [93] fəxri qonağı rus dilində salamladı və ona təmtəraqlı gül dəstəsi təqdim etdi, digəri isə - Sona Axundova tatar dilində eyni sözlərlə müraciət edərək, məktəbin yuxarı sinif şagirdlərinin çoxillik zəhmətinin məhsulu olan ipək xalçanı qrafinyaya bağışladı.

Zati-aliləri xalçanı zərif adlandıraraq, müsəlman qızların bu cür gözəl şeyləri düzəltmək bacarıqlarından məmnun olduğunu bildirdi.

Zati-aliləri məktəb binası və pansionda tanış oldu. Yeməkxanada qonaqlara qəhvə verildi.

Vidalaşarkən qrafinya Ülyahəzrət İmperatriçə Aleksandra Fyodorovnaya məktəbin əla vəziyyəti barədə teleqram vurmaq qərarına gəldiyi haqqında toplaşanları sevindirdi. Dərhal aşağıdakı məzmunda teleqram tərtib olundu:..**

Saat 2 $^{1}/_{2}$ – da qrafinya məktəbdən getdi.

ARDTA: f. 309, siy. 1, s. v. 805, vv. 25-26.

---

* Mətn yarımçıqdır.

** Teleqramın mətni yoxdur.

№ 64
Məktəbin Pedaqoji şurasının iclasının protokolu
11 mart 1909-cu il

İştirak edirdilər: sədr – müdirə Məryəm xanım Sulkeviç, üzvlər – tatar dili müəllimi Hafiz Əfəndi Şeyxzadə, müəllimələr: Səidə xanım Şeyxzadə, Sara xanım Vəzirova [94] və Səbirə xanım Əbdurəhmanova [95].

Yeddinci Pedaqoji şurada şagirdlərin davranışı və tədbirlərin görülməsi məsələsi müzakirə olundu. Pedaqoji şura qərara aldı: şagirdlərə, xüsusən, yuxarı şöbənin qızlarına daha ciddi yanaşılsın, əsası isə, tərbiyə işində bütün tədris personalı həmrəy olsun.

ARDTA: f. 309, siy. 1, s. v. 780, v. 132.

№ 65
Qafqaz Tədris Dairəsi hamisinin Dəftərxanasının
A. S. Txorjevskiyə məktubu
14 iyul 1909-cu il

Həqiqi mülki müşavir Tağıyevin qrafinya Y. A. Vorontsova-Daşkova adına təqaüdlər üçün ianə etdiyi 25000 rubl dəyərində 4 %-lik dövlət renta şəhadətnamələri Bakı Aleksandrinski rus-müsəlman qız məktəbinin toxunulmaz kapitalı kimi Dövlət Bankının Xarkov kontoru tərəfindən qəbul olunub.

Dövlət Bankının Xarkov kontorunun sorğusu ilə əlaqədar olaraq Dəftərxana Zati-alinizdən xahiş edir ki, adı çəkilən kapitaldan gələn faizlərin kimə ödəniləcəyi barədə tezliklə məlumat verəsiniz.

ARDTA: f. 309, siy. 1, s. v. 805, v. 30.

№ 66
M. R. Zavadskinin A. S. Txorjevskiyə 18348 №-li təklifinin surəti
28 avqust 1909-cu il

Dövlət Bankının Bakı şöbəsinin cari ilin 7 mart tarixli 7641 №-li təliqəsinin* surətini Sizə göndərərək həqiqi mülki müşavir Tağıyevin Bakı Aleksandrinski

* Bax: sənəd № 62.

rus-müsəlman qız məktəbində qrafinya Y. A. Vorontsova-Daşkova adına təqaüdlər üçün ianə etdiyi 25000 rubl kapitaldan faizlərin kimə ödəniləcəyi barədə məlumat vermənizi Zati-alinizdən xahiş edirəm.

ARDTA: f. 309, siy. 1, s. v. 805, v. 31.

№ 67
H. Z. A. Tağıyevin A. S. Txorjevskiyə məktubu
3 noyabr 1910-cu il

Hamilər Şurası Zati-alinizin nəzərinə çatdırır ki, məktəbin müdirəsi vəzifəsini müvəqqəti olaraq Məryəm xanım Sulkeviç icra edir, müəllim personalına gəldikdə isə, bununla onların sənədlərini təqdim edirik:

Axrıyeva Gülbahar [96]: şəhadətnamə № 289, şəhadətnamə № 3062 və iki attestat - № 254 və 264.

Qazıyeva Gövhər xanım [97]: şəhadətnamə № 2628.

Məmmədova Mina xanım [98]: şəhadətnamə № 13904 və fotoşəkil.

Palavandova Şəhrəbanu: attestat № 124, vəsiqə № 360 və imtahan kitabçası № 60.

Ehtiyac olmadıqda, sənədləri geri qaytarmağınızı xahiş edirəm.

ARDTA: f. 309, siy. 1, s. v. 805, v. 37.

№ 68
A. S. Txorjevskinin H. Z. A. Tağıyevə məktubu
19 mart 1912-ci il

Nazirliyin təhsil müəssisələrinə məxsus kapitalı və əmlakı qaydaya salmaq barədə tələbi ilə əlaqədar olaraq, Aleksandrinski rus-müsəlman qız məktəbi üçün tikdirdiyiniz və məktəbin yerləşdiyi binanı qanuni şəkildə ona təhkim olunmasını Zati-alinizdən xahiş edirəm.

ARDTA: f. 309, siy. 1, s. v. 805, v. 43.

№ 69
"Qadın təhsili" məqaləsindən

...Kişilərin təhsili ilə paralel ötən ildə Rusiya müsəlmanları arasında qadın təhsilində də uğurlar müşahidə olunurdu. Hesabat ilində bir çox şəhərlərdə, o

cümlədən, Orenburqda və Malmıjda peşə, İrəvanda, Nuxada, Kazanda və başqa şəhərlərdə müsəlman qızlar üçün yeni məktəblər açıldı. Demək olar ki, hər yerdən qadın təhsilini genişləndirmək çağırışları səslənirdi. Ərəş qəzasının kəndliləri Ağdaşda, Xaldanda və başqa kəndlərdə qız rus-tatar məktəblərinin açılması barədə vəsatət qaldırmağı qərarlaşdırdılar, Balaxanıda, Keşlədə, Ağdamda, Dərbənddə və başqa yerlərdə yeni qız məktəblərinin açılması layihələşdirilir. Bakıda mövcud rus-tatar məktəblərində şagirdlərin sayı iki dəfə artıb, dördüncü məktəbin yaradılması zərurəti var. Bəzi qız məktəblərində müəyyən müsbət dəyişikliklər planlaşdırılır. Tağıyevlərin simasında Bakı Aleksandrinski qız məktəbinin müdiriyyəti həm ümumi fənlər, həm də ana dili üzrə yaxşı hazırlıqlı, təcrübəli müəllimlərə tələbatı nəzərə alaraq, adı çəkilən məktəbin yuxarı sinfinin müsəlman müəllimələrini hazırlayan seminariyaya çevirmək barədə vəsatət qaldırmaq niyyətindədir. Ötən ildə artıq həmin istiqamətdə müvafiq addımlar atılmış və bu layihənin tezliklə həyata keçməsinə ümid etmək olar.

Yeri gəlmişkən, 1912-ci ildə adı çəkilən məktəbi doqquz şagird bitirib...

"Kaspi", 1 yanvar 1913-cü il.

№ 70
"Müsəlman qəzeti"ndə [99] **dərc edilən məqalədən**
30 yanvar 1913-cü il

Bakı. Bu yaxınlarda Bakı quberniyası və Dağıstan vilayəti Xalq məktəblərinin müfəttişi S. M. Qəniyevin [100] sədrliyi ilə şəhər məktəblərinin müsəlman müəllimlərinin və ictimai xadimlərin iştirakı ilə Aleksandrinski rus-müsəlman qız məktəbinin müəllimlər seminariyasına çevrilməsinə dair müşavirə keçirilib. Həmin məktəb məşhur müsəlman varlısı və xeyriyyəçisi H. Z. A. Tağıyev tərəfindən təsis edilib. Hal-hazırda möhtərəm Hacı təkidlə məktəbin seminariyaya çevrilməsi haqqında vəsatət qaldırır, çünki digər fənlərlə bərabər doğma dili də bilən müsəlman müəllimələrinə kəskin ehtiyac hiss olunur. Deyirlər ki, gələcək seminariyanın təminatı üçün Hacı Olginski küçəsindəki passajını [101] ayırmaq istəyir.

ARDƏİA: f. 675, siy. 2, s. v. 97, v. 16.

№ 71
H. Z. A. Tağıyevin A. S. Txorjevskiyə müraciəti
1 fevral 1913-cü il

Qafqaz Tədris Dairəsinin birsinifli ibtidai məktəblərinin proqramlarına (1867-ci il Əsasnaməsinə görə) uyğun gələn Aleksandrinski rus-müsəlman qız məktəbi həmin proqramların məhdudluğu ucbatından məzunlara tam təhsil vermək, onlara əldə olunan bilikləri həyatda daha yaxşı tətbiq etmək iqtidarında deyil. Bunları nəzərə alıb belə bir qənaətə gəlirəm ki, məktəbdə indi keçilən fənlərin proqramlarını daha da genişləndirmək zərurəti yaranıb və Zati-alinizdən xahiş edirəm ki, məktəbin Xalq Maarif Nazirliyinin Mariinski məktəbləri tipində yenidən qurulması (tatar dilinin icbari tədrisinin tətbiqi ilə yanaşı) haqqında müvafiq rəhbərlik qarşısında vəsatət qaldırasınız.

Bakı Aleksandrinski rus-müsəlman qız məktəbinin nizamnaməsinin nüsxəsini də təqdim edirəm.

ARDTA: f. 309, siy. 1, s. v. 947, v. 14.

№ 72
H. Z. A. Tağıyevin A. S. Txorjevskiyə müraciəti
5 fevral 1913-cü il

Rusiya müsəlmanlarını öz həmvətənləri ilə daha da yaxınlaşdıracaq bir əməllə qeyd etmək arzusunda olaraq, mən gələcək sevincli hadisə – Romanovlar sülaləsinin hökmranlığının 300 illiyi münasibətilə Bakı Aleksandrinski qız məktəbi (Mariinski məktəbləri nümunəsində) nəzdində müsəlman qızlar üçün ikiillik pedaqoji kursların təsisinə yüz min rubl ianə ayırıram ki, həmin kurslar adı çəkilən vəsaitdən gələn faizlərə saxlanılsın. Kursların nizamnaməsi Xalq Maarif nazirinin 31 mart 1900-cü il tarixində təsdiq etdiyi ibtidai məktəb müəllimlərini və müəllimələrini hazırlayan pedaqoji kurslar haqqında qaydalara uyğun tərtib olunub. Rus-müsəlman qız məktəbi nəzdində İmperatriçə Aleksandra Fyodorovna adına "Aleksandrinski" kurslarının açılması barədə Qafqaz Tədris Dairəsinin hamisi qarşısında vəsatət qaldırmağınızı Zati-alinizdən xahiş edirəm.

Əlavə: Bakı Aleksandrinski rus-müsəlman qız məktəbi nəzdində ikiillik pedaqoji kursların nizamnaməsinin layihəsi, kurslarda tədris olunmaq üçün tatar dilinin proqramı, xərclər smetası və dərs saatlarının cədvəli.

ARDTA: f. 309, siy. 1, s. v. 938, v. 37.

№ 73
Bakı Aleksandrinski rus-müsəlman qız məktəbi nəzdində ikiillik müsəlman qadın pedaqoji kurslarının Nizamnaməsi

§1. Bakı Aleksandrinski rus-müsəlman qız məktəbi nəzdində ikiillik müsəlman qadın pedaqoji kursları Bakı şəhərində, Rusiyada mövcud olan ikiillik kursların tipində və nümunəsində, tatar dili mütləq tədris edilməklə yaradılır.

§2. Bakı Aleksandrinski məktəbi nəzdində ikiillik qadın kursları müsəlman qızları ibtidai məktəb müəllimələri qismində hazırlamaq məqsədi ilə həqiqi mülki müşavir [102] Hacı Zeynal Abdin Tağıyev tərəfindən açılır.

§3. İkiillik müsəlman qadın pedaqoji kursları Qafqaz Tədris Dairəsi hamisinin tabeliyi və Bakı-Dağıstan Xalq Məktəbləri Müdiriyyətinin birbaşa rəhbərliyi altındadır.

§4. Müsəlman qadın pedaqoji kursları qapalı təlim-tərbiyə müəssisəsidir.

§5. Kurslar iki il davam edir: Pedaqoji şura üzrlü səbəblərdən dinləyiciləri kursun birində ikinci ilə saxlaya bilər.

§6. Müsəlman pedaqoji kursların saxlanılması üçün vəsait həqiqi mülki müşavir Hacı Zeynal Abdin Tağıyevin ianə etdiyi yüz min rublluq kapitaldan əldə olunan faizlərdən ibarətdir.

§7. Müsəlman qadın pedaqoji kursları dinləyicilər üçün pansionun mövcud olduğu Bakı Aleksandrinski rus-müsəlman məktəbində yerləşir.

§8. Dinləyicilərin tərkibi hər kursda orta hesabla 20 nəfər qız olmaqla, cəmi 40 pansionerdən ibarətdir.

Qeyd: Ehtiyac olduqda, paralel şöbələr də açılır.

§9. Kursların pansionuna müxtəlif xeyriyyə cəmiyyətlərinin, ayrı-ayrı şəxslərin təqaüdçüləri, habelə öz hesabına oxuyan dinləyicilər qəbul olunur.

§10. Öz hesabına oxuyan kurs dinləyiciləri ildə 200 rubl (təhsil haqqı daxil olmaqla) ödəyir.

§11. Pansion, habelə təhsil üçün ödənilən 200 rubl əvvəlcədən, hər yarımildə 100 rubl olmaq şərtilə alınır.

Qeyd: Hamilər Şurası mümkün bildiyi təqdirdə, daimi qalmayan dinləyiciləri də qəbul edə bilər (onların təhsil haqqı əvvəlcədən, hər yarımildə ödənilən illik 100 rubl təşkil edir).

§12. Tədris zamanı təcrübi məşğələlər Mariinski qız məktəblərinə bərabərləşdirilən Bakı Aleksandrinski rus-müsəlman məktəbində

keçirilir.

§13. Kursların inzibati və təsərrüfat işlərinə Bakı Aleksandrinski qız müsəlman məktəbinin Hamilər Şurası rəhbərlik edir.

§14. Pedaqoji kurslara ümumi nəzarət yerli xalq məktəblərinin müfəttişinə, bilavəsitə rəhbərlik isə Bakı Aleksandrinski müsəlman qız məktəbinin müdirəsinə həvalə olunur.

§15. Kursların müdirəsi və fənn müəllimələri ev müəlliməsi dərəcəsindən aşağı olmayan müsəlmanlardan seçilir. Müdirə mütləq tatar dilini həm yazılı, həm də şifahi bilməlidir.

§16. Təlim-tərbiyə işlərinə rəhbərlik kursların bütün müəllim personalından ibarət, müdirənin sədri olduğu Pedaqoji şura tərəfindən həyata keçirilir.

§17. Pedaqoji şuranın səlahiyyətinə daxildir:

1) kursa dinləyicilərin qəbulu;
2) qəbul, keçid və buraxılış imtahanlarının aparılması;
3) dərsliklərin və vəsaitlərin seçilməsi;
4) dərslərin, təcrübi məşğələlərin və növbətçiliyin bölüşdürülməsi;
5) müəllimələr arasında dərs bölgüsü.

§18. Xalq Maarif Nazirliyinin Mariinski məktəbləri tipində yenidən qurulmuş Bakı Aleksandrinski qız müsəlman məktəbini bitirən və 14 yaşına çatan qızlar kurslara imtahansız, boş qalan vakansiyalara isə Mariinski qız məktəblərini və ya ona uyğun təhsil müəssisələrini bitirən qızlar müsabiqə yolu ilə qəbul olunur. Sonuncular Bakı Aleksandrinski qız məktəbinin kursu üzrə tatar dilindən imtahan verməlidirlər.

§19. Pedaqoji kurslarda dərslər sentyabrın 1-də başlayır və iyunun 1-də başa çatır. May ayında Pedaqoji şura bütün dinləyiciləri Xalq maarif nazirinin 20 mart 1896-cı il tarixində təsdiq etdiyi proqram üzrə həm keçid, həm də xalq məktəbinin müəlliməsi adını almaq üçün sınaqlardan keçirir (kursların proqramı çərçivəsində tatar dilindən icbari imtahan daxil olmaqla).

§20. İmtahanları kafi verən kurs dinləyicilərinə imtahan protokolları Xalq məktəblərinin müdiri tərəfindən təsdiq olunduqdan sonra xalq məktəbinin müəlliməsi şəhadətnaməsi verilir.

§21. Kurs dinləyicilərinin tədris məşğələləri nəzəri və təcrübi olmaqla, iki hissəyə bölünür. Nəzəri məşğələlərə aiddir:

a) müəllim adını almaq üçün keçirilən imtahan həcmində ümumtəhsil fənnlər üzrə biliklərin təkrarı və mənimsənilməsi;
b) ibtidai təhsilin didaktikası və metodikası üzrə əsas biliklərin mənimsənilməsi və xalq məktəblərində ən çox istifadə olunan dərslik

və vəsaitlərlə tanışlıq.

Kurs dinləyicilərinin təcrübi məşğələlərinə aiddir:

a) Bakı Aleksandrinski qız məktəbi müəllimələrinin dərslərində iştirak, buna dair qısa hesabatların və ya gündəliklərin tərtibi;

b) əvvəlcədən planlaşdırılan sınaq dərslərinin keçirilməsi və bu dərslərin müəllimələrin və kurs dinləyicilərinin xüsusi yığıncaqlarında müzakirəsi.

§22. Kursların təşkili, nəzəri və təcrübi məşğələlərin, tədris proqramlarının və s. bölüşdürülməsi ilə bağlı ətraflı qaydalar yerli şəraitə uyğun olaraq kursların Pedaqoji şurası tərəfindən, Xalq Məktəbləri Müdiriyyətinin nümayəndəsinin iştirakı ilə tərtib olunur və Qafqaz Tədris Dairəsinin hamisi tərəfindən təsdiq edilir.

§23. Pedaqoji kurslara dinləyicilərin qəbulu yalnız tədris ilinin əvvəlində aparılır.

§24. Pedaqoji şura özünün qərar-protokollarını tərtib edir, onları Bakı quberniyası və Dağıstan vilayəti Xalq məktəbləri müdirinə təqdim edir. Protokolların surəti Bakı Aleksandrinski müsəlman qız məktəbinin Hamilər Şurasına təqdim olunur.

§25. Kurslarda dərs deyən müəllimələrin seçimini Bakı Aleksandrinski rus-müsəlman qız məktəbinin Hamilər Şurası aparır və onları Xalq Məktəbləri Müdiriyyətinin təsdiqinə təqdim edir.

§26. 25-ci paraqrafda qeyd olunan Hamilər Şurasının üzvləri kursların Pedaqoji şurasının iclaslarında məşvərətçi səslə iştirak edə bilərlər.

§27. Kurslar bağlandığı təqdirdə onların əsas kapitalı Bakı Aleksandrinski müsəlman qız məktəbinin fondunun gücləndirilməsinə yönəldilir.

§28. Hamilər Şurasının tərkibinə haminin* təyinatı ilə Xalq Məktəbləri Müdiriyyətinin üzvlərindən biri daxildir.

ARDTA: f. 309, siy. 1, s. v. 938, vv. 38-41.

* Qafqaz Tədris Dairəsinin hamisi nəzərdə tutulur.

№ 74
Aleksandrinski müsəlman qız məktəbi nəzdində ikiillik pedaqoji kurslarda tatar dilinin proqramı

I kurs

Dilçilik nəzəriyyəsi:

İnşa - onun zahiri və daxili quruluşu, mövzusu, planı, ifadə olunması və məzmunu. Şəkli və adi ifadə. Epitetlər: müqayisə, təcəssüm, metaforalar, ironiya və alleqoriya. Aramla və aramsız nitq. Şeir və onun müxtəlif növləri, nəsrin müxtəlif növləri: təsvir, nağıl etmə, düşüncə. Sadalananlar müvafiq şair və yazıçıların əsərləri əsasında öyrənilir və yazılı işlərlə möhkəmləndirilir.

II kurs

Ədəbiyyat əsərlərinin nəsrə və nəzmə bölünməsi.

Nəzm: 1) xalq eposu: nağıllar, atalar sözləri, məsəllər. 2) Ədəbi epos: təmsillər, poemalar. 3) Qəsidələr və ən yeni ədəbiyyatın müxtəlif növləri. Füzuli, Nəvai, Raci, Zakir, Vaqif, Seyid, Mirzə Fətəli Axundov və Sabirin əsərlərinin öyrənilməsi. Bu yazıçıların tərcümeyi-hallarının oçerkləri. Verilən mövzulara dair sərbəst inşalar. Birsinifli və ikisinifli ibtidai məktəblərdə tatar dilinin tədrisi metodikası.

ARDTA: f. 309, siy. 1, s. v. 938, v. 23.

№ 75
Bakı Aleksandrinski məktəbi nəzdində ikiillik müsəlman qadın pedaqoji kurslarında həftədə bir dəfə keçirilən dərs məşğələ saatlarının cədvəli

A. Dərs məşğələləri	I il	II il	Cəmi
Şəriət	1	1	2
Rus dili	4	3	7
Rus dilinin metodikası	2	2	4
Riyaziyyat	5	4	9
Hesabın metodikası	1	1	2
Tatar dili və onun metodikası	6	4	10
Pedaqogika və didaktika	2	2	4
Təbiətşünaslıq və fizika	3	-	3
Tarix	2	-	2
Coğrafiya	2	-	2
Əl işi	1	1	2
Evdarlıq	1	1	2
B. Təcrübi dərslər			
Rus dilindən	-	3	3
Hesabdan	-	2	2
Tatar dilindən	-	3	3
Təbiətşünaslıqdan	-	1	1
Əl işindən	-	1	1
C. Təcrübi dərslərin müzakirəsi		6	6
Cəmi	30	35	64

ARDTA: f. 309, siy. 1, s. v. 938, v. 30.

№ 76
A. S. Txorjevskinin H. Z. A. Tağıyevə teleqramı
7 fevral 1913-cü il

Kursları təmin edəcək toxunulmaz kapitalı indi, haminin Peterburqa getməsinə qədər köçürmək lazımdır. Köçürəndən sonra hamiyə teleqram vurun.

ARDTA: f. 309, siy. 1, s. v. 938, v. 47.

№ 77
H. Z. A. Tağıyevin N. F. Rudolfa [103] **məktubu**
7 fevral 1913-cü il

Fevralın 1-i və 5-i mən Bakı quberniyası və Dağıstan vilayəti Xalq məktəblərinin müdirinə iki xahişnamə təqdim edərək, ondan Zati-aliniz qarşısında aşağıdakılar barədə vəsatət qaldırmağı xahiş etmişdim: 1) Bakı Aleksandrinski rus–müsəlman qız məktəbinin Xalq Maarif Nazirliyinin Mariinski məktəbləri tipində yenidən qurulması haqqında (tatar dilinin mütləq tədrisi tətbiq olunmaqla); 2) adı çəkilən məktəbin nəzdində müsəlman qızlar üçün ikiillik kursların açılması haqqında (kursların nizamnaməsi Xalq Maarif Nazirliyinin 31 mart 1900-cü il tarixində təsdiq etdiyi ibtidai məktəblər üçün müəllim və müəllimələr hazırlayan pedaqoji kurslar haqqında qaydalara uyğun tərtib olunub).

Qəti əminəm ki, yalnız savadlı müsəlman qadını rus və müsəlman millətlərinin yaxınlaşmasına təkan verə bilər, bu səbəbdən də adı çəkilən məktəbdə nəzərdə tutduğum tədris işinin yenidən qurulmasını tezliklə həyata keçirmək istərdim. Zati-alinizdən acizanə xahişim budur ki, həqiqi mülki müşavir Txorjevskinin Sizə təqdim etdiyi layihələrin tezliklə təsdiqi üçün öz maarifpərvər səylərinizi əsirgəməyəsiniz.

Zati–alinizə dərin ehtiramımı izhar edərək, Sizin acizanə qulluqçunuz olmaqdan şərəf duyuram.

ARDTA: f. 309, siy. 1, s. v. 938, v. 45.

№ 78
N. F. Rudolfun H. Z. A. Tağıyevə teleqramı
7 fevral 1913-cü il

Aleksandrinski məktəbi nəzdində müsəlman qızlar üçün pedaqoji kursların açılmasına yüz min rubl ianə etməyiniz barədə indi Hamilər Şurasına məruzə etdim. Bu cür səxavətli ianəyə görə dərin təşəkkürümü bildirirəm. İşi müvafiq qaydaya uyğun istiqamətləndirirəm.

ARDTA: f. 309, siy. 1, s. v. 938, v. 49.

№ 79
H. Z. A. Tağıyevin N. F. Rudolfa teleqramı
9 fevral 1913-cü il

Aleksandrinski pedaqoji kurslarının təsisinə ianə olunan yüz min rubl bu gün 17883 №-li qəbzlə toxunulmaz kapital kimi Dövlət Bankının Bakı şöbəsinə köçürülüb.

ARDTA: f. 309, siy. 1, s. v. 938, v. 45.

№ 80
H. Z. A. Tağıyevin qrafinya Y. A. Vorontsova-Daşkovaya məktubu
fevral 1913-cü il

Zati-aliləri, qrafinya Yelizaveta Andreyevna!

Bakı Müqəddəs Nina qadın müəssisəsində xəstəxananın təməlinin qoyulması münasibətilə Sizin 24 fevral tarixli teleqramda çatdırdığınız Ülyahəzrət İmperatriçə Mariya Fyodorovnanın xoş sözləri mənim çara və vətənə daim sadiq, vətən üçün hər cür qurbanlara hazır olan ürəyimdə dərin iz buraxmışdır.

Həyatımda parlaq işıq olmuş həmin xoşbəxt dəqiqə həmçinin Zati-alinizin mənə qarşı diqqətini unudulmaz edir.

Zati-alinizə öz dərin minnətdarlığımı bildirərək, nəzərinizə çatdırıram ki, mən Romanovlar sülaləsinin hökmranlığının 300 illiyi şərəfinə Bakı Aleksandrinski rus-müsəlman qız məktəbi nəzdində ikiillik müsəlman qadın pedaqoji kurslarının açılması məqsədilə yüz min rubl ianə etmiş və toxunulmaz kapital kimi Dövlət

Bankının Bakı şöbəsinə qoymuşam. Gücüm və imkanım daxilində Rusiya müsəlmanlarının öz həmvətənləri ilə yaxınlaşmasına çalışdığım üçün hesab edirəm ki, bu yaxınlaşma yalnız müsəlman qadını savadlı olarsa mümkündür. Nizamnamə layihəsini artıq Qafqaz Tədris Dairəsinin hamisinin təsdiqinə təqdim etdiyim kursları yaradarkən ümid edirəm ki, onlar savadlı müəllimələr hazırlayacaq və bu müəllimələr müsəlman qızlara, gələcəyin xanımlarına və analarına bizim qadınlara çox vacib olan bilik nurunu ötürəcəklər. Savadlı müsəlman qadınları təhsilli rus qadınlarının bir növ bacıları olacaq, bu isə dindaşlarımın mənim ürəyimə doğma olan rus xalqı ilə daha sıx yaxınlaşmasına təkan verəcəkdir. Mən bütün Rusiya və biz – müsəlman təbəələri üçün böyük hadisə olan Romanovlar sülaləsinin hökmranlığının 300 illiyini bu cür qeyd etmək istədim.

Böyük ehtiram və dərin sədaqətlə, Sizin qulluqçunuz.

ARDTA: f. 309, siy. 1, s. v. 938, v. 46.

№ 81
H. Z. A. Tağıyevin ianəsinə dair

Şəhər məktəb komissiyasının [104] 14 fevral tarixli iclasında qərara alınmışdır ki, xüsusi nümayəndələr vasitəsilə Aleksandrinski müsəlman qız məktəbi nəzdində pedaqoji kursları təşkil etdiyinə görə H. Z. A. Tağıyevə təşəkkür edilsin və qeyd olunsun ki, onun növbəti səxavətli ianəsi sayəsində indi şəhərin rus-tatar qız məktəblərinin yaxşı hazırlıqlı müəllimələrə ehtiyacı tam ödəniləcək. Məktəb komissiyasının bu qərarını icra etmək məqsədilə komissiyanın sədri İ. İoanisyan, üzvlərdən A. N. Saparov, d-r M. R. Vəkilov, Q. B. Ter-Mikaelyans və İ. İ. Kolesnikovdan ibarət nümayəndələr H. Z. A. Tağıyevin yanında olmuş və ona komissiyanın adından təşəkkür bildirmişlər.

"*Kaspi", 17 fevral 1913-cü il.*

№ 82
N. F. Rudolfun A. S. Txorjevskiyə məktubu
10 aprel 1913-cü il

Tağıyevin qız məktəbinin Mariinski məktəbləri tipində yenidən qurulması məsələsi olduqca vaxt aparan, pedaqoji kursların açılması ilə əlaqədar isə məktəb

proqramının genişləndirilməsi məsələsi təxirəsalınmaz olduğundan Qafqaz canişini [105] mənim məruzəmə əsasən Bakı rus-müsəlman qız məktəbinin nizamnaməsinin 1-ci və 6-cı paraqraflarında aşağıdakı dəyişiklik etməyə icazə verdi: "məktəb öz proqramı üzrə Mariinski qız məktəblərinə uyğundur, zəruri olan hazırlıq siniflərinə malikdir".

Pedaqoji kursları isə 1907-ci il 29 iyun tarixli qaydalara uyğun təsis etməyə icazə verirəm.

Sizi bu barədə məlumatlandıraraq, dərhal pedaqoji kursların təşkilinə başlamağı və bu məsələ ilə əlaqədar tədbirləriniz haqqında mənə məlumat verməyi Zati-alinizdən xahiş edirəm.

ARDTA: f. 309, siy. 1, s. v. 947, v. 10.

№ 83
"Kaspi" qəzetində dərc edilən məqalədən
21 may 1913-cü il

İbtidai məktəblər açılandan müəllimələrin çatışmazlığı hiss olunur. Müəllimələr çoxdur, lakin ana dilini bilənlər azdır.

Məktəb komissiyası rus-tatar məktəblərinə müəllimələri təyin edərkən, çoxlu çətinliklərlə üzləşirdi. Burada, həmişə olduğu kimi, qadın təhsilinin pioneri H. Z. A. Tağıyev köməyə gəldi. Məlumdur ki, H. Z. A. Tağıyev cari ilin əvvəlində müsəlman müəllimələrini hazırlamaq üçün özünün təsis etdiyi Aleksandrinski rus-müsəlman qız məktəbi nəzdində ikiillik pedaqoji kursların açılmasına yüz min rubl ianə ayırmışdı.

Qaydalara görə, həmin pedaqoji kurslara dördsinifli və Mariinski məktəblərinin məzunları qəbul oluna bilər...

№ 84
H. Z. Tağıyevin S. M. Qəniyevə məktubu
25 yanvar 1914-cü il

Bakı Aleksandrinski rus-müsəlman qız məktəbinə müəllimə qismində Ədilə Bəyim Şahtaxtinskaya [106] və Hənifə Məngli İmamutdinovna Seyfullina dəvət olunublar. Onların vəzifələrdə təsdiq olunması barədə Xalq məktəblərinin müdiri qarşısında vəsatət qaldırmağınızı xahiş edirəm.

Bununla Ə. B. Şahtaxtinskayanın sənədlərini təqdim edirəm: 1) Böyük knyag-

inya Olqa Fyodorovna adına 2-ci Tiflis qadın gimnaziyasının 395 №-li attestatı; 2) həmin gimnaziyanın 810 №-li vəsiqəsi. Seyfullinanın sənədləri isə bitirdiyi Ufa Mariinski qadın gimnaziyasındadır, onları aldıqdan sonra ayrıca göndərəcəyəm.

ARDTA: f. 309, siy. 1, s. v. 780, v. 123.

№ 85
Məktəbin Pedaqoji şurasının iclasının protokolu
22 fevral 1914-cü il

Müəllimələrin xidməti üzrə bəzi qüsurları ilə əlaqədar Bakı Aleksandrinski rus-müsəlman qız məktəbinin müdirəsi Gülbahar xanım Axrıyevanın sədrliyi ilə məktəbin Pedaqoji şurasının iclası keçirilmişdi.

Müəllimələrin vəzifə borcları müzakirə mövzusu olmuşdu.

1. Müəllimələr zəng vurulan kimi sinifdə olmalı və dərs vaxtı heç bir halda sinifi tərk etməməlidir.
2. Dərs üçün lazım olan tədris vəsaitləri əvvəlcədən hazırlanmalıdır.
3. Şagirdlər heç bir şey üçün dərsdən göndərilməlidir.
4. Axşam məşğələləri vaxtı hər bir müəllimə öz sinfində olmalıdır.
5. Sinif rəhbəri öz sinfinin şagirdlərinin davranışına nəzarət etməlidir.

Növbətçi müəllimənin vəzifələri:

1. Növbətçi müəllimə fasiləsiz uşaqların yanında olmalı, onların davranışına nəzarət etməli və onlarla yemək yeməlidir.
2. Növbətçilik vaxtı uşaqlarla söhbətlər aparmalı, onları oyunlarla məşğul etməlidir.
3. Şagidlərlə rusca danışmalı, onları da öz aralarında rusca danışmağa məcbur etməlidir.
4. Növbətçi şagirdlərin üzərinə artıq vəzifələr qoymamalı, onları özü icra etməlidir.

İmtahanlar yaxınlaşdığından şura bütün siniflərdə davamiyyəti zəif olan şagirdlər üçün axşam saat 5-dən 6-dək, aşağıdakı cədvəllə* əlavə dərslər təyin etməyi qərara aldı...

İmzalar: G. Axrıyeva, G. Qazıyeva, Ş. Şabanova, Ə. Şahtaxtinskaya, N. Nərimanova, M. Məmmədova, M. Gimbitskaya, X. Seyfullina.

ARDTA: f. 309, siy. 1, s. v. 805, v. 48.

* Məşğələlərin qrafiki verilir.

№ 86
Məktəbin müəllim və şagirdlərinin N. F. Rudolfa məktubu
17 aprel 1914-cü il

Zati-aliləri Nikolay Fyodoroviç!

Sizin Aleksandrinski rus-müsəlman qız məktəbinə gəlişiniz, sadə və səmimi davranışınız bizim hamımıza çox xoş təəssürat bağışladı. Məktəbin müəllim və şagirdləri ümid edir ki, şagirdlərin öz əlləri ilə hazırladığı kiçik hədiyyə bu xoş hisslərin təzahürü olacaqdır.

Zati-alinizin məktəbə gəlişinin ürəyimizdə həmişəlik iz buraxdığını bir daha təkrarlayaraq, Sizi, hörmətli Nikolay Fyodoroviç, tezliklə yenə də görməyə ümid etdiyimizi bildiririk.

ARDTA: f. 309, siy. 1, s. v. 805, v. 52.

№ 87
H. Z. A. Tağıyevin S. M. Qəniyevə məktubu
9 sentyabr 1914-cü il

Səkinə xanım Axundova və İqlimə Heydərova [107] Bakı Aleksandrinski rus-müsəlman qız məktəbinə müəllimə qismində dəvət olunublar. Onların bu vəzifələrdə təsdiq olunması ilə əlaqədar cənab Xalq məktəblərinin müdiri qarşısında vəsatət qaldırmağınızı xahiş edirəm. Bununla İ. Heydərovanın yuxarıda adı çəkilən məktəbi bitirməsi haqqında şəhadətnaməni təqdim edirəm, Axundovanın sənədlərini isə ayrıca təqdim edəcəyəm.

ARDTA: f. 309, siy. 1, s. v. 780, v. 124.

№ 88
S. M. Qəniyevin Aleksandrinski rus-müsəlman qız məktəbinin işçilərinə məktubu
12 sentyabr 1914-cü il

Vətənin düşmənləri ilə mübarizə aparan ehtiyatda olan döyüşçülərin* ailələri maddi ehtiyac duya bilərlər. Rusiya üçün belə ağır şəraitdə hər bir rus vətəndaşı

* Birinci Dünya müharibəsində döyüşən Rusiya ordusu əsgərlərinin ailələri.

doğma vətənin müdafiəçilərinin ailələrinə maddi kömək göstərməyi özünün mənəvi borcu bilməlidir. Belə olduqda, onlar sakit ürəklə özlərinin müqəddəs vəzifələrini – vətənin müdafiəsini yerinə yetirə biləcəklər. Sizə müraciət edərək, aldığınız maaşdan 2 %-in yuxarıda göstərilən məqsəd üçün tutulmasına razılıq bildirmənizi xahiş edirəm.

ARDTA: f. 309, siy. 1, s. v. 805, v. 64.

№ 89
S. M. Qəniyevin G. Axrıyevaya məktubu
12 sentyabr 1914-cü il

İmperiyanın qadın təhsil müəssisələrində çalışanlar doğma vətən uğrunda vuruşan əsgərlərin xidmətlərini yüksək tutaraq, xəstə və yaralılar üçün alt və üst paltarların toplanması işində xüsusi fəallıq göstərirlər. Bununla əlaqədar Sizdən rəhbəri olduğunuz məktəbin pedaqoji personalına, habelə digər işçilərinə bu nəcib işə yaxından qoşulmağı təklif etməyi xahiş edirəm.

Qeyd etməyi lazım bilirəm ki, başqalarından fərqli olaraq, Rusiyanın müsəlman qadın təhsil müəssisələri içərisində fəxri yer tutan Aleksandrinski məktəbindən daha çox kömək gözlənilir.

ARDTA: f. 309, siy. 1, s. v. 805, v. 65.

№ 90
Məktəbin Pedaqoji şurasının iclasının protokolu
13 sentyabr 1914-cü il

Bakı Aleksandrinski rus-müsəlman qız məktəbinin pedaqoji personalı vətənimiz Rusiyanın müdafiəçilərinin ailələrinə maddi yardım göstərməyi özünün mənəvi borcu hesab edərək, fəxri hami Sona xanım Tağıyevanın sədrliyi ilə keçirilən ümumi iclasda hər ay maaşlarından 2 %-in ayrılması barədə qərar çıxarmışdır.

İmzalar: S. Tağıyeva, G. Axrıyeva, G. Qazıyeva, Ə. Şahtaxtinskaya, X. Tahirova, M. Məmmədova, N. Nərimanova, İ. Heydərova, S. Axmetyeva.

ARDTA: f. 309, siy. 1, s. v. 805, v. 44.

№ 91
"Kaspi" qəzetində dərc edilən məlumat
21 sentyabr 1914-cü il

Sona xanım Tağıyevanın rəhbərlik etdiyi Bakı Aleksandrinski rus-müsəlman qız məktəbinin dərnəyi məktəbin zalında yaralı və xəstə əsgərlərin nəfinə müsəlman qadınlar üçün tatar dilində tamaşa qoymaq qərarına gəldi. Səhnələşdirilən əsər yeni, göstərilməsinə bu yaxınlarda icazə verilən Nəcəf bəy Vəzirovun "Nə əkərsən, onu da biçərsən" pyesidir. Pyes müasir müsəlman qadınının ağır həyatından bəhs edir.

№ 92
Bakı Aleksandrinski rus-müsəlman qız məktəbinin imkansız şagirdlərinə yardım Cəmiyyətinin nizamnaməsi [108]

1. Cəmiyyətin məqsədi

§ 1. Cəmiyyətin məqsədi Bakı Aleksandrinski rus-müsəlman qız məktəbinin imkansız şagirdlərini himayə etməkdir.

Qeyd 1. Cəmiyyətin fəaliyyət dairəsinə Bakı şəhər rəisliyi [109] daxildir.

Qeyd 2. Cəmiyyətin fəaliyyəti inkişaf etdikcə Bakı Aleksandrinski rus-müsəlman qız məktəbini bitirən və Cəmiyyətin fəaliyyəti dairəsinə daxil olmayan müəssisələrdə təhsilini davam etdirənlərə də kömək göstərilə bilər. Bu təqdirdə kömək yalnız birdəfəlik olmalı və davranış, fitri bacarıq və nailiyyətlərdə fərqlənən (məktəb müdiriyyətinin rəyi əsasında) şagirdlərə verilməlidir.

§ 2. Cəmiyyətin köməyi aşağıdakı formalarda göstərilə bilər:

a) məktəb pansionunda qalma xərclərinin ödənilməsi;

b) təhsil haqqının ödənilməsi;

c) Xalq Maarif Nazirliyinin və ruhani idarəsinin təsdiq etdiyi kitabların və dərs vəsaitlərinin pulsuz paylanılması və onların şagirdlərə ucuz qiymətə satılması;

ç) imkansızların öz əməyi ilə əldə edə bilmədiyi geyimlə, yeməklə və sığınacaqla təminatı;

d) kasıb xəstələrin tibbi ləvazimatlarla təminatı, onların Cəmiyyətin hesabına xəstəxanalara yerləşdirilməsi, vəfat edənlərin dəfninə kömək göstərilməsi;

e) istisna hallarda pul vəsaitlərinin verilməsi;

ə) Cəmiyyət öz hesabına kasıb müsəlman qızlar üçün məktəbin nəzdində sığınacaq aça bilər.

Qeyd. Şagirdlərin pansionda qalmaq pulu və təhsil haqları ödənilərkən, kitablar və dərs vəsaitləri pulsuz verilərkən, geyim, yemək, yaşayış və pulla kömək göstərilərkən təkcə onların maddi ehtiyacı deyil, eləcə də davamiyyətləri, yaxşı davranışları (təhsil müəssisəsi müdiriyyətinin rəyi əsasında) nəzərə alınmalıdır.

§ 3. Valideynlər və ya onları əvəz edən şəxslər kömək üçün vəsatətlə birbaşa Cəmiyyətin idarə heyətinə, yaxud müəssisənin müdiriyyəti vasitəsilə müraciət edirlər.

2. Cəmiyyətin tərkibi

§ 4. Cəmiyyət üzvlərin sayına məhdudiyyət qoyulmayan, bütün rütbələrə və təbəqələrə mənsub müsəlman kişilərdən və qadınlardan ibarətdir. Həddi buluğa çatmayanlar və şagirdlər Cəmiyyətin üzvləri ola bilməzlər.

Qeyd. Kişi üzvlər iclaslarda iştirak etmək hüququndan məhrumdurlar.

§ 5. Cəmiyyətin üzvləri fəxri və həqiqi üzvlərə bölünür.

§ 6. Cəmiyyətin nəfinə 300 rubldan yuxarı ianə etmiş və ya digər xeyirli iş görmüş şəxslər ümumi iclasda fəxri üzvlüyə seçilirlər.

§ 7. Cəmiyyətin kassasına hər il 5 rubl ödəyən və ya birdəfəlik 100 rubldan artıq vəsait köçürən şəxslər həqiqi üzvlər sayılır. Pulun köçürülməsindən asılı olmayaraq, həqiqi üzv adı İdarə heyətinin təqdimatı əsasında üzvlərin ümumi yığıncağının qərarı ilə Cəmiyyətə əvəzsiz kömək edən şəxslərə verilə bilər.

Qeyd. Üzvlük haqları hər il yanvarın 1-dən gec olmayaraq, Cəmiyyətin kassasına bütövlükdə və müəyyən edilmiş qəbzlə köçürülür.

§ 8. Cəmiyyətin ilkin tərkibi təsisçilərdən təşkil olunur, onlar da nizamnamənin təsdiqindən və ümumi yığıncaqdan sonra fəxri və həqiqi üzvlər adını alırlar.

§ 9. Növbəti ümumi yığıncağa qədər illik ödənişi ödəməyən üzvlər həmin yığıncaqda iştirak edə bilməzlər; ilboyu ödəniş ödəməyən və ya vəzifələrini yerinə yetirməyən üzvlər isə Cəmiyyətin tərkibindən çıxmış sayılır, lakin onlar ümumi əsaslarla yenidən oraya daxil olmaq hüququna malikdirlər.

§ 10. Üzvün hərəkətləri Cəmiyyətin maraqlarına ziddirsə, o, ümumi yığıncağın qərarı ilə Cəmiyyətin sıralarından xaric oluna bilər.

3. Cəmiyyətin vəsaitləri

§ 11. Cəmiyyətin vəsaitləri ibarətdir:

a) üzvlük haqlarından;

b) Cəmiyyətin kapitallarından və əmlakından gələn gəlirlər;
c) Cəmiyyət üzvlərinin, kənar şəxslərin, müxtəlif müəssisələrin pul və əşya şəklində, habelə dini vəsiyyətlər üzrə ianələrdən;
ç) müvafiq razılıq alındıqdan sonra və qoyulmuş qaydalara uyğun Cəmiyyətin təşkil etdiyi dram tamaşalarından, ədəbi qiraətlərdən, kütləvi müzakirə və konsertlərdən və s. toplanan gəlirlərdən;
d) cəmiyyət üzvlərinə verilən abunə vərəqələrindən və kitabçalarından yığılan rüsumlardan;
e) hakimiyyət orqanlarının müvafiq razılığı əsasında kütləvi və dərnəklərə toplamalardan yığılan gəlirlərdən.

Qeyd. Bütün daxil olan, ianə edilən pullar və əşyalar dəqiq qeydə alınmalı və onların xərclənməsi haqqında hesabat aparılmalıdır.

§ 12. Cəmiyyətin hesabına daxil olan bütün vəsaitlər toxunulmaz və cari kapitala bölünür.

Qeyd. Bundan əlavə ümumi yığıncağın qərarı ilə Cəmiyyət ehtiyat və xüsusi kapital yarada bilər. Bu cür yarana xüsusi kapitallar qəti müəyyən olunmuş məqsəd üçün ayrılan ianələrdən və ümumi yığıncağın zəruri bildiyi halda, Cəmiyyətin ümumi gəlirlərindən ayırmalardan təşkil olunur.

§ 13. Toxunulmaz kapital ianələrdən və digər ödənişlərdən, habelə cəmiyyətin bütün gəlirlərinin 1-10%-dən təşkil olunur. Bu faizlərin həcmi ümumi yığıncaq tərəfindən müəyyən edilir. Ehtiyat kapitalının təşkili və xərclənmə qaydası ümumi yığıncaq tərəfindən müəyyən edilir.

§ 14. Cari kapital bütün digər məbləğlərdən, habelə toxunulmaz və ehtiyat (əgər mövcud olarsa) kapitaldan yığılan faizlərdən təşkil olunur. Xüsusi kapitaldan gələn gəlirlər yalnız xüsusi təyinat üçün istifadə edilməlidir.

§ 15. Cəmiyyətin kapitalları artdıqca dövlət və ya hökumətin zəmanət verdiyi faiz kağızlarına çevrilir. Dövlət və ya özəl banklarda bank əməliyyatları aparan əmanət kassalarında və xəzinədarlıqlarda saxlanılır; buradakı cari hesaba cəmiyyətin cari kapitalı da qoyula bilər. Xəzinədarın əlində yalnız cari xərclər üçün lazım olan kiçik məbləğ qala bilər. Bu məbləğin həcmini ümumi yığıncaq müəyyən edir.

§ 16. Vəsaitlər yalnız üzvlərin ümumi yığıncağının icazəsi ilə xərclənir, bu icazə Cəmiyyətin təsdiq etdiyi illik smeta çərçivəsində, eləcə də yığıncağın xüsusi qərarı ilə verilə bilər. İstisna hallarda müavinət İdarə heyətinin sədri tərəfindən, onun şəxsi məsuliyyəti altında verilə bilər və bu barədə İdarə heyətinin iclasında elan olunmalıdır. Bu cür müavinətin miqdarı ümumi yığıncaq tərəfindən müəyyən olunur.

4. Cəmiyyətin işlərinin idarə edilməsi

§ 17. Cəmiyyətin işlərinin idarə edilməsi və həyata keçirilməsi, onlara rəhbərlik Cəmiyyətin İdarə heyətinə və üzvlərin ümumi yığıncağına həvalə olunur.

A. İdarə heyəti

§ 18. İdarə heyətinin tərkibinə daxildir: a) seçkili üzvlər qismində - Cəmiyyətin ümumi yığıncağının üzvləri arasından üç il müddətinə seçdiyi 15 nəfər; b) mütləq üzv qismində - təhsil müəssisəsinin müdirəsi. Hər il beş nəfər seçkili üzv əvvəl püşkatma yolu ilə, sonra isə seçildikləri müddət başa çatdığı üçün İdarə heyətinin tərkibindən xaric olunur və yeni üzvlərlə əvəzlənirlər. Çıxan üzvlər ümumi yığıncaq tərəfindən yenidən seçilə bilərlər. İdarə heyəti Bakı şəhərində yerləşir.

§ 19. İdarə heyətinin üzvləri seçildiyi vaxtdan əvvəl üzvlükdən çıxdıqda və ya uzun müddət olmadıqda, ümumi yığıncaq həmin müddətə 4-7 namizəd seçir. İdarə heyətinə yeni seçilən namizədin səlahiyyət müddəti çıxan üzvün səlahiyyət müddəti ilə məhdudlaşır.

Qeyd. Altı ay ərzində İdarə heyətinin iclaslarında iştirak etməyən şəxs İdarə heyətinin üzvlüyündən xaric olunur.

§ 20. İdarə heyətinin üzvləri hər il sədri, onun müavinini, xəzinədarı və katibi seçirlər. Sonuncu iki vəzifə ümumi yığıncağın xüsusi qərarı ilə bir şəxsin qismində cəmləşə bilər.

§ 21. İdarə heyətinin bütün üzvləri Cəmiyyətin işinə əvəzsiz xidmət edirlər. Dəftərxana xərcləri üçün lazım olan vəsait İdarə heyətinin vəsatəti əsasında ümumi yığıncaqla müəyyən olunur.

§ 22. İdarə heyəti mümkün qədər tez, lakin ayda bir dəfədən az olmayaraq, sədrin təklifi və ya İdarə heyəti üzvlərinin 1/3-dən çoxunun (sədr istisna olmaqla) tələbi ilə toplanır.

§ 23. İdarə heyətinin iclası üzvlərin 1/3-dən çoxu iştirak etdikdə səlahiyyətlidir.

§ 24. İdarə heyətinin qərarları iclasda iştirak edən üzvlərin sadə səs çoxluğu ilə qəbul edilir; səslər bərabər olduqda, sədrin səsi həlledici sayılır.

§ 25. İdarə heyətinin səlahiyyətlərinə daxildir:

a) İdarə heyəti üzvlərinin qarşılıqlı razılığı ilə onların arasında vəzifə bölgüsünün aparılması;

b) Cəmiyyətin vəsaitlərinin artırılmasına və məqsədə çatmağa yardım göstərilməsi;

c) Cəmiyyətin əmlakının və kapitallarının idarə olunması;

ç) Cəmiyyətin müəssisələrinin idarə olunması, işçilər üçün təlimatların

hazırlanması;

d) Cəmiyyətin müəssisələrində vəzifəli şəxslərin təyinatı və işdən çıxarılması;

e) Cəmiyyətin müəssisələrində işləyən şəxslərin öz vəzifələrini düzgün yerinə yetirməsinə nəzarət;

ə) Cəmiyyətin himayəsindən istifadə edən şəxslər barədə məlumatların toplanması, onlara kömək göstərilməsi, habelə verilən müavinətlərin ehtiyacı olanlar tərəfindən necə istifadə edilməsinə nəzarət;

f) vəsaitlərə və əmlaka özəl şəhadətliyin verilməsi;

g) Cəmiyyət üzvlərinin siyahısının tutulması;

ğ) illik üzvlük haqlarının vaxtında ödənilməsinə nəzarət, onları il ərzində ödəməyən və ya § 7-nin ikinci hissəsində göstərilən vəzifələri yerinə yetirməyən üzvlərin Cəmiyyətin sıralarından xaric edilməsi;

h) Cəmiyyət üzrə hesab və kargüzarlıq işi qaydalarının müəyyən edilməsi;

x) nizamnamənin icrasına nəzarət;

ı) Cəmiyyət adından müvafiq qurumlarla və şəxslərlə əlaqənin yaradılması;

i) Cəmiyyətin ümumi yığıncaqlarının çağırılması;

j) Cəmiyyətin illik smetalarının, vəsaitlər və fəaliyyət haqqında hesabatların tərtibi və ümumi yığıncaqların təsdiqinə verilməsi;

k) ümumi yığıncaqların qərarlarının icrası;

q) Cəmiyyətin ayrı-ayrı üzvlərinin ərizələrinə baxılması;

l) İdarə heyətinin həll etmədiyi və ya onun səlahiyyətindən kənar olan məsələlərin ümumi yığıncağın müzakirəsinə çıxarılması;

m) ümumi yığıncağa çıxarılan bütün məsələlərin ilkin işlənməsi;

Qeyd. İdarə heyətinin qəbul etdiyi təlimatlar və qaydalar ümumi yığıncaqda təsdiq olunmalıdır.

§ 26. İdarə heyətinin sədri üzvləri iclaslara və ümumi yığıncaqlara çağırır, İdarə heyətinin iclaslarına rəhbərlik edir, nizamnamənin, İdarə heyətinin və ümumi yığıncaqların qərarlarının icrasına, habelə bütövlükdə Cəmiyyətin işinə nəzarət edir, bütün gedən sənədləri imzalayır.

§ 27. İdarə heyətinin sədri olmadıqda və ya xəstələndikdə, onun hüquq və vəzifələri müavininə keçir. Sonuncu olmadıqda, İdarə heyəti üzvlərinin qarşılıqlı razılığı nəticəsində iclasa onlardan biri sədrlik edir.

§ 28. Katib yazışmaya başçılıq edir, İdarə heyətinin və ümumi yığıncağın iclaslarının protokollarını tərtib edir, Cəmiyyət üzvlərinin, kömək alan şagirdlərin (onların özləri, habelə köməyin növü və həcmi haqqında məlumatla birgə) siyahısını tutur, gedən sənədləri təsdiqləyir, Cəmiyyətin fəaliyyəti haqqında illik hesabatı hazırlayır.

§ 29. Xəzinədar Cəmiyyətə pul və ya əşya şəklində daxil olan ödənişləri və ianələri qəbul edir, İdarə heyətinin və ümumi yığıncaqların qərarlarına əsasən sədrin sərəncamı ilə bütün pul əməliyyatlarını, pulların və əşyaların verilməsini həyata keçirir, mədaxil–məxaric (həm pul, həm də maddiyyat üzrə) kitablarını aparır, Cəmiyyətin vəsaitləri haqqında illik hesabat hazırlayır.

Qeyd. Xəzinədarın əlində qalan pulların, sığorta polislərinin, sənədlərin, kağızların, kitabların saxlanılması, habelə mədaxil-məxaric kitablarının aparılması, onların qəbulu qaydaları İdarə heyətinin tərtib etdiyi və ümumi yığıncağın təsdiq etdiyi təlimatla müəyyən olunur.

§ 30. Zərurət yarandıqda, İdarə heyəti üzv olmayan və hətta Cəmiyyətə aidiyyatı olmayan şəxsləri öz iclaslarına dəvət edə bilər. Həmin şəxslər onların dəvət olunduğu məsələnin baxılması zamanı məşvərətçi səsə malikdir.

§ 31. Üzvlər Cəmiyyətin işinin yaxşılaşdırılmasına, faydalı yeniliklərin tətbiqinə dair təkliflərini şifahi və ya yazılı formada İdarə heyətinə təqdim edə bilərlər. Təklif İdarə heyəti tərəfindən qəbul olunmadıqda, onu irəli sürən üzv məsələni ümumi yığıncağın müzakirəsinə çıxarmaq tələbi ilə çıxış edə bilər. Bu tələb təklifin qəbul olunmadığı haqqında xəbərdarlıqdan bir ay keçməmiş həyata keçirilə bilər. İdarə heyətindən başqa ümumi yığıncağa heç bir ərizə verilə bilməz.

§ 32. Cəmiyyət tədris vəsaitlərinin və kitabların əvəzsiz paylanması və satışı üçün anbar təşkil etdikdə, ona birbaşa nəzarət İdarə heyətinin mütləq üzvünün üzərinə düşür.

B. Ümumi yığıncaqlar

§ 33. Ümumi yığıncaqlar adi və fövqəladə olur.

Qeyd. İdarə heyəti ümumi yığıncaqların günü, tarixi, yeri, gündəliyi haqqında yerli polis rəisini və Cəmiyyətin üzvlərini əvvəlcədən xəbərdar etməlidir.

§ 34. Adi yığıncaqlar ildə bir dəfədən az olmayaraq çağırılır; fövqəladə iclaslar isə zərurət yarandıqda, İdarə heyətinin həll etmədiyi və ya onun səlahiyyətindən kənar olan təcili məsələlərin həlli üçün çağırılır. Fövqəladə iclaslar İdarə heyətinin qərarı ilə, Daxili İşlər Nazirliyinin, şəhər rəisinin, təftiş komissiyasının tələbi ilə, Bakı şəhəri və ona bitişik neft sənayesi rayonunda yaşayan cəmiyyət üzvlərinin 1/10-dən çoxunun yazılı təklifi ilə keçirilir.

§ 35. Ümumi yığıncaqları İdarə heyətinin sədri açır. Ümumi yığıncağın sədrliyinə hər dəfə yeni şəxs seçilir. Ümumi yığıncaqda İdarə heyətinin hesabatlarına və yaxud onun işlərindən şikayətlərə baxılırsa, İdarə

heyətinin üzvü iclasın sədri ola bilməz.

§ 36. Ümumi yığıncaq Bakı şəhəri və ona bitişik neft sənayesi rayonunda yaşayan Cəmiyyət üzvlərinin 1/4-dən çoxu iştirak etdikdə, səlahiyyətli hesab olunur. Daşınmaz əmlakın alınması və ya özgəninkiləşdirilməsi, nizamnamənin dəyişdirilməsi, hərəkətləri Cəmiyyətin maraqlarına zidd olan üzvlərin xaric olunması, xaric olunanların yenidən qəbulu, Cəmiyyətin bağlanması kimi məsələlərin həlli üçün yığıncaqda Bakı şəhəri və ona bitişik neft sənayesi rayonunda yaşayan Cəmiyyət üzvlərindən 1/2-nin iştirakı vacibdir. Əgər yetərsay olmadığından iclas baş tutmayıbsa, o, iştirak edən üzvlərin qərarı ilə bir həftədən tez olmayaraq, həmin məsələlərin müzakirəsi üçün yenidən çağırılır. Həmin iclas iştirakçı üzvlərin sayından asılı olmayaraq, baş tutmuş hesab edilir (Cəmiyyətin üzvləri əvvəlcədən bu barədə xəbərdar olunurlar).

§ 37. Ümumi yığıncaqlarda bütün məsələlər sadə səs çoxluğu ilə qəbul olunur. Yalnız daşınmaz əmlakın alınması və ya özgəninkiləşdirilməsi, nizamnaməyə dəyişikliklərin və əlavələrin edilməsi, hərəkətləri Cəmiyyətin maraqlarına zidd olan üzvlərin xaric olunması, xaric olunanların yenidən qəbulu, cəmiyyətin bağlanması kimi məsələlərin həlli üçün yığıncaqda iştirak edən üzvlərin 2/3-nin razılığı tələb olunur.

§ 38. Ümumi yığıncaqda bütün seçkilər gizli keçirilir. Ümumi yığıncağın xüsusi qərarı ilə seçkilər açıq keçirilə bilər.

§ 39. Ümumi yığıncaqlarda müzakirə olunan məsələlər:

a) ümumi yığıncağın sədrinin, Cəmiyyətin fəxri üzvlərinin, İdarə heyətinin, təftiş komissiyasının üzvlərinin və üzvlüyə namizədlərin seçilməsi;

b) Cəmiyyətin vəsaitləri və fəaliyyəti haqqında illik hesabata, növbəti ilin smetasına və bunlara dair təftiş komissiyasının məruzəsinə baxılması;

c) ehtiyac yarandığı təqdirdə, İdarə heyəti sədrinin şəxsi sərəncamı ilə verilən müavinətin yuxarı həddinin müəyyən edilməsi;

ç) ehtiyat və ya xüsusi kapitalların yaradılması haqqında məsələlərin baxılması;

d) dəftərxana xərclərinin ödənilməsi üçün məbləğin müəyyən edilməsi;

e) nizamnamədə dəyişikliklərin və əlavələrin aparılmasına icazənin verilməsi;

ə) daşınmaz əmlakın alınması və ya özgəninkiləşdirilməsi haqqında sərəncam;

f) Cəmiyyətin müəssisələrinin qurulması barədə təkliflərə baxılması;

g) İdarə heyəti, təftiş komissiyası və Cəmiyyətin ayrı–ayrı vəzifəli şəxsləri üçün təlimatların təsdiq olunması;

ğ) Cəmiyyətin bağlanması haqqında məsələnin həlli;
h) fəaliyyətləri Cəmiyyətin maraqlarına zidd olan üzvlərin xaric olunması, xaric olunanların yenidən qəbulu;
ı) Cəmiyyətin və onun üzvlərinin hərəkətlərinə şikayətlərin, habelə yerli şəhər rəisi və ya Daxili İşlər Nazirliyinin yığıncağın müzakirəsinə çıxardığı müxtəlif təkliflərin ilkin baxılması;
i) İdarə heyəti, təftiş komissiyası və Cəmiyyətin ayrı-ayrı üzvlərinin təklif etdiyi bütün məsələlərin həlli.

Qeyd 1. Ümumi yığıncaqlarda yalnız Cəmiyyətin nizamnamə ilə müəyyən edilən fəaliyyətinə birbaşa aidiyyatı olan məsələlərin müzakirəsinə icazə verilir.

Qeyd 2. Bu paraqrafın "ı" bəndində qeyd edilən şikayət və təkliflər növbəti və ya təcili yığıncaqda mümkün qədər tez müzakirə olunmalı və bu barədə qərar dərhal şəhər rəisinə, yaxud da onun vasitəsilə Daxili İşlər nazirinin diqqətinə çatdırılmalıdır.

§ 40. Təftiş komissiyası hər il ümumi yığıncaq tərəfindən seçilən üç üzvdən ibarətdir. Komissiyanın sədri üzvlərin arasından seçilir. Təftiş komissiyasının üzvlərindən birinin xəstələnməsi və ya vaxtından tez xaric olunması təqdirdə həmin qayda ilə və eyni müddətə 2 namizəd seçilir.

Qeyd. İdarə heyətinin və təftiş komissiyasının üzvləri eyni şəxslər ola bilməz.

§ 41. Təftiş komissiyası ildə iki dəfədən az olmayaraq Cəmiyyətin vəsaitlərini, əmlakını və kitablarını yoxlamalıdır, həmçinin Cəmiyyətin illik hesabatını və smetasını yoxlamağa borcludur. Bunun üçün İdarə heyəti hesabatların və smetaların təsdiq ediləcəyi ümumi yığıncaqlara ən azı iki həftə qalmış komissiyaya təqdim etməlidir.

Qeyd. Təftiş komissiyası öz qərarı və ya Cəmiyyət üzvlərinin 1/10-nin yazılı və əsaslandırılan təklifi ilə gözlənilməz təftişlər aparmaq hüququna malikdir.

§ 42. Təftiş komissiyanın sədri tərəfindən, üzvlərdən ən azı birinin iştirakı ilə aparılır və komissiya öz hesabatını ümumi yığıncağa təqdim edir.

§ 43. Təftişin nəticələri barədə yoxlanılan kitablarda qeydlər aparılır.

5. Ümumi qaydalar

§ 44. Cəmiyyət Daxili İşlər Nazirliyinin tabeliyindədir.

§ 45. Cəmiyyət öz möhürünə malikdir.

Qeyd. Cəmiyyətin möhürü sədrdə və ya onun müavinində saxlanılır.

§ 46. Üzvlər onların Cəmiyyətə mənsubluğunu təsdiq edən bilet və ya diplomları İdarə heyətindən ala bilərlər.

§ 47. Cəmiyyət qanuni üsullarla daşınmaz əmlak əldə edə və özgəninkiləşdirə,

müxtəlif müqavilələr və razılaşmalar bağlaya, habelə müvəkkillər vasitəsilə öz maraqlarını məhkəmədə müdafiə edə bilər.

§ 48. Cəmiyyət üzvləri üçün fərqlənmə nişanları və ya jetonları yalnız şəhər rəisinin təsdiq etdiyi formalar və şərtlər çərçivəsində müəyyənləşdirilir.

§ 49. Cəmiyyətin illik vəsaitləri və fəaliyyəti barədə ətraflı hesabatlar ümumi yığıncaq tərəfindən təsdiq olunduqdan sonra hər il iki nüsxədə şəhər rəisinə təqdim olunur.

Qeyd. Hesabat ili yanvarın 1-dən hesablanır.

6. Cəmiyyətin bağlanması haqqında

§ 50. Əgər Cəmiyyət hər hansı səbəbdən öz fəaliyyətini dayandırarsa, ona məxsus bütün sərbəst kapital və əmlak Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinə [110] keçir.

§ 51. Cəmiyyətin bağlanması haqqında məlumat şəhər başçısı vasitəsilə Daxili İşlər nazirinin və Qafqaz Tədris Dairəsinin hamisi vasitəsilə Xalq Maarif nazirinin nəzərinə çatdırılır.

Təsisçilər:

Sona xanım Tağıyeva, Gülbahar xanım Axrıyeva, nəsli fəxri vətəndaş Bəyim xanım Səfərəliyeva və Səyyarə xanım Əhmədova*.

ARDTA: f. 309, siy. 1, s. v. 780, vv. 1-9.

№ 93
Bakı quberniyası və Dağıstan vilayəti Xalq məktəblərinin müdiri İ. Y. Radetskinin [111] **H. Z. A. Tağıyevə məktubu**
3 aprel 1915-ci il

Nəzərinizə çatdırıram ki cənab Tədris Dairəsinin hamisi özünün 10 aprel 1913-cü il tarixli 8457 №-li məktubu ilə Aleksandrinski məktəbi nəzdində müsəlman qızlar üçün pedaqoji kurslar açmağa (29 iyul 1907-ci il qaydaları əsasında) icazə vermişdir.

Bununla əlaqədar dərhal kursların təşkilinə başlamağı (müdirənin, pedaqoji personalın seçilməsi, tədris vəsaitlərinin əldə olunması, kurslar haqqında elanın verilməsi, dərslərin cədvəli və s.) və bu barədə protokolları mənə təqdim etməyi Sizdən xahiş edirəm.

ARDTA: f. 309, siy. 1, s. v. 938, v. 2.

* Oxu: Səriyyə Axmetyeva.

№ 94
İ. Y. Radetskinin N. F. Rudolfa məktubu
30 aprel 1915-ci il

Həqiqi mülki müşavir H. Z. A. Tağıyev 1913-cü il fevralın 9-da Dövlət bankının Bakı şöbəsinə 17883 №-li qəbzlə yüz min rubl köçürmüşdü ki, ondan gələn faizlər dördsinifli Aleksandrinski müsəlman qız məktəbi nəzdində pedaqoji kursların saxlanılmasına sərf olunsun.

1913-cü il fevralın 5-də cənab Tağıyev pedaqoji kursların smetalarının və nizamnaməsinin təsdiq olunmasını Zati-alinizdən xahiş etmişdir.

Bu il dördsinifli Aleksandrinski məktəbinin ilk buraxılışı olacaq, buna görə də pedaqoji kursları cari il sentyabrın 1-dən açmaq lazımdır.

Bu kursları 29 iyun 1907-ci il qaydaları əsasında açılmasına Zati-aliniz 10 aprel 1913-cü il tarixli 8457 №-li məktubla icazə vermişdir. Hacı Tağıyev isə bundan başqa 1913-cü il fevralın 5-də təqdim olunan kursların nizamnaməsini və smetalarının təsdiqini Zati-alinizdən xahiş edir.

Bununla əlaqədar 12-ci paraqrafa "və ibtidai müsəlman qız məktəbləri" sözlərinin əlavə olunmasını; 14-cü paraqrafın "kurslara rəhbərlik dördsinifli Aleksandrinski məktəbinin müdirəsinə və ya cənab Qafqaz Tədris Dairəsi hamisinin icazəsilə kurslarda dərs deyən şəxslərdən birinə həvalə edilsin" kimi verilməsini zəruri hesab edirəm.

Bundan əlavə 28-ci paraqraf aşağıdakı redaksiyada olmalıdır: "Tədris Dairəsi hamisinin təyinatı ilə Xalq Məktəbləri Müdiriyyətinin vəzifəli şəxslərindən biri Hamilər Şurasının həqiqi üzvləri sırasına daxildir".

Digər məsələlərdə kurslar 1907-ci il 29 iyun qaydalarına və tədris idarəsinin bütün yeni sərəncamlarına tabedir.

Sadalananları Zati-alinizin diqqətinə təqdim edirəm.

ARDTA: f. 309, siy. 1, s. v. 947, v. 80.

№ 95
İ. Y. Radetskinin H. Z. A. Tağıyevə məktubu
iyun 1915-ci il

Cənab Qafqaz Tədris Dairəsi hamisinin sərəncamı ilə Qafqazın bütün təhsil müəssisələrinin tarixçələri tərtib olunacaq. Bu material nəşr ediləcək. Sizin məktəb gənc olmağına baxmayaraq, Qafqaz müsəlmanlarının təhsili işində

böyük tarixi əhəmiyyətə malikdir və onun tarixi ilə Qafqazda maarif işi ilə maraqlananları tanış etmək yaxşı olardı.

Bununla əlaqədar Zati-alinizdən Sizin Aleksandrinski məktəbi haqqında tarixi arayışın tərtibinə dair sərəncam vermənizi və onu iki nüsxədə göndərmənizi xahiş edirəm.

ARDTA: f. 309, siy. 1, s. v. 1155, v. 1.

№ 96
"Kaspi" qəzetində dərc edilən elan
19 iyul 1915-ci il

Bakı Aleksandrinski rus-müsəlman qız məktəbi nəzdində ikiillik pedaqoji kursların nəzarətçisi vəzifəsinə təcrübəli, ali və ya orta təhsilli müsəlman müəlliməsi dəvət olunur. Müsəlman ədəbiyyatını bilənə üstünlük verilir.

Bakı Aleksandrinski məktəbində ümumtəhsil fənlər üzrə üç vakant vəzifəyə orta və daha yüksək təhsilli müsəlman müəllimələri dəvət olunur.

Xidmətin şərtləri ilə əlaqədar Bakı Aleksandrinski qız məktəbinin Hamilər Şurasının sədri, həqiqi mülki müşavir Hacı Zeynal Abdin Tağıyevə müraciət etmək olar.

№ 97
"Kaspi" qəzetində dərc edilən elan
26 iyul 1915-ci il

Bakı Aleksandrinski rus-müsəlman qız məktəbinin müdirəsi vəzifəsinə ali və ya orta təhsilli, təcrübəli müsəlman müəlliməsi dəvət olunur [112].

№ 98
"Kaspi" qəzetində dərc edilən məlumat
23 avqust 1915-ci il

Bakı Aleksandrinski rus-müsəlman qız məktəbinin Hamilər Şurası ali və orta təhsilli, təcrübəli müsəlman müəllimələrinin məktəbin müdirəsi, məktəbin nəzdində pedaqoji kursların nəzarətçisi, habelə iki nəfər müsəlman müəlliməsi vəzifələrinə dəvət olunması barədə elan verməyi bizdən xahiş etmişdir. Məlumat üçün Şuranın Qorçakov küçəsində [113], H. Z. A. Tağıyevin evində [114] yerləşən dəftərxanasına, Şuranın sədrinə müraciət etmək olar.

№ 99
S. M. Qəniyevin İ. Y. Radetskiyə məktubu
21 sentyabr 1915-ci il

Aleksandrinski rus-müsəlman qız məktəbinin Hamilər Şurası Tiflis Müqəddəs Nina təhsil müəssisəsinin tam kursunu bitirmiş Vəsilə Süleyman qızı Musabəyzadəni 1915-ci il sentyabrın 1-dən vakant olan müəllimə vəzifəsinə dəvət etmişdir. Adı çəkilən şəxsin riyaziyyat müəlliməsi vəzifəsində təsdiq olunmasını xahiş edirəm.

ARDTA: f. 309, siy. 1, s. v. 780, v. 126.

№ 100
H. Z. A. Tağıyevin S. M. Qəniyevə məktubu
28 sentyabr 1915-ci il

Bakı Aleksandrinski məktəbinin müəllimələri vəzifəsinə dəvət olunmuşlar: rus dili üzrə - Rauza Məhəmmədiyevna Sultanqaliyeva (Çanışeva) və riyaziyyat üzrə - Zorya Şərəfutdinovna Mahmudova. Onların bu vəzifələrdə təsdiq olunması haqqında Xalq məktəblərinin müdiri qarşısında vəsatət qaldırmağınızı xahiş edirəm. Bununla aşağıdakı sənədləri təqdim edirəm:

R. M. Sultanqaliyevaya Ufa Mariinski qadın gimnaziyasının verdiyi 222 №-li attestat və onun 4434 №-li doğum şəhadətnaməsi.

Z. Ş. Mahmudovaya Sterlitamak qadın gimnaziyasının verdiyi 20/140 №-li attestat; həmin gimnaziyanın əlavə VIII sinfinin 28/126 №-li şəhadətnaməsi; doğum şəhadətnaməsi; rütbə haqqında 252 №-li şəhadətnamə.

ARDTA: f. 309, siy. 1, s. v. 780, v. 159.

№ 101
H. Z. A. Tağıyevin S. M. Qəniyevə məktubu
29 oktyabr 1915-ci il

Bakı Aleksandrinski rus-müsəlman qız məktəbinin Hamilər Şurası ikiillik pedaqoji kurslara rəhbərliyi müvəqqəti olaraq həmin məktəbin müəlliməsi Səriyyə Cəmil qızı Əhmədovaya həvalə etmişdir. Bu barədə Xalq məktəblərinin müdirini məlumatlandırmağınızı xahiş edirəm.

ARDTA: f. 309, siy. 1, s. v. 938, v. 12.

№ 102
H. Z. A. Tağıyevin S. M. Qəniyevə məktubu
29 oktyabr 1915-ci il

Bakı Aleksandrinski rus-müsəlman qız məktəbi nəzdində yenicə açılmış ikiillik pedaqoji kurslara rus dilinin metodikası və pedaqogika müəlliməsi vəzifəsinə VII şəhər məktəbinin müəlliməsi Yelizaveta Fyodorovna Podrezova dəvət olunub. Bu barədə Xalq məktəblərinin müdirini məlumatlandırmağınızı xahiş edirəm.

ARDTA: f. 309, siy. 1, s. v. 938, v. 13.

№ 103
H. Z. A. Tağıyevin S. M. Qəniyevə məktubu
29 oktyabr 1915-ci il

Bakı Aleksandrinski rus-müsəlman qız məktəbi nəzdində yenicə açılmış ikiillik pedaqoji kurslara tatar dili müəllimi vəzifəsinə Alekseyevski ali ibtidai məktəbinin müəllimi Süleyman bəy Əbdurəhmanbəyov dəvət olunub. Bu barədə Xalq məktəblərinin müdirini məlumatlandırmağınızı xahiş edirəm.

ARDTA: f. 309, siy. 1, s. v. 938, v. 14.

№ 104
"Kaspi" qəzetində dərc edilən məlumat
5 noyabr 1915-ci il

Çərşənbə axşamı, noyabrın 3-də Qafqaz Tədris Dairəsinin müfəttişi, həqiqi mülki müşavir Lopatinski Bakı-Dağıstan Xalq məktəblərinin müdiri İ. Y. Radetski və 2-ci rayonun xalq məktəblərinin müfəttişi S. M. Qəniyevin müşayiəti, habelə fəxri hami və Hamilər Şurasının sədri H. Z. A. Tağıyevin iştirakı ilə Bakı Aleksandrinski rus-müsəlman qız məktəbini ziyarət etmişdir. Dairə müfəttişi məktəbin binası ilə tanış olmuş, bütün siniflərə baş çəkərək, rus və tatar dilləri dərslərini dinləmişdir. Sonra həqiqi mülki müşavir Lopatinski məktəbin nəzdindəki pedaqoji kursları ziyarət etmiş və burada kurs dinləyicilərinə suallar vermişdir. Müfəttiş məktəbdəki təlim-tərbiyə işinin gedişindən razı qalmışdır.

№ 105
Bakı Aleksandrinski rus-müsəlman qız məktəbinin 1915-ci ildə vəziyyəti haqqında ümumi məlumatlardan [115]

1915-ci il yanvarın 1-nə şagirdlərin sayı - 89, 1916-cı il yanvarın 1-nə - 104 nəfər.

1915-ci ildə çıxanlar: kursun bitməsinədək - 10, kursun bitməsindən sonra – 13 nəfər.

Yeni qəbul olunanların sayı – 38 nəfər.

İşçilərin sayı: fəxri hamilər - 2, müfəttiş və məktəbin müdiri - 1, şəriət müəllimləri - 1, fənn müəllimləri və müəllim köməkçiləri - 9, digər işçilər – 14 nəfər.

1916-cı il yanvarın 1-nə şagirdlərin ümumi sayı – 104 nəfər. Hamısı müsəlmanlardır. Nəsli zadəganlar - 17, şəxsi zadəganlar və məmurlar - 5, ruhani zümrəsindən - 2, fəxri vətəndaşlar və tacirlər - 38, meşşan və fəhlələr - 42, kəndlilər – 0 nəfər.

Xərclər: təhsil haqlarından - 13100 rubl, ianə edilən kapitalın faizlərindən - 7629 rubl 35 qəpik, fəxri haminin köçürmələrindən və ianələrdən - 821 rubl 35 qəpik. Cəmi - 21550 rubl 70 qəpik.

Kişi-həkimlər - 1, feldşerlər – 1 nəfər, lazaretlərin sayı - 1.

Şagirdlərin ümumi qidalanmasının vəziyyəti: yeməyi yaxşı olanlar - 44, yeməyi ortabab olanlar - 60, yeməyi pis olanlar – 0 nəfər. Görmə qabiliyyəti zəif olanlar – 3 nəfər. Ölənlərin ümumi sayı – 1 nəfər. Yoluxucu xəstəliklərə tutulanların ümumi sayı – 2 nəfər.

Yaranma və ya yenidən qurulma tarixi - 1914-cü il. Buraxılışların sayı - 1. Hesabat ilində məktəbi bitirənlər – 13 nəfər. Hazırlıq sinifləri - 2. Siniflərin sayı - 4. Şöbələrin sayı - 2.

Əsaslı kitabxanada kitabların sayı - 314, şagird kitabxanasında – 852 ədəd. Cəmi – 1166 ədəd.

Tədris vəsaitləri - 595 ədəd, onlardan: əyani - 100, şəriət üzrə - 5, coğrafiya və tarix üzrə - 52, riyaziyyat üzrə - 23, təbiət elmləri üzrə - 47, hüsnxət və rəsm üzrə - 8, nəğmə və musiqi üzrə - 1, digər fənlər üzrə - 359.

Binanın təxmini dəyəri - 250 min rubl.

Tədris ilinin başlanğıcı - 1 sentyabr 1914-cü il. Sonu - 14 mart 1915-ci il.

ARDTA: f. 309, siy. 1, s. v. 780, vv. 136-143.

№ 106
Bakı Aleksandrinski rus-müsəlman qız məktəbi nəzdindəki pedaqoji kursların 1915/1916-cı tədris ilində vəziyyəti barədə hesabatdan

Bakı Aleksandrinski rus-müsəlman qız məktəbi nəzdində ikiillik pedaqoji kurslar 1915-ci il sentyabrın 1-də açılmışdı. Kurslar həqiqi mülki müşavir H. Z. A. Tağıyevin ianə etdiyi yüz min rubl kapitaldan gələn faizlər və kurs dinləyicilərinin ödədiyi təhsil haqları hesabına fəaliyyət göstərir.

Təhsil alanlar - on yeddi nəfər; hamısı müsəlmanlardır, milli mənsubiyyətləri - yerli müsəlmanlar, bir nəfər gürcü müsəlmanı və bir nəfər Kazan tatarı. H. Z. A. Tağıyevin vəsaiti hesabına oxuyan bir nəfər pansionerdən başqa, dinləyicilərin hamısı daimi qalmayanlardır. Kurs dinləyicilərindən on bir nəfər Aleksandrinski məktəbini, iki nəfər - ikisinifli Sabunçu, bir nəfər - birinci dördsinifli məktəblərini, iki nəfər - gimnaziyanın dördüncü sinfini bitirib. Kurslara Səriyyə xanım Axmetyeva rəhbərlik edir. Müəllimələr - doqquz nəfər. Müəllim - bir nəfər. Axundova Səkinə xanım - şəriət dərsi, həftədə bir dəfə; Axmetyeva Səriyyə xanım – rus dili dərsi, həftədə dörd dəfə; Vəsilə xanım Musabəyova - hesab dərsi, həftədə üç dəfə; Ədilə xanım Şahtaxtinskaya - hesab metodikası dərsi, həftədə bir dəfə; Tahirova Xavər xanım – həftədə yeddi dərs: tarix - iki, həndəsə - iki, təbiət tarixi - üç dəfə; Sultanqaliyeva Rauza xanım - coğrafiya dərsi, həftədə iki dəfə; Mahmudova Zorya xanım - evdarlıq dərsi, həftədə bir dəfə; Gimbitskaya Məryəm xanım - əl işi dərsi, həftədə bir dəfə; Podrezova Yelizaveta Fyodorvna – həftədə dörd dərs: pedaqogika - iki, rus dilinin metodikası - iki (məvacib - bir dərs üçün iki rubl); Əbdurəhmanbəyov Süleyman bəy - tatar dili dərsi, həftədə altı dəfə (məvacib - ildə 600 rubl).

Kursların nəzarətçisi vəzifəsini icra edən S. Axmetyeva.

ARDTA: f. 309, siy. 1, s. v. 780, vv. 128-129.

№ 107
H. Z. A. Tağıyevin S. M. Qəniyevə məktubu
25 yanvar 1916-cı il

Yelizaveta Fyodorovna Podrezovanın xəstəliyi ilə əlaqədar rus dilinin metodikasının və pedaqogikanın tədrisindən imtina etməsi səbəbindən onun yerinə VII şəhər məktəbinin müəlliməsi L. İ. Zakamennaya dəvət olunub. Bu barədə Xalq məktəblərinin müdirini məlumatlandırmağınızı xahiş edirəm.

ARDTA: f. 309, siy. 1, s. v. 780, v. 153.

№ 108
H. Z. A. Tağıyevin S. M. Qəniyevə məktubu
4 fevral 1916-cı il

Hamilər Şurası rəşadətli qoşunlarımızın Ərzurum şəhərini alması münasibətilə Bakı Aleksandrinski məktəbinin şagirdlərinin üç gün dərslərdən azad olunması barədə məktəbin müdirəsinə sərəncam vermənizi Zati-alinizdən xahiş edir.

ARDTA: f. 309, siy. 1, s. v. 780, v. 156.

№ 109
S. M. Qəniyevin İ. Y. Radetskiyə məktubu
12 mart 1916-cı il

Zati-aliləri!

Sizin 5 mart 1916-cı il tarixli 2938 №-li təliqənizə cavab olaraq bildirirəm ki, Bakı Aleksandrinski rus-müsəlman qız məktəbi mənim şəxsi vəsaitim hesabına təsis edilib. Məktəbin tikintisinə yüz əlli min (150000) rubladək xərclənib, daha sonra isə yüz iyirmi beş min (125000) rubl məbləğində toxunulmaz kapital təsis olunub. Sonuncu məbləğdən əldə olunan illik dörd min yeddi yüz əlli (4750) rubl həcmində faizlər iyirmi beş nəfər pansionerin və on nəfər daimi qalmayan şagirdin saxlanılması üzrə xərcləri ödəmir. Onların saxlanılması üçün 1915-ci ildə mənim tərəfimdən hər pansioner qıza 250, hər daimi qalmayana isə 50 rubl - cəmi 6750 rubl xərclənib, yəni artıq 2000 rublu (4750 rublluq faiz məbləğindən) əlavə mən öz üzərimə götürmüşəm.

Bundan başqa adı çəkilən məktəbdə mənim tərəfimdən qrafinya Yelizaveta Andreyevna Vorontsova-Daşkova adına 3 təqaüd təsis olunub və bu üç təqaüdçü üçün iyirmi beş min (25000) rubl toxunulmaz kapital ayrılıb. Bu kapitaldan əldə olunan illik doqquz yüz əlli (950) rubl həcmində faizlər üç təqaüdçünün saxlanılması üzrə xərcləri ödəyir. Beləliklə, müsəlmanlardan heç kim, heç vaxt adı çəkilən məktəbin təsis olunması üçün ianə ayırmayıb.

Zati-alinizin diqqətinə bunu da çatdırmağı lazım bilirəm ki, mən Romanovlar sülaləsinin hökmranlığının 300 illiyi şərəfinə məktəbin nəzdində ikiillik pedaqoji kursların açılması üçün yüz min (100000) rubl toxunulmaz kapital ayırmışam ki, ondan gələn illik üç min səkkiz yüz (3800) rubl həcmində faizlər kurs dinləyicilərinin saxlanılması üzrə xərcləri ödəyir.

Sonda Sizə qarşı dərin hörmət bəslədiyimi nəzərinizə çatdırıram.

ARDTA: f. 309, siy. 1, s. v. 947, v. 81.

№ 110
Məktəbin Pedaqoji şurasının iclasının protokolu
7 aprel 1916-cı il

1916-cı il aprelin 7-də Bakı Aleksandrinski rus-müsəlman qız məktəbinin müdirəsi Ədilə xanım Şahtaxtinskayanın sədrliyi ilə məktəbin Pedaqoji şurasının iclası keçirilmişdir. İclasda yoluxucu xəstəliklər zamanı müəllimələrin vəzifələrinin müəyyənləşdirilməsi müzakirə olundu.

1. Növbətçi müəllimə uşaqlara ciddi nəzarət etməlidir.
2. Səhər, çay içməzdən əvvəl, uşaqlar yataq otağında olmalı, çaydan sonra isə onları aşağı dəhlizə düşürtmək və daim orada saxlamaq lazımdır.
3. Əgər uşaqlardan hansındasa şübhəli xəstəlik aşkar olunsa, bu barədə müdirəyə xəbər verilməli, xəstə həkimə aparılmalıdır; xəstə ilə ünsiyyətdə olmuş rəfiqələri dezinfeksiya olunmalıdır.
4. Uşaqlar evə gedərkən yataq otağında paltarlarını dəyişəndə, yuxarı sinif şagirdlərindən onlara nəzarət edən olmalıdır.
5. Müəllimələr xəstələrin yanına yuxarı qalxmamalıdır.
6. Uşaqlar özgənin yatağında yatmamalı və uzanmamalı, sinifdə özgənin yerində oturmamalı, xəstə şagirdlərin əşyalarına əl vurmamalıdır.
7. Müəllimənin icazəsi olmadan uşaqlar heç nə almamalıdır.

ARDTA: f. 309, siy. 1, s. v. 780, v. 176.

№ 111
H. Z. A. Tağıyevin İ. Y. Radetskiyə məktubu
22 aprel 1916-cı il

Zati-alinizə məlumdur ki, ərzaq məhsullarının gətirilməsində yaranan böyük çətinliklərlə əlaqədar Bakı şəhərində onlara kəskin ehtiyac hiss olunur. Digər tərəfdən, isti havaların vaxtından tez başlanması daha keyfiyyətli və təzə ərzaq tələb edən kiçikyaşlı uşaqların qidalanmasını da çətinləşdirir. Əlbəttə, belə bir şəraitdə 125 şagirdi olan Bakı Aleksandrinski rus-müsəlman qız məktəbində pansionun saxlanılması çətin olacaq, çünki bütün səylərə baxmayaraq, uşaqlar üçün təzə ərzaq tapmaq qeyri-mümkündür. Deyilənləri nəzərə alaraq, buraxılış sinifləri istisna olmaqla, Bakı Aleksandrinski məktəbinin şagirdlərinin vaxtından əvvəl dərslərdən buraxılmasına icazə vermənizi Zati-alinizdən xahiş edirəm ki, isti vaxtlarda uşaqlar başqa yerdə qalsınlar və daha yaxşı şəraitdə qidalansınlar.

ARDTA: f. 309, siy. 1, s. v. 947, v. 98.

№ 112
Məktəbin Pedaqoji şurasının iclasının protokolu
3 sentyabr 1916-cı il

İştirak edirdilər: sədr - müdirə S. Yaqubova [116], üzvlər: müəllimələr - N. Nərimanova, V. Musabəyova, S. Axundova, İ. Heydərova.

Şurada qərara alındı ki, şagirdlər və müəllimələr az gəldiyindən imtahanlar və dərslər sentyabrın 5-nə təxirə salınsın. Sentyabrın 3-də 23 şagird gəlmişdir. Bundan başqa, şuranın iclasında dərslər müəllimələr arasında aşağıdakı kimi bölüşdürüldü: 2 aşağı sinifdə tatar dili - İ. Heydərova, digər siniflərdə - N. Nərimanova, bütün siniflərdə şəriət - S. Axundova, bütün siniflərdə həndəsə, yuxarı bölmələrdə, 1-ci və 4-cü siniflərdə hesab - V. Musabəyova.

ARDTA: f. 309, siy. 1, s. v. 780, v. 165.

№ 113
S. M. Qəniyevin İ. Y. Radetskiyə məktubu
4 sentyabr 1916-cı il

Səlimə xanım Yaqubovanın Bakı Aleksandrinski rus-müsəlman qız məktəbinin müdirəsi və məktəbin nəzdindəki ikiillik pedaqoji kursların nəzarətçisi vəzifəsində təsdiq olunmasını xahiş edirəm. Xanım Yaqubova Petroqrad ali qadın kurslarının fizika-riyaziyyat fakültəsini biologiya qrupu üzrə bitirib.

ARDTA: f. 309, siy. 1, s. v. 780, v. 148.

№ 114
Məktəbin Pedaqoji şurasının iclasının protokolu
24 sentyabr 1916-cı il

Sentyabrın 24-də pedaqoji kursların proqramı ilə bağlı Pedaqoji şura çağırılmışdı. İştirak edirdilər: Pedaqoji şuranın hamisi H. Z. A. Tağıyev, sədr S. Tağıyeva, Xalq məktəblərinin müdiri Radetski, Xalq məktəblərinin müfəttişi Qəniyev, müdirə S. Yaqubova, müəllimələr: S. Axundova, Kopılova, Musabəyova, Əzizbəyova, Mahmudova və müəllim S. Əbdurəhmanov. İclasda Aleksandrinski məktəbinin proqramı məsələsi də müzakirə olundu. Aleksandrinski məktəbinin proqramının ali ibtidai məktəblərin [117] proqramı ilə eyniləşdirmək qərara

alındı. Lakin Aleksandrinski məktəbində təhsil kursunun 6, ali ibtidai məktəbdə isə 8 illik olması nəzərə alınaraq, sonuncunun proqramını ixtisar olunmuş şəkildə qəbul edilməsinə qərar verildi. Bütün müəllimələrə öz fənləri üzrə yeni proqramlar tərtib etmək tapşırıldı.

ARDTA: f. 309, siy. 1, s. v. 780, v. 171.

№ 115
H. Z. A. Tağıyevin S. M. Qəniyevə məktubu
16 mart 1917-ci il

Pasxa bayramının yaxınlaşması ilə əlaqədar Bakı Aleksandrinski rus-müsəlman qız məktəbinin şagirdləri evlərə buraxılır və çoxu digər şəhərlərə gedirlər. Onların sonradan dərslərə qayıtması hərbi vəziyyətlə əlaqədar böyük çətinlik törədir.

Uşaqların vəziyyətini nəzərə alan Hamilər Şurası buraxılış sinfi və ikiillik pedaqoji kursların dinləyiciləri istisna olmaqla, uşaqları aprelin 1-dən sentyabrın 1-dək dərslərdən azad etmək barədə qərar çıxarıb və bu barədə Sizin vəsatət qaldırmağınızı xahiş edir [118].

ARDTA: f. 309, siy. 1, s. v. 780, v. 193.

№ 116
Məktəbin Hamilər Şurasının bildirişi
2 may 1916-cı il

Hamıya məlumdur ki, Bakı şəhərində ərzaq məhsullarına kəskin ehtiyac duyulur və onların gətirilməsi xeyli çətinləşib. Digər tərəfdən, kiçikyaşlı uşaqların qidalanması keyfiyyətli və təzə məhsulların gətirilməsini tələb edir. Əlbəttə, belə bir şəraitdə pansionun saxlanılması çətinləşir, çünki bütün səylərə baxmayaraq, uşaqlar üçün təzə ərzaq tapmaq qeyri-mümkündür.

Yuxarıda deyilənləri nəzərə alaraq, Hamilər Şurası 1917-ci tədris ilinin sentyabrından pansionu bağlamağı və yalnız daimi qalmayan şagirdləri qəbul etməyi məqsədəuyğun saymış, bu barədə valideynləri məlumatlandırmağı özünün mənəvi borcu bilmişdi.

ARDTA: f. 309, siy. 1, s. v. 947, v. 92.

№ 117
"Azərbaycan" qəzetində (rus dilində) [119] **dərc edilən məlumatdan**
8 dekabr 1918-ci il

...Parlament [120] təntənəli şəraitdə açılır: güclü xəzri küləyinə baxmayaraq, şəhər bayram libasına bürünüb: dükanlar bağlıdır, hökumət idarələri və təhsil müəssisələri işləmir; küçələrə axışan azərbaycanlılar bayram əhval-ruhiyyəsindədir, insanlar bir-birlərini təbrik edirlər. Şəhərdə nümunəvi qayda-qanun hökm sürür: hər yerdə patrul var. Nikolayevski küçəsindəki Tağıyevin qız məktəbində müvəqqəti yerləşən parlamentin binası daha ciddi mühafizə olunur...

II BÖLMƏ.
QIZ MƏKTƏBİ XATİRƏLƏRDƏ

№ 118

Mən H. Z. A. Tağıyevin vəsaiti hesabına oxuyan ölkəmizin adlı-sanlı və sıravi adamlarına onun barəsində öz xatirələrini söyləmək xahişi ilə müraciət edirəm. Bu, gənc alimlərimizə H. Z. A. Tağıyevin obrazını və onun inqilabaqədərki cəmiyyətin inkişafındakı rolunu düzgün anlamağa kömək edəcək. Bir çox arxiv materialları məhv olunduğundan gənc elmi işçilərimiz səhvən H. Z. A. Tağıyevin obrazını təhrif edərək onu yırtıcı kapitalist kimi qələmə verirlər.

Məsələn, "Azərbaycan tarixinin maketi"nin 62-ci səhifəsində yazılıb: "Tağıyevin, Muxtarovun, Aşurovun və başqalarının simasında Azərbaycan burjuaziyası qaragüruhçu bandaların formalaşdırılmasında fəal iştirak etmişdir. Qaragüruhçular yeni erməni-müsəlman qırğınını qızışdırmaq üçün oktyabrın 20-23-də Bakıda və Azərbaycanın digər qəzalarında qanlı talanlar törətmişlər. Bir çox inqilabçı-fəhlələr qaragüruhçu bandaların quldur hücumlarının qurbanı olmuşdur".

Və yaxud Z. Q. Axundova özünün qadın təhsili haqqında dissertasiyasının 71-ci səhifəsində yazır: "Həsən bəy Zərdabi məktəbə bir maarif ocağı kimi baxdığı halda, H. Z. A. Tağıyev oraya daha çox bir şöhrət və qazanc mənbəyi kimi baxırdı".

72-ci səhifədə o, H. Məlikovanın məktəbdən getməsindən sonra şagirdlərin qidalanmasının pisləşdiyini və hətta onların yeməməzlikdən xəstələndiyini qeyd edir.

Və nəhayət işin "yaraşığı" müəllifin sonda gəldiyi nəticədir: H. Tağıyev savadsız insan idi və Zərdabi onun adından və nüfuzundan istifadə edərək qız məktəbi açdırmışdı. Beləliklə, məktəbin əslində yaradıcısı Zərdabidir.

Mən müasirlərdən aydınlıq gətirməyi xahiş edirəm. Dissertantların istifadə etdikləri arxiv materialları məsələni lazımi dərəcədə işıqlandırmır. Xatirələr isə obyektiv tarixi həqiqəti açıqlamağa kömək edə və arxiv sənədlərini əsaslandıra bilərdi.

Mən H. Z. A. Tağıyevi zəngin daxili mədəniyyətə malik, fanatizmdən uzaq, maarif uğrunda mübarizə aparan bir insan kimi xatırlayıram.

Sara Tağıyeva-Sarayeva.
4. VI. 1957.

MATMNF, № 19945.

№ 119
Hacı Zeynal Abdin Tağıyev müsəlman qız məktəbinin banisidir

Arxiv sənədlərinin itməsi və zaman keçdikcə tarixi yaddaşın silinməsi müsəlman qız məktəbinin banisi haqqında məsələyə qeyri-aydınlıq gətirir və onun yaradıcısı Həsən bəy Məlikov hesab olunur. Mən, məktəbin müəllimələri və şagirdləri ilə birgə bu məsələyə aydınlıq gətirmək istəyirəm. Müsəlman qız məktəbinin banisi Hacı Zeynal Abdin Tağıyev idi. Müəllimələr və məktəbin müdirəsi əməkhaqlarını H. Z. A. Tağıyevin vəsaitlərindən alırdılar. Məktəb H. Z. A. Tağıyevin himayəsi altında idi və siyasi ideyaların təbliği üçün istifadə olunmurdu. H. Z. A. Tağıyev şagirdlərlə söhbətində onları təhsil almağa çağırır, oxumağın faydaları barədə danışırdı.

Sara Tağıyeva–Sarayeva.
Nərimanov prospekti, Köndələn döngə [121].
8. VI. 1957.

Mən, Voroşilov rayonu [122] 132 №-li məktəbin müəllimi H. Z. A. Tağıyevin müsəlman qız məktəbinin məzunu olmuşam. Təsdiq edirəm: Gövhər İsmayıl qızı Usubova.

Mirzə Şəfi küçəsi, 6.
11. VI. 1957.

Mən, həkim Firəngiz Novruzova 1908-1913-cü illərdə H. Z. A. Tağıyevin təsis etdiyi qız məktəbində oxuduğumu təsdiqləyirəm.

İmza.
Kolodeznaya küçəsi [123], ev 11.
12. VI. 1957.

Mən, professor Sona xanım Axundova [124] H. Z. A. Tağıyevin məktəbində təhsil aldığımı təsdiq edirəm.

İmza.
Əzizbəyov küçəsi, ev 4.
12. VI. 1957.

Mən, Azərbaycan SSR Elmlər Akademiyası Tarix İnstitutunun keçmiş elmi işçisi, hal-hazırda təqaüdçü İzzət Məcidova (əvvəlki soyadım Dadaşova) təsdiqləyirəm ki, 1908-1913-cü illərdə H. Z. A. Tağıyevin təsis etdiyi Aleksandrinski rus-müsəlman qız məktəbində təhsil və tərbiyə almışam.

İmza.
13. VI. 1957.

Mən pedaqoq Yusif Əfəndiyevin qızıyam. Atam Azərbaycanın ilk pedaqoqlarından biri olmuş, Səməd Vurğuna dərs demişdir. Mən və bacım indi Ali Sovetin [125] binasında yerləşən H. Z. A. Tağıyevin qız məktəbində pulsuz oxumuşuq.

İmza: Xeyransa Dilbazi.
Ostrovski küçəsi [126], 31.
15. VI. 1957.

Mən, pedaqoq və şair Məmmədtağı Sidqinin qızı, əvvəllər Azərbaycan SSR Elmlər Akademiyası Tarix İnstitutunun kiçik elmi işçisi işləmiş, hal-hazırda isə təqaüddə olan Dostu Səfərova təsdiq edirəm ki, 1911-1916-cı illərdə indi Azərbaycan SSR Ali Sovetinin yerləşdiyi H. Z. A. Tağıyevin qız məktəbində oxumuşam.

İmza.
Füzuli küçəsi, 3.

Mən, N. Nərimanov adına Azərbaycan Tibb İnstitutunun [127] göz xəstəlikləri kafedrasının müdiri, professor Ümnisə Süleyman qızı 1910-1914-cü illərdə hal-hazırda Azərbaycan SSR Ali Sovetinin yerləşdiyi H. Z. A. Tağıyevin qız məktəbində tərbiyə almışam.

İmza: Ümnisə Musabəyova [128].
Hertsen küçəsi [129], 22.
15. VI. 1957.

Mən, Şaumyan adına xəstəxananın [130] doğum şöbəsinin müdiri Sofya Ruhulla qızı Axundova H. Z. A. Tağıyevin təsis etdiyi məktəbin şagirdi olmuşam. Oranı bitirdikdən sonra mən təsisçinin məktəbin nəzdində açdırdığı pedaqoji kurslarda təhsilimi davam etdirmişəm. Məktəbə 1908-ci ildə daxil olub, 1917-ci ildə bitirmişəm.

İmza: Axundova (Əliyeva) S.
Qorki küçəsi [131], 26.
15. VI. 1957.

Mən, Bakı şəhəri Şaumyan rayonu [132] 56 №-li məktəbin müəllimi, 40 illik pedaqoji staja malik olan Əliyeva İqlimə Bəybala qızı təsdiq edirəm ki, H. Z. A. Tağıyevin məktəbində təhsil almış və onun hesabına oxumuşam. Həyatda mənə düzgün istiqamət, həyata vəsiqə verdiyinə, gözlərimi açdığına görə ömrüm boyu ona borcluyam və minnətdaram.

İmza.
Musəvi küçəsi [133], 4.
17. VI. 1957.

Mən və bacım Xavər H. Z. A. Tağıyevin məktəbində oxumuş və pansionda qalmışıq. Məktəbi bitirdikdən sonra məni müəllimə kimi məktəbdə saxladılar. İndi özüm də, bacım Xavər Qarayeva da həkimik. Mən, Ş. Şabanova təsdiqləyirəm ki, məktəbi H. Z. A. Tağıyev təsis etmişdir.

İmza: doktor Şabanova.
Asəf Zeynallı küçəsi, 21.
18. VI. 1957.

Mən, Ruqiyyə Qafar qızı Bünyadzadə H. Z. A. Tağıyevin məktəbində oxumuşam. Həmin məktəbin onun təsis etdiyini təsdiqləyirəm. O, məktəbə gəlir və bizi oxumağa çağırırdı.

İmza.
Mustafa Sübhi küçəsi, 20.
29. VII. 1957.

Mən, Sona İsgəndər qızı Axundova [134] H. Z. A. Tağıyevin təsis etdiyi məktəbdə təhsil almışam. Oxuduğum vaxtlarda həmin məktəb ana dili və ədəbiyyatı, Mirzə Fətəli Axundovun, Sabirin, Füzulinin, eləcə də rus ədiblərindən Qoqolun, Puşkinin, Tolstoyun və başqalarının əsərlərini öyrənməyə imkan verən yeganə məktəb idi. Digər milli qız məktəbləri olmadığından atam məni bu məktəbə yazdırdı. Burada keçirdiyim uşaqlıq çağlarından ən xoş təəssüratları qoruyub saxlamışam. Xatırlayıram ki, H. Z. A. Tağıyev bizi təhsil almağa çağırırdı. O, deyirdi: "Təhsilsiz siz yaxşı ana ola bilməyəcəksiniz".

İmza: Qarayeva.
Füzuli küçəsi, 47.

Mən, N. Nərimanov adına Azərbaycan Tibb İnstitutunun assistenti Səkinə Cəlil qızı Əlikişibəyova 1911-1915-ci illərdə Azərbaycan SSR Ali Sovetinin indiki binasında yerləşən H. Z. A. Tağıyevin təsis etdiyi məktəbdə təhsil almışam.

İmza.
22. VI. 1957.

Mən, Bakı şəhəri 25 №-li məktəbin müəlliməsi Fatimə Məlikova 46 illik pedaqoji staja malikəm. Çoxillik qüsursuz əməyimə görə Lenin ordeni ilə təltif olunmuşam. Mən öz adımdan, müasirlərim, əvvəlki dövrdə yaşamış adamların adından gənclərə, alimlərə demək istəyirəm ki, həqiqətən də, müsəlman qız məktəbinin təsisçisi H. Z. A. Tağıyev idi. O, bizə - öz yetirmələrinə həyatda düzgün istiqamət göstərdi, gözlərimizi açdı. Həmin məktəb öz zəmanəsi üçün

çox mütərəqqi idi. O, ruhani məktəblə mübarizə aparan, müsəlman qızın parta arxasında oturub elmə yiyələndiyi ilk dünyəvi qadın məktəbi idi. Bu məktəb dini təhsilin hökm sürdüyü çoxəsrlik ənənələrin qırılması hesabına təsis olunurdu. Başqaları kimi, mən də H. Z. A. Tağıyevin vəsaitinə oxumuşam. Bu məktəb Dağıstana ilk müsəlman müəllimələrini verdi [135].

İmza.
Poluxin küçəsi [136].
26. VI. 1957.

Mən, Gülsüm Səmədova (indi Səfərova) başqaları kimi təsdiqləyirəm ki, Azərbaycan SSR Ali Sovetinin binasında vaxtilə yerləşən qız məktəbinin əsasını H. Z. A. Tağıyev qoymuşdur. Təhsilin xeyrini anlayan atam məni həmin məktəbə yazdırmışdı. Buna görə ətrafdakılar bizə nifrət etməyə başladı, çünki o vaxtlar dünyəvi təhsil rüsvayçılıq hesab edilirdi. Məktəbdə sonadək oxuya bilmədim, çünki məni oradan götürdülər. Lakin sinif yoldaşlarım Tağıyevin hesabına təhsillərini davam etdirib, həmin məktəbi bitirdilər.

İmza.
30. VI. 1957.

ARDƏİA: f. 675, siy. 2, s. v. 105, vv. 34-39.

№ 120
SSRİ xalq artisti Sidqi Ruhullanın [137] **xatirələrindən**

Hacı çox ciddi məsələni - qadın təhsili məsələsini həll etdi. İlk qız internat məktəbinin açılması ruhanilərlə mübarizə sayəsində başa gəldi.

Ruhanilər xalqı öyrədirdilər ki, qanunla qadının məktəbə getmək, elmə, yazı yazmağa yiyələnmək hüququ yoxdur. Qadına yalnız Quran oxumağa icazə verilirdi. Həmin illərdə ruhaniliyin xalq üzərində hökmü hədsiz idi. Xalq onlara korkoranə, könüllü itaət edirdi. Ruhanilər "cihad" elan edə bilərdilər və insanlar "cihad" elan olunanın vəziyyətindən, qarşı tərəfin gücündən asılı olmayaraq ayağa qalxırdılar. Bir dəstə adam "cihad" elan ediləndən sonra qoşuna qarşı ölümə gedə bilərdi.

Qız məktəbini açmaq fikrinə düşən Hacı ruhaniləri öz yanına dəvət etdi. Hacı onlara öz niyyətini bildirəndə, ruhanilər bunu kəskin qəzəblə və narazılıqla qarşıladılar. Səhərisi gün Mir Məhəmməd Kərimin qapısına kerosin tökərək yandırmağa cəhd etdilər, bir qədər əvvəl qadınların elm öyrənə bilməsini dediyinə görə axund Mirzə Əbu Turabın qapısına isə çirkablar tökdülər.

Bundan sonra Hacı Molla Mirzə Məhəmməd oğlunu öz yanına çağıraraq ona böyük miqdarda pul vermiş və müsəlman ruhani başçıları - müctəhidlərin yanına göndərdi ki, onlar qadınların elm öyrənməsinə icazə verildiyini təsdiqləsinlər. Belə müctəhidlər səkkiz nəfər idi: Məkkədə, Mədinədə, Bağdadda, Xorasanda. Yerli mollalar istəklərinə uyğun özlərinə bir müctəhid seçir və ona təqlid edirdilər.

Molla Mirzə Məhəmməd işgüzar, ağıllı, zirək adam idi. O, Hacının tapşırığını bacarıqla yerinə yetirdi: müctəhidlərin yanına gedərək, onlardan qadınların elmə yiyələnə bilmələri haqqında yazılı icazə aldı.

Hacı təkrarən ruhaniləri öz yanına dəvət etdi. Bütün mollalar və axundlar, hətta rayonlardan gələnlər də Hacının yanında toplaşdılar. Hacı onlara xitabən qız məktəbini açdırmaq fikrindən dönmədiyini bildirdi. Mollalardan biri narazılıq edəndə, Hacı ondan hansı müctəhidi təqlid etdiyini soruşdu. Cavab aldıqdan sonra Hacı həmin müctəhidin yazılı razılığı olan zərfi mollaya uzatdı. Yazılı icazə olan bütün qalan zərfləri Hacı ruhanilərə payladı. Müctəhidlərin məktublarını oxuyandan sonra axundlar və mollalar bildirdilər ki, onlar tabe olmağa borcludurlar.

Sonra Hacı camaatı Təzəpirə [138] yığdı və onların qarşısında çıxış etdi. O, açdırdığı qız məktəbinə öz övladlarını göndərməyi xalqdan xahiş edirdi...

1. III. 1957.

MATMNF, № 19946.

№ 121
Xədicə xanım Ağayevanın [139] xatirələrindən

...Məktəb 1901-ci ildə açılmışdı. Məktəbin birinci müdirəsi Həsən bəy Məlikovun yoldaşı Hənifə xanım Məlikova idi. Onun müavini Məryəm xanım Sulkeviç idi. Məktəbdə əvvəl 5 nəfər müəllim çalışırdı:

1. Məryəm xanım Sulkeviç rus dili, hesab fənnindən birinci siniflərdə dərs deyirdi.
2. Şəfiqə xanım Əfəndiyeva [140] ana dilindən bütün siniflərdə dərs deyirdi.
3. Rəhilə xanım Terequlova yuxarı siniflərdə rus dili və coğrafiya fənlərindən dərs deyirdi.
4. Səkinə xanım Axundova bütün siniflərdə şəriət dərsi deyirdi.
5. Xədicə xanım Əbdurəhmanova rus dilindən, hesabdan ikinci siniflərdə dərs aparırdı.

Əl işi dərsi bütün siniflərdə keçirildi. Müdirə isə məktəbdə heç bir fəndən dərs demirdi. Məktəbdə xəstəxana və ambulatoriya var idi. Ambulatoriya məktəbin daxilində, müdirənin kabinetinin yanında yerləşirdi. Burada tibb bacısı tələbələri

qəbul edirdi. Bundan əlavə məktəbin ikinci mərtəbəsində həkimin kabineti var idi. Bu kabinetdə uşaqları terapevt həkim qəbul edirdi. Burada diş həkimi də var idi. Məktəbin həyətində birmərtəbəli xəstəxana yerləşirdi. Xədicə xanım və bir çox tələbələr parotit xəstəliyinə tutularkən həmin xəstəxanada müalicə olunmuşlar.

Qulluqçuların çoxusu Kazan tatarları idi... Müəllimələrin və tələbələrin yeməkləri məktəbdən idi. Hər müəlliməyə ayrı-ayrı otaqlar verilmişdi. Rəhilə xanım və Xədicə xanım öz istəkləri ilə bir otaqda yaşayırdılar. Müdirənin özünün isə 2 otağı var idi.

Müəllimələr hər ay 46 rubl bir neçə qəpik, ildə isə 500 rubl maaş alırdılar. Yeməklərin qiymətini maaşlarından çıxmırdılar...

...Məktəbin məscidi var idi. Uşaqlar orucluq vaxtı oruc tuturdular. Məhərrəmlikdə məhərrəmlik edirdilər. Şəhərin övrətləri məhərrəm günləri məktəbə gəlirdilər. Məhərrəmlik qurtarandan sonra müdirə onlara məktəbi göstərirdi (xalqı məktəbə cəlb etmək üçün). Həmin vaxtlarda bütün Bakı övrətləri çadra altında idi. Hacı Tağıyev müəllimələrə ilk vaxtlarda çadra örtməyi məsləhət görürdü, ona görə ki, müəllimələrin üzü açıq gəzməklərini görən valideynlər öz uşaqlarını məktəbə verməzlər.

Məktəbə birinci qəbul zamanı bakılılar öz uşaqlarını məktəbə vermədilər ki, ora gedən "kafir olar". Müəllimələr də təxminən yarım il müddətində çadra altında gəzirdilər, sonra isə şərflə gəzməyə başladılar. Həmin məktəbə bütün yerlərdən uşaqlar yığılırdılar. Dövlətlilərin uşaqları oxumaq üçün pul verirdilər, kasıblar isə vermirdilər. Ruhanilər məktəbin açılmasının əleyhinə idilər və onlar camaatın içərisində təbliğat aparırdılar ki, valideynlər öz uşaqlarını bu məktəbə verməsinlər. Ona görə də, Bakı əhalisi məktəbə uşaq vermirdi.

X. Ağayevanın dilindən
M. F. Axundov adına APİ-nin [141] tələbəsi Şövkət Qədirova yazdı.

MATMNF, № 19947.

№ 122
Nabat xanım Nərimanovanın xatirələri*

Nabat xanım Nərimanova Xədicə xanım Ağayevanın (Tağıyev məktəbinin keçmiş müəlliməsi) dediklərini təsdiqləyir və əlavə edir ki, yuxarı sinif şagirdlərinə həmçinin tikiş və biçmə dərsləri keçilirdi. Bundan başqa klassik əsərlər keçildikcə, şagirdləri "Yevgeni Onegin", "Demon", "Otello" və başqa tamaşalara baxmaq üçün faytonda teatra aparırdılar. Tamaşalardan sonra şagirdlər

* Sara xanım Tağıyeva-Sarayeva tərəfindən yazıya alındığından N. Nərimanovanın adından nəql edilir.

həmin əsərlərin baş qəhrəmanlarını yazılı xarakterizə edirdilər. Müəllimələr şagirdləri ekipajlarda müşayiət edir, sonra isə lojalarda əyləşib qızlara tamaşaya dair izahatlar verirdilər. İlin sonunda bütün siniflərdə bilet sistemi ilə imtahanlar keçirilirdi. İmtahanlarda Tədris Dairəsinin müdiri Txorjevski*, müfəttiş Kançalov, bəzən Hacının özü də iştirak edirdi. Onlar imtahanın sonunadək qalır, hər şagirdi sual-cavab edir və sonda razı halda gedirdilər.

Yuxarı sinif şagirdləri hər həftə iki-iki mətbəxdə növbətçilik edirdilər. Onlar kulinariyanı öyrənməli, lakin özləri iş görmürdülər. Hər gün nahardan sonra şagirdlər bir-iki saat həyətdə oynamağa çıxırdılar.

İki-üç gündən bir qızların dişlərinin vəziyyətini yoxlamaq üçün həkim gəlirdi. Terapevt sistematik olaraq şagirdlərin səhhətini yoxlayırdı. Şübhəli diaqnozla olan uşaqlar xüsusi boks-təcridxanalarda saxlanılırdı. Sağlam uşaqlar arasında xəstəliklərin yayılmasının qarşısını almaq üçün bokslarda ayrıca personal xidmət göstərirdi.

Həftədə bir dəfə hamama gedilirdi, paltarlar yuyulur, kraxmallanır və ütülənirdi.

Aşağı sinif şagirdlərini hamamda xüsusi dayələr çimizdirirdilər. Onlar həmçinin səhərlər kiçikyaşlı qızların saçlarını darayırdılar.

Məktəb qapalı tipli olduğundan oraya giriş məhdud idi. Uşaqların qohumları müdirənin icazəsi ilə içəri buraxılırdı. Nabat xanım Nərimanova həmin məktəbdə 1901-1907-ci illərdə oxumuş, 1908-ci ildən 1917-ci ilədək isə dərs demişdir. Bu illərdə məktəbin bir neçə müdirəsi dəyişmişdir:

1. Hənifə xanım Məlikova.
2. Məryəm xanım Sulkeviç.
3. Səlimə xanım Yaqubova.
4. Gülxanım Axrıyeva.

Nabat xanımın oxuduğu illərdə məktəbdə yemək çox yaxşı idi. Şagirdlər məktəbdə keçirilən tamaşa və konsertlərdə çıxış edirdilər. Məsələn, Nəriman Nərimanovun "Şamdan bəy" ("Dilin bəlası") pyesi və başqa əsərləri tamaşaya qoyulurdu. Həmin tamaşalarda Nabat xanım əsas rolları ifa edirdi.

Sona xanım (H. Z. A. Tağıyevin həyat yoldaşı) və müəllim heyəti bu tamaşalara böyük köməklik göstərirdilər. Şəhərdə yaşayan qadınlar bu tədbirlərə dəvət olunurdular.

Hacı tez-tez şagirdlərlə söhbət edir, məktəbdə onların incidilib-incidilməməyi barədə maraqlanır, evlərindəki vəziyyət haqqında çoxlu suallar verirdi. Nabat xanım imkansız ziyalı ailədən idi və pulsuz oxuyurdu.

ARDƏİA: f. 675, siy. 2, s. v. 103, vv. 7-9.

---

* Olmalıdır: Xalq məktəblərinin müdiri.

№ 123
Asəf Zeynallı küçəsi, ev 2 ünvanında yaşayan həkim Şəhrəbanu Şabanovanın xatirələri

Atamın vəfatından sonra anam uşaqlarla birlikdə Tbilisidən Bakıya köçdü. 1906-cı ildə məni H. Z. A. Tağıyevin qız məktəbinə qəbul etdilər və mən 191-ci ildə* oranı bitirdim. Bundan sonra məktəbdə müəllimə işləməyə qaldım. 191-ci ildə ailə qurduqdan və Bakıdan köçdükdən sonra məktəbdən ayrıldım.

H. Z. A. Tağıyev məktəbinin indiki Kommunist (keçmiş Nikolayevski) küçəsində yerləşən, öz xidmətləri, həyəti olan ikimərtəbəli xüsusi binası var idi. Hal-hazırda həmin məktəbdə Azərbaycan SSR-in Ali Soveti yerləşir.

Azərbaycanlı qadınlar üçün o qaranlıq illərdə H. Z. A. Tağıyevin məktəbi ilk və yeganə idi. Yalnız Tağıyevin nüfuzu hesabına buraya 30-dək azərbaycanlı qızı toplayıb, onlara təhsil vermək mümkün olmuşdu. 1910-cu il üçün isə şagirdlərin sayı artıq 200-ə çatırdı. Beləliklə, ziyalı Azərbaycan qadınlarının ilk fondunun məhz bu məktəbdə təşəkkül tapdığını hesab etmək olar. Buranı bitirənlərin demək olar ki, əksəriyyəti sonralar müəllimə və mütəxəssis olmuşlar. Məktəbi həkim Firəngiz Novruzova, pedaqoq Nabat Nərimanova, həkimlər Xavər Qarayeva, Şəhrəbanu Şabanova, həkim-professor Ümnisə Musabəyova, evdar qadın Sona Axundova-Qarayeva, həkimlər Xeyransa Dilbazi, Cənnət Muxranskaya, rəssam Reyhan Topçubaşova [142] və bir çox başqaları bitirmişlər.

Biz – məktəbin şagirdləri o dövrdə üzü açıq gəzirdik. Bu ilk dəfə idi ki, azərbaycanlı qadınlar köləlik rəmzi sayılan çadranı çıxarmışdılar. Düzdür, qoçular [143] və mollalar tərəfindən çoxsaylı hədə-qorxu gəlinirdi. Yalnız H. Z. A. Tağıyevin nüfuzu bizi onlardan qoruyurdu. Bu nüfuz məktəbdə hökm sürən ciddi mənəvi qaydalara söykənirdi.

Məktəbin bütün personalı bir qayda olaraq, qadınlardan ibarət idi: müdirə - Məryəm xanım Sulkeviç, sonra isə Gülbahar xanım Axrıyeva, müəllimələr - Rəhilə xanım Hacıbababəyova-Terequlova, Gülsüm xanım Sübhanqulova, Mavilə xanım Palovandova, Səriyyə xanım Axmetyeva, Ədilə xanım Şahtaxtinskaya və b. Dairə müfəttişi Soltan Məcid Qəniyev, məktəbin həkimi (o illərdə azərbaycanlı qadın həkimlər yox idi) və qoca qarovulçu tatar Cəmaləddin istisna təşkil edirdilər.

Məktəbin əsas binası ikimərtəbəli və olduqca abad idi. Birinci mərtəbədə siniflər və qəbul otağı, ikincidə isə şagirdlərin yataq otaqları, müəllimələrin və məktəb müdirəsinin otaqları yerləşirdi. Burada həmçinin ambulatoriya da var

* Mətndə belədir.

idi. Birinci mərtəbədə həkimin kabineti, ikinci mərtəbədə yeməkxana yerləşirdi. Xəstəxana, hamam və digər köməkçi binalar həyətdəki ayrıca fligellərdə idi.

Şagirdlərin rus məktəbləri nümunəsində geyim forması var idi: göy rəngli paltar və önlük. Gündə dörd dəfə verilən yemək çox dadlı və qidalı idi. Tağıyevin xanımı tez-tez məktəbə gəlir, meyvə və şirniyyat göndərirdi.

Qafqaz Tədris Dairəsinin təsdiq etdiyi məktəbin proqramı 4-sinifli məktəbin proqramı həcmində idi. Bizə rus dili, ana dili, hesab, coğrafiya, tarix, əl işi, tikmə, oxu, şəriət, son illərdə isə biçmə və tikiş dərsləri keçilirdi.

Şagirdlərin gündəlik yükü hərəsi 50 dəqiqəlik 5 dərs təşkil edirdi. Asudə vaxtının, dərslərdən sərbəst saatların nizamına ciddi riayət olunurdu: məktəbin həyətində oynayardıq, dərslərə hazırlaşardıq. Məktəbin bütün binası kimi, həyəti də çox səliqəli saxlanırdı. Ümumi təmizliklə yanaşı şagirdlərin fərdi gigiyenasına da çox diqqət yetirilirdi - dırnaq, qulaq, paltar və saçların təmizliyi gündəlik yoxlanılırdı. Həftədə bir dəfə icbari hamam günü idi. Məktəb qapalı tipli idi və artıq dedi-qodu olmasın deyə, kənar kişilərə giriş qadağan idi. Bu səbəbdən də həvəskar tamaşalarda kişi rollarını qızlar ifa edirdilər. Çox sonralar, artıq 1910-11-ci illərdə bizi - yuxarı sinif şagirdlərini kişi gimnaziyasında [144] keçirilən gecələrə aparırdılar.

H. Z. A. Tağıyevin özü də tez-tez məktəbə gəlirdi. O, bizimlə söhbət edir və həmişə oxumağa, gözüaçıq olmağa çağırırdı. Onun həyat yoldaşı Sona xanım da demək olar ki, hər gün məktəbə gələrdi. Böyük bayramlarda biz Tağıyevlərə səhər və nahar yeməklərinə dəvət olunurduq, burada bizi həmyaşıdlarımız olan Hacının və Sona xanımın qızları qarşılayırdılar.

İldə bir dəfə, məhərrəm ayı günlərində, məktəbdə namaz mərasimləri təşkil edilir və şəhərdən azərbaycanlı qadınlar dəvət olunurdu. Bu ziyarətlərdən məqsəd mollaların və qoçuların təbliğatını ifşa etmək idi. Nəticədə, əgər məktəbin açılmasından keçən ilk illərdə şagirdlərin əksəriyyəti kənardan gələnlər idisə, sonralar Bakı camaatının qızları da onlara qoşuldu.

İmkansız şagirdlər üçün təhsil pulsuz idi. Yalnız imkanlılardan pul alınırdı. Ümumiyyətlə, H. Z. A. Tağıyevin aztəminatlı ailələrdən olan uşaqları oxutdurmağa can atmasını qeyd etmək lazımdır. Mən, sonralar isə bacım Xavər pulsuz oxuyurduq və təhsil haqqından azad idik.

17. VI. 1956.

ARDƏİA: f. 675, siy. 2, s. v. 103, vv. 10-13.

№ 124
Gövhər xanım Qazıyevanın xatirələri

Mən, Gövhər xanım Qazıyeva 1910-1915-ci illərdə Hacı Zeynal Abdin Tağıyevin qız məktəbində işləmişəm. Məktəbdə ciddi nizam-intizam, səliqə, təmizlik var idi. Tağıyevin məktəbində heç bir vaxt zorakı cəza növləri, məsələn, cismani cəza, qamşı, diz üstə durmaq, qoz qabağı üzərində dayanmaq tətbiq olunmayıb. Məktəbdə mövcud olan cəza evə buraxmamaq idi. Şagirdlər müəllimləri adla çağırırdılar. Məsələn, Gövhər xanım, Nabat xanım, Mina xanım. H. Z. A. Tağıyevin məktəbi Azərbaycanda ilk müsəlman qız məktəbi idi. Burada yalnız qızlar təhsil alırdılar. Qızlar arasında əynini dəyişmiş oğlan olmayıb. Məktəbdə yemək və şagirdlərlə davranma yaxşı idi. Qızlarla oğlanların bir yerdə oxuması heç bir Azərbaycan məktəbində olmayıb.

İmza.
3. XI. 1957.

MATMNF, № 19948.

№ 125
Muxtədir küçəsi [145], ev 8, mənzil 3 ünvanında yaşayan İzzət Məcidovanın (Dadaşovanın) xatirələri

Mən 1908-ci ildən 1913-cü ilədək o vaxtlar "Aleksandrinski rus-müsəlman qız məktəbi" adlanan Hacı Zeynal Abdin Tağıyevin məktəbində oxumuşam.

Məktəbə daxil olduğum vaxtı qızların geyim forması Dağıstan, bir ildən sonra isə rus məktəbli forması idi. Məktəbdə yaxşı yemək verirdilər, bizim həkimimiz Nəriman Nərimanov idi. O, hərdən bizimlə gigiyena haqqında söhbətlər aparırdı.

Məktəbdə bizə xidmət edən tibb bacısı var idi. Binanın özündə kitabxana, hamam, yaxşı təchiz olunmuş səhnə, məscid və digər xidmətlər mövcud idi. Mənim daxil olduğum ildə bakılı qızlar çox az idi, əksəriyyət müxtəlif yerlərdən gəlmişdi. Bütün qızlar müsəlmanlar idi. Bu, ilk dünyəvi məktəb idi.

Daxil olduğum ildə (1908-ci il) Bakı cəmiyyətinin məktəbimizə olan münasibətini xatırlayıram. Məni məktəbə göndərdiyinə görə cəmiyyət ailəmizi boykot edirdi. Qızlar ailələrindəki mühitdən və cəmiyyətin münasibətindən asılı olaraq məktəbə həm çadrada, həm də çadrasız gəlirdilər. Kollektiv tədbirlər vaxtı, məsələn, Tağıyev teatrına və ya Tağıyevin evinə ziyarət təşkil ediləndə, hamımızı çadrasız aparırdılar. Buna görə qohumlarından qorxan qızlar kollektiv gəzintilərdə iştirak etmirdilər. İldən-ilə belə qızların sayı azalırdı. Biz məktəbi

bitirəndə, Tağıyevə hədiyyə olaraq böyük xalça toxuduq.

Məktəbi qurtaranda Hacı bizi müəllimələrimizlə birgə öz evinə dəvət etdi. Bizim üçün şirniyyat süfrəsi açıldı, sonra isə Hacı hamımıza bir qutu şokolad və bir ipək dəsmal bağışladı.

Mən balaca olanda, xalq arasında Hacının vəba və aclıq vaxtı (1892-ci il) göstərdiyi səxavətə həsr olunmuş mahnı yayılmışdı. Yaddaşımda mahnının yalnız bir bəndi qalıb:

...Hacı Zeynal Abdin
Xas bəndə Xudayə,
Açıb buğda anbarın,
Paylayır füqərayə...

15. VII. 1956.

ARDƏİA: f. 675, siy. 2, s. v. 103, vv. 14-15.

№ 126
Füzuli küçəsi, 3 ünvanında yaşayan təqaüdçü
Dostu Səfərovanın xatirələri

O dövrdə "Aleksandrinski rus-müsəlman qız məktəbi" adını daşıyan H. Z. A. Tağıyevin məktəbi indiki Kommunist, əvvəlki Nikolayevski küçəsindəki ikimərtəbəli, xidməti otaqları və həyəti olan binada yerləşirdi. Hal-hazırda burada Azərbaycan SSR-in Ali Soveti yerləşir.

Mən məktəbə 1911-ci ildə, Azərbaycan üçün ən qaranlıq illərdə daxil oldum. Yaxşı yadımdadır, məni məktəbə yazdıranda, Naxçıvanın bir çox yas məclislərində mollalar anamı lənətləyirdilər ki, guya o, kafir olub, qızını Bakıya oxumağa göndərib. Bu barədə "Molla Nəsrəddin" jurnalında tənqidi karikatura çəkilmişdi.

O dövrdə bu məktəb azərbaycanlı qadınlar üçün ilk və yeganə maarif ocağı idi. Beləliklə, ilk ziyalı Azərbaycan qadınları bu məktəbin yetirmələri olmuşdur. Azərbaycandakı müəllimələrin əksəriyyəti bu məktəbi bitirmişdir.

Tağıyev məktəbi ikimərtəbəli abad binada yerləşirdi: birinci mərtəbədə siniflər, kitabxana, qiraətxana və qəbul otağı, ikinci mərtəbədə yeməkxana, mətbəx, şagirdlərin yataq otaqları, tamaşa zalı, müəllimələrin, müdirənin otaqları, ambulatoriya və həkimin kabineti yerləşirdi. Hamam, xəstəxana, camaşırxana, anbar və s. həyətdəki ayrıca fligellərdə idi.

Bu məktəbdə əsasən gəlmə qızlar oxuyurdu, axır vaxtlarda isə bakılı qızlar, əsasən də, pansionda daimi qalmayanlar gəlirdi. Geyim forması adi rus məktəbli

forması, yəni göy paltar və ağ önlük idi. Bizim iki cür formamız vardı: birini adi günlərdə, digərini - yaraşıqlını isə imtahan, bayram günlərində, teatra və kinoya, başqa məktəblərdə keçirilən axşamlara gedəndə geyinirdik.

Bu məktəbdə şagirdlərin çoxu pulsuz oxuyurdu. Bizə ana dili, rus dili, hesab, həndəsə, tarix, təbiətşünaslıq, əl işi, biçmə və tikiş öyrədilirdi. Məktəb altısinifli idi. Burada insanın gigiyenasına, həm ümumi təmizliyə, həm də şagirdlərin şəxsi təmizliyinə və gigiyenasına böyük diqqət yetirilirdi. Məktəbimizin həkimi doktor Nəriman Nərimanov idi. O, tez-tez bizə uşaqların gigiyenası və tərbiyəsi haqqında mühazirələr oxuyurdu. Hər səhər paltarlarımızın, dırnaqlarımızın, qulaqlarımızın, saçlarımızın və s. təmizliyi yoxlanılırdı. Həftədə bir dəfə hamama gedirdik.

Bizə gündə 4 dəfə, çox yaxşı yemək verirdilər, nahar 3 yeməkdən ibarət idi. Menyunu şagirdlər özləri siniflər üzrə tərtib edirdilər. Payızda və qışda yeməkdən əvvəl zəif qızlara onların sağlamlığını möhkəmləndirən balıq piyi verilirdi.

Məktəb qapalı tipli idi, valideynlərdən başqa kənar şəxslərə giriş qadağan olunmuşdu. Valideynlər öz uşaqları ilə məktəbin qəbul otağında görüşürdülər. Bu, demək olar ki, azərbaycanlı qadınlar üçün ilk dünyəvi milli məktəb idi.

Bayramlarda bizi kinoya və Tağıyev teatrına aparırdılar. Hamımız çadrasız gedirdik. Yuxarı sinif şagirdləri rus qadın gimnaziyasında keçirilən gecələrə gedirdilər (onlar da bizim məktəbə gəlirdilər). Sonra isə - 1915-1916-cı illərdə qızları kişi gimnaziyasında, realnı məktəbdə keçirilən gecələrə aparırdılar.

Bizim xorumuz, dram, ədəbi və rəqs dərnəklərimiz var idi. Yadımdadır ki, istirahət, yəni cümə günlərində, pansioner qızları əyləndirmək üçün dram dərnəyi konsert və tamaşalar göstərirdi.

Bir dəfə biz Üzeyir Hacıbəyovun "Arşın mal alan" pyesini tamaşaya qoyduq və müəllifin özünü dəvət etdik. Əsgərin rolunu Reyhan xanım Axundova (professor Topçubaşovun həyat yoldaşı), Gülçöhrəni Ruqiyyə Abdullayeva, arşınmalçı Xalını isə mən oynayırdım. Bizim dərnək Hacıbəyovun çox xoşuna gəldi.

H. Z. A. Tağıyev və onun həyat yoldaşı Sona xanım tez-tez məktəbimizə gələr, bizə şirniyyat və meyvə gətirərdilər. Tağıyev dərslərimizdə oturar və həmişə bizə deyərdi: "Qızlar, oxumaq lazım deyil deyənlərə qulaq asmayın, əksinə, mənim sizə ata nəsihətim budur: oxuyun, bilik əldə edin, insanın həyatında bilik ən böyük sərvətdir. Bax, mən varlıyam, amma savadsızam. Ancaq savadlı olsaydım, mənim həyatım tamam başqa cür olardı. Oxuyun, övladlarım, sizə uğurlar və həyatda xoşbəxtlik arzulayıram".

1912-ci və ya 1913-cü ildə məktəbimizi Cəlil Məmmədquluzadə ("Molla Nəsrəddin") ziyarət etmiş və biz ona Sabirin "Oxutmuram, əl çəkin", "Əkinçi", "Xan və dehqan" və s. şeirlərini, həmçinin Abdulla Şaiqin Sabirin ölümünə həsr

etdiyi şeiri oxumuşduq.

Həmin məktəbi bitirən azərbaycanlı qızların demək olar ki, hamısı müəllim və mütəxəssis olmuşlar. Nabat xanım Nərimanova, Şəhrəbanu xanım Şabanova, Cənnət xanım Muxranskaya, Sofya xanım Axundova əvvəl müəllim, sonra isə təhsillərini davam etdirib həkim, Xavər Qarayeva, Firəngiz Novruzova, Ümnisə xanım Musabəyova həkim, Reyhan xanım Axundova rəssam olmuşlar və i.a. Novruzovadan başqa adı çəkilən şəxslərin hamısı kasıb ailələrdən idi və Tağıyevin hesabına oxuyurdular. Yadımdadır ki, orada çoxlu müəllim uşaqları və yetimlər oxuyurdu. Məsələn, mənim atam müəllim idi və buna görə mən təhsil haqqından azad idim.

Əlavə: Mən oxuyan vaxtı məktəbdə Asya, Məryəm və Simuzər Nərimanovlar təhsil alırdılar, Nabat xanım Nərimanova isə burada dərs deyirdi.

ARDƏİA: f. 675, siy. 2, s. v. 103, vv. 21-25.

№ 127
"Azərnəşr"in Azərbaycan ədəbiyyatı şöbəsinin redaktoru, Poluxin küçəsi, dalan 3, ev 7 ünvanında yaşayan T. Həşimovanın xatirələri

Uşaqlıq xatirələrim mənim üçün ən əzizdir. Dördsinifli məktəbi bitirdikdən sonra mən 1910-cu ildə Hacı Zeynal Abdin Tağıyevin məktəbinə daxil oldum. İndiyədək həmin məktəbdə keçirdiyim illəri unuda bilmirəm. Məktəbimiz çox gözəl idi. İşıqlı, böyük siniflər, geniş dəhlizlər, böyük həyat, ətrafda hər şey göz oxşayırdı. Mən həmişə məktəbdən evə təəssüf hissi ilə qayıdırdım. Burada gözəl, həssas kollektiv, diqqətli müəllimlər var idi, qayda-qanun və sakitlik hökm sürürdü.

Şagirdlərin əksəriyyəti, yeddi-səkkiz nəfər istisna olmaqla, pansioner qızlar idi. İmkansız qızlar Hacının vəsaiti hesabına oxuyurdular. Şagirdlərin şəraiti həqiqətən də çox yaxşı idi. Onlar böyük yataq otaqlarında, yumşaq döşəklər üstündə yatırdılar. Ətraf təmizlik saçırdı.

Böyük tənəffüs vaxtı biz də, pansioner qızlar kimi, ikinci mərtəbəyə yeməkxanaya qalxırdıq. Masaların üstünə salınmış bəmbəyaz süfrələrin üzərində çörək qoyulmuşdu. Masaların qarşısında yuxarı siniflərin şagirdləri növbətçilik edirdilər. Yemək həmişə dadlı və yaxşı idi. Hacı Zeynal Abdinin həyat yoldaşı Sona xanım tez-tez məktəbdə olur, bizə şirniyyat və meyvə gətirirdi.

Məktəbdə böyük zal və yaxşı səhnəsi olan teatr zalı var idi. Biz öz qüvvəmiz hesabına çoxlu tamaşalar qoyurduq. 1917-ci ildə Üzeyir Hacıbəyovun "Arşın mal alan" tamaşası göstərildi. Biz Sabirin ən məşhur şeirlərini, məsələn,

"Oxutmuram, əl çəkin", "Xan dostu amandı, qoyma gəldi"ni səhnələşdirirdik. Bu tamaşaların o dövr üçün böyük əhəmiyyəti var idi.

Bizim məktəbimiz qapalı idi və oraya yalnız qadınlar gələ bilərdi. Kişi rollarını qızlar oynayırdı, bu da məktəb tamaşalarına çadralı qadınların gəlməsinə imkan verirdi. Bununla da müsəlman qadınlar gördüklərini öz qohumları, tanışları arasında yayır və nəticədə məktəbdə təhsil alanların sayı çoxalırdı. Bayramlarda əl işlərindən ibarət sərgilər təşkil olunur, buraya şagirdlərin anaları, qohumları və yaxınları dəvət edilir, onlar üçün süfrə açılırdı. Bu yolla məktəbin şöhrəti yayılırdı. Qızların əl qabiliyyəti və tərbiyəsi dillər əzbərinə çevrilmişdi.

Məktəbdə qoyulan qaydalar çox yaxşı idi. Şagirdlər tərbiyəçilərin göstərişlərinə çox ciddi riayət edirdilər.

Mən oxuduğum vaxtı məktəbin müdirəsi Ədilə xanım Şahtaxtinskaya idi, ondan sonra Petroqradda fizika-riyaziyyat və pedaqoji fakültələrini bitirən Səlimə xanım Yaqubova oldu. O, çox ağıllı və ciddi qadın idi. S. Yaqubova həmçinin məktəb nəzdində fəaliyyət göstərən ikiillik pedaqoji kurslara rəhbərlik edirdi. Digər fənlərlə yanaşı bizə rus, Azərbaycan dillərinin, hesabın metodikası keçilirdi.

Rus dilinin metodikasını Mariinski gimnaziyasının müəlliməsi Filisita Stepanovna Kopılova, Azərbaycan dilini isə Süleyman bəy Əbdurəhmanov tədris edirdi. O, bizim ilk kişi müəllimimiz idi. Azərbaycan dilini yaxşı bildiyim üçün ona borcluyam. Fizikanı, riyaziyyatı, pedaqogikanı bizə direktorumuz Səlimə xanım Yaqubova keçirdi.

Məktəbimizin zəngin kitabxanası xüsusi diqqətə layiq idi. Burada rus və xarici klassiklərin - Puşkin, Lermontov, Turgenev, Tolstoy, Şekspir, Bayron, Şiller, Molyer və başqalarının əsərləri toplanmışdır. Kitabxanamızda digər elmi vəsaitlər, heyvanların şəkilləri, müxtəlif coğrafi, zooloji, anatomik atlaslar, müqəvva və quşlar var idi. Bunların hamısı Hacının səyləri nəticəsində toplanılmış və onun iştirakı ilə əldə olunmuşdu. Hacı tez-tez məktəbə gələr və nəsihətlə bizə deyərdi: "Oxuyun, qızlarım, xalqa savadlı analar lazımdır".

Bu qədər vaxt keçəndən sonra Hacı Zeynal Abdin Tağıyevin öz xalqını necə çox istəməsi, onun maarifpərvərliyi, uzaqgörənliyi indi daha aydın hiss olunur. Həqiqətən də o, şərəfə layiq idi. Özü savadsız olsa da, xalqının maariflənməsi və xüsusən də, qadın maarifi üçün çox zəhmət çəkib. Çarizm dövründə qız məktəbinin açılması, habelə ana dilinin tədrisi böyük çətinliklər hesabına başa gəlirdi. Bunların hamısı onun uzaqgörənliyini və ləyaqətini sübut edir. O, demək olar ki, ziyalı qadın kadrlarının yaradıcısı idi.

ARDƏİA: f. 675, siy. 2, s. v. 103, vv. 37-40.

№ 128
Mirzə Şəfi küçəsində yaşayan Gövhər Usubovanın xatirələri

Mən, Gövhər İsmayıl qızı Usubova Qazax rayonu Salahlı kəndində anadan olmuşam. Ata-anamı çox erkən itirmişəm. Yeddi yaşınadək dayımın himayəsində olmuşam, sonra isə o, məni Hacı Zeynal Abdin Tağıyevin məktəbinə yazdırdı. Mən Hacının vəsaiti hesabına oxuyurdum. Mənim kimi pulsuz oxuyan qızların sayı çox idi. Hətta böyük bacım da bu məktəbdə pulsuz təhsil alırdı. O vaxt yaşım az olsa da, rəfiqələrimin öz ailə vəziyyətləri haqqında söhbətlərindən aydın olurdu ki, məktəbə ən kasıb ailələrin uşaqları qəbul edilmişdi.

Məktəbdə uşaqlara böyük qayğı göstərilirdi. Bu pansionda hər cür şərait yaradılmışdı. Məktəbin binasında hal-hazırda Azərbaycan SSR-in Ali Soveti yerləşir. Həmin binanın qarşısından keçəndə, mən məktəb illərini xatırlayıram. Birinci mərtəbədə siniflər, ikinci mərtəbədə isə yataq, yemək otaqları və zal yerləşirdi.

Bizə dərs deyən müəllimlərin çoxu hal-hazırda yaşayır və xalqın xeyrinə işlər görürlər: Səriyyə xanım Əhmədova Əzizbəyov adına xəstəxanada [146] həkim işləyir; Səlimə xanım Yaqubova və Xədicə xanım Ağayeva təqaüd alırlar; Şəhrəbanu xanım Şabanova (Xasməmmədova) həkimdir; Heydərova müəllimədir; Ədilə xanım Şahtaxtinskaya vəfat edib; Nabat xanım Nərimanova həkim işləyir. Bu müəllimlər mənə dərs deyiblər.

Mən oxuyan dövrdə məktəbin müdiri Gülbahar xanım Axrıyeva idi. Nizam-intizam çox ciddi idi. Biz rus və Azərbaycan dillərində təhsil alırdıq. Məktəbin hər sinfinin öz rəhbəri var idi. Bizi gündə dörd dəfə yedizdirirdilər. Yaxşı yadımdadır ki, 1-ci və 2-ci sinif şagirdlərinə səhər yeməyindən əvvəl balıq piyi verirdilər, bu da onların qüvvələrini və sağlamlığını möhkəmləndirirdi. Hər həftə bizi hamama aparırdılar. Hamam məktəbin binasında idi. Əgər qızlar xidməti personaldan kiminləsə məktəbdən çıxırdılarsa, onda çadra geyinmirdilər. Bizim iki formamız var idi - biri gündəlik, digəri isə təntənəli mərasimlər üçün nəzərdə tutulurdu. Bayramlarda biz qonşuluqdakı rus məktəbində oxuyan qızları qonaq çağırırdıq. Məktəbimizin yaşda böyük qızları Hacının evində qonaq olur, kiçikyaşlılara isə Sona xanım müxtəlif şirniyyat və tortlar göndərirdi. Uşaqları əyləndirmək üçün hər cümə günü konsert təşkil olunurdu. Şagirdlərimiz "Arşın mal alan" pyesini səhnələşdirəndə, mən hələ uşaq idim. Arşın malçı rolunu Reyhan xanım Axundova oynayırdı (hazırda professor Topçubaşovun həyat yoldaşı). Yaxşı yadımdadır ki, Reyhan xanım Axundova da Hacının hesabına oxumuş, onun bibisi Sakinə xanım isə bizə şəriətdən dərs deyirdi.

Məktəbimizin gözəl səhnəsi var idi. Burada şagirdlər daha çox Sabirin "Oxutmuram, əl çəkin" şeirini səhnələşdirirdilər. Bir dəfə mən, balaca olmağıma baxmayaraq, "Bir əmma" şeirini ifa etdim. Hacı məni səhnədən qucağına aldı, qucaqladı və başımı sığalladı.

Xatirələrimi təsdiqləyərək deməliyəm ki, mən 1914-cü ildə məktəbə daxil olmuş, 1917-ci ilədək orada oxumuşam. Təhsil aldığım dövrdə məktəb mənim üçün tərbiyə aldığım və çox şey öyrəndiyim ana qucağı kimi idi.

10. VII. 1956.

ARDƏİA: f. 675, siy. 2, s. v. 98, vv. 9-11.

№ 129
Poluxin küçəsi, ev 73 ünvanında yaşayan Hüseyn Təhməzovun xatirələrindən

...Novruz bayramı günündə camaat Hacının xahişi ilə şəhər idarəsinin (indiki Bakı Sovetinin [147]) binasında toplaşdı. Mən də getdim. Müxtəlif təbəqədən olan 500-dək insan - mollalar, axundlar və digər sadə adamlar buraya toplaşmışdı. Hacı onlara müraciət edərək dedi: "Mən məktəb açdırmışam, Siz niyə qızlarınızı oraya göndərmirsiniz, niyə onlara oxumağa imkan vermirsiniz?" Bunu deyərək, Hacı ağladı. "Qızlarınızı oxutdurun, niyə onları oxutdurmursunuz? Bir baxın: oxuyan qızlar içərisində bakılı uşaqlar yoxdur. Qızlarınızı oxutdurdun. Onlar gələcəkdə ana olacaqlar və öz övladlarını tərbiyə etməyi bacarmalıdırlar. Cahil ananın böyütdüyü övlad necə olar?" Xalqın geriliyini görən Hacı ağladı: "Siz nə vaxt şüurlu olacaqsınız?" Sonra Hacı xahiş etdi ki, camaat nümayəndələr seçib, onları məktəbin vəziyyətini öyrənməyə göndərsin. Lakin hər şey əbəs idi. "Mollaların səfeh çıxışlarına qulaq asmayın, onlar Sizin inkişafınızı ləngidirlər. Baxın, məktəbdə hamı qadınlardır, yalnız bir nəfər 70 yaşlı kişidir, o da qarovulçu işləyir. Məktəbdə qızlar və qadınlar dərs deyir".

...Hacını mən bu cür xatırlayıram.

28. X. 1956.

ARDƏİA: f. 675, siy. 2, s. v. 105, vv. 51-52.

№ 130
Azərbaycan Dövlət Universitetinin [148] **baş müəllimi, Şamaxı şəhərində anadan olan, 1906-cı il sentyabrın 18-dən 50 il ərzində fasiləsiz ibtidai, orta və ali məktəblərdə işləyən Əliməmməd Mustafayevin xatirələrindən**

...Bakı şəhərində açılan ilk qız məktəbi Hacı Zeynal Abdinin məktəbi idi. Bu məktəb "Aleksandrinski müsəlman qız məktəbi" adlanırdı.

Məktəbin Kommunist küçəsindəki gözəl binasında hal-hazırda Ali Sovet yerləşir.

Bu məktəbi bitirən qızların ibtidai məktəblərdə dərs demək hüququ var idi. Oxuyan qızların çoxu Azərbaycanın rayonlarından - Nuxa, Şamaxı, Lənkəran, Salyan, Qubadan idilər. Məktəbin müdirəsi Məryəm xanım Sulkeviç idi. Onun ali təhsili vardı.

Oxuyan qızlar müasir məktəbli formasını geyinirdilər. Bütün xərcləri Hacı ödəyirdi. Məktəbin yaxşı sinifləri, müəllimlər otağı, yataq otağı var idi. Bir sözlə, bu böyük binada yalnız bir məktəb yerləşirdi.

Buranı bitirən qızların bəziləri hal-hazırda Bakı şəhərində yaşayırlar. Məşhur müəllim Həbib bəy Mahmudbəyovun qızı mənim xalamın nəvəsidir, o da bu məktəbdə oxuyurdu. Atasının yazılı zəmanəti ilə mən, cümə axşamı günlərində qızın dalınca gələrək, onu evə aparırdım. Novruz bayramında məktəbdə təntənəli mərasimlər keçirilərdi. Həmin günlərdə rus-tatar məktəblərində işləyən bütün müəllimlər, ziyalılar buraya gələr, qızların gözəl çıxışlarına tamaşa edərdilər. Məktəbin müfəttişi Soltan Məcid Qəniyev bu mərasimlərin daimi iştirakçısı idi. Çıxışlardan sonra qonaqları şirniyyat masasına dəvət edirdilər. Tədbir məktəb müdirəsinin nitqi ilə başa çatırdı.

Mənim qısa təsvirimdən bu məktəbin necə böyük rol oynadığını görmək olar. Hacını oradakı çıxışlarından birini misal gətirmək istərdim: "Bizə savadlı analar lazımdır". Bu məktəbə qarşı mollalar və qaragüruhçular tərəfindən çoxlu təpgilər olurdu. Lakin məktəb onlara fikir vermir və öz fəaliyyətini davam etdirirdi. O, nümunəvi məktəb olmuş və çoxlu müəllimələr hazırlamışdı.

8. X. 1956.

ARDƏİA: f. 675, siy. 2, s. v. 105, vv. 42-43.

№ 131
Qori seminariyasının məzunu, qocaman müəllim, tibb elmləri namizədi Səməd Acalovun xatirələri

Mən 1898-ci ildən 1903-cü ilədək Dərbənd şəhər məktəbində müəllim işləyərkən, Bakı varlısı Hacı Zeynal Abdin Tağıyev haqqında müsəlmanların, xüsusən də, onların uşaqlarının maarifi üçün xeyli iş görmüş insan kimi çox eşitmişəm. Belə ki, o, uşaqlar üçün məktəblərin açılmasına həm mənəvi, həm də maddi köməklik göstərmiş, Rusiyanın və hətta xarici ölkələrin ali məktəblərində təhsillərini davam etdirməyə imkanı olmayan müsəlman gənclərinə təqaüdlər təsis etmiş, kənd və özəl cəmiyyətlər tərəfindən Azərbaycanın şəhər və kəndlərində açılan məktəblərə mənəvi yardım göstərmişdir.

Onun ilk müsəlman qız məktəbini (internatla birgə) açdırması mənə bir pedaqoq kimi xüsusən xoş idi. O, məktəbin bütün xərclərini üzərinə götürərək bu məqsədlə Bakının mərkəzi küçəsində yaraşıqlı bina tikdirmiş və məktəbin saxlanılması üçün xəzinəyə böyük məbləğdə toxunulmaz kapital qoymuşdur. Sadə, təhsil görməmiş insan tərəfindən bu cür səxavət daxilimdə ona qarşı dərin ehtiram hissini oyatdı. Lakin sonra, daha dəqiq desəm, 1908-ci ildə mən altısinifli məktəbdə müəllim işləmək məqsədi ilə Bakıya köçəndə, onun öz xalqının maarifi üçün nə qədər çalışdığının, nə qədər böyük işlər gördüyünün, müsəlmanların maariflənməsini, məktəbi, uşaqları necə çox istədiyinin əyani şahidi oldum. Sonrakı illərdə Xalq Məktəblərinin Müdiriyyəti onun məktəbində buraxılış imtahanlarını aparmağı bizim məktəbə həvalə etmişdi. Bu milyonçunun səbrlə bizi gözləməyini, imtahanlarda həmişə iştirak etdiyini və qızların cavablarından necə sevindiyini görmək xoş idi. Mən iki il dalbadal imtahan komissiyasının üzvü idim və ona görə də, bütün bunların şahidi olmuşam...

Ümumiyyətlə, H. Z. A. Tağıyev mənim təsəvvürümdə sadə, öz xalqına, onun maariflənməsinə, səadətinə təmənnasız və səmimi xidməti etməyi qarşısına məqsəd qoymuş bir insandır.

12. VII. 1957.

ARDƏİA: f. 675, siy. 2, s. v. 98, vv. 7-8.

№ 132
Sara xanım Tağıyeva-Sarayevanın Sov.İKP-nin XXII qurultayına [149] **məktubundan**
1961-ci il

...1901-ci ildə H. Z. A. Tağıyev tərəfindən əsası qoyulan qız məktəbi tarixşünaslıqda guya H. Məlikovun təşəbbüsü ilə təsis olunan məktəb kimi təqdim edilir (səh. 337). Milli xadimlərdən birinin adı digəri ilə əvəz olunur [150]...

H. Z. A. Tağıyevin qız məktəbinin açılması kimi tarixi hadisənin əhəmiyyətini ört-basdır etməklə yanaşı, tarixi gerçəklik, Azərbaycan xalqının tarixi inkişafı nəzərə alınmır və rus qız məktəbləri Azərbaycanda ilk qadın tədris müəssisələri kimi qələmə verilir. Halbuki, statistika azərbaycanlıların keçmişdə öz qızlarını rus məktəblərinə göndərmədiyini təsdiqləyir. H. Z. A. Tağıyevin Azərbaycan xalqına savadlı ana bəxş etməsi, ilk ziyalı qadın kadrlarını formalaşdırması, habelə Azərbaycanın müsəlman qadın təhsilinin istinad məntəqəsi və təkanvericisi olması faktına kölgə salınır...

ARDƏİA: f. 675, siy. 2, s. v. 114, vv. 6-7.

ŞƏRHLƏR

1. *Xalq Məktəbləri Müdiriyyəti* – 1874-cü ildən Rusiyada mövcud olan tədris-inzibati orqan. Bakı quberniyası və Dağıstan vilayətinin Xalq Məktəbləri Müdiriyyəti 1876-cı ildə təsis olunub. Onun tabeçiliyinə gimnaziyalar, şəhər məktəbləri, ikisinifli və birsinifli məktəblər, habelə özəl təhsil müəssisələri daxil idi. Xalq məktəblərinin müdiri Qafqaz Tədris Dairəsinin hamisinə tabe idi. Hər qəzada müdirə tabe olan xalq məktəblərinin müfəttişi vəzifəsi mövcud idi. Bakı quberniyası və Dağıstan vilayətinin Xalq Məktəbləri Müdiriyyəti 1918-ci ilin may ayında Bakı Xalq Komissarları Sovetinin qərarı ilə ləğv edilib.
2. *Aleksandr Semyonoviç Txorjevski* (?-?) – 1894-1914-cü illərdə Bakı quberniyası və Dağıstan vilayətinin Xalq Məktəbləri Müdiriyyətinə başçılıq edib. Təhsilin inkişafında, məktəb şəbəkəsinin genişlənməsində böyük xidmətləri olub. 1914-cü ilin əvvəlində Bakı şəhər idarəsi şəhərin beş məktəbində onun adına təqaüdlər təsis etmişdir.
3. *Tədris Dairəsi* – Rusiya imperiyasında inzibati tədris vahidi. XX əsrin əvvəllərində Rusiyada 12 dairə mövcud idi. Qafqaz Tədris Dairəsi 1848-ci il dekabrın 8-də yaradılmış, 1860-cı ildə isə ləğv edilmişdi. 1867-ci ildə bərpa edilmişdi. Dairənin mərkəzi Stavropolda yerləşirdi. Tədris Dairəsinə hami başçılıq ediridi; ona Hamilər Şurası, dairə müfəttişləri, quberniya Xalq Məktəbləri Müdiriyyətləri, quberniya və qəza məktəb şuraları tabe idi. Hamilərin vəzifələrinə Xalq Maarif Nazirliyinin tabeliyində olan tədris müəssisələrinin fəaliyyətinə nəzarət daxil idi.
4. *İmperator Həzrətlərinin tacqoyması* – sonuncu Rusiya imperatoru II Nikolayın (1894-1917) və onun həyat yoldaşı İmperatriçə Aleksandra Fyodorovnanın taxta çıxma mərasimi.
5. *Birsinifli və ikisinifli məktəblər* – Rusiya imperiyasında ibtidai məktəb növlərindən biri. Birsinifli məktəblərdə təhsil müddəti üç, ikisinifli məktəblərdə isə beş il təşkil edirdi.
6. Analoji məktubla A. Txorjevski bəzi Bakı neft sahibkarlarına müraciət etmişdi. Onlara öz vəsaitlərinə yeni tədris müəssisələri açmaq, tələbələr üçün təqaüdlər təsis etmək, məktəb binalarının tikintisi üçün kənd cəmiyyətlərinə yardım göstərmək təklif olunurdu. Buna cavab olaraq, Nobellər onların vəsaiti ilə fəaliyyət göstərən Qara şəhərdəki məktəbdə 50 nəfərlik paralel sinif və qızlar üçün əl işi kursları açdılar; A. Benkendorf Balaxanı neft mədənlərində ibtidai məktəb təşkil etdi.

7. *Tacir gildiyaları* – 1876-cı ildə Rusiyada tətbiq olunmuşdur. Birinci gildiya tacirləri bütün Rusiya ərazisində yerli və xarici mallarla topdansatış, şəhadətnamə aldıqları qəzaların şəhər və kəndlərində pərakəndə əməliyyatlar aparmaq, fabriklər və zavodlar açmaq hüququna malik idilər. İkinci gildiya tacirləri şəhadətnamə aldıqları qəzaların şəhər və kəndlərində pərakəndə ticarəti apara, fabriklər və zavodlar aça bilərdilər. 1877-ci ildə H. Z. A. Tağıyev ikinci, 1882-ci ildə isə birinci gildiya taciri rütbəsini almışdı. XIX əsrin 80-ci illərində H. Z. A. Tağıyevin ticarət əməliyyatlarının dövriyyəsi 3 mın. rubl idisə, 1897-ci ildə bu rəqəm 4,9 mln. Rubla çatmışdı.
8. *Kiril Petroviç Yanovski* (1822-1902) – pedaqoq, Rusiya imperiyasının ictimai və dövlət xadimi. Qafqaza gəlməzdən əvvəl Sankt-Peterburq Tədris Dairəsi hamisinin köməkçisi işləmişdir. 1878-ci ildə K. Yanovski Qafqaz Tədris Dairəsinin hamisi vəzifəsinə təyin olunmuşdur. Onun dairəyə rəhbərlik etdiyi 22 il ərzində Qafqazda təhsilin inkişafında böyük inkişaf müşahidə olunmuş, orta və ibtidai təhsil müəssisələrinin sayı çoxalımış, müəllimlər seminariyalarının sayı iki dəfə artmışdır. 1900-cü ildə K. Yanovski Dövlət Şurasının üzvü təyin olunmuşdur. Onun rəhbərliyi altında Qafqazın təbiətinin, coğrafiyasının, etnoqrafiyasının, linqvistikasının və arxeologiyasının tədqiqinə həsr olunmuş 20 cildlik "Qafqazın yerlərinin və tayfalarının təsviri üçün materiallar toplusu" çap edilmişdir.
9. *Aleksandra Fyodorovna* (1872-1918) – Rusiya imperatriçəsi, İmperator II Nikolayın həyat yoldaşı. İmperatriçə xeyriyyəçiliklə məşğul olmuş, 33 cəmiyyətə, şəfqət bacılarının icmalarına, uşaq evlərinə himayədarlıq etmişdir. Birinci Dünya müharibəsi dövründə qızları ilə bərabər Tsarskoselski hospitalında şəfqət bacısı işləmiş, ən çətin əməliyyatlarda iştirak etmişdir; yaralı əsgərlər üçün ianə toplamaqla məşğul olmuşdur.
10. Sənəddə həmin illərdə çox nadir hallarda işlənən "Azərbaycan dili" terminə rast gəlinir. Adətən rusdilli rəsmi sənədlərdə azərbaycanlıların doğma dilinin mənşəyini və daxili strukturunu tamamilə əks etdirməyən "tatar dili" termini istifadə olunurdu.
11. *Şəhər başçısı* – şəhər dumasının və şəhər idarəsinin sədri.
12. *Qazı* – müsəlman ölkələrində şəriət qanunları ilə mühakimə etmək hüququna malik hakim və ya dövlət məmuru.
13. *Mariinski qadın gimnaziyası* – Azərbaycanda ilk qadın orta məktəbi. 1874-cü ildə yaradılmışdır. 1883-cü ildən Mariinski adını almışdır. H. Z. A. Tağıyev 1880-ci ildən gimnaziyanın fəxri hamisi idi və bu vəzifədə uğurlu işinə görə 1889-cu ildə üzərində "Səyinə görə" yazısı olan və

Stanislav lentində boyundan asılan qızıl medalla təltif olunmuşdu.

14. *Bakı şəhər duması* – Bakı şəhər bələdiyyə idarəsinin sərəncamverici orqanı. 1878-ci ildə yaradılmışdır. Sırf təsərrüfat məsələləri ilə məşğul olurdu. İri sahibkarlar, tacirlər (H. Z. A. Tağıyev, Musa Nağıyev, İsa bəy Hacınski və b.), habelə Azərbaycanın tərəqqipərvər ziyalılarından Həsən bəy Zərdabi, Həbib bəy Mahmudbəyov və başqaları dumanın üzvləri olmuşlar.
15. Məktubun bu hissəsində H. Z. A. Tağıyev islam ehkamlarına qarşı olduqca sərt mülahizə irəli sürür. Bununla belə, burada bildirilən fikirlər, habelə qız məktəbinin açılması üçün onun sonrakı fəaliyyəti sübut edir ki, H. Z. A. Tağıyev islam dininin özünü deyil, məhz "uydurma dini adət-ənənələri" qadın təhsili üçün maneə saymışdır. H. Z. A. Tağıyev N. Sultan Krım Gəraya ünvanladığı məktubda xüsusi vurgulayırdı ki, islam dini təhsilin və maarifin tərəfdarı kimi çıxış edir: "Mən həmişə düşünmüşəm və indi də öz dəyişilməz fikrimdə qəti dururam ki, diyarımızın yalnız təhsilli və ciddi şəkildə maariflənmiş müsəlman anaları bizim müsəlmanları nadanlıq və gerilik azarından xilas edə bilərlər. Mənim bu əminliyim islamın və onun Böyük Müəlliminin əsl ruhu ilə tam üst-üstə düşür" (ətraflı bax: sənəd № 59).
16. *Bakı şəhər idarəsi* – 1877-ci ildə təsis edilən Bakı şəhərinin yerli idarəetmə orqanı. İcra orqanı olan idarəyə bilavasitə şəhər təsərrüfatı məsələləri ilə məşğul olmaq həvalə edilmişdi. Şəhər başçısı onun sədri, dumanın deputatları isə üzvləri idi.
17. *Mixail Romuleviç Zavadski* (?-?) – Qafqaz Tədris Dairəsinin dairə müfəttişi. 1901-ci ildə Dairə hamisi vəzifəsində K. Yanovskini əvəz etmişdir.
18. Azərbaycanlıların.
19. *İmperator II Nikolayın və İmperatriçə Aleksandra Fyodorovnanın tacqoyma mərasimi* 14 (26) may 1896-cı il tarixində baş vermişdir.
20. Layihənin müəllifini və dəqiq tərtib edilmə vaxtını müəyyənləşdirmək mümkün olmamışdı. Lakin tam əminliklə demək olar ki, H. Z. A. Tağıyev onun müəllifi deyildi. Layihədən görünür ki, qız məktəbi inzibati qurumlardan, o cümlədən, Bakı şəhərinin hakimiyyət orqanlarından və İmperator dəftərxanasından tam asılı bir tədris müəssisəsi kimi nəzərdə tutulurdu. Hamilər Şurası şəhər başçısının və dumanın nəzarəti altında idi. Məktəb o dərəcədə asılı vəziyyətdə idi ki, hətta Hamilər Şurasının sədri və məktəbin müdirəsi İmperatriçə tərəfindən təyin olunurdular. H. Z. A. Tağıyevə Hamilər Şurasının sıravi üzvü rolu ayrılmışdı. Məktəb

daha çox inzibati idarəyə bənzəyirdi ki, onun işçiləri mundirlə təmin olunur və onların xidməti dərəcələri artırıla bilərdi. Arxiv sənədlərində bu layihə ilə bağlı heç bir qeydə və istinada rast gəlinməmişdir. Buna görə yəqin etmək olar ki, layihə H. Z. A. Tağıyev tərəfindən bəyənilməmiş və Rusiyanın Xalq Maarif Nazirliyində geniş müzakirə olunmamışdı.

21. *İmperatriçə Mariyanın müəssisələri* – I Pavelin dul xanımı – İmperatriçə Mariya Fyodorovnanın himayəsi altında olan xeyriyyə və tədris müəssisələri. İmperatriçə Mariyanın müəssisələri üzrə İmperator Həzrətləri Dəftərxanasının nəzdində fəaliyyət göstərirdilər.
22. Məktəb nəzdindəki pansionda qalan şagirdlərdən fərqli olaraq, daimi qalmayan qızlar burada yaşamırıdılar.
23. *Qafqazda mülki hissə üzrə Baş rəis* – 1883-cü ildə canişinliyin ləğvindən sonra təsis olunan vəzifə.
24. *Məmmədağa Şahtaxtinski* (1846–1931) – publisist, maarifçi, pedaqoq və ictimai xadim. Ali təhsilini Leypsiq Universitetində almışdır. 1898-ci ildə Azərbaycanda dilində "Tiflis" adlı qəzet çıxarmağa çalışmış, lakin çar senzurası buna icazə vermədiyi üçün Avropaya getmiş və 1902-ci ilədək Parisdə Şərq dillərindən dərs demişdir. Avropadan qayıtdıqdan sonra M. Şahtaxtinski 1903-cü ildən Tiflisdə Azərbaycan ictimai fikir və mətbuatı tarixində əhəmiyyətli rol oynamış "Şərqi-Rus" qəzetinin nəşrinə başlamışdı.
25. *Müqəddəs Vladimir ordeni* – Rusiya imperiyasında hərbi işdə fərqlənməyə və mülki xidmətlərə görə verilən orden. H. Z. A. Tağıyev bu ordenlə ona görə təltif olunmamışdı ki, 1898-ci ildə hökumət ali təltiflər üçün vəsatət qaldırılması şərtlərində yeni qaydalar tətbiq etdi. Zadəgan zümrəsindən olmayanlar (H. Z. A. Tağıyev kəndli təbəqəsindən idi, nəsli zadəgan adını isə yalnız 1910-cu ildə almışdı) Müqəddəs Vladimir ordeni ilə təltif olunmaqdan ötrü xidməti vəzifələrdə ən azı 20 il qulluq etməli idilər. 28 may 1900-cü il fərmanına əsasən ordenin 4-cü dərəcəsi ilə təltif olunan şəxs yalnız şəxsi zadəganlıq hüquqlarını alırdı. Bu onunla əlaqədar idi ki, ordenin 4-cü dərəcəsi kütləvi şəkildə xeyriyyəçiliyə görə verilir və tacirlərlə sənayeçilər onu almaq imkanına malik idilər.
26. *"Kaspi"* – 1881-ci ildən 1919-cu ilədək Bakıda rus dilində nəşr olunan ictimai-siyasi, ədəbi qəzet. 1897-ci ildə H. Z. A. Tağıyev "Kaspi"nin sahibi olmuş, qəzetin redaktorluğunu Ə. Topçubaşova həvalə etmişdir. Məhz H. Z. A. Tağıyevin və Ə. Topçubaşovun səyləri nəticəsində milli ziyalıların qəzetin ətrafına toplaşması "Kaspi"ni mütərəqqi mətbuat orqanına, Azərbaycan cəmiyyətində gedən proseslərin başlıca müzakirə

mərkəzlərindən birinə çevirdi.

27. *"H. Z. A. Tağıyev və oğulları" ticarət evi* – 1880-ci illərdə yaradılıb. Neft biznesi Tağıyevə böyük mənfəət gətirməyə başlayandan sonra o, öz ticarət fəaliyyətini genişləndirdi. 1878-ci ildə o, kapitalın bir hissəsini Bakıdakı "Sarkisov qardaşları" ticarət evinə yatırmış və sonuncu bu vaxtdan etibarən "H. Z. A. Tağıyev və Sarkisov qardaşları" ticarət evi adlanmağa başlamışdı. 80-ci illərin ortalarında Tağıyev Sarkisov qardaşlarından ayrılır və özünün müstəqil ticarət evini yaradır.
28. *Konstantin Aleksandroviç İretski* (?-?) – Bakı şəhər dumasının üzvü. Müxtəlif illərdə dumaya başçılıq etmiş, müəyyən müddət H. Z. A. Tağıyevin işlər müdiri olmuşdur. Mariinski gimnaziyasının Hamilər Şurasının üzvü idi.
29. *İvan Davıdoviç Delyanov* (1818-1897) – qraf, dövlət xadimi. Müxtəlif illərdə Rusiya imperiyasının təhsil sistemində rəhbər vəzifələrdə çalışıb, İmperator Kütləvi Kitabxanasına başçılıq edib. 1882-1897-ci illərdə Xalq Maarif naziri olub.
30. *Qafqaz Tədris Dairəsinin ibtidai məktəbləri haqqında 25 iyun 1867-ci il tarixli Əsasnamə* - 1864-cü ildə təsdiq olunan Ümumrusiya ibtidai məktəblər haqqında Əsasnaməyə uyğun tərtib edilmişdi. İctimai təşkilatlara və ayrı-ayrı şəxslərə müvafiq razılıq aldıqdan sonra məktəblər açmaq hüququnu verirdi.
31. *Progimnaziya* – Rusiya imperiyasında gimnaziyanın aşağı siniflərinin proqramına uyğun ümumtəhsil müəssisəsi. Progimnaziyada gimnaziyanın dörd aşağı sinfinin proqramına müvafiq dörd sinif var idi. Progimnaziyalar ibtidai məktəb müəllimi adını almaq üçün imtahanlar keçirmək hüququna malik idilər.
32. Məktub 1898-ci ilin mayında məktəb nizamnaməsinin təsdiqindən əvvəl yazılıb. Mətndə təsdiq olunmuş nizamnamədən danışılsa da, söhbət, çox güman ki, layihədən gedir. Bunu həmçinin A. S. Txorjevskinin K. P. Yanovskiyə məktubu (sənəd № 14) təsdiq edir. Burada da nizamnamənin son variantı deyil, layihə xatırlanır.
33. Nizmamnamə 1898-ci il mayın 16-da Rusiya imperiyası Xalq Maarif Nazirliyinin işlər müdiri N. P. Boqolepov tərəfindən təsdiq edilib.
34. *Nikolay Pavloviç Boqolepov* (1847-1901) – alim və dövlət xadimi. Moskva Universitetinin rektoru, sonra isə Moskva Tədris Dairəsinin hamisi olmuşdur. Xalq Maarif naziri İ. Delyanovun ölümündən sonra nazirliyin işlər müdiri, 1898-ci ildən ömrünün sonunadək isə nazir vəzifəsində çalışmışdır.

35. Bu göstərişə cavab olaraq haminin Dəftərxanasına "Cənab Hacı Zeynal Abdin Tağıyevin xalq təhsilinin ehtiyaclarına etdiyi ianələr haqqında məlumatlar" göndərilmişdi. Təəssüf ki, arxiv işində onlar qalmamışdı.
36. *Həsən bəy Məlikov (Zərdabi)* (1842–1907) – alim, pedaqoq, publisist. Moskva Universitetini elmlər namizədi diplomu ilə bitirən ilk müsəlman. Geniş pedaqoji fəaliyyətlə məşğul olmuş, maarif işinin təşkilində böyük təcrübəyə malik idi. Bakı şəhər dumasının məktəb komissiyasının, Mariinski gimnaziyasının Hamilər Şurasının üzvü idi. 1875-ci il iyulun 22-də "Əkinçi" qəzetini nəşr etdirməklə Azərbaycan mətbuatının əsasını qoymuşdur. H. Zərdabi ilə H. Z. A. Tağıyevin ilk tanışlığı XIX əsrin 80-ci illərinə təsadüf edir. Bu zaman H. Z. A. Tağıyev Təzəpir məscidinin yanındakı evə köçür. Həmin evdə H. Zərdabi də yaşayırdı. Onların tanışlığı sonradan ömürlərinin sonuna qədər davam edən dostluğa çevrilir. H. Zərdabi H. Z. A. Tağıyevin ictimai mövqeyinin formalaşmasına böyük təsir göstərmiş, onun xeyriyyəçilik və maarifçilik fəaliyyətinin müəyyənləşməsində mühüm rol oynamışdır. Belə ki, H. Z. A. Tağıyevin qız məktəbinin layihəsi 1896-cı ildə H. Zərdabinin Bakı qubernatoruna təqdim etdiyi layihə əsasında tərtib olunmuşdu.
37. *Fərrux bəy Vəzirov* (1861-1920) – sahibkar, ictimai xadim. Peterburq Dağ- mədən institutunu bitirərək, diplom almış ilk azərbaycanlı dağ mədən mühəndisi olmuşdur. Bakı şəhər dumasının üzvü idi. Dumada H. Z. A. Tağıyevin Bakıda orta texniki məktəb açmaq təşəbbüsünə fəal dəstək vermişdir. Ehtiyacı olan şagirdlərə kömək göstərilməsi, yeni məktəblətin açılması üzrə xeyriyyə aksiyalarında iştirak etmişdir. Tağıyevin qız məktəbindən başqa, Bakı Kommerisya məktəbinin, Mariinski qadın gimnaziyasının Hamilər Şuralarının üzvü idi.
38. *Əlimərdan bəy Topçubaşov* (1863–1934) – siyasi və dövlət xadimi. Peterburq Universitetinin hüquq fakültəsini bitirmişdir. Bakı şəhər dumasının üzvü, bir müddət onun sədri olmuşdur. Mariinski gimnaziyasının, Kommersiya məktəbinin Hamilər Şuralarının üzvü seçilmişdi. Ə. Topçubaşov Rusiyanın türk-müsəlman xalqlarının milli azadlıq hərəkatının fəal üzvlərindən biri, 1905-ci ildə yaradılan "İttifaqi-müslimin" partiyasının lideri olmuş, Rusiyanın I Dövlət Dumasında müsəlman fraksiyasının sədri seçilmişdi. 1918-1920-ci illərdə Ə. Topçubaşov Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin sədri, Paris sülh konfransında Azərbaycan nümayəndə heyətinin başçısı olmuşdu.
39. Bu məktuba cavab olaraq A. S. Txorjevski 1900-cü il yanvarın 5-də qız məktəbinin Hamilər Şurasının üzvlərinin təsdiq edilməsi xahişi

ilə hamiyə, həmin il fevralın 3-də isə duma üzvləri – H. Zərdabinin, F. Vəzirovun, Ə. Topçubaşovun Hamilər Şurasının tərkibinə daxil edilməsinə etirazın olmaması barədə məlumat vermək xahişi ilə Bakı qubernatoruna müraciət etmişdir. Artıq 1900-cü il martın 13-də A. S. Txorjevski H. Z. A. Tağıyevə məlumat vermişdir ki, Qafqaz Tədris Dairəsinin hamisi Aleksandrinski rus-müsəlman qız məktəbinin Hamilər Şurasının üzvlərini təsdiq etmişdir.

40. *Sona xanım Tağıyeva* (1881-1938) – H. Z. A. Tağıyevin həyat yoldaşı. Rus ordusunun generalı Balakişi bəy Ərəblinskinin kiçik qızı. Bakıdakı Müqəddəs Nina qız məktəbinin məzunu olan Sona xanım Hacının bütün xeyirxah əməllərində onun yaxın silahdaşı olmuş, Tağıyevin qız məktəbində tədris prosesinin təşkilində, şagirdlərin geyimlə təmin olunmasında fəal iştirak etmişdi. Aleksandrinski qız məktəbinin fəxri hamisi seçilmişdi.
41. *Maqdalina Mixaylovna Latkina* (?-?) – pedaqoq, maarif xadimi. Xalq maarifi sahəsində xidmətlərinə görə 1901-ci ildə "Səyinə görə" yazısı olan və Stanislav lentində sinəyə taxılan qızıl medalla təltif olunmuşdu.
42. *Avtonom İvanoviç Pobedonostsev* (?-?) – pedaqoq, maarif xadimi, Bakıda özəl progimnaziyanın təsisçisi (1890-cı il). Həmin progimnaziyanın əsasında 1896-cı ildə Azərbaycanda orta məktəbin başlanğıcını qoymuş İmperator III Aleksandr adına Bakı kişi gimnaziyası yaradılmışdı. Rusiyanın ən iri təhsil müəssisələrindən biri olan həmin gimnaziyada XIX əsrin sonunda 997 şagird təhsil alırdı.
43. *Nikolay fon der Nonne* (1832-?) – memar, mühəndis, ictimai xadim. 1883-1894-cü illərdə Bakı şəhərinin mühəndisi. 1898-1901-ci illərdə şəhər başçısı vəzifəsini tutub. Bakının abadlaşdırılması planlarının hazırlanmasında və şəhərin bəzi hissələrinin tikilməsində böyük xidmətləri olub.
44. *Hacı Molla Cavad Axund Məhəmməd Əlizadə* (1871–1954) – dini və ictimai xadim. Bakı quberniyasının qazısı. 1907-ci ildə "Səadət" müsəlman xeyriyyə cəmiyyətinin yaranmasında iştirak etmiş, sonra bu cəmiyyətin sədri seçilmişdir. 1918-ci ildə A. Əlizadə Qafqaz Müsəlmanları Ruhani İdarəsinin sədri, eyni zamanda, şeyxülislam seçilmişdir.
45. *Bakı ibtidai texniki məktəbi* – 1896-cı ildə təsis olunub. Məktəb Bakının və bütün Qafqaz diyarının sənayesi üçün texniklər və yüksəkixtisaslı ustalar hazırlamaq məqsədilə yaradılmışdı. 1897-ci ildən H. Z. A. Tağıyev məktəbin fəxri hamisi olmuşdu. Bu tədris müəssisəsinin

inkişafında və genişləndirilməsində Hacının böyük xidmətləri, onun orta texniki məktəbə çevrilməsində həlledici rolu vardır. Bu məqsədlə, habelə məktəbdə kimya laboratoriyasının yaradılması üçün H. Z. A. Tağıyev 1904-cü ildə 50 min rubl ianə etmişdir.

Hazırda məktəbin binasında Azərbaycan Dövlət Neft Akademiyası yerləşir.

46. *Nəsli fəxri vətəndaş* – Rusiya imperiyasında imtiyazlı təbəqələrin nümayəndələrinə verilən ad. Bütün fəxri vətəndaşlar əsgər toplanışından, can vergisindən və cismani cəzalardan azad edilir, habelə şəhər özünüidarəsində iştirak edə bilirdilər. 1900-cü ildə İmperator II Nikolay H. Z. A. Tağıyevi nəsli fəxri vətəndaş adı ilə təltif etmişdir.
47. *Nəriman Nərimanov* (1870–1925) – ictimai-siyasi və dövlət xadimi, yazıçı, publisist, həkim. H. Z. A. Tağıyevin maddi köməyi ilə Odessadakı Novorossiya Universitetinin tibb fakültəsini bitirmişdir. Görkəmli xeyriyyəçiyə həsr olunmuş "Hacı Zeynal Abdin Tağıyevin 50 illik məişəti və cəmaətə xidmətləri" kitabının (1900) müəllifidir. 1908-ci ildə universiteti bitirən N. Nərimanov Bakıya gəlmiş və şəhər xəstəxanasında işləmişdir. Bu dövrdə o, həmçinin Tağıyevin qız məktəbində də həkim vəzifəsində çalışmışdır.

    N. Nərimanov bir sıra dram əsərlərinin də müəllifi olmuşdur. Onlardan "Nadir şah" tarixi dramı H. Z. A. Tağıyevin vəsaiti ilə çap edilmiş və onun xahişi ilə fars dilinə tərcümə olunmuşdur.

    1920-ci ildə Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra N. Nərimanov yeni hökumətin başçısı təyin olunmuşdu. Məhz onun səyi nəticəsində H. Z. A. Tağıyev bolşeviklərin təqiblərindən xilas edilmişdi. H. Z. A. Tağıyevin bütün varidatı sovet rejimi tərəfindən müsadirə olunsa da, N. Nərimanov ona və ailəsinə Mərdəkandakı bağ evində qalmağa imkan yaratmışdı.
48. *Sofya Vladimirovna Tağıyeva* – Bakının kübar cəmiyyətində Sona xanım Tağıyevanı belə adlandırırdılar.
49. Buna oxşar elanlar sistematik olaraq "Kaspi"nin səhifələrində dərc edilirdi: mayın 6-sı, 13-ü, 16-sı, 17-si, 23-ü, iyunun 29-u, iyulun 1-i, iyulun 3-7-si, avqustun 28-i, 29-u, sentyabrın 1-i, 2-si, 5-8-i, 11-14-ü, 18-i.
50. *Hənifə Məlikova* (1856-1929) – pedaqoq, Azərbaycanın ilk maarifçi qadınlardan biri, ictimai xadim. Həsən bəy Zərdabinin həyat yoldaşı. 1901-1909-cu illərdə Aleksandrinski rus-müsəlman qız məktəbinin müdirəsi olub. 1909-cu ildə Bakıda açılan birinci rus-tatar (Azərbaycan)

şəhər qız məktəbinin müdirəsi təyin edilmişdi. Ömrünün sonunadək pedaqoji fəaliyyətini davam etdirmiş, Azərbaycan qadınlarının savadlanması üçün iş aparmışdır.

51. *Məryəm Sulkeviç* (?-?) – maarifçi-pedaqoq, ictimai xadim. Aleksandrinski məktəbinin müəlliməsi, sonra isə müdirəsi işləmişdir. Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyətinin üzvü idi.
52. *Səkinə xanım Axundova (Axundzadə)* (1865-1927) – pedaqoq, yazıçı, ilk azərbaycanlı qadın-dramaturq. Tağıyevin qız məktəbində dram dərnəyinin yaradıcısı.
53. *İ. A. de Bay* – fransız arxeoloqu, etnoloqu, antropoloqu. 1901-ci ildə Fransanın Xalq Maarif Nazirliyi tərəfindən elmi məqsədlər üçün Rusiyaya ezam edilmişdir. Həmin ilin avqustun sonunda baron de Bay Bakıda olmuşdur. Səfərinin yekunlarına dair "Tatarlar arasında" broşürünü yazmışdı.
54. *«Обозрение России» ("Rusiyanın icmalı")* – Parisdə fransız dilində nəşr olunan jurnal.
55. *Nikolayevski küçəsi* – sovet dövründə Kommunist, indi İstiqlaliyyət küçəsi.
56. Binanın tikintisinə xərclənən vəsait həddindən artıq şişirdilib. Əslində məktəb binasının inşası H. Z. A. Tağıyevə təqribən 150 min rubla başa gəlmişdir.
57. Nizamnamənin bəndləri sadalanır (bax: sənəd № 15).
58. Hamilər Şurasının 1901-ci il 22 aprel tarixli iclasından məlumat verilir (bax: sənəd № 27).
59. Məktəbin müəllimləri vəzifəsinə namizədlər haqqında məlumat verilir (bax: sənəd № 31).
60. Bu cür inisial altında öz məqalələrində Əlimərdan bəy Topçubaşov imza atırdı.
61. *Aleksandr Nevski kilsəsi* – Bakıda 1888-1898-ci illərdə tikilən Qafqazda ən iri pravoslav kilsəsi. 1936-cı ildə dağıdılmışdır.
62. *Bakıya Gürcüstan ekzarxının gəlişi* – Kartli və Kaxetiya arxiyepiskopu, Gürcüstan ekzarxı Flavian 1898-ci il oktyabrında Aleksandr Nevski kilsəsini açmaq üçün Bakıda olmuşdur.
63. *Mərdəkan bağçılıq məktəbi* – 1896-cı ildə H. Z. A. Tağıyevin təşəbbüsü ilə açılmışdı. Məqsəd sənaye mərkəzi olan Bakının artan tələbatını təmin etmək üçün məhsuldarlığı artırmaq, kəndliləri təsərrüfatın səmərəli üsulla aparılmasına yiyələndirmək idi. H. Z. A. Tağıyev hərəsi 40 nəfərlik iki sinif otağından, müəllimlər otağından, kitabxanadan,

təcrübələr aparmaq üçün 10 desyatin torpaq sahəsindən ibarət tədris korpusu inşa etdirdi. Məktəbin binasına 31240 rubl xərclənmiş və ildə 5000 rubl sərf olunurdu.

Hal-hazırda burada H. Z. A. Tağıyev adına 123 №-li məktəb yerləşir.

64. *Peterburq Xeyriyyə Cəmiyyəti* – 1898-ci ildə yaradılmışdır. Cəmiyyətin məqsədi yoxsul müsəlmanlara yardım etmək, ehtiyacı olan şagirdlərə orta və ali məktəblərə daxil olmaq və təhsillərini davam etdirməkdə kömək göstərmək idi. H. Z. A. Tağıyev cəmiyyətin yaradıcılarından biri olmuş, onun şurasının fəxri üzvü seçilmişdi. O, müəssisənin fonduna toxunulmaz kapital kimi 51 min rubl köçürmüş və cəmiyyətin maliyyə bazasının möhkəmləndirilməsi üçün xeyli işlər görmüşdür.
65. *Bakı Kommersiya məktəbi* – H. Z. A. Tağıyev 1900-cü ildə məktəbin açılması məsələsini qaldırdı, bina üçün yer aldı, 1901-ci ildə isə tədris müəssisəsinin ehtiyaclarına 50 min rubl ayırdı. O, 1910-cu ildə həmin məktəbin fəxri hamisi oldu.

    Hal-hazırda məktəbin binasında Azərbaycan Dövlət Pedaqoji Universiteti yerləşir.
66. *"Qafqaz"* – 1846-1918-ci illərdə Tiflisdə nəşr olunan özəl qəzet.
67. *Əhməd bəy Ağayev* (1869-1939) - ictimai-siyasi xadim, publisist, alim. Parisdə hüquq məktəbini və Sorbonna Universitetini bitirmişdir. Onun təhsilinə H. Z. A. Tağıyev maliyyə yardımı göstərmişdir. Azərbaycana qayıtdıqdan sonra bir müddət Şuşada işləmişdir. 1897-ci ildə H. Z. A. Tağıyevin dəvəti ilə Bakıya gələrək, "Kaspi" qəzetində əməkdaşlıq etmiş, qəzetin ədəbi şöbəsinin müdiri olmuşdur. "Kaspi"də dərc etdirdiyi silsilə məqalələrində Ə. Ağayev müsəlman xalqlarının düşdüyü acınacaqlı vəziyyəti təhlil edir, bunun səbəblərini göstərirdi. 1906-cı ildə ilk milli siyasi təşkilatlardan biri olan "Difai" partiyasını yaratmışdı.
68. *Axund Əbdüssəlam Axundzadə* (?-1907) – din xadimi, maarifçi. 1880-1894-cü Zaqafqaziya seminariyasının Azərbaycan şöbəsində şəriət müəllimi olub. 1894-1907-ci illərdə Cənubi Qafqaz müsəlmanlarının şeyxülislamı vəzifəsini icra edib. Dinə və şəriətə dair bir sıra elmi əsərlərin müəllifidir.
69. *Mirzə Hüseyn Əfəndi Qayıbov* (1830-1917) – din xadimi, alim, maarifçi. M. F. Axundzadə ilə birlikdə Qori seminariyasında Azərbaycan şöbəsinin yaradılması üçün böyük əmək sərf etmiş və burada şərq dillərini tədris etmişdir. 1881-1917-ci illərdə Cənubi Qafqazın müftisi olub.
70. *İsmayıl bəy Qasprinski* (1851-1914) – Krım tatar publisisti, pedaqoq, ictimai xadim, Rusiyada türkçülük, maarifçilik hərəkatının görkəmli

xadimlərindən biri. Bağçasarayda çıxan "Tərcüman" qəzetinin naşiri olmuş, müsəlman məktəblərində yeni Avropa nümunəli "üsuli-cədid" təhsil sistemini yaratmışdır. "Tərcüman" qəzetinin yayılmasında yardımçı olan H. Z. A. Tağıyev onun Qafqazdakı abunə haqqını ödəyirdi.

71. *Mixail Nikolayeviç* (1832-1909) – böyük knyaz, imperator I Nikolayın dördüncü oğlu. 1863–1881-ci illərdə Qafqaz canişini. 1881–1905-ci illərdə Dövlət Şurasının sədri.
72. *"Qafqazın carçısı"* – 1900-1904-cü illərdə Tiflisdə çıxan aylıq elmi-ədəbi jurnal.
73. H. Z. A. Tağıyevin varlanması mövzusu hələ onun sağlığında böyük maraq doğurmuş və bu gün də çoxlarını maraqlandırmaqdadır. Lakin o vaxt da, indi də bəzi müəlliflər burada müəyyən təsadüfün axtarışına meyl göstərirlər ki, bu da H. Z. A. Tağıyevin "palçıqçıdan milyonçuya" qədər keçdiyi uzun bir yolu bəsitləşdirir. Bu cür mülahizələrin əsasını belə bir populyar versiya təşkil edir ki, H. Z. A. Tağıyev 1873-cü ildə torpaq sahəsi alır, lakin oradan uzun müddət neft çıxmır. H. Z. A. Tağıyev inadla işləri davam etdirir və 1878-ci ildə çoxdan gözlənilən fontan neft vurur.

    Bu maraqlı tarixçə həqiqətə uyğundur və H. Z. A. Tağıyevin bioqrafları (o cümlədən, N. Nərimanov və 1903-cü ildə çapdan çıxan "H. Z. A. Tağıyevin tərcümeyi-halı"nın anonim müəllifi) tərəfindən də təsdiqlənir. Lakin onlar heç də H. Z. A. Tağıyevin yalnız 1878-ci ildə sahibkar olduğunu bildirmirdilər. Məlumdur ki, o, hələ XIX yüzilliyin 50-60-cı illərində müəyyən kapitala sahib olmuş, ticarət əməliyyatları aparmış, 1870-ci ildə isə kiçik ağ neft zavoduna malik olmuşdur. Bundan başqa H. Z. A. Tağıyev "Соучастники" ("Şəriklər") səhmdar cəmiyyətinin payçısı kimi 1872-ci ildə neft sənayesində iltizam sisteminin ləğvindən sonra keçirilən ilk müzayiqələrdə iştirak etmişdir. Bu faktlar H. Z. A. Tağıyevin 1873-cü ildə neft sahəsinin icarəsinə qədər artıq zəngin adam olduğunu və göründüyü kimi, heç də xoşbəxt təsadüf nəticəsində varlanmadığını göstərir. Bundan başqa H. Z. A. Tağıyevin məhz böyük (nəhəng olmasa da) var-dövlətə malik olması ona öz vəsaiti hesabına Bakıya su kəməri çəkdirməyə imkan vermişdir ki, buna görə Hacı 1874-cü ilin aprelində "Səyinə görə" yazısı olan və Stanislav lentində boyundan asılan gümüş medalla təltif edilmişdir (H. Z. A. Tağıyevin xeyriyyəçilik fəaliyyətində ilk məlum fakt).
74. Qərarın üzərində əllə (M. R. Zavadskinin xəttinə oxşayır) yazılıb ki, yalnız K. P. Yanovskinin və H. Z. A. Tağıyevin portretləri asılsın. H.

Z. A. Tağıyevin portreti məktəbin akt zalında qoyulmuşdur. "İşıq" qəzetinin 1911-ci il nömrələrinin birində yazılır ki, Hacı bəzi rəsmi şəxslərlə birgə məktəbə gəlib şagirdləri Novruz bayramı münasibətilə təbrik etmişlər. Vidalaşıb gedərkən H. Z. A. Tağıyev "birdən-birə dala qayıdıb məclisdə qalan müsəlmanları böyük zala dəvət etdirib orada özünün boyu bərabəri mükəmməl bir müzəyyən çarçübə içərisindəki əksinə göstərdi və dedi ki:

- Övladlarım! Bənim bu əksimə bir diqqət ilə baxın, görün orada nə görürsünüz?

Camaat şükür ilə təsvirə tamaşa edərkən həştad sinnində pir mümtəhən Hacı həzrətləri buyurdular ki:

- Övladlarım! Görürsünüzmü ki, bənim sağ əlim dini-islamın rükni və madəri-iftixarı olan Qurani-əzimin üstündədir və sol əlimdə tutduğum isə qəzetədir. Övladlarım! Bənim sizə axırıncı nəsihətim budur ki, bu Quran həmişə sağ, qəzetəyi isə sol əlinizdə dudub millətə sidq və sədaqət ilə xidmət edəsiniz!"

75. İran şahı Müzəffərəddin şah 1902-ci ilin sentyabrında Bakıda səfərdə olmuşdur.
76. 1904-cü ildə H. Z. A. Tağıyev özünün Bakıdakı pambıq parça məhsulları istehsal edən fabriki nəzdində fəhlələrin uşaqları üçün ibtidai məktəb açdırmışdı. Burada həmçinin yaxın kəndlərin yoxsul balaları da təhsil alırdılar. Naməlum səbəblərdən məktəbə Müzəfərrəddin şahın adı verilməmişdir.
77. *Rəhilə Terequlova (Hacıbababəyova)* (1881-1954) – pedaqoq, maarif xadimi. Tiflisdə Müqəddəs Nina qız məktəbini bitirmiş, pedaqoji fəaliyyətə Aleksandrinski qız məktəbində başlamışdır. 1910-cu ildə Bakıda açılan III şəhər rus-müsəlman qız məktəbinin müdiri təyin olunmuşdur. Sovet hakimiyyəti illərində bir sıra məktəblərdə, savad kurslarında dərs demişdir.
